# ELMİ İŞ

Beynəlxalq elmi jurnal

# SCIENTIFIC WORK

International scientific journal

www.aem.az

AEM

ISSN: 2663-4619
e-ISSN: 2708-986X

**AZƏRBAYCAN RESPUBLİKASI**

---

**THE REPUBLIC OF AZERBAIJAN**

# ELMİ İŞ

**Beynəlxalq elmi jurnal**
**İmpakt Faktor: 1.790**

**Cild: 16 Sayı: 11**

# SCIENTIFIC WORK

**International scientific journal**
**Impact Factor: 1.790**

**Volume: 16 Issue: 11**

**Bakı – Baku**
**2022**

Jurnal 25.04.2007-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.
Reyestr № 2212

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan
on 04.07.2019.
Registration No. 4243

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
AZ1073, Baku,
Matbuat avenue, 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 809 67 68
+994 12 510 63 99

**E-mail**
elmmerkezi@aem.az

## Beynəlxalq indekslər / International indices

ISSN: 2663-4619
e-ISSN: 2708-986X
DOI: 10.36719

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessaryto use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

**Təsisçi və baş redaktor**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Founder and Editor-in-Chief**

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Redaktor**

**Prof. Dr. Mahirə Hüseynova**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
huseynova.mahira@yandex.ru

**Editor**

**Prof. Dr. Mahira Huseynova**, Azerbaijan State Pedagogical University / Azerbaijan
huseynova.mahira@yandex.ru

**Redaktor köməkçisi**

**Tədqiqatçı Gülnar ƏLİYEVA**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
gulnar.musayeva1982@gmail.com

**Assistant editor**

**Researcher Gulnar ALIYEVA**, Azerbaijan Science Center / Azerbaijan
gulnar.musayeva1982@gmail.com

**Dillər üzrə redaktorlar**

**Prof. Dr. Abbas ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Nəriman SEYİDƏLİYEV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan

**Language editors**

**Prof. Dr. Abbas ABBASOV**, Baku State University/ Azerbaijan
**Assoc. Prof. Dr. Nariman SEYIDALIYEV**, ANAS Institute of Linguistics / Azerbaijan

**Elmi sahələr üzrə redaktorlar**

**Assoc. Prof. Dr. İlham MƏMMƏDLİ**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Zahid MƏMMƏDOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rövşən VƏLİYEV**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Rəfail HƏSƏNOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Həbibə ALLAHVERDİYEVA**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Elza ORUCOVA**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Akif AĞBABALI**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Əlövsət QULİYEV**, AMEATorpaqşünaslıq və Aqrokimya İnstitutu / Azərbaycan
**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yaşar MEHRƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan

**Editors in scientific fields**

**Assoc. Prof. Dr. Ilham MAMMADLI**, ANAS Institute of Literature / Azerbaijan
**Prof. Dr. Amir ALIYEV**, Baku State University/ Azerbaijan
**Prof. Dr. Irada HUSEYNOVA**, Baku State University/ Azerbaijan

**Prof. Dr. Zahid MAMMADOV**, Azerbaijan State Economic University / Azerbaijan
**Assoc. Prof. Dr. Rovshan VALIYEV**, Nakhchivan Institute of Teachers / Azerbaijan
**Assoc. Prof. Dr. Rafail HASANOV**, Baku State University/ Azerbaijan
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University/ Azerbaijan
**Assoc. Prof. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan Institute of Teachers / Azerbaijan
**Assoc. Prof. Dr. Elza ORUJOVA**, Azerbaijan Medical University/ Azerbaijan
**Assoc. Prof. Dr. Akif AGHBABALI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Alovsat GULIYEV**, ANAS Institute of Soil Science and Agrochemistry/ Azerbaijan
**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yashar MEHRALIYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University/ Azerbaijan

## REDAKSİYAHEYƏTİ

### Humanitar və ictimai elmlər bölməsi

**Prof. Dr. Möhsün NAĞISOYLU**, AMEA / Azərbaycan
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Juliboy ELTAZAROV**, "İpək Yolu" Beynəlxalq Turizm və Mədəni İrs Universiteti / Özbəkistan
**Prof. Dr. Mehmet YÜCE**, Bursa Uludağ Universiteti / Türkiyə
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin "İqor Sikorski adına Kiyev Politexnik İnstitutu" / Ukrayna
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEADilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. İzzət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Şirindil ALIŞANOV**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Anar İSGƏNDƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Boris KAYQORODOV**, Həştərxan Dövlət Universiteti / Rusiya
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. Rüfət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Firuzə ABBASOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**Prof. Dr. Məhəbbət DƏMİRÇİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Nigar VƏLİYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Masumə DAEİ**, Təbriz Payame Noor Universiteti / İran İslam Respublikası
**Prof. Dr. Elşad MİRBƏŞİROĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Məhərrəm MƏMMƏDLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Şikar QASIMOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Assoc. Prof. Dr. Aqil ŞİRİNOV**, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Ziyadxan ƏLİYEV**, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aydan XƏNDAN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elçin BAYRAMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assos. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Dr. Aqşin ƏLİYEV**, Pekin Xarici Dillər Universiteti / Çin
**Dr. Rövşən RAMİZOĞLU**, Səlcuq Universiteti / Türkiyə

### Təbiət elmləri bölməsi

**Prof. Dr. Vaqif ABBASOV**, AMEANeft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Georgi DUKA**, Moldova Elmlər Akademiyası / Moldova
**Prof. Dr. Məsud AŞİNA**, Kopenhagen Universiteti / Danimarka
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Mehmet KARATAŞ**, Necmettin Erbakan Universiteti / Türkiyə
**Prof. Dr. İbrahim CƏFƏROV**, AMEA/ Azərbaycan
**Prof. Dr. Elşad QURBANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Mətanət ƏFƏNDİYEVA**, Milli İdman Tibbi və Reabilitasiya İnstitutu / Rusiya
**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Duyğu KILIÇ**, Amasya Universiteti / Türkiyə
**Prof. Dr. Nuran ABDULLAYEV**, Köln Universiteti / Almaniya
**Prof. Dr. Afət MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Zöhrab QARAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan

**Prof. Dr. Şahanə HÜSEYNOVA**, Berlin Texniki Universiteti / Almaniya
**Prof. Dr. İbrahim MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. İlham KAZIMOV**, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi / Azərbaycan
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Assoc. Prof. Dr. Bilal BÜŞRA**, Ali Cinnah Universiteti / Pakistan İslam Respublikası
**Assoc. Prof. Dr. Fuad KƏRİMLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Məhiyəddin MEHDİYEV**, Mingəçevir Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
**Dr. Asif MANAFOV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Dr. Fuad RZAYEV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan

**Dəqiq elmlər bölməsi**

**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Məsud ƏFƏNDİYEV**, "Helmholtz" Elmi-Tədqiqat Mərkəzi / Almaniya
**Prof. Dr. Qərib MÜRŞÜDOV**, Molekulyar Biologiya tədqiqat İnstitutu / Böyük Britaniya
**Prof. Dr. Arzu SƏRDARLI**, Kanada Birinci Millətlər Universiteti / Kanada
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Yalçın ƏFƏNDİYEV**, Texas A&M Universiteti / ABŞ
**Prof. Dr. Həmzəağa ORUCOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Yusif ŞÜKÜRLÜ**, AMEA Şəki Regional Elmi Mərkəzi / Azərbaycan

**Texnika elmləri bölməsi**

**Prof. Dr. Əminağa SADIQOV**, AMEA İdarəçilik Sistemləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Xəlil KƏLƏNTƏR**, Tohoku Universiteti / Yaponiya
**Prof. Dr. Qərib CƏLALOV**, AMEA Geologiya və Geofizika İnstitutu / Azərbaycan
**Prof. Dr. Şahnaz ŞAHBAZOVA**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Metroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Prof. Dr. Yasin RÜSTƏMOV**, AMEATorpaqşünaslıq və Aqrokimya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan

**EDITORIAL BOARD**

**Humanities and social sciences section**

**Prof. Dr. Mohsun NAGHISOYLU**, ANAS / Azerbaijan
**Prof. Dr. Nadir ILHAN**, Ahi Evran University/ Turkey
**Prof. Dr. Jeyran MAHMUDOVA**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Juliboy ELTAZAROV**, «Silk Road» International University of Tourism and Cultural heritage / Uzbekistan
**Prof. Dr. Mehmet YUJE**, Bursa Uludagh University / Turkey
**Prof. Dr. Irina KREYDICH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Izzet RUSTAMOV**, Baku State University/ Azerbaijan
**Prof. Dr. Shirindil ALISHANOV**, Institute of Literature of ANAS / Azerbaijan
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy/ Ukraine
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Anar ISGANDAROV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Boris KAYGORODOV**, Astrakhan State University / Russia
**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Rufat RUSTAMOV**, Baku State University/ Azerbaijan
**Prof. Dr. Firuza ABBASOVA**, Baku State University/ Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA,** Tashkent State University of Uzbek Language and Literature / Uzbekistan
**Prof. Dr. Mahabbat DAMIRCHIYEVA**, Baku State University/ Azerbaijan
**Prof. Dr. Nigar VALIYEVA**, Azerbaijan University of Languages / Azerbaijan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University/ Kazakhstan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University of Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan

**Prof. Dr. Maharram MAMMADLI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering **/** Russia
**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University/ Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University/ Georgia
**Assoc. Prof. Dr. Agil SHIRINOV**, Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Ziyadkhan ALIYEV**, Azerbaijan State Art Academy / Azerbaijan
**Assoc. Prof. Dr. Khatira HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aydan KHANDAN**, Baku State University/ Azerbaijan
**Assoc. Prof. Dr. ElchinBAYRAMOV**, Baku State University / Azerbaijan
**Assos. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Dr. Agshin ALIYEV**, Beijing Foreign Studies University / The Republic of Chine
**Dr. Rovshan RAMIZOGHLU**, Seljuk University / Turkey

**Natural sciences section**

**Prof. Dr. Vagif ABBASOV**, Institute of Petrochemical Processes of ANAS / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University/ Turkey
**Prof. Dr. Georgi DUKA**, Moldova Academy of Sciences / Moldova
**Prof. Dr. Masud ASHINA**, Universityof Copenhagen / Denmark
**Prof. Dr. Nikolay BRIKO**, First Moscow State Medical Universitynamed after I.M.Sechenov / Russia
**Prof. Dr. Mehmet KARATASH**, Nejmettin Erbakan University / Turkey
**Prof. Dr. Ibrahim JAFAROV**, ANAS / Azerbaijan
**Prof. Dr. Elshad GURBANOV**, Baku State University/ Azerbaijan
**Prof. Dr. Matanat AFANDIYEVA**, National Institute of Sports Medicine and Rehabilitation / Russia
**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University/ Azerbaijan
**Prof. Dr. Duygu KILICH**, Amasya University/ Turkey
**Prof. Dr. Nuran ABDULLAYEV**, University of Cologne / Germany
**Prof. Dr. Afat MAMMADOVA**, Baku State University/ Azerbaijan
**Prof. Dr. Zohrab GARAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Shahana HUSEYNOVA**, Technical University of Berlin / Germany
**Prof. Dr. Ibrahim MAMMADOV**, Baku State University/ Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University/ Turkey
**Prof. Dr. Ilham KAZIMOV**, Scientific Surgery Center named after M.Topchubashov / Azerbaijan
**Prof. Dr. Rajesh KUMAR**, Ministryof Textiles, Central Silk Office / India
**Prof. Dr. David MENABDE**, Kutaisi State University/ Georgia
**Prof. Ali AZGANI**, Universityof Texas at Tayler / USA
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University/ Azerbaijan
**Assoc. Prof. Dr. Bilal BUSRA**, Ali Jinnah University/ The Islamic Republic of Pakistan
**Assoc. Prof. Dr. Fuad KERIMLI**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahiyaddin MEHDIYEV**, Mingachevir State University/ Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University/ Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA**, Beloserkovsk National Agrarian University / Ukraine
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan
**Dr. Fuad RZAYEV**, Zoology Institute of ANAS / Azerbaijan

**Exact sciences section**

**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Masud AFANDIYEV**, «Helmholtz» Scientific Research Center / Germany
**Prof. Dr. Garib MURSHUDOV**, Research Institute of Molecular Biology / Great Britain
**Prof. Dr. Arzu SARDARLI**, First Nations Universityof Canada / Canada
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University/ Ukraine
**Prof. Dr. Yalchin AFANDIYEV**, The University of Texas at Austin / USA
**Prof. Dr. Hamzaagha ORUJOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University/ Azerbaijan
**Prof. Dr. Maarif JAFAROV**, Baku State University/ Azerbaijan
**Assoc. Prof. Dr. Yusif SHUKURLU**, Shaki Regional Scientific Center of ANAS / Azerbaijan

**Technical sciences section**

**Prof. Dr. Aminagha SADIGOV**, Institute of Management Systems of ANAS / Azerbaijan
**Prof. Dr. Khalil KALANTAR**, Tohoku University/ Japan
**Prof. Dr. Garib JALALOV**, Institute of Geology and Geophysics of ANAS / Azerbaijan
**Prof. Dr. Shahnaz SHAHBAZOVA**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Valeriy LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Prof. Dr. Yasin RUSTAMOV**, Institute of Soil Science and Agrochemistry of ANAS **/** Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan

ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 1.790. 2022 / Cild: 16 Sayı: 11 / 7-15 ISSN: 2663-4619
SCIENTIFIC WORK International scientific journal. Impact Factor: 1.790. 2022 / Volume: 16 Issue: 11 / 7-15 e-ISSN: 2708-986X

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

DOI: https://doi.org/10.36719/2663-4619/84/7-15

**Eldar Arif oğlu Cəfərov**
Bakı Dövlət Universiteti
siyasi elmlər üzrə fəlsəfə doktoru
eldarjafarov@bsu.edu.az
**İlahə Sadiq qızı İsmayılova**
Bakı Dövlət Universiteti
ilaha.ismayilova.sadiq@bsu.edu.az

# MƏDƏNİYYƏTLƏRARASI MÜNASİBƏTLƏRDƏ DİN AMİLİ (VATİKANIN XARİCİ SİYASƏTİ ƏSASINDA)

**Xülasə**

Tarixən mədəniyyətlərin inkişafına istiqamət vermiş, etnik qrupların formalaşmasında və dövlətlərarası münasibətlərin inkişafında iştirak etmiş din amilinin mədəniyyətlərarası münasibətlərdə rolu danılmazdır. Din anlayışından əlavə dini məzhəblər, xüsusilə də, katolik məzhəbi (Katolik kilsəsi) bu baxımdan xüsusi vurğulanmalıdır. Teokratik dövlət kimi Vatikan XXI əsrdə də mövcudluğunu qoruyur və mədəniyyətlərarası münasibətlərin və beynəlxalq mnasibətlərin kritik oyunçularından biri kimi çıxış edir. Vatikan və ayrı-ayrı papalar mədəniyyətlərarası münasibətlərə hər zaman xüsusi önəm vermiş və ondan özünün yumşaq güc vasitəsi kimi məharətlə istifadə edir.

***Açar sözlər:*** *mədəniyyətlərarası münasibətlər, sivilizasiyalararası dialoq, dinlərarası dialoq, Vatikan, Katolik kilsəsi, Papalıq, Müqəddəs taxt-tac*

**Eldar Arif Jafarov**
**Ilaha Sadig Ismayilova**

# Religious factor in intercultural relations (Based on the foreign policy of the Vatican)

**Abstract**

Historically, the role of the religious factor in intercultural relations, which has guided the development of cultures, participated in the formation of ethnic groups and the development of interstate relations, is undeniable. In addition to the concept of religion, religious sects, especially the Catholic sect (Catholic church) should be emphasized in this regard. As a theocratic state, the Vatican maintains its presence in the 21st century and acts as one of the critical players of intercultural relations and international relations. The Vatican and individual popes have always attached special importance to intercultural relations and skillfully use it as a tooloftheir soft power.

***Keywords:*** *intercultural relations, dialogue of civilizations, interreligious dialogue, Vatican, Catholic church, Papacy, The holy throne*

## Giriş

Mədəniyyətlərarası münasibətlərin əsas məqsədi fərqli mədəniyyətlərin bir-birilə əlaqələrdə qarşılıqlı məna yaratmaqdır. Bu, müxtəlif mədəni qruplardan olan insanların bir-birini qavramasına və anlamasına və stereotipləri yıxmağa, mədəni fərqlər haqqında bilikləri artırmağa imkan verən bir mexanizm kimi çıxış edir. Bu baxımdan din və mədəniyyət anlayışları bir-birilə bağlıdır və tarixin gedişində dinin sosial və əxlaqi normalar toplusu kimi cəmiyyətin vərdiş və adətlərini formalaşdırması nəticəsində mədəniyyətin də transformasiyası təmin edilmişdir. Məhz bu səbəbdən

tarixi formalaşdıran müharibələrdən tutmuş danışılan dilə və mental dəyərlərə qədər həyatın insan olan istənilən sferasında dinin izlərini görmək mümkündür.

Vatikan bu baxımdan xüsusilə fərqlənməkdədir. Çünki Vatikan müasir dünyanın ən inkişaf etmiş regionlarından birində yerləşən, hakimiyyətin bütün növlərinin papanın müstəsna səlahiyyətində olduğu mütləq teokratik monarxiya olub müasir dünyanın demokratiya, insan hüquq və azadlıqları, multikulturalizm, mədəniyyətlərarası və dinlərarası dialoq formatları sahəsində ən ümdə carçılarından biri kimi çıxış etməkdədir. Bu məsələ onun xarici siyasətinin prinsiplərindəndir.

**“Vatikan”, “Müqəddəs Taxt-Tac” və “Papalıq” anlayışları**

Vatikanın xarici siyasətinə keçməzdən əvvəl bir-birilə tez-tez qarışdırılan “Vatikan”, “Papalıq” və “Müqəddəs Taxt-Tac” anlayışlarını anlamaq lazımdır. Müqəddəs Taxt-tac Katolik kilsəsinin hökuməti və Vatikan şəhərini idarə edən suveren qurum və beynəlxalq hüquq subyektidir (Ələkbərli, 2014).

Katolikliyin tarixi Müqəddəs Pyotrla başlayır. Onun əsl adı Simon və ya Simeon olub. Bu adlar iki ayrı dildə olub ilki yunanca, ikincisi isə ivrit dilindədir və o dönəmdə Qalileya və Qolan təpələrində hər iki dildə danışılırdı. Balıqçı idi və qardaşının vaftizçi müəllimi sayəsində İsa ilə tanışmağa müvəffəq olmuşdu. O, ilk həvari və ilk Roma Papasıdır. Matta Bibliyasına görə, İsa Keyseriyada ona “...sən Pyotrsan və mən bu qayanın üzərinə Kilsəmi inşa edəcəyəm... Göylərin açarını sənə verəcəyəm” − demişdir (Norvich, 2014:18). Hələ bu dövrdən xristian din xadimləri siyasətlə məşğul olmuşlar.

Vatikan şəhərinin adının qədim tarixi olub, Qədim Romada Tiber çayının qərb-sağ sahili Vatikan adlanırdı və bugün həmin ərazidə Müqəddəs Pyotr meydanı yerləşir. Vatikanın müasir dövlətçiliyinin təməlləri frankların kralı Gödək Pipin İtaliyanın hazırki paytaxtı və ətrafını Papa II Stefana bağışlamasından sonra 756-cı ildə başlamışdır. Səbəb isə Merovinq kralı Hilderikin 751-ci ildə taxtdan salınmasında kilsənin rolu idi və bu siyasi gücün həddini göstərirdi. Bununla da, Papalıq dövləti yaranmış və 1870-ci ilə qədər mövcud olmuşdur. Pyemont rəhbərliyində İtaliyanın birləşmiş qüvvələrinin Romanı tutması ilə mövcudluğuna son qoyulmuş və 1861-1929-cu illərdə “Roma problemi” olaraq adlanan dönəm yaşanmışdır (Tumas, 2017:114). 1929-cu il 11 fevral tarixində İtaliya Kralı III Viktor Emanuelin adından Baş nazir Benito Mussolini və Papa XI Piy adından dövlət katibi Pietro Qasparri “Lateran” sazişini imzaladılar və beləliklə, İtaliya rəsmi olaraq Müqəddəs Taxt-tacın Vatikan üzərində hakimiyyətini və suverenliyini tanıdı. Yarandığı ilk gündən kilsə siyasətdə rol oynayıb. Kilsə böyüyüb genişləndikcə siyasi gücü də artdı. Onun siyasətini anlamaq üçün onun idarəolunma və qərar qəbuletmə mexanizmlərini anlamaq lazımdır (2017).

**Vatikanın xarici siyasətini müəyyən edən orqanlar**

Vatikan teokratik, mütləq və seçkili monarxiyadır. Yurisdikasiyası ruhani-Katolik rəhbərliyinin (1.3 milyard vaftiz olunmuş şəxs vardır) digər dini və dünyəvi qurumlardan üstün olmasını şərtləndirir. Vatikanın xarici siyasətini Müqəddəs Taxt-Tac həyata keçirir. Onun xarici siyasətini isə müəyyənləşdirən əsas orqan Roma Papasıdır. Roma Pontifi də adlanan Papa Katolik kilsəsinin rəhbəri və Vatikan Şəhər Dövlətinin dövlət başçısıdır. O, hakimiyyətin bütün qollarının − qanunverici, icraedici və məhkəmə hakimiyyətini həyata keçirən ali orqandır. O, Kardinallar Kollegiyası tərəfindən ömürlük seçilməktədir. Papanın seçilməsi ilə əlaqədar olaraq keçirilən yığıncaq Konklav adlanır və XIII əsrdən eyni qaydada həyata keçirilir. Kardinallar Kollegiyasına Vatikandakı bütün kardinallar daxil olsa da, Kardinal Seçicilərin maksimal sayısı 120 nəfərdir və 1975-ci ildən etibarən yaşı 80-dən yuxarı olan kardinallar Konklavda iştirakdan kənarlaşdırılmışdır. Konklava nəzarət Kardinallar Kollegiyasının Dekanı tərəfindən həyata keçirilir. Dekanın yaşı 80-dən çoxdursa bu zaman ən böyük Kardinal bu vəzifəni həyata keçirir. O, Sikstin Kapellasında gündə dörd dəfə keçirilən gizli səsverməyə nəzarət etməlidir. Konklav zamanı kardinalların Vatikandan kənar heç bir əlaqəsinə icazə verilmir. Əslində vaftiz edilmiş hər bir katolik kişi Papa seçilə bilər. Praktikada isə bu yoxdur və kardinallardan biri Papa seçilir. Konklav zamanı seçicilərin 2/3-nün səs çoxluğu olmalıdır. II İohann Pavel qaydaları sadə çoxluqla əvəz etmişdi. Yeni Papa seçilənədək tibbi zərurət yoxdursa, kardinallar Sikstin Kapellasında səs verir, yeyir və yatırlar. Xarici heç bir əlaqə vasitəsinə icazə verilmir və səsvermə ritualları həyata keçirilir. Üç günlük səsvermə sonrası Papa seçilməzsə bir

günlük ara verilir və bu zaman daxildə baş verənlərlə bağlı tək siqnal bülletenlərin yandırılması nəticəsində çıxan tüstüdür. Qara tüstü Papa seçilməsinin uğursuz olduğunu, ağ tüstü isə yeni Papanın uğurla seçildiyini göstərir. Ali Papa kanonik seçkini qəbul etdiyini bildirdikdən və yeni ad qəbul etdikdən sonra o elan edilir. O çox nadir də olsa, yalnız könüllü surətdə olmaqla istefa verə bilər. 1415-ci ildə XII Qreqoridən bu yana istefa verən ilk papa XVI Benediktdir. Onun səlahiyyətlərinə daxildir:

1. Vatikanda icra hakimiyyətini Vatikan Şəhər Dövləti üzrə Pontifik Komissiyanın Prezidentinə həvalə edir. Prezident Papanın məşvərətçi qurumu olan Dövlət Katibinə hesabat verir. Prezident Papa tərəfindən 5 il müddətinə seçilir və istənilən vaxt vəzifədən onun tərəfindən kənarlaşdırıla bilər.
2. Qanunverici hakimiyyəti Vatikan Şəhər Dövləti üzrə Pontifik Komissiyaya həvalə edir. Komissiyanın 6 kardinalını da 5 illik vəzifəyə təyin və vəzifədən azad edir. Komissiya qərar və qaydalarını Dövlət Katibliyi tərəfindən Papaya təqdim edilir.
3. Apostol Siqnatura Ali Tribunalının Prefekti vasitəsilə məhkəmə hakimiyyətini həyata keçirir.
4. Apostol Konstitusiyasını müəyyən edir. Hazırda 1988-ci ildə II İohann Pavel tərəfindən elan edilən "Pastor bonus" konstitusiyası fəaliyyətdədir və onu Papa Fransiskin 2022-ci ilin 5 iyun tarixində qüvvəyə minəcək olan "Praedicate evangelium" əvəzləyəcək. Konstitusiya Roma Kuriyasının strukturunu və fəaliyyətini tənzimləyir.
5. Müqəddəs Taxt-Tacın digər dövlətlərdəki nümayəndələrini- apostol nunsiləri (Diplomatik əlaqələr haqqında Vyana Konvensiyasının 14 və 16-cı maddələrilə onlar səfirlərə bərabər tutulmuşdur) təyin edir və geri çağırır.
6. Kardinal Kollegiyasının kardinallarını təyin edir. Onlar ömürlük seçilirlər və Papanın ölməsi və ya istefa verməsi zamanı "Sede Vacante", yeni Papa seçilənədək keçən zaman- onlar Müqəddəs Taxt-Tacı idarə edirlər;
7. Konkordatları imzalayır və bu səlahiyyəti verir. Konkordat Müqəddəs Taxt-Tacla ölkələr arasında Katolik Kilsəsinin stausunu müəyyən edən müqavilələrdir.
8. Vatikan şəhər dövlətinin dövlət başçısı kimi ölkəyə akkreditə olunan diplomatik nümayəndələrin başçılarını qəbul edir.
9. Vatikan şəhərinin Jandarm Korpusunun rəhbərini vəzifəyə təyin və vəzifədən azad edir. Bu korpus Vatikan şəhərini və ondan kənarda yerləşən Müqəddəs Taxt-Tac mülklərini müdafiə edir. Pontifik İsveçrə qvardiyası isə Papanın təhlükəsizliyindən məsuldur.
10. Onun fəaliyyətinin hər ilində Katolik kilsəsinin "Papalıq İlliyi" adlı illik kataloqu yayımlanır.O, xronoloji ardıcıllıqla papalar və Müqəddəs Taxt-Tacın departamentlərinin bütün rəsmilərini sadalayır. O, həmçinin bütün kardinallar və yepiskoplar, yeparxiyalar, Roma Kuriyasının departamentləri, Müqəddəs Taxt-Tacın xaricdəki diplomatik nümayəndəlikləri, Müqəddəs Taxt-Taxca akkreditə olunmuş səfirliklər, dini institutların qərargahları üçün adlar və əlaqə məlumatlarını təqdim edir. Yenidən hər biri üzrə statistik məlumatlar, akademik qurumlar və digər oxşar məlumatlar qeyd olunmaqla yanaşı, həm də Papa tərəfindən "Monsenyor" titulu verilmiş bütün keşişlərin adları da burada qeyd olunur.
11. Liturgiyaya müəyyən dəşiyikliklər edir (6).

Roma Kuriyası XI əsrdən etibarən formalaşmağa başlamış Müqəddəs Taxt-Tac və Katolik Kilsəsinin siyasi, dini və ictimai-iqtisadi işlərini idarə edən Roma Papasına tabe olan müəssisələrdən ibarət inzibati aparatdır. Çoxsaylı dəyişikliklər və Papaların apostol konstitusiyalarının müəyyən etdiyi islahatlarla birgə bugünkü halı ilə tamamilə fərqli struktur və fəaliyyət istiqaməti vardır. Papanın Roma Kuriyasına təsir imkanlarının məhdudiyyəti yoxdur. Buraya 57 qurum daxildir və Yepiskop sinodu və dünyəvi zirvə toplantısından başqa xarici siyasəti müəyyən edən və ya ona təsir edən bütün digər əsas orqanlar buraya daxildir:

1. Katibliklər – Dövlət katibliyi, İqtisadiyyat katibliyi;
2. Konqreqasiyalar (Cəmma) – İman doktrinası üzrə konqreqasiya, Şərq kilsələri üzrə konqreqasiya, İlahi ibadət və müqəddəs mərasimlərin nizamı üzrə konqreqasiya, Müqəddəslərin səbəbləri üzrə konqreqasiya, Yepiskoplar üzrə konqreqasiya, Xalqların evangelizasiyası üzrə

konqreqasiya, Ruhanilər üzrə konqreqasiya, Katolik təhsili üzrə konqreqasiya, Müqəddəs həyat institutları və apostol həyatı cəmiyyətləri üzrə konqreqasiya;

3. Dikasteriyalar − Laiti, Ailə və Həyat üzrə Dikasteriya, Fundamental insan inkişafının təşviqi üzrə dikasteriya, Kommunikasiya üzrə Dikasteriya;

4. Tribunallar − Vatikanda 3 müxtəlif tribunal vardır. Apostol Siqnaturanın Ali Tribunalı, Roma Rotasının Tribunalı və Apostol Penitensiarı bu tribunallardır və ölkənin hüquqisistemini tənzimləyir;

5. Pontifik Şuralar − Xristian birliyini təşviq üzrə Pontifik Şura, Qanunvericilik mətnləri üzrə Pontifik Şura, Dinlərarası dialoq üzrə Pontifik Şura, Mədəniyyət üzrə Pontifik Şura, Yeni Evangelizasının təşviqi üzrə Pontifik Şura, İqtisadi Şura;

6. Pontifik Komissiyalar − Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiya, Pontifik Bibliya Komissiyası, Beynəlxalq İlahiyyat Komissiyası, Yetkinlik yaşına çatmayanların müdafiəsi üzrə Pontifik Komissiyası, Latın Amerikası üzrə Pontifik Komissiya;

7. Pontifik Komitələr − Beynəlxalq Evkaristiya üzrə Pontifik Komitə, Tarix elmləri üzrə Pontifik Komitə;

8. Ofislər − Baş auditor ofisi, Ali Papanın liturgiya bayramları ofisi, Papa Xeyriyyə ofisi, Apostol Taxt-Tac Əmək ofisi;

9. Akademiyalar − Pontifik Elmlər Akademiyası 1603-cü ildən tədqiqatların aparılması və təşviqi ilə məşğuldur, Pontifik Sosial Elmlər Akademiyası − Kilsə sosial dəyərləri əsasında sosial, siyasi, iqtisadi və hüquq elmlərinin inkişafını təbliğ edir, Həyat üzrə Pontifik Akademiyası Katolik həyatının etik dəyərlərinin təbliğ edilməsi ilə məşğuldur, Müqəddəs Tomas Akinas Pontifik Akademiyası − Tomas Akinasın ideologiyalarını təbliğ edir, Pontifik İlahiyyat Akademiyası − 1718-ci ildən Katolik inancını təbliğ edir, Virtuosi al Pantheon Pontifik İncəsənət və Ədəbiyyat Pontifik Akademiyası − 1542-ci ildən etibarən incəsənəti öyrənmək, inkişaf etdirmək və təkmilləşdirmək sahəsində fəaliyyət göstərir, Pontifik Roma Arxeologiya Akademiyası 1810-cu ildən etibarən xristian arxeologiyası və xristian irsini təbliğ edir, Pontifik Şəhidlər Akademiyası −1879-cu ildən etibarən xristian şəhidlərini və müqəddəs katakombaların öyrənilməsi ilə məşğul olur, Latın dili üzrə Pontifik Akademiya − 2012-ci ildə yaradılıb (ən yeni akademiyadır) və latın dilinin qorunması, yayılması və öyrənilməsi sahəsində fəaliyyət göstərir, Pontifik Kilsə Akademiyası, Pontifik Məryəm Akademiyası − İsa peyğəmbərin anası Müqəddəs Məryəm ana ilə bağlı elmi nəzəriyyələrin öyrənilməsi və tədqiqini aparır;

10. Apostol Kamera, Apostol Taxt-Tacının mirası idarəsi − Vatikan Bankının statusu və fəaliyyətinə nəzarət edir, Papa evi prefekti, İsveçrə qvardiyası, Kilsə universitetləri və fakültələrində keyfiyyətin qiymətləndirilməsi və təşviqi agentliyi, Nəzarət və Maliyyə Təşkilatı, Qüdsün Müqəddəs məqbərəsi ordeni, Dövlətlərlə Əlaqələr bölməsinin tarixi Arxivi, "Papanın Yüzüncü ili" Fondu, Pyotrun penniləri, Səhiyyə Sığorta Fondu, Papanın Dünya Dua Şəbəkəsi (7).

Dövlət Katibliyi XVI əsrdən yaranıb və Roma Kuriyasının ən qədim qurumudur. Katolik kilsəsinin bütün siyasi və diplomatik funksiyalarını həyata keçirir. Dövlət katibi anoloji olaraq Baş Nazir vəzifəsinə bərabər tutulur. Dövlət Katibliyi üç sektordan ibarətdir: Ümumi İşlər üzrə sektor, Dövlərlə əlaqələr üzrə sektor və 2017-ci ildən etibarən Papa Fransisk tərəfindən yaradılan Diplomatik heyət üzrə sektor.

Ümumi işlər üzrə sektor Kilsə işləri, Roma Kuriyasının departmentlərinin əlaqələndirilməsi, Papanın gündəlik rəsmi sənədlərinin hazırlanması, Müqəddəs Taxt-Taca akkreditə olunmuş bütün səfirliklərə aid hər bir məsələ ilə məşğul olmaqdadır. Vatikanın rəsmi rabitə agentlikləri və nəşrlərinə nəzarət edir. Ona ümumi işlər üzrə dövlət katibinin müavini, arxiyepiskop rəhbərlik edir.

Dövlətlərlə əlaqələr üzrə sektor mülki hökumətlərlə münasibətdə mövcud məsələləri həll etmək vəzifəsi daşıyır. Ona rəhbərliyi Dövlətlərlə əlaqələr üzrə katib həyata keçirir. Xarici İşlər Nazirliyinə ekvivalent orqan olub ona rəhbərliyi arxiyepiskop həyata keçirir. Onun səlahiyyətlərinə Müqəddəs Taxt-Tacın dövlətlərlə diplomatik münasibətləri, Konkordat və ya ona bərabər sazişlərin yaradılması, Müqəddəs Taxt-Tacın beynəlxalq təşkilat və konfraslarda iştirakı, bəzən Papa əmri və ya Kuriyanın səlahiyyətli departamentləri ilə məsləhətləşərək kilsələrə təyinat, yaradılması və ya dəyişdirilməsi,

Yepiskoplar Konqreqasiyası ilə sıx əmədaşlıq edərək beynəlxalq hüquq normalarına uyğun olaraq Müqəddəs Taxt-Tac ilə müqavilə və ya saziş imzalamış ölkələrə yepiskopların təyin edilməsi daxildir. Üçüncü sektor ən yeni yaradılmış olub ona rəhbərliyi Pontifik Nümayəndəliklər üzrə nümayəndə həyata keçirir. Diplomatik heyətə Dövlət Katibliyinin rəhbərlərinin və Roma Papasının yaxınlığını və diqqətini artırmaq məqsədi daşıyır. Bu sektor müstəsna olaraq Müqəddəs Taxt-Tacın diplomatik xidmətində çalışmaqda olan və yaxud buna hazırlaşan heyətlə bağlı məsələlərə, onların seçilməsi, formalaşdrılması, həyat və xidmət şəraiti, yüksəlişləri, icazələr kimi işlərlə məşğul olur. Digər sektorlarla sıx əlaqələr saxlayır və bu məqsədlə Dövlət katibinin iştirakı ilə həftəlik keçirilən əlaqələndirmə görüşlərində iştirak edir. Apostol nümayəndələrinin təyinatları ilə bağlı xüsusi iclaslar çağırır, həmçinin Pontifik Kilsə Akademiyasının prezidenti ilə birlikdə namizədlərin seçilib formalaşmasına cavabdehlik daşıyır (8).

Vatikanın diplomatik heyəti Pontifik Kilsə Akademiyasında formalaşdırılır. Akademiyanın yetirmələri Papa nümayəndələri və ya apostol nunsi olmaq üçün yetişdirilirlər.

İqtisadiyyat katibliyi 2014-cü ildən fəaliyyət göstərir və qlobal miqyasda Müqəddəs Taxt-Tac və Vatikan Şəhər Dövlətinin bütün iqtisadi fəaliyyətləri ilə bağlı səlahiyyətli qurumdur. Vatikanın mülkləri, gəlirləri və xərclərinə nəzarət etmək məqsədilə yaradılmışdır. Dövlət katibliyi tərəfindən 2013-cü ildə London şəhərində 350 milyon avroluq mülk alınmasından sonra formalaşdırılması sürətləndi.

Fundamental insan inkişafının təşviqi üzrə dikasteriya 2016-cı ildə formalaşdırılmışdır. Qurumun daxilinə Miqrantlar və Qaçqınlar bölməsi mövcuddur ki, bu qurumun əsas missiyası miqrasiya prosesləri ilə bağlı Kilsənin fəaliyyətinə yerli, regional və beynəlxalq səviyyədə dəstək verməkdir. Bölmənin fəaliyyət sahəsinə siyasi sığınacaq axtaran şəxslər, qaçqınlar, məcburi köçkünlər və digər növ yerli və beynəlxalq miqrantlar daxildir. Bölmə istər tərk edilən ölkədə, istər hədəflənən ölkədə, istərsə də tranzit ölkədə münaqişələrdən, təqiblərdən və ya fövqəladə hallardan qaçmağa çalışan insanlara, insan alverinin qurbanlarına, qeyri-qanuni miqrasiya etmiş şəxslərə, istismar edilən miqrant işçilərə və müdafiəyə ehtiyacı olan sosial həssas qruplara, qadınlara, gənclərə və uşaqlara yardıma xüsusi diqqət yetirir.

Yeparxiya kanselariyası rəsmi hökumətdə istifadə olunan bütün yazılı sənədləri idarə edən idarəetmə şöbəsidir. Burada yepiskop və ya onun nümayəndəsinin rəhbərliyi altında yeparxiyaya aid bütün sənədlər tərtib edilir, surəti çıxarılır, göndərilir və qəbul edilmiş bütün rəsmi yazıların uçotu aparılır. Yeparxiya kansleri bu vəzifələrin icrasında cavabdehdir.

Katolik kilsəsi həmişə siyasi və ictimai təşkilatlanmaların və bölünmələrin, parçalanmaların müxtəlif formalarında siyasətlə məşğul olmuşdur. Bu uzunmüddətli siyasi təcrübədən kilsə müasir dövlətin yüksəlişini və Vestfal sisteminin bu günə qədər qaldığını qəbul etdi. Kilsənin özü separatçılarından biri olan protestanizm vasitəsilə öz təkamülünə böyük töhfə verdi. Öz təcrübəsi və institusional yaddaşı sayəsində kilsə qloballaşma və dəyişən siyasi mənzərə dövründə beynəlxalq siyasətin gələcəyinə düzgün baxış nümayiş etdirir. Hedli Bullun nəzəriyyəsinə görə arxaik cəmiyyətin sonunda suveren dövlətlər dövrü sona çatacaq və orta əsrlər Qərb xristian dünyasını xarakterizə edən siyasi sistemin müasir dünyəvi həmkarı ilə əvəz olunacaqdı. Bu "bir-biri ilə üst-üstə üşən hakimiyyət və sədaqət sistemi"ndə "heç bir hökmdar və ya dövlət müəyyən ərazi və xristian əhalinin müəyyən bir hissəsi üzərində ali suverenliyə malik deyildi; hər biri səlahiyyəti aşağıda vassallarla, Papa ilə və... yuxarıda Müqəddəs Roma İmperatoru ilə bölüşürdü".

Ümumiyyətlə çox uzun müddət xristianlıq siyasi fəaliyyətdə aktiv rol oynamış və bununla bağlı rus əsilli filosof Vladimir Solovyov qeyd etmişdir ki, xristianlıq heç zaman dölsüz, spritualist din olmaq yolunu tutmayıb: "Əgər o, yalnız zahidliyi, cəmiyyətdən və tarixdən qaçışı təbliğ, təklif eləsəydi, tarixdə heç bir rol oynamazdı. Əksinə, xristianlıq və xristian kilsəsi, ələlxüsus papalıq bəşəriyyət tarixində gedən proseslərlə sıx bağlıdır" (Tumas, 2017:114).

Kilsənin özünü beynəlxalq siyasi sistemə (dövlətlərə) və onun beynəlxalq cəmiyyətinə qəbul etdirməsi beynəlxalq münasibətlər elminin özünün bu aktora marağının səbəbi kimi çıxış edir. Papalar hər zaman siyasi arenada olmuş və qlobal siyasi arenada xüsusi yer tutmuşdur. Papaların fəaliyyəti ilə əlaqədar olan üç mühüm siyasi hadisə bu mülahizəyə əsas verir:

ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 1.790. 2022 / Cild: 16 Sayı: 11 / 7-15 ISSN: 2663-4619
SCIENTIFIC WORK International scientific journal. Impact Factor: 1.790. 2022 / Volume: 16 Issue: 11 / 7-15 e-ISSN: 2708-986X

1. Papanın Müqəddəs Taxt-Tacın diplomatik xidmətinə olan marağı və ondan istifadə etməsi ilə ABŞ-Kuba münasibətlərinin ərimәsinə, Müqəddəs Taxt-Tac arasında rəsmi razılaşmaya kömək etməsi;
2. Fələstin Dövləti ilə çərçivə sənədinin imzalanması;
3. 1915-ci il hadisələrinin "soyqırımı" adlandırılması və tanınması.

Kilsənin xarici siyasəti birincisi, onun strukturu çərçivəsinə, ikincisi, xarici siyasət fəaliyyətinə əsaslanır. Kilsə dünyanın ən qədim və ən böyük supramilli təşkilatıdır. Sosial nəzəriyyə baxımından, "Kilsə"nin müxətlif cür qavranılması (məsələn, mömінlər birliyi, normal sahibkar, Vatikan dövləti, Müqəddəs Taxt-Tac, Papa və s.) çətindir. Məsələni çətinləşdirən odur ki, kilsə − Vatikandakı fiziki ərazi bazası ilə Müqəddəs Taxt-Tac görünüşündə − həm də beynəlxalq cəmiyyətin hüquqi (yəni, beynəlxalq hüquqla) tanınmış üzvüdür. Bu həm də onu digər qeyri-dövlət dini aktorlarından dərindən formal şəkildə fərqləndirir. Bu baxımdan kilsə ayrı-ayrı siyasi məktəblər tərəfindən fərqli təhlil olunur. Fərqli təhlil səviyyələrinin açılması kilsəyə Konstruktivizm/Liberalizm, Realizm və İngilis Məktəbi kimi müxtəlif nəzəri bucaqlardan yanaşmağa gətirib çıxarmaqdadır. Bəzi məktəblər isə kilsəni ümumiyyətlə beynəlxalq münasibətlərin bir hissəsi kimi görmür. Bununla bağlı İosif Stalin Fransanın dövlət katibi Pyer Lavalın Rusiyadakı katoliklərin vəziyyəti ilə bağlı sualına belə bir cavab vermişdir:

"Papa! Onun neçə diviziyası var?" Artıq xeyli zamandır ki, onun heç bir hərbi diviziyası, yəni, ağır maddi gücü yox idi. Bununla belə, beynəlxalq siyasət haqda deyilənlər budur: maddi gücün təsiri və siyasi güc bərabərdir. Uinston Çörçill tərəfindən sənədləşdirilmiş bu lətifənin ikinci, naməlum hissəsi var − Çörçillin şəxsi şərhi: "Lavalın cavabı yox idi. O, mənə məlumat verdi, lakin o, əlbəttə ki, paradda həmişə görünməyən bir sıra legionları qeyd edə bilərdi". Çörçill bilirdi ki, özlərini katolik adlandıran insanların böyük kütləsi tərəfindən təmsil olunanlar kimi fərqli güc strukturları da mövcuddur. Kilsənin normativ iddiaları ilə birləşdirilən katolik inancına (yəni şəxsiyyətə) bağlı olan bu şəffaf rəqəmlər Kilsənin yumşaq gücünün əsasını təşkil edir, yəni başqalarının sizin istədiyinizi istəməsini təmin edir.

11 sentyabr hadisələrindən bu yana "din" və bu sahədə mövzulara akademik marağın artması meyillərini müşahidə etməkdəyik. Kilsə bugün iqtisadi (məsələn, Vatikan bankı ətrafında baş vermiş skandal) və etik ( məsələn, cinsi qalmaqallar, uşaq istismarı, kişilərə və qadınlara qeyri-bərabər rəftar edilməsi), kimi qalmaqallar və konspirasiyalarla bağlı çoxlu problem yaşamaqdadır. Onların hamısı bu və ya digər formada beynəlxalq ictimaiyyətin nəzərinə çarpır. İkinci Vatikan Şurası inanclar toplusunda dəyişikliklər etdi və nəticədə katolik çoxluğu olan ölkələrdə fəaliyyət dəyişikliklərinə səbəb oldu. Xüsusən Cənubi Amerika demokratikləşmə baxımından və ya digər xristian məzhəblərinin çağırışı formasında kilsə və katolikliyin təsiri ilə bağlı araşdırmalar üçün savaş ərazisi oldu. Keçmiş kommunist blokunun demokratikləşmə proseslərində kilsənin rolu polyak əsilli Roma Papası II İohann Pavelin rolu çox əhəmiyyətli bir misaldır. Müharibə, sülh, sosial ədalət və Kilsə ilə bağlı araşdırmalar siyasət elmi araşdrmalarında mühüm yer tutur. Kilsənin özü də bunun təşəbbüskarlarından biri kimi çıxış etməkdədir. Roma Papasının özü bu barədə ən yaxşı nümunədir. İkinci Dünya müharibəsi illərində fəaliyyətsizliyi və Holokosta susduqları, Hitlerin təcavüzünə göz yumduqları üçün xeyli qınanan Pontifiklər, son dövrdə öz çıxış və fəaliyyətləri, operativlikləri ilə sülh, sosial haqq-ədalət və din azadlığı kimi mövzularda dünyanın aparıcı carçılarından biri qismində çıxış etməkdədirlər. Diplomatiya üzrə iki mövzu diqqəti cəlb etməkdədir: Papa diplomatiyaları və ənənəvi Müqəddəs Taxt-Tac diplomatiyası əlaqəsi. Müqəddəs Pontifik Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropa İttifaqı (Aİ) kimi ümdə beynəlxalq təşkilatlarla aktiv şəkildə əlaqədədir. Bu, kilsənin aktorluğunun daxili və qlobal siyasi quruluşun qovuşduğu bir araşdırma sahəsi kimi çıxış edir.

Vatikanın beynəlxalq siyasətin aktoru kimi İkinci Dünya Müharibəsindən sonra rolunun xüsusilə artdığını qeyd etmək lazımdır. Bu dönəmdə o siyasi hərəkatlara "xaç atalığı" etməyə başlamışdır. XX əsrin ən böyük iqtisadi müqavilələrindən Avropa İqtisadi Birliyi Müqaviləsinin Roma Papası XII Piyin xeyir duası ilə Roma şəhərində imzalanması da təsadüf deyildi. Bunun ardınca 80-ci illərdə rolunun artması üçün çalışdı və Amerika Birləşmiş Ştatları ilə yaxınlığa, Ağ Evin katolikləri − Bjezinski, Keysi, Volters kimi şəxslərin, Dövlət müşaviri Xeyq və Müdafiə Naziri Vaynberqerin rolu

böyük oldu. Vatikan Papa II İohann Pavelin rəhbərliyi ilə Sovetlərin yıxılmasında, sosializmdən çıxmış Avropa, postsovet respublikaları və Balkanlarda olduqca fəal işlər görürdü (Tumas, 2017:123).

Normativ, liberal və konstruktivist nəzəriyyəçilər üçün kilsə özünün əsas konstitusiyası çərçivəsinə əsaslanmaqda olan normalarını irəli sürə bilər bir norma yaradıcısı kimi çıxış etməktədir (məsələn, Müqəddəs Kitab kimi fundamental mətnlər, Kanonik Qanunu kimi daxili qaydalar və ya teoloji prinsiplər kimi). Xarici-siyasi sahələrdə "katolik" beynəlxalq münasibətləri üçün mühafizəkar çağırışlar, liberal tənqidçilər, eləcə də tərəfdarları və fürsətçi tərəfdarları var. Beynəlxalq siyasətə "katolik" yanaşmasının mühafizəkar tərəfdarları Avqustinin realizmindən tutmuş Tomas Akvinanın ədalətli müharibə nəzəriyyəsinə, Fransisko Suarez kimi müasir beynəlxalq hüquq metrolarına, Xuan Donoso Kortesə qədər siyasət haqqında katolik düşüncə ənənəsi ilə dəstəklənir. Bu spektrin genişliyinə görə, daha çox "kultural müharibə" ilə məşğul olmağa çağıran mühafizəkar çağırışlar var. Bu çağırışlar "Regensburq mühazirəsi" adlanan Roma Papası Benediktin ictimaiyyətlə əlaqələri pozması hadisəsində olduğu kimi digər dinlər barəsində Papanın tənqidi fikirlərini də müdafiə etmə meyillərindədir. Liberal tənqidçilər Müqəddəs Taxt-Tacın digər dini qrularla müqayisədə beynəlxalq siyasətdə müstəsna mövqeyə malik olduğunu qeyd edirlər. Burada nəzərdə tutulan ikitərəfli diplomatik əlaqələrdir, Müqəddəs Taxt-Tacın BMT-də daimi müşahidəçi statusu və ya kilsənin xarici siyasətini əsasən qeyri-liberal dəyərlər üzərində qurmasıdır. Klassik nümunə, Müqəddəs Taxt-Tacın 1994-cü ildə Qahirədə keçirilmiş Əhali və İnkişaf üzrə BMT Konfransında və sonrakı konfranslarda iştirakıdır. Orada Müqəddəs Taxt-Tac daha çox ailə dostu siyasət üçün iddia qaldırmış, abort əleyhinə çıxmış, Liviya və Sudan kimi ölkələri dəstəkləyən tərəfdə çıxış etmişdir. Bu yanaşmalar liberal və konstruktivist çərçivəyə əsaslanaraq, İkinci Vatikan Şurasının qloballaşan dünyada kilsə üçün gətirdiyi dəyişiklikləri nəzərdə tutur. Kilsənin xarici siyasətini təhlil edən başqa nəzəriyyə də klassik realizmdir. İlk baxışdan realizm, kilsəni beynəlxalq siyasi sferada çərçivəyə salmaq üçün lazım deyil. Meorealizmin güc və (maddi) imkanların aktorlar arasında bölüşdürülməsinə diqqət yetirməsi, onun kilsənin real bir aktor olaraq qəbul etməməsinə gətirib çıxarmaqdadır. Bundan başqa, bu nəzəriyyədə geopolitika kimi beynəlxalq siyasəti diqqətdə saxlaması məcburedici güc faktoru ilə izah edilir.

Əslində, "rəqəmlər" vacib olub, kilsənin "rəqəmlərdə" yaxşı olması (yəni, onun inancla bağlı üzvləri) onun yuxarıdakı təhlili ilə aydınlaşdırılmışdır və adi demoqrafik göstəricilərlə açıqlanır: bugün dünya əhalisinin 1,3 milyard nəfərə yaxını (bu rəqəm artır) katolikdir. Bundan başqa, katoliklik daha sonra müzakirə ediləcək "Qlobal Cənub"a doğru dəyişmişdir. Müqəddəs Taxt-Tacın, xüsusən Roma Papası II İohann Pavelin Soyuq Müharibə dövründə Şərq Blokunun çökdürülməsində xüsusi maraqları və effektiv iştirakı olmuşdur. Bununla Vatikanı və Kilsəni qəbul etməyən bir çox nəzəriyyə də razılaşır. Geniş tədqiqat gündəminin çatışmazlıqlarına baxmayaraq, klassik realizm beynəlxalq siyasi arenada Vatikanın öyrənilməsinə və dərk edilməsinə işıq tutur. Bunun səbəbi odur ki, nəzəriyyəçilər Uinston Çörçillin yuxarıda qeyd edilən sitatına əlavəsində əksini tapdığı kimi, təcrübə və agentlik kimi beynəlxalq siyasətə diqqət yetirirlər. Beynəlxalq siyasi fəaliyyətin əsasını insanlar təşkil etməkdə olub, bu insanlar heç də "paradlarda həmişə görünmür". Belə qarışıq araşdırmalardan birinin müəlifi Samuel Hantinqtondur. 1993-cü ildə Demokratiyanın Üçüncü Dalğası adlı araşdırmasını etmişdir. O, 1970-1980-ci illərdə İspaniya Krallığında başlayan və daha sonra Latın Amerikasına da yayılan demokratiya dalğası İkinci Vatikan Şurası (1962-1965) nəticəsində Kilsənin daxili dəyişiklikləri ilə sürətlənməsi qənaətinə gəlmişdi. Şura prosesə Katolik kilsəsinin daha liberal yanaşmasına səbəb oldu. Bugüb isə o bütün ölkələri demokratikləşməyə və azadlığa səsləməkdədir. Məlum olduğu kimi, Katolik kilsəsinin qlobal siyasət meydanını arzulamasının əsasları sadəcə ilahi məqsədlərlə məhdudlaşdırıla bilməz. Bəzi nəzəriyyətçilər kilsə fəaliyyətinin teoloji və doktrinal dəyişikliklərindən əlavə dini fonda məzhəblər və başqa dinlərlə rəqabət halı və Papaların liberallaşması ilə izah edilir. Kilsənin dini rəqibləri tərəfindən sıxışdırılması onun demokratiya və liberal dəyərlərinin artmasına gətirib çıxartdı. Bu təşəbbüslər vətəndaş cəmiyyətinin cəlb edilməsindən ictimai sahəyə və rəsmi hökumətin diplomatik təşəbbüslərinə qədər uzanır. Əvvəlki vətəndaş cəmiyyətinin iştirakı qeyri-adi insanlar və ya icmalar tərəfindən başlanır və idarə olunur, lakin o, katolik ruhanilərin dəstəyini və bununda da Katolik kilsəsinin "rəsmi" iştirakını qarşılayır.

Bu aşağıdan-yuxarıya bir əlaqədir, halbuki rəsmi hökumətin diplomatik təşəbbüsləri tərifinə görə yuxarıdan-aşağıya doğru olanlardır. Hər iki yanaşmanı birləşdirən, beynəlxalq siyasətdə, onların əksərən sülhyaratma fəaliyyətləri ilə maraqlanmasındadır. XX əsrin ikinci yarısında bu yana Vatikanın iştirak etdiyi məşhur nümunələr bunlardır:

- Papa XXIII İohannın Kuba raket böhranının sülh yolu ilə həlli üçün öhdəçiliyi;
- Polşanın demokratikləşməsinə töhfə verən "Solidarnosc" hərəkatı;
- Diktator Markosun devrilməsi ilə nəticələnən Filippin Xalqlarının Güc İnqilabı;
- Argentina və Çili arasındakı "Biql" kanalı münaqişəsində Vatikanın uğurlu vasitəçilik etməsi;
- Cənubi Afrikadakı Həqiqət və Uzlaşma Komissiyası kimi yeni demokratiyalarda və ya keçid dövründə olan ölkələrdə uzlaşma səyləri;
- Mozambikdə və başqa yerlərdə vətəndaş müharibəsi zamanı katolik lay icma "Sankt Edigio" tərəfindən sülhməramlı sahə işləri.

Müqəddəs Taxt-Tacın Avropa İttifaqı və Birləşmiş Millətlər Təşkilatı kimi beynəlxalq qurumlarda diplomatik iştirakı onun xarici siyasətinin normativ və realist təhlilinin birləşdiyi başqa bir nümunədir. Bir tərəfdə kilsə diplomatiyada iştirak edir və beynəlxalq təşkilatlarla əlaqə saxlayır, digər tərəfdən, bu əlaqənin teoloji və doktrinal əsasları var. Kilsənin bu siyasətinin və nəzəri tətbiqinin iki bariz nümunəsi Müqəddəs Taxt-Tacın Avropa İttifaqı və Birləşmiş Millətlər təşkilalarında təmsili və çıxışlarıdır. Avropa Birliyinin "həmrəylik" ideologiyasını katoliklərin iştirakı olmadan təsəvvür etmək mümkünsüz bir məsələdir. Beləliklə, Kilsənin Avropa siyasətinə qarışması çox təbii idi. Subsidiarlıq anlayışı ilə yanaşı, həmrəylik katolik sosian təliminin və doktrinasının təməllərindən biridir. Digər nümunə Müqəddəs Taxt-Tac Birləşmiş Millətlər Təşkilatının daimi müşahidəçisi kimi təmsil olunmasıdır. Yarandığı gündən Kilsə bu təşkilatla yaxından maraqlanırdı. 1964-cü ildən Baş Katib U Tan tərəfindən rəsmi olaraq dəvət almışdı.

Müqəddəs Taxt-Tacın Birləşmiş Ştatlarla uzunmüddətli diplomatik atışmaları, Çinlə daha da ziddiyətli problemləri, İsrail və Fələstinlə (Müqəddəs Taxt-Tac tərəfindən tanınıb) problemli münasibətləri, eləcə də, digər dövlətlərin Müqəddəs Taxt-Tac tərəfindən rəsmi şəkildə tanınmaq istəyi "oyun qaydaları"nın məntiqini və onun praktikasının önəmini göstərir. İlahiyyat və doktrinalar, bu aktoru anlamaqda kömək edən faktorlardan olsa da, sadəcə onlara istinad etmək mümkün olmur və Vatikanı tam anlamağa kifayət etmir. Buna görə də, hələ də onun inzibati mərkəzi Romadan idarə edilən Katolik kilsəsinin gələcəyinə spekulativ nəzər salmağa cəhd etsək, hər şey daha aydın olardı. Kilsənin strukturuna hər hansı baxış onun strukturu ilə başlamalıdır ona görə də, əvvəlki bölmədə onun strukturuna nəzər yetirildi.

Bugün hakimiyyətdə olan Papa Fransisk ilk "qlobal papa"dır. II İohann Pavel hər nə qədər dünya səyahətçisi və "siyasi fəal" olsa da, o "qlobal" ola bilməmişdi. O, xarici siyasətində multikultural dəyərləri önəmsəmiş və imza atdığı ilklərlə qlobal sensasiya doğurmuşdur. O, ilk dəfə İslam dininin müqəddəs kitabı olan Quranı öpmüş Katolik lider idi. Bu hadisə 1999-cu ildə İraq nümayəndə heyətinin Vatikan şəhərinə olan səfəri zamanı baş vermiş və böyük sensasiya doğurmuşdu (11). Həmçinin tarixdə ilk dəfə məscidə daxil olan kilsə başçısı idi. Bu hadisə isə 2001-ci ilin may ayında Suriyanın paytaxtı Dəməşq şəhərində yerləşən 1300 illik Əməvi məscidində baş vermişdi (10).

Fransisk hərfi mənada autsayderdir. Müqəddəs Pontif Müqəddəs Taxt-Tacın diplomatik aparatlarından daha da itensiv istifadəyə üstünlük verir. İki misala nəzər salmaqda fayda var: Müqəddəs Taxt-Tac diplomatları 2013-cü ildə Suriya üzrə Cenevrə konfransında iştirak etdilər və Roma Papası islamla daha sıx dialoqa çağırış etdi, "kilsə rəhbərlərini Müqəddəs Taxt-Tacla rəsmi əlaqələri olmayan ölkələrlə − Çin kimi, diplomatik müzakirələri yeniləməyə çağırdı". 2016-cı ildə Azərbaycanda olarkən Heydər məscidini də ziyarət etmişdi və bunun ölkədə "Multikulturalizm ili" ərəfəsində olması da bir işarə idi (12). Yarandığı gündən papalıq "dünyəvi" işlərlə məşğul olub. Buna görə də, Roma Kuriyasına edilən "papa müdaxiləsi" yeni bir şey deyil. Azərbaycanla münasibətlər, ilk müsəlman ölkəsi olaraq onun sərgisinin keçirilməsi (5) və 2022-ci il noyabr ayının 6-da "Bəhreyn Dialoq Forumu" çərçivəsində Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə ilə görüşü də məhz bununla bağlı idi (9).

## Nəticə

XX əsrin ilk yarısının dəhşətlərindən, nəticədə ortaya çıxan liberal dünya nizamı və ardınca müdaxiləçilikdən sonra, papa müdaxiləçiliyi özünü beynəlxalq siyasətdə kompensasiya edən və balanslaşdıran element kimi görür. Katolik kilsəsi özünü körpü qurucusu kimi görməkdədir (buna görə də, papanın qədim adı "potifex maximus" − "usta körpü qurucusu" deməkdir). Papa Fransisk beynəlxalq cəmiyyətin müasir və katolik siyasi davranışına sadiq qalmaqda davam edir. O, mühafizəkar ilahiyytçı və siyasi, sosial, iqtisadi cəhətdən liberal mövqedən çıxış etməkdədir. Vatikan da, təbii olaraq, qloballaşan dünyada baş verməkdə olan siyasi və sosial-iqtisadi proseslərə məruz qalmaqdadır. Bunun öz növbəsində, mədəniyyətlərarası münasibətlər sisteminə nəticəsi kifayət qədər müsbətdir. Vatikan dinlərarası dialoqun maraqlı tərəfi kimi çıxış edir ki, beləcə o, öz yumşaq gücünü və siyasi təsir imkanlarını artırır. Beləcə, kilsənin və dinlərin dünya siyasətinə təsirinin yoxa çıxmaqda olduğunu iddiasını boşa çıxarır.

## Ədəbiyyat

1. Ələkbərli, F. (2014). Vatikan arxivlərində saxlanan Azərbaycana aid əlyazmalar. Bakı: Elm və təhsil, 75 s.
2. Norvich, D. (2014). Istoriya papstva. Kharvest, 606 s.
3. Tumas, İ. (2017). Dünyanın gizli ocağı: Vatikan. Bakı: XAN, 164 s.
4. Geosiyasi reallıqlar və multikultural dəyərlər. (2017). Bakı: Elm və təhsil, 160 s.
5. https://www.bbc.com/news/world-21412589.amp
6. http://www.vatican.va/content/romancuria/en.html
7. http://www.vatican.va/content/romancuria/en/segreteria-di-stato/segreteria-di-stato/profilo.html
8. https://abcnews.go.com/International/story?id=81117&page=1
9. https://musavat.com/news/qurani-open-mescidde-dua-eden-roma-papasi_795437.html
10. https://azertag.az/en/xeber/Pope_Francis_visits_Heydar_Mosque-997914
11. http://azhistorymuseum.gov.az/az/news/307
12. https://qafqazinfo.az/news/detail/seyxulislam-allahsukur-pasazade-roma-papasi-ile-gorusdu-381382

Göndərildi: 15.09.2022 Qəbul edildi: 27.10.2022

DOI: https://doi.org/10.36719/2663-4619/84/16-20

**Xədicə Ramiz qızı Yusifova**
Bakı Slavyan Universiteti
filologiya üzrə fəlsəfə doktoru
xadijayusifova@gmail.com

# XX VƏ XXI ƏSRİN QOVŞAĞINDA RUSİYA VƏ AZƏRBAYCANDA ƏDƏBİ PROSESİN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

## Xülasə

70 ildən artıq bir dövlətin tərkibində yaşamış rus və Azərbaycan xalqlarının taleyində, bu iki xalqın sosial ədalət uğrunda mübarizə tarixinin çoxlu təmas nöqtələri olub. Ona görə də ictimai həyatda oxşar hadisələri ifadə etməyə xidmət edən rus və Azərbaycan xalqlarının ədəbiyyat və mədəniyyətləri də problemli baxımdan yaxın idi. XX əsrin sonlarında aparıcı rus yazıçılarını narahat edən isə, təbii ki, eyni dövrün Azərbaycan söz sənətkarlarının da maraqlarına toxunmaya bilməzdi. 1990-cı illərdən başlayan keçid dövrünün məzmunu ondan ibarətdir ki, Azərbaycan tədricən bazar demokratiyası, qanunun aliliyi və fərdi azadlığı özündə birləşdirən müasir Qərb sivilizasiyasının mədəni və tarixi dəyərlərinə qovuşur. Bu dəyərlər, ilk növbədə, o illərdə Azərbaycanın açıq, demokratik və inkişaf etmiş dövlətə çevrilməsinə töhfə vermək məqsədi daşıyırdı. XX əsrin sonu bütövlükdə rus və Azərbaycan ədəbiyyatı üçün İttifaq imperiyasının süqutundan sonra cəmiyyətin siyasi, sosial və mədəni həyatında baş verən və dəyər oriyentasiyalarının kəskin dəyişməsinə səbəb olan ciddi dəyişikliklərin əks olunduğu dövr idi. Bu dövrün rus ədəbiyyatı ənənələrin və müasirliyin bədii əks etdirilməsinin müxtəlif yollarının sintezi əlaməti altında inkişaf etmişdir. Azərbaycan tədqiqatçılarının elmi işi müasir ədəbi situasiyanın terminologiyasının mühüm problemlərinə həsr olunub və onların istinad etdikləri əsərlər XX-XXI əsrlərin sonlarına aiddir.

***Açar sözlər:*** *alternativ nəsr, yenidənqurma, postmodernizm, ədəbiyyat, tarixi və ədəbi vəziyyət*

**Khadija Ramiz Yusifova**

## Characteristic features of the literary process in Russia and Azerbaijan at the turn of the XX-XXI centuries

## Abstract

The historical destinies of the Russian and Azerbaijani peoples, who lived as part of a single state for over 70 years, the history of the struggle of these two peoples for social justice also had many points of contact. Therefore, the literatures and cultures ofthe Russian and Azerbaijani peoples, which serve to express similar phenomena in social life, were also close in a problematic respect. And what worried the leading Russian writers at the end of the 20th century could not, of course, but touch the interests of Azerbaijani word artists of the same period. The content of the transition period, starting from the 1990s, is that Azerbaijan is gradually joining the cultural and historical values of modern Western civilization, which includes market democracy, the rule of law and individual freedom.

These values were primarily intended in those years to contribute to the transformation of Azerbaijan into an open, democratic and developed state. The end of the 20th century for Russian and Azerbaijani literature as a whole was a time of reflection on the serious changes in the political, social and cultural life of society that occurred after the collapse of the Union Empire and entailed a sharp change in value orientations. Russian literature of this period developed under the sign of the synthesis of various ways of artistic reflection of traditions and modernity. The work of Azerbaijani researchers is devoted to important problems of the terminology of the modern literary situation, and the works on which theyrely date back to the turn of the 20th-21st centuries.

***Keywords:*** *alternative prose, perestroika, postmodernism, literature, historical and literary situation*

## Giriş

"Müasir bədii ədəbiyyat" terminoloji anlayışı nəzəriyyədə hələ də nəinki tam aydınlaşdırılmamış, həm də çox qeyri-sabit, qeyri-səlis hesab olunur. Onun sərhədləri çox hərəkətlidir və buna görə də qeyri-müəyyəndir. Aydındır ki, bu anlayışın hüdudları müəyyən edilərkən, yalnız sözün ciddi mənasında müasirlik haqqında hansı mövqedən yazılacağı konkret zaman dövrünün əksini ifadə edir. Mətnin bu semantik məkanında bəzən ahəngdə, bəzən də diqqəti çəkən ziddiyyətlərdə müəllif və onun personajları bir arada yaşayır; bu zaman üçün aktual olan problemləri həll edir, indiki reallıqları işıqlandırır və öz imkanları daxilində gələcəyin konturlarını göstərirlər.

Müasir rus və Azərbaycan yazıçılarının ən yaxşı əsərləri oxucuya müasir həyatın problemləri haqqında düşünməyə kömək edir. Müəlliflər aktual məsələlərə müraciət edərək, reallıqda baş verən çoxsaylı mənfi dəyişikliklərə kəskin reaksiya verirlər. Problemlərin dairəsi çox genişdir: tarix, siyasət, iqtisadiyyat, fəlsəfə, psixologiya. Onların arasında müasir ailələrdəki nifaq və ya insanların qəlbindəki soxulcan dəliyi, şəhər və ya kənd ədəbiyyatı ilə sıx bağlı olan müxtəlif problemlər ("şəhər" və "kənd" nəsrideyilən) kimi çox ağrılı mövzular var.

Düzdür, sonuncu fenomen "altmışıncı illərin yazıçıları"nın ideyası idi, lakin XX əsrin sonunda o, qismən geri qaytarılırdı. Bundan əlavə, XX-XXI əsrlərin qovşağında aparıcı rus və Azərbaycan nəsrlərini narahat edən başqa mənəvi-estetik nizam məsələləri də var. Bu, müasir ədəbi situasiyanın əsas xüsusiyyətlərini müəyyən etmək üçün daha vacibdir, çünki bu gün beynəlxalq münaqişələr, müharibələr, milli və dini-etnik zəmində tərəflərin qarşıdurması adi mənəvi-əxlaqi koordinatlar sistemini əhəmiyyətli dərəcədə dağıdıb. Təəccüblü deyil ki, məşhur ədəbiyyatşünas V.A.Çalmayev müasir ədəbiyyatı "məhv eyforiyası ilə" əlaqələndirir, hansı ki onun fikrincə, "XX əsrin sonlarında bütün əvvəlki dövrlərə açıq düşmənçilik xarakteri götürmüşdü" (Çalmayev, 1998:77). Düzdür, bəzi tənqidçilərin əsaslı sualları var: hazırkı ədəbi vəziyyətin başlanğıc nöqtəsi haradandır? Yaxud: bu gün 1991-ci ildən − yenidənqurma ilindən xronoloji olaraq dəqiq sayılmalıdır demək nə dərəcədə düzgündür? Yalnız bütün siyasi sistemin dekonstruksiyası ilə birbaşa əlaqəli olan dəyərlərin köklü şəkildə yenidən qiymətləndirilməsi və bir sıra gözlənilməz hadisələr səbəbindən? Təbii ki, bu da vacibdir, lakin XXI əsrin əvvəllərindən bu günə kimi bütövlükdə bədii sistemin yenidən qurulması da hər yerdə qeyd olunub. Bəlkə hadisələrin xronologiyasına deyil, XX-ci əsrin sonlarında şərti olaraq yaradılmış əsərlərin məzmun tərəfinə diqqət yetirmək daha vacib və məqsədəuyğundur? Çünki 1941-1945-ci illər epoxal əhəmiyyət kəsb edən əsas hadisə münasibətilə birmənalı olaraq hərblə bağlıdır. Müharibədən sonrakı onillik (1950-1960) bir çox tənqidi mənbələrdə "Xruşşov ərimәsi" adlandırılmış, Rusiyada isə bu, birbaşa "soyuq müharibə" dövrü ilə əlaqəli olmuşdur. 1960-1980-ci illərdə terminoloji adı möhkəm şəkildə quruldu: "altmışıncı illərin yazıçıları". Ona görə də tənqidçilər tez-tez müasir ədəbiyyatı "başqa" adlandırırlar ki, onun bəzi mənfi cəhətləri açıq şəkildə klassiklərin ənənələrinə qarşı çıxır. Bununla belə, göstərilən prinsipə əsasən müasir rus və Azərbaycan nəsrini iki yerə bölən tədqiqatçılara tam hörmətlə yanaşırıq ki, ədəbiyyatın iki növünün − klassikanın və müasirliyin açıq müxalifəti bir qədər meylli, bəlkə də utilitardır. Sadəcə, bir ədəbi məkanda obyekt və subyektlərin həmişə bir-biri ilə əlaqəli olması faktını nəzərdən qaçırmaq düzgün deyil.

"Başqa", ("digər", "alternativ" və s.) ədəbiyyat, şübhəsiz, ənənəvi və yeniliyi birləşdirən vahid və ayrılmaz ədəbi-tarixi prosesin davamıdır.

Bu mövqelərdən müasir tənqidçi İ.Kukulinin sözləri maraqlıdır. O hesab edir ki, XX əsrin sonlarında ədəbiyyatın dərin proseslərindən biri "ədəbi ənənələrin dəyişməsi deyil, ənənəyə münasibətin dəyişməsi, daha dəqiq desək, onun yayımı üsullarının elə dəyişməsidir" (Kukulin, 2001:180).

Maraqlanan dövrün Azərbaycan ədəbiyyatı da istisna deyildi. 70 ildən artıq "bir evin damı" altında, yəni vahid dövlətin tərkibində yaşayan rus və Azərbaycan xalqlarının tarixi taleləri həmişə yaxın olub. Tarixçilər sübut edir ki, hər iki xalq bu vaxta qədər ictimai azadlığa nail olmaq üçün əslində oxşar yollardan keçib. Bu iki xalqın sosial ədalət uğrunda mübarizə tarixinin də çoxlu təmas nöqtələri olub. Ona görə də ictimai həyatda oxşar hadisələri ifadə etməyə xidmət edən rus və Azərbaycan xalqlarının ədəbiyyat və mədəniyyətləri də problemli baxımdan yaxın idi. XX əsrin sonlarında aparıcı rus yazıçılarını narahat edən isə, təbii ki, eyni dövrün Azərbaycan söz

sənətkarlarının da maraqlarına toxunmaya bilməzdi. Yuxarıda qeyd olunanlar 1990-cı illərin sonlarında və XX-XXI əsrlərin qovşağında aparıcı Azərbaycan yazıçılarının qaldırdıqları ən kəskin problemlərin semantik tədqiq sahəsini xeyli daraltmağa imkan verir.

XX əsrin 90-cı illəri rus ədəbiyyatı tarixinə estetik, ideoloji, fəlsəfi və əxlaqi paradiqmalarda həlledici dəyişikliklərin xüsusi bir dövrü, bütün mədəniyyətin dərin şumlanmış məkanı kimi daxil oldu. Məhz bu onillik bir çox ziddiyyətli, dinamik olsa da, tendensiyaların diqqət mərkəzinə çevrilir: müxtəlif mədəniyyətlərin qarşıdurması, fakt və hadisələrin yeni keyfiyyət göstəriciləri və nəhayət, əsrin keçdiyi yolun ümumiləşdirilməsi və yekunlaşdırılması.

1990-cı illərin sonlarında ədəbiyyat və incəsənətin inkişafı mənzərəsi heç də az təsiredici deyil. Ədəbi məcəllədə əhəmiyyətli dəyişiklik baş verdi və E.V.İvanovanın haqlı olaraq yazdığı kimi, “ədəbiyyatın özündə, yazıçı rolunda və yeni tip “oxucu”da total dəyişiklik baş verdi” (İvanova, 1975:173).

Bütövlükdə rus ədəbiyyatı, xüsusən də roman üçün, XX əsrin sonu İttifaq İmperiyasının dağılmasından sonra cəmiyyətin siyasi, sosial və mədəni həyatında baş verən ciddi dəyişikliklərin əks olunduğu dövr idi və bu da dəyər istiqamətlərinin kəskin dəyişməsinə səbəb oldu.

Bu dövr ədəbiyyatı ənənələrin və müasirliyin bədii əks etdirilməsinin müxtəlif yollarının sintezi əlaməti altında inkişaf etmişdir.

İstər 1990-cı illərdə, istərsə də əsrin əvvəllərində rus ədəbiyyatı, tənqidçilərdən birinin təbirincə desək, keçmişlə indinin qəribə şəkildə iç-içə olduğu “parçalanmış ruhun panoraması kimi”dir. Onun “tədqiqat sahəsi” tamam başqa oldu; o, təkcə adaları deyil, bütün dünyaya səpələnmiş rus ədəbiyyatının bütöv qitələrini seçmişdir. Üstəlik, 1990-cı illərin bu “semantik sahəsindəki” mühacirət dalğası klassik rus ədəbiyyatı və mədəniyyətinin ümumi təkamül axını ilə aktiv qarşılıqlı təsirə (bəzən də müxalifətə) daxil oldu. Müasir rus romantikasında, T.N.Krasavçenkoya görə, “1970-1980-ci illər dövrü ilə müqayisədə ənənələrlə daha çox flört var”. Tənqidçi onu da təsbit edir ki, “bu, eyni zamanda, keçmiş ədəbiyyatla qarşılıqlı əlaqə prosesi, sələflərin ənənələrinin fəal davamı və istifadəsidir” (Krasavçenko, 2017:101).

Bu dövrün rus ədəbiyyatı qeyri-adi azadlıq fenomenini dərk edən sərhəd məqamlarından birini yaşayır. Yazıçı və tənqidçi Y.Borev onu psixoloji cəhətdən insanlara xas olan qorxu arxetipi ilə bir sıraya qoyub: “Bu, birdən-birə başımıza gələn azadlıq qorxusudur. Birdən hamının gözlədiyi bir hadisə baş verdi” (Borev, 2001:186). Lakin 1990-cı illərdə ədəbiyyatda bədnam “yenidənqurma” ilə bağlı belə fəal şəkildə təzahür edən söz, mətbuat azadlığı, sərt reallıqda icazəliliyə, daha dəqiq desək, qorxunun əks tərəfinə çevrildi. 1990-cı illərin sonu və XX-XXI əsrlərin qovşağında rus nəsri totalitar sistemin və keçmiş sosialist realist estetikasının böhranına bir növ reaksiyadır.

1990-cı illərin sonu və XX-XXI əsrlərin qovşağında rus nəsri totalitar sistemin və keçmiş sosialist realist estetikasının böhranına bir növ reaksiyadır. Bu illərdə bir çox söz sənətkarları öz əvvəlki prinsiplərindən qətiyyətlə ayrılaraq rus ədəbiyyatı üçün ənənəvi olan varlığın fəlsəfi məsələlərinə, ümumbəşəri və əbədi mənəvi dəyərlərə müraciət etdilər.

1980-ci illərin sonu − 1990-cı illərin əvvəllərində rus ədəbiyyatında qəhrəmanın sferası və funksiyaları əhəmiyyətli dərəcədə genişləndi, şəxsiyyətin sərbəst mövqeyinə meyl artdı, şəxsi intonasiya, ironiya, lirizm ön plana çıxdı, müəllifin və personajların özünüifadəsinin subtekst formaları inkişaf etdi. Bu proses XX əsrin sonlarında daha da gücləndi və onun mahiyyətində əvvəlki ədəbiyyata məlum olmayan istiqamətlər yenidən canlandı. Məşhur mütəfəkkir S.Frank yazırdı: “Rus təfəkkür tipinin orijinallığı məhz ondadır ki, o, ilkin olaraq intuisiyaya əsaslanır. Bilikdə sistemli və konseptual ona ikinci dərəcəli bir şey kimi deyil, yenə də tam və həyati həqiqətə bərabər olmayan sxematik bir şey kimi görünür (Frank, 2004:144).

Yüz ildən çox əvvəl uzaqgörən mütəfəkkirlər – yazıçılar və filosoflar gələcəyə daha bir perspektivlə yanaşaraq dövrlərinin Rusiyadakı ədəbi vəziyyəti üçün meyarlar yaratmağa çalışırdılar. Deməli, N.Berdyaev vurğulayırdı: “Forma dahisi rus dahisi deyil, onu fəzaların ruh üzərindəki gücü ilə çətin birləşdirmək olar. Ruslar isə formanın sevincini demək olar ki, bilmirlər” (Berdyayev, 2004:97).

D.Merejkovski XX əsrin əvvəllərində sivilizasiya şüurunun iki qütb tipi − şərq ("gecə sehrli") və qərb ("gündüz mexaniki") arasındakı mübarizəni nəzərdən keçirdi (Merejkovski, 1991:133). Düşünmək süni şəkildə ənənəvi xalq şüurunu əvəz edir.

A.Potebnya yazırdı ki, "rus xalqında belə bir Qərb təfəkkür tipi folklor aləminin "gözəl bütövlüyü"nün köməyi ilə elm tərəfindən yavaş-yavaş, lakin yorulmadan məhv edilmişdir" (Potebnya, 1976:311).

Ənənəvi tənqidi realizm əsasında "yeni realizm" və ya "neorealizm" transformasiya olunur; avanqard öz körpəliyində post-avanqarda keçir; Nabokov, Platonov və Bulqakovun müasirliyi postmodernlikdə öz potensialını reallaşdıraraq "sehrli realizmin" müxtəlif formalarında dəyişir. Nəhayət, sürrealizm, impressionizm, yeni sentimentalizm, konseptualizm və s. güc qazanır. Bundan əlavə, XX əsrdə kəskin şəkildə dəyişən tarixi, mədəni və sosial kontekstlə əlaqədar olaraq, yeni cərəyanlar daha da fəallaşır. Bunlar "yeni dalğa", "trans-metarealistlər", "metaforistlər", "konseptuallar", "ironistlər", "sots-art" və s. Maraqlıdır ki, istiqamətlərin bu rəngarəng mənzərəsinə həm realistlər A.Soljenitsın, V.Makanin və başqaları, həm də tipik postmodern yazıçıları − V.Erofeyev, E.Limonov, Z.Prilepin, V.Pelevin, hətta "bəşəriyyətin gözəl yarısı" nümayəndələri, məsələn, L.Petruşevskaya, T.Tolstaya və s. daxildir.

XXI əsrin əvvəllərində əsas dəyər istiqaməti, ilk növbədə, postmodernist dominant olan ədəbiyyatın dalğalanması idi. "Postmodernizm" termininin özü Rusiyada bir mərhələni qeyd etsə də, hələ də çox uğurlu deyil və V.Kuritsına görə, "obyektin özünün sürətli axıcılığına görə onu müəyyən etmək, fərqli şərh etmək çətindir, qeyri-sabit və dəyişkəndir" (Kuritsin, 2001:27).

Modernistlər müəyyən dərəcədə qabaqcıl ədəbiyyatın hansı sərhədlərə çatmalı olduğunu göstərirdilər. Postmodernistlər bu sərhədləri məhv etdilər. Modernistlər öz dövrlərində (hələ 1960-1980-ci illərdə) müəyyən dərəcədə yaradıcı, postmodernistlər isə sözün əsl mənasında dağıdıcı idilər. Kəskin dəyişən sosial mühit özü ilə hər cür bədii konvensiyaları (fantaziya, qrotesk, mifologemlər, mürəkkəb süjet konstruksiyaları, açıq sonluqlar) və yazı xüsusiyyətlərini (yeni stilistik cərəyanlar, pastiş, "müəllifin ölümü" nəzəriyyəsi və s.) gətirib. Bunu isə XX əsrin sonlarında təsvir etmək mümkün olmayıb.

XXI əsrin ikinci onilliyinin ortalarında rus ədəbiyyatına postmodernist oriyentasiya ilə necə yanaşmaq barədə mübahisələr aparılır. Bəzi rus, Azərbaycan və Avropa alimləri bu ədəbiyyatı o qədər aşağı səviyyəli hesab edirlər ki, ümumiyyətlə, onun bədiiliyini inkar edirlər. Digərləri isə əksinə, bunu az qala dövrün ruhu, dövrümüzün əlaməti hesab edirlər. Başqaları isə, R.Rollanın ("Döyüşdən yuxarı") bir növ pozasına çevrilərək, sanki ara mövqe tuturlar. Fikrimizcə, hər bir postmodernist əsərə ayrı-ayrı standartlardan yanaşmaq məqsədəuyğun olduğu üçün o qədər də fərq qoymadan tənqid etmək olmaz.

XXI əsrin birinci onilliyində müzakirə qismən müvafiq terminoloji anlayışlardan Rusiya və Azərbaycanda toplanmış faydalı tədqiqat təcrübəsinin nəzəri icmalı sahəsinə keçdi. Məhz, S.Qafarova və F.Nəciyeva kimi azərbaycanlı tədqiqatçılar bu məsələlərin aydınlaşdırması ilə məşğul olublar. Onların bilavasitə müasir ədəbi vəziyyətin terminologiyasının mühüm problemlərinə həsr olunmuş bir sıra məqalələri və istinad etdikləri əsərlər XX-XXI əsrlərin sonlarına aiddir.

S.Qafarova 2004-cü ildə "Müasir janrşünaslığın aktual problemləri" monoqrafiyasını nəşr etdirmişdir. 20-ci əsrin ikinci yarısı rus və Azərbaycan nəsri əsasında sinkretik janrların tipologiyası haqqında məlumat toplayır. 2011-ci ildə həmin tədqiqatçı "Ədəbi cərəyan və cərəyanların poetikası" dərsliyində diaxronik bölmədə klassisizmdən realizmə qədər bədii əsərlərin poetikasını ətraflı və dərindən araşdırmışdır.

2005-ci ildə S.Qafarovanın "Tarixin müasirliyi və müasirlik tarixi" monoqrafiyasında XXI əsr rus ədəbiyyatının ən mühüm problemləri işıqlandırılmışdır. Bunlardan ədəbi prosesin dövrləşdirilməsi, metadildən istifadə, milli substansiya axtarışı, müasirlikdən bəhs edən əsərlərin mənəvi parametrlərinin müəyyənləşdirilməsi və s. (Qafarova, 2003:264).

Bir sıra əsərlərində müasir ədəbi vəziyyəti XXI əsrin müxtəlif tarixi konsepsiyaları ilə sıx bağlayan Flora Nəciyevanın da oxşar problemlərdən narahat olması maraqsız deyil. Bir sıra məqalə və monoqrafiyalarında vurğulanır ki, A.Soljenitsının ("Qırmızı çarx", "Qulaq arxipelaqı" və s.)

"altmışıncı" yazıçıları üçün yeni "düşərgə mövzusu" nəzərdə tutulur. Açığı, müəyyən dərəcədə öz dövrünün ədəbi vəziyyətini əks etdirirdi (Nəciyeva, 2016:22-27).

1960-1980-ci illərdə geniş ictimaiyyəti narahat edən bir neçə onillikdən sonra həmişə aktual deyil. Məsələn, bu illərdə yetkin, çox istedadlı Azərbaycan nasirlərinin − Anar, Yusif Səmədoğlu, Maqsud İbrahimbəyov, Elçin, Natiq Rəsulzadə və bir çox başqalarının qalaktikası yaradılırdı. Onlar ölkədə neqativizmin təzahürləri ilə vicdanlı və barışmaz mübarizə aparırlar. O illərdə söz sənətkarlarının diqqət mərkəzində ən çox həyatın özündən götürülən qəhrəmanların əxlaqi və etik keyfiyyətlərinin diqqətlə öyrənilməsi olurdu. Bu meyarlar və göstərişlər davamlı hesab oluna bilər və bu gün onlar bədii ədəbiyyatın ən yaxşı nümunələrini əks etdirir. Eyni zamanda, 1960-1980-ci illərdə insanların məişət və mənəvi münasibətləri gündəlik iş günlərinə sıx şəkildə toxundu. Peşəkar inkişaf psixologiyası ilə bağlı suallar qəhrəmanın yaradıcı axtarışının səlahiyyətinə çevrildi. Lakin XX-XXI əsrlərin əvvəllərində istehsal nəsri əvvəlki aktuallığını itirdi.

Rusiyada və Azərbaycanda müasir ədəbi vəziyyət ən yaxşı bilavasitə tədqiqat işlərinin yarandığı gündən ölçülür. Bizim üçün əsas ideyaların müvafiq olaraq XX əsrin sonlarından bu günə qədər inkişafının məntiqi göz qabağındadır. Həmin bədii obrazların, daha dəqiq desək, personajların ədəbi mühitlə, ümumən ictimai həyatla sonsuz əlaqələrində rolunu nəzərdən qaçırmaq mümkün deyil. Onlar dövrün məhsuludur və həm də indiki ədəbi vəziyyətin mühüm hissəsi ola bilər.

## Nəticə

XX-XXI əsrlərin qovşağında rus və Azərbaycan ədəbiyyatı qeyri-adi, müəyyən dərəcədə özünəməxsus bir hadisədir. Bu hadisənin özəlliyi, ilk növbədə, ondadır ki, yeni əsrin əvvəllərində, hətta ikinci onilliyin sonunda ideoloji, bədii, əxlaqi və estetik paradiqmaların qəti intensiv dəyişiklikləri baş verir. Onlar əvvəlki qiymətləndirmələrin meyarlarının əhəmiyyətli dərəcədə vurğulanmasına səbəb olur ki, bu da obyektiv olaraq göstərilən dövrdə qütb və dinamik tendensiyaların parlaq əksinə çevrilir.

Ədəbiyyat yaranır və inkişaf edir ki, bu da köhnə stereotipləri, qönçədəki estetik kanonları qırır. O, "başqa nəsr", "digər...", "neorealist", "mifoloji", "mifopoetik" və s. kimi adlar alır. Postmodernizm XXI əsrdə dövrün bir tendensiyası kimi müasir ədəbi vəziyyətin bir çox parametrlərini müəyyən edir, ədəbi tənqid nəzəriyyəsində və kütləvi mətbuatda birmənalı olaraq "modernism" adlandırılan əvvəlki dövrlə xüsusi olaraq əlaqələndirilir.

## Ədəbiyyat

1. Çalmayev, V.A. (1998). Sözün paltarında atəş. Milliyyət, vətəndaşlıq, müasir nəsrin mənimsənilməsi problemləri haqqında. M.: Bədii ədəbiyyat, 264 s.
2. Kukulin, İ.V. (2001). Sovet mədəniyyətindən mühazirələr. M.: Maarifləndirmə, 257 s.
3. İvanova, E.V. (1975). Erkən simvolizmin öz müqəddəratını təyinetmə. 19-cu əsrin sonu − 20-ciəsrin əvvəllərində Rusiyada ədəbi və estetik anlayışlar. M.: Maarifçilik, s.171-187.
4. Krasavçenko, T.N. (2017). Xaricdə mədəniyyət fenomeni kimi. M.: INION, 269 s.
5. Borev, Y.B. (2001). Ədəbi proses. Ədəbiyyat nəzəriyyəsi. 4 (4). M.: IMLI RAN: Nasledie, 349 s.
6. Frank, S.L. (2004). İdealizm problemləri. M.: Tərəqqi, 299 s.
7. Berdyayev, N.A. (2004). Özünü tanımaq. M.: QSC Plus-Minus, 336 s.
8. Merejkovski, D.S. (1991). Gələn boz. M.: Sənət, 222 s.
9. Potebnya, A.A. (1976). Estetika və poetika. M.: Sənət, 613 s.
10. Kuritsin, V.N. (2001). Rus ədəbipostmodernizmi. M.: OGİ, 431 s.
11. Qafarova, S.A. (2003). Müasir janrşünaslığın aktual problemləri. B.: Kitab aləmi, 264 s.
12. Nəciyeva, F.S. (2016). XX-XXI əsrlərin qovşağında rus nəsri. B.: Azərbaycanda rus dili və ədəbiyyatı, № 3-4, s.22-27.

Göndərildi: 08.09.2022 Qəbul edildi: 15.10.2022

ISSN:2663-4619
e-ISSN: 2708-986X

DOI: https://doi.org/10.36719/2663-4619/84/21-26

**Xatirə İsam qızı Hüseynova**
Bakı Dövlət Universiteti
filologiya üzrə fəlsəfə doktoru
hatirebsu@gmail.com
https://orcid.org/0000-0003-0697-380X

# MEDİA TƏHSİLİ VƏ İNFORMASİYA SAVADLILIĞI MEDİA MANİPULYASİYAYA QARŞI

**Xülasə**

Texniki vasitələrin inkişafı medianın hərtərəfli güclənməsinə və informasiyanın operativliyinə təsirsiz ötüşmədi. Lakin bütün müsbət tərəfləri ilə bərabər, informasiyanın kəmiyyətcə artması, ifadə vasitələrinin zənginləşməsi təkcə keyfiyyətcə daha dəqiq və tərəfsiz xəbərin deyil, həm də yoxlanılmamış məlumatların, qeyri-dəqiq informasiyaların bəzən bilərəkdən yayılmasına səbəb olur. Sosial şəbəkələr belə məlumatların sürətlə tirajlanmasına şərait yaradaraq cəmiyyətdə çaşqınlıq yaranmasına, ictimai şüurun manipulyasiyasına rəvac verir. Beləliklə, media yalnız informasiya vasitəsi deyil, həm də manipulyasiya alətinə çevrilir. Belə məqamda media təhsilinin önəmi üzə çıxır və informasiya savadlılığı media manipulyasiya ilə mübarizədə əsas silaha çevrilir. Məqalədə media təhsili mediamanipulyasiyadan qorunmağın vacib amili kimi göstərilir, informasiya savadlılığının önəmi vurğulanır. Araşdırmanın gedişində bu sahədə beynəlxalq mütəxəssislərin sözügedən sahədə aparılmış araşdırmaları nəzərdən keçirilib, Azərbaycan media mühitində yeni sahə olan informasiya savadlılığının artırılmasının yolları göstərilib.

***Açar sözlər:*** *media, manipulyasiya, disinformasiya, misinformasiya, media savadlılığı, informasiya savadlılığı*

**Khatira Isam Huseynova**

## Media education and information literacy against media manipulation

**Abstract**

The development of technical means did not pass without an impact on the comprehensive strengthening of the media and the effectiveness of information. However, along with all the positive aspects, the quantitative increase of information and the enrichment of means of expression lead not only to qualitatively more accurate and unbiased news but also to the dissemination of unverified and inaccurate information, sometimes spread deliberately. Social networks facilitate the rapid circulation of such information, creating confusion in society and manipulating public consciousness. Thus, the media becomes not only a means of information but a tool of manipulation. These circumstances reveal the importance of media education when information literacy becomes the main tool in the fight against media manipulation. The article emphasizes media education as an important factor of protection from media manipulation and underlines the importance of information literacy. The paper also reviewed the researches of international experts in this field and scrutinized the ways of increasing information literacy, which is a new field in the media environment of Azerbaijan.

***Keywords:*** *media, manipulation, disinformation, misinformation, media literacy, information literacy*

## Giriş

Media mühitinin genişlənməsi, texnoloji alətlərin əlçatanlığı və internetin durmadan inkişafı insanların informasiyaya çatımını asanlaşdırır. Bunun xeyli müsbət tərəfləri ilə yanaşı, neqativ yönləri də mövcuddur. Təbii ki, bircinsli olmayan auditoriyanın kommunikasiya prosesindən eyni nəticələr çıxarması, informasiyanın qavranılmasında eyni səviyyənin təminatı mümkün deyil. Eyni bir informasiyadan müxtəlif nəticələrin çıxarılması, informasiyanın detallarının fərqli, bəzən də yanlış qavranılması son olaraq kommunikatorun məqsədinə uyğun gəlmir və potensial informasiya ilə real informasiya arasında uçurum yaranmasına səbəb olur. Bəzən isə media bilərəkdən kütləvi şüurun manipulyasiyasına şərait yaradaraq bu və ya digər fikrin, ideologiyanın yayılmasına səbəb olur. Medianın gerçəyi gizlətmək, hadisə və faktları fərqli təqdim etməklə auditoriyanı manipulyasiya etmək cəhdlərinin şahidi oluruq (Bəzən xarici media orqanlarında Azərbaycanın xəritəsinin təhrif olunması, konkret hadisələrə aid olmayan fotoların və videoların yayımlanması buna misaldır). Mediamühitin genişlənməsi kütləvi informasiya vasitələrinə, ümumilikdə informasiya axınına tənqidi aspektdən yanaşılmasının vacibliyini, media təhsilinin əhəmiyyətini şərtləndirir.

**Kütləvi şüurun manipulyasiyası**

Aldatma və manipulyasiyadan istifadə dilin özü qədər qədimdir. Jurnalistika terminləri lüğətində manipulyasiya sözünün anlamı "auditoriyanı çaşdırmaq, vəziyyəti öz xeyrinə dəyişmək üçün hansısa hiyləyə əl atmaq, insanlara yanlış fikir və dəyərlər təlqin etmək", "mediada və digər ictimai çıxışlarda məsələnin mahiyyətini təhrif etməklə əhalini aldatmaq", "son nəticədə insanların iradəsini qırmaq, gizli üsullarla onların şüuruna təsir göstərməklə davranışlarını proqramlaşdırmaq" kimi göstərilir (Məhərrəmli, Şıxlı, 2016:138).

Araşdırmaçı Hasan Yılmaz "İnsan İlişkilerinde Manipülasyon Ölçeği" adlı araşdırmasında yazır ki, manipulyasiya "qeyri-adekvat, aldadıcı və ya hətta sui-istifadə strategiyaları vasitəsilə başqalarının qavrayışını və ya davranışını dəyişdirməyə çalışan psixoloji və sosial təsir növüdür" (Yilmaz, 2018:449).

Görünür ki, burada əsas məqsəd insanı öz düşüncə tərzindən fərqli olaraq, psixoloji təsirə məruz qoymaqla başqa səmtə yönəltməkdir. Manipulyasiya edilən və təsirlənən insan atdığı hər addımda özünə zərər versə belə, bunun yalnış olmadığına özünü inandırır.

Gültəkin Mücahit "Algı yönetimi ve manipülasyon" kitabında manipulyasiyanı bəzən bir əmtəənin, bəzən dərman məhsulunun, bəzən də bir ideologiyanın marketinqi və ya satışı kimi xarakterizə edır. Manipulyasiyanı təsirli edən ən mühüm qayda "əsl məqsədi gizlətmək"dir (Gultekin, 2016). Manipulyasiyaya həssas olan insanların fərdi xüsusiyyətlərinin aşkar edilməsi istiqamətində aparılan araşdırmalar belə bir qənaətə gəlməyə əsas verir ki, hər kəs manipulyasiyaya məruz qalır, sadəcə manipulyasiyanın effektivliyi həmişə konkret vəziyyətdən, manipulyatorun şəxsiyyətindən və bir çox əlavə amillərdən asılıdır. Beynimiz elə qurulub ki, biz məlumatı həmişə adekvat deyil, subyektiv şəkildə qəbul etməyə meylliyik və bu məlumatı korrektə etməyə yalnız intuisiyamız və həyat təcrübəmiz kömək olur.

Bəzən bu mexanizmlərin zəifliyindən, həm də məlumatsızlıqdan insan manipulyasiyanın qurbanına çevrilə bilir. Təqdim olunan mənzərəni tam və düzgün anlamaq üçün sadəcə həqiqətləri, gerçək faktları bilməliyik. Güclü tənqidi təfəkkür, dəmir məntiq və geniş dünyagörüşü olan insanlar ətfara daha az güvənirlər və manipulyasiya qurbanı olma ehtimalları da çox azdır. Başqa sözlə desək, mediadan düzgün istifadəni öyrənən şəxs yoxlamadığı məlumatı fakt kimi qəbul etmir, araşdırmadan hadisələr barədə fikir yürütmür.

Tanınmış sosioloq və politoloq S.Q.Qara-Murza "Şüurun manipulyasiyası" kitabında yazır ki, insan yalnız manipulyasiyanın həmmüəllifi, iştirakçısı qismində olarsa, onun qurbanına çevrilə bilər. Adresat qəbul edilmiş siqnalların təsiri altında dərhal öz baxışlarını, fikirlərini, hadisələrə yanaşma tərzini, məqsədlərini yenidən qurarsa və yeni proqrama uyğun hərəkət etməyə başlayarsa manipulyasiya baş verər. Əgər informasiyanı qəbul edən şəxs şübhələnirsə, inadla öz mənəvi proqramını müdafiə edirsə, araşdırmaya meyllidirsə manipulyasiya qurbanı olmur. "Manipulyasiya zorakılıq deyil, tamahdır. Hər bir insana ruh azadlığı və iradə azadlığı verilir. Deməli, onun məsuliyyətli də öz üzərinə düşür − müqavimət göstərmək, tamaha uymamaq" (Kara-Murza, 2000).

**İctimai fikrin manipulyasiyasında media**

İctimai şüurun manipulyasiyası çox mürəkkəb və müxtəlifyönlü prosesdir.

Medianın kütləni manipulyasiya etməsi məqsədyönlü şəkildə müəyyən qüvvələrin xeyrinə hesablanır. Qəbul etdiyi informasiyanı qeyd-şətrsiz həqiqət kimi qavrayan auditoriya manipulyasiya obyektinə çevrilir. Manipulyasiya edilənlər çox vaxt bunun fərqində olmur. Manipulyasiyanın məqsədi insanların davranışlarını proqramlaşdırmaq və idarə etmək, onların müstəqil düşüncə tərzini, seçimini məhdudlaşdırmaqla güc və ya üstünlüyə nail olmaq, son nəticədə obyektin manipulyator üçün faydalı olan şəkildə davramasını təmin etməkdir. İstənilən manipulyasiya zərərlidir, manipulyator məqsədini və gerçək niyyətlərini gizlədərək, insanları başqa cür düşünməyə vadar edir, ideya və baxışlarını dəyişdirməyə cəhd edir. Bununla belə, manipulyator öz obyektində azad düşüncə və sərbəst seçim illüziyasını yaradır.

Manupulyasiya prosesində informasiyanın təqdimat tərzi də mühüm rol oynayır – bu məqsədlə faktlar məcazi mənada çatdırılır və auditoriyanın informasiyanı iki cür qavramasına şərait yaranır. Problemin yalnız müəyyən hissəsini işıqlandırıb sərfəli olmayan məlumatların gizli saxlanılması auditoriyanın rəyinə güclü təsir göstərir. İstifadə olunan başqa bir texnika hadisələrin ardıcıllığının düzülüşüdür – hadisələr manipulyatorun ehtiyac duyduğu ardıcıllıqla düzülür və ilk baxışdan faktlar düzgün çatdırılmış kimi görünsə də bu, auditoriyaya təsir edərək, manipulyatorun məqsədinə xidmət edir. Kütləvi informasiya vasitələrinin texniki imkanlarının təkmilləşdirilməsi, sadəlövh və asanlıqla təsirlənən kütləvi şüurun manipulyasiya meylini xeyli genişləndirir (Freyd, 1969). Kütlənin, adətən, hər hansı bir məsələ ilə bağlı formalaşmış vahid konkret fikri yoxdur, çünki o, nəzəri təfəkkürə uyğunlaşdırılmayıb, ona görə də nəticədə istənilən rəyi kənardan ona təlqin etmək lazım gəlir. İnformasiyanın məharətli manipulyasiya xüsusiyyəti kütləvi informasiya vasitələrinin imkanlarını demək olar ki, sərhədsiz edir.

Media manipulyasiyalarının səbəbləri olduqca müxtəlifdir və birmənalı qarşılanmır, G.V.Qraçov və İ.K.Melnik, öz araşdırmalarında bu səbəbləri üç əsas qrupa bölürlər:

- kütləvi informasiya vasitələri sahəsində çalışan şəxslərin fərdi psixoloji, şəxsi xüsusiyyətləri, siyasi üstünlükləri, rəğbətləri və s. ilə bağlı yaranan qərəzlilik və subyektivlikdən irəli gələn səbəblər;
- media sahəsinin siyasi, sosial-iqtisadi və təşkilati şərtləri ilə müəyyən edilən səbəblər (məsələn, konkret sosial subyektlətdən iqtisadi və inzibati asılılıq);
- Kütləvi İnformasiya Vasitələrinin fəaliyyət prosesindən asılı olan səbəblər: diqqət çəkmək və kütləvi auditoriyanı cəlb etmək məqsədilə media müəyyən mesajlar yayımlayarkən ümumi texnologiyaları rəhbər tutur (Grachev, Melnik, 1999).

İnkişaf etməkdə olan şəbəkəsi və istifadəçi sayı ilə sosial medianın müxtəlif yönləndirmə və təsirləri, yəni manipulyasiya vasitələri var. Əslində, sosial media müxtəlif kibertəhlükəsizlik riskləri daşıyır, çünki bu platforma milyardlarla insana öz fikirlərini senzura olmadan paylaşmağa imkan verir. Anonimliyin və saxta şəxsiyyətlərin mövcud ola biləcəyi bir platformada bu təhlükələr müxtəlif yollarla özünü göstərə bilər. Təhdidlərin göründüyü ortaq məxrəc yalan və yalan faktları ilə formalaşan manipulyasiyalardır (Tekke, Aybala, 202:49)

Müasir insan hər gün davamlı olaraq güclü informasiya axınının təsirinə düşür – televiziya və radioda xəbər bülletenləri, sosial şəbəkələrdəki yeniliklərlər, internet xəbər lentində tez-tez yenilənən reportajlar, təhlillər, məqalələr. Auditoriya ona ünvanlanan bütün məlumatları qəbul edir, çox vaxt müzakirə olunan hər hansısa məsələyə şəxsi münasibət, oxucunun öz rəyini formalaşdırmasına imkan belə olmur − medianın diktə etdiyi fikir avtomatik olaraq hakim mövqeyə keçir. Bir sözlə, informasiya insana təsir edərək onda hadisələrə və insanlara sosial yaxud psixoloji münasibət yarada bilər. İnsan psixikasının bu xüsusiyyətindən manipulyatorlar ictimai rəyi yönləndirməkdə məharətlə istifadə edirlər. İnsanların çox vaxt istənilən məlumatı dəqiqləşdirmədən, kor-koranə qəbul etmələri də minipulyasiya üçün əlverişli mühit yaradır.

Media manipulyasiyası mövzusu bu gün elm aləmində çox populyardır və tədqiqatçılar, xüsusən də burada terminoloji sahəyə böyük diqqət yetirirlər.

"Saxta xəbərlər"lə (fake news) bağlı müzakirələrin çoxu üç anlayışı birləşdirir: dezinformasiya, misinformasiya və malinformasiya.

- Dezinformasiya − bir şəxsə, sosial qrupa, təşkilata və ya ölkəyə zərər vermək üçün qəsdən yayımlanmış yalan məlumat.
- Misinformasiya − yalan, lakin zərər vermək niyyəti daşımayan məlumatlar.
- Malinformasiya − reallığa əsaslanan, şəxsə, təşkilata və ya ölkəyə zərər vurmaq üçün qəsdən istifadə olunan məlumat (Derakhshan, Wardle, 2017:9).




*Derakhshan Hossein, Wardle, Claire. (2017). Information Disorder: Definitions. Understanding and Addressing the Disinformation Ecosystem. Annenberg School for Communication: 9*

Doğru informasiyanı yalan xəbərdən seçmək vacib olsa da, bu heç də həmişə uğurla nəticələnmir. Qarabağ probleminin alovlanmasını dünyanın bir sıra media orqanları və siyasi xadimlər Sumqayıt hadisələri ilə əlaqələndirirlər. Daha sonra azərbaycanlıların Ermənistandan kütləvi şəkildə qovulması, Birinci Qarabağ müharibəsi, Qarabağ və 7 ətraf rayonun işğalından söhbət açılır. İlk baxışdan hadisələr sadalansa da, ardıcıllığın pozulması auditoriyanın çaşdırılmasına, nəticədə yanlış rəy formalaşmasına səbəb olur. Halbuki Sumqayıtda elə erməni terrorçularının təşkil etdiyi hadisələrdən öncə azərbaycanlıların acınacaqlı formada Ermənistanda dədə-baba yurdlarından qovulması faktı qəsdən gizlədilirdi. Bu da region hadisələrindən az məlumatlı olan kütləvi auditoriyanın manipulyasiya hədəfi olması ilə nəticələnir. Təbii ki, yenə tənqidi təfəkkür tərzi, araşdırma vərdişləri olan şəxslər tarixi faktları öyrənməklə gerçək informasiyanı manipulyasiyadan seçə bilirlər.

**Manipulyasiyanın təsirindən qorunmada media təhsilinin önəmi**

Media təhsili və informasiya savadlılığı xüsusilə kütləvi informasiya vasitələrinin bəzən manipulyasiya alətinə çevrilməsi təhlükəsi ilə qarşı-qarşıya olduğumuz dövrdə daha önəmlidir.

Deməli, ictimai rəyi mediamanipulyasiyanın təsirindən qorumaq üçün öz fərdi baxışını manipulyasiyadan uzaq tutmağı bacarmalısan. Manipulyatorlardan qorunmağın bir neçə yolu ayırd edilir:

1. Media ilə kontaktın azaldılması – manipulyasiya ehtimalı olan mühitdə mümkün qədər az olmaq onun təsir gücünü də azaldır. Gündəlik informasiya bir çox məlumat mənbələrində eyni cür təqdim olunur. Eyni gündəmi çoxsaylı internet-portallardan, müxtəlif telekanallardan izləməyin mənası yoxdur. Məlumatı aldıqdan sonra onu müstəqil olaraq analiz etmək, hadisənin keçmişi də daxil olmaqla bir sıra dəqiqləşdirmələr aparmaq daha faydalıdır. Ancaq bundan sonra medianın nəyi necə təqdim etməsini izləmək olar.
2. Əlavə səs-küyün nəzərə alınmaması − manipulyasiya prosesində insanı çaşdıran hadisənin özündən çox doğurduğu əlavə səs-küydür. Bu vaxt əsas informasiyadan əlavə adresat kiçik kənar mesajlar axınına məruz qalır. Bəzən bu, diqqəti əsas vacib problemdən yayındırır. Buna görə də informasiya alarkən əsas lazımlı məlumatlar vurğulanmalı, beyin kənar küydən təmizlənməlidir.
3. Emosiyaların idarə olunması – manipulyasiya prosesində bir qayda olaraq emosional stereotiplərdən geniş istifadə edilir. Bunu nəzərə alaraq, təqdim edilən informasiyanın hisslərə

yönələn tərəfini soyuqqanlı qəbul etmək, duyğuları deyil, faktları təhlil edərək qərar vermək lazımdır.

4. İnformasiyada verilənlərə skeptik yanaşma – gün ərzində oxuduğumuz, eşitdiyimiz, izlədiyimiz bütün informasiyaları qeyd-şərtsiz qəbul edib hamısını reallıq kimi dəyərləndirmək manipulyasiya üçün münbit şərait yaradır. Hər bir şəxs informasiyaya skeptik yanaşmaqla faktları təsdiqləmək ehtiyacı duymalı, müqayisəli təhlillər aparmaqla gerçəyi üzə çıxarmalıdır.

Əslində insanlar medianın təsir gücünü anlayır, onun şüurun idarə olunmasındakı rolunu qəbul edir, amma təəssüf ki, auditoriya heç də həmişə kütləvi media manipulyasiya ilə düzgün mübarizə aparmağı bacarmır. Bu səbəbdən də media manipulyasiyanın hüdudları genişlənməkdə davam edir. Yalnız tənqidi təfəkkür tərzinin inkişafı, hadisələrin təhlili və stereotiplərin qırılması manipulyasiyaya uğramaqdan qoruya bilər. Araşdırmaçıların fikrincə, məlumatın məzmunu insanların onu etibarlı hesab edib-etməməsinə təsir göstərə bilər. Zəif arqumentlər, etibarsız mənbələr, düzgün olmayan qrammatika və köhnəlmiş formatlar insanların məlumatı etibarlı hesab edib-etməməsinə təsir göstərə biləcək xüsusiyyətlərə misaldır (Stroud, Thorson, Young, 2017:45).

Media manipulyasiyanın gücü durmadan artır, təəssüf ki, auditoriyanın böyük kəsimi bununla mübarizə aparmaq gücündə deyil. Tənqidi-analitik yanaşma, stereotiplərdən kənar azad sorğulayıcı düşüncə tərzinin formalaşması media manipulyasiyanın qarşısını ala bilər. Media insanların inkişafına və daxili aləminə təsir gösrtərən əsas informasiyaların qaynağı olaraq önəmli yer tutur. Çağdaş dünyada informasiyaya əngəlsiz çatımlılıq məlumat bolluğu ilə yanaşı, manipulyasiyaya da geniş meydan verir. Buna baxmayaraq, media manipulyasiyadan qorunmağın yolları da mövcuddur. Adresat qəbul etdiyi bütün informasiyalara – oxuduğu, eşitdiyi və gördüyü bütün məlumatlara daha ciddi yanaşsa və tənqidi təfəkkür süzgəcindən keçirsə, şüurun manipulyasiyası daha çətin olar. Beləliklə, ictimai rəy təkcə medianın deyil, fərdlərin birbaşa iştirakı ilə formalaşa bilər.

Avropa Şurasının sənədlərində "media təhsili (media education) aldığı məlumat əsasında öz fikrini formalaşdıra bilən məsuliyyətli vətəndaşların yetişdirilməsi məqsədilə mediaya tənqidi münasibətin və media səriştəsinin inkişaf etdirilməsinə yönələn təlim kimi müəyyən edilir. Bu, onlara lazımi məlumatlardan istifadə etmək, təhlil etmək, onunla əlaqəli olan iqtisadi, siyasi, sosial və ya mədəni maraqları müəyyən etmək imkanı verir. Media təhsili fərdlərə mesajları şərh etmək və yaratmağı, ünsiyyət üçün ən uyğun media orqanını seçməyi öyrədir. Media təhsili insanlara ifadə və məlumat azadlığı hüquqlarını həyata keçirməyə imkan verir ki, bu da təkcə şəxsi inkişafa kömək etmir, həm də sosiallığı və interaktivliyi artırır. Bu mənada media təhsili demokratik vətəndaşlığa və siyasi anlaşmaya hazırlayır. Media təhsilini ömürboyu təhsil konsepsiyasının tərkib hissəsi kimi inkişaf etdirmək lazımdır" (Avropa Şurası, 2000).

Nüfuzlu media pedaqoqlarından və media nəzəriyyəçilərindən biri L.Masterman müasir dünyada media təhsilinin prioritet və aktuallığının yeddi səbəbini əsaslandırıb:

1. Mediadan istifadənin yüksək səviyyəsi və müasir cəmiyyətlərdə kütləvi informasiya vasitələrinin çoxluğu;
2. Kütləvi informasiya vasitələrinin ideoloji əhəmiyyəti və bir sənaye sahəsi kimi auditoriyanın şüuruna təsiri;
3. Media informasiyasının həcminin sürətlə artması, onun idarə edilməsi və yayılması mexanizmlərinin güclənməsi;
4. Medianın əsas demokratik proseslərə nüfuzunun intensivliyi;
5. Vizual ünsiyyətin və informasiyanın bütün sahələrdə əhəmiyyətinin artırılması;
6. Gələcəyin tələblərinə uyğun məktəblilərin/tələbələrin hazırlanmasının vacibliyi;
7. İnformasiyanın özəlləşdirilməsi ilə bağlı milli və beynəlxalq proseslərin güclənməsi (Masterman, 1985:2).

Tənqidi təfəkkürü təbliğata qarşı mübarizə forması kimi inkişaf etdirmək önəmlidir. Gənclərdə məsuliyyət hissini də aşılamaq lazımdır ki, onlar sosial mediadan necə istifadə etdiklərini düşünməli, sosial media paylaşımlarının nəticələrindən xəbərdar olmalı və ən əsası tənqidi qəbul etməyi öyrənməlidirlər. "Daha yüksək media savadlılığı olan auditoriyanın media dünyasını anlaması, idarə etməsi və qiymətləndirməsi daha yüksək səviyyədə olur" (Potter, 2001:12).

Media təhsili gəncləri medianın təsirindən təcrid etməyə və beləliklə, onları "ən yaxşı təcrübələrə" yönəltməyə çalışmır, onlara "müdafiə olunmaları" ilə bağlı əsaslandırılmış qərarlar qəbul etmək imkanı verir. Media təhsili müdafiə forması kimi deyil, hazırlıq forması kimi nəzərdə tutulur" (Bukingem, 2003:13).

## Nəticə

Əlbəttə ki, ilk dəfə yaradılanda sosial şəbəkələr siyasi və ya manipulyasiya aləti kimi düşünülməmişdi: dostlar və yaxınlar arasında ünsiyyət üçün azad və demokratik məkana çevriləcək, istifadəçilərin kitablar, filmlər, musiqi, səyahət, sevimli ev heyvanlarının, bitkilərin foto və videolarını yerləşdirəcəkləri platforma kimi nəzərdə tutulmuşdu. Lakin sosial şəbəkələr çoxmilyonluq auditoriya toplayan kimi dərhal biznes və siyasətin maraq dairəsinə çevrildi. Bu gün sosial şəbəkələr informasiyanın, o cümlədən yalan məlumatların kütləvi təbliğinin sürətli və nisbətən ucuz yolu kimi getdikcə daha çox istifadə olunur. Nəticədə sosial şəbəkələr həm də müxtəlif siyasi və reklam saxtakarlıqlarının mənbəyinə çevrilir.

Media təhsilinin kütləvi və sistemli şəkildə aparılması, yalnız ali təhsil müəssisələrinin Jurnalistika ixtisası üzrə təhsil alan tələbələri üçün deyil, orta məktəb şagirdləri üçün də media dərslərinin təşkili manipulyasiyanın qarşısının alınmasında böyük rol oynaya bilər.

## Ədəbiyyat

1. Məhərrəmli, Q., Şıxlı, E. (2016). Jurnalistika terminləri lüğəti. Bakı: Altun Kitab.
2. Yilmaz, H. (2018). Manipulation Scale in Human Relationships. Manas Journal of Social Research, Issue 4.
3. Gultekin, M. (2016). Perception management and manipulation. Pinar Publications.
4. Kara-Murza Sergey Georgiyevich. (2000). Manipulyatsiya soznaniyem. Moskva.
5. Freyd, Z. (1969). Mass psychology and analysis of human «Ya». Freyd 3. Selected. T.l.L: Academic Press.
6. Grachev, G., Melnik, I. (1999). Personality manipulation: organization, methods and technologies of informational-psychological influence. M.: RAN.
7. Tekke, A., Aybala, L. (2021). Ethics in Social Media, Information Manipulation, and Cyber Security. https://dergipark.org.tr/tr/download/article-file/1845538
8. Derakhshan, H., Wardle, C. (2017). Information Disorder: Definitions. Understanding and Addressing the Disinformation Ecosystem. Annenberg School for Communication, p.5-12. https://firstdraftnews.org/wp-content/uploads/2018/03/The-Disinformation-Ecosystem-20180207-v3.pdf
9. Stroud, N.J., Thorson, E., Young, D. (2017). Making Sense of Information and Judging its Credibility. Understanding and Addressing the Disinformation Ecosystem. Annenberg School for Communication, p.45-50. https://firstdraftnews.org/wp-content/uploads/2018/03/The-Disinformation-Ecosystem-20180207-v3.pdf
10. Masterman Len. (1985). Teaching The Media. Routledge. http://ndl.ethernet.edu.et/bitstream/123456789/58699/1/16pdf.pdf
11. Potter James, W. (2001). Media literacy. SAGE Publications, 422 p.
12. Bukingem, D. (2003). Media Education: Literacy, Learning, and Contemporary Cultures. https://www.researchgate.net/publication/242298855_Chapter_Three_of_Media_Education_Literacy_Learning_and_Contemporary_Culture

Göndərildi: 17.09.2022 Qəbul edildi: 26.10.2022

ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 1.790. 2022 / Cild: 16 Sayı: 11 / 27-32 ISSN:2663-4619
SCIENTIFIC WORK International scientific journal. Impact Factor: 1.790. 2022 / Volume: 16 Issue: 11 / 27-32 e-ISSN: 2708-986X

DOI: https://doi.org/10.36719/2663-4619/84/27-32

**Günay Şakir qızı Süleymanova**
Azərbaycan Dillər Universiteti
gunayshakir83@gmail.com

# İNGİLİS DİLLİ HƏRBİ DİSKURS

**Xülasə**

Diskurs yazılı və şifahi nitqdə özündə verbal və qeyri-verbal (ən geniş mənada) vasitələri birləşdirən mətn və kontekstdir. Diskurs müəyyən zaman və məkan vəhdətində yaranır, mövcud olur və onu yaradan situasiya (konkret insanlardan geniş mənada sosial mühitə qədər) dəyişdikdə onun qavranılması, yəni ilkin diskursiv mənasının dərki də dəyişir.

Diskursun həcmi barədə vahid fikir mövcud deyil. Diskursda mikro və makro-struktur fərqləndirilir ki, bu da onu həcm baxımından ən müxtəlif səviyyələrdə nəzərdən keçirməyə imkan verir.

For example, Russia and Iran signed a roadmap for cooperation in trade and industry until 2020. The five-year "road map" between Russia and Iran for the development of industry involves the implementation of more than 70 projects in the field of mechanical engineering and the supply of high-tech equipment. A contract was also signed for the construction of two new power units of the Bushehr nuclear power plant in Iran. The implementation of the Bushehr-2 project will take 10 years. The launch of the second unit is scheduled for October 2024; the third unit will be launched in April 2026. The general contractor for the Bushehr-2 project is ASE JSC. Iran is trying to maintain a favorable balance of relations with Russia, pursuing a restrained policy in the Balkans, Central Asia (Tajikistan), Afghanistan, Syria and the Caucasus.

The main results ofthe close Iranian-Russian strategic cooperation were:

1) the US plan to establish controlover Eurasia has not been implemented;
2) there was a change in the balance of power between the West and the East. Russia and Iran have changed the geopolitical and military-strategic situation in the region. The US failed to establish full control over the Middle East;
3) attempts of coup d'état in Tajikistan, Uzbekistan, Kazakhstan were prevented;
4) the plan of the US and NATO to establish pro-American regimes in the South Caucasus and send troops to the Caspian zone was thwarted;
5) armed aggression against Iran has been prevented;
6) organized joint defense ofthe Syrian state;
7) prerequisites for the restoration of Islamic civilization and its Arab core have been created;
8) the process of returning refugees from Syria and Iraq and restoring statehood has been launched.

This positive backlog of Iranian-Russian strategic cooperation requires increased efforts, as the world situation is becoming more complicated. The visit of Russian President Vladimir Putin to Tehran in July 2022 once again confirms that Russia has partners interested in cooperation in the region. During the working visit, Vladimir Putin met with Iranian Rahbar Ayatollah Ali Khamenei, Iranian President Ibrahim Raisi and Turkish President Recep Tayyip Erdogan. A whole range of important regional and global problems was discussed − the fight against terrorism, drug trafficking and organized crime, as well as economic cooperation. Ambitious infrastructure projects have been discussed with Iran, including the North-South route, which involves the creation of a large land transport corridor from Russia to the Persian Gulf and India (10).

The visit resulted in the signing of 8 bilateral Russian-Iranian agreements on cooperation in the field of transit transportation, science and culture, sports, energy, agriculture and trade and economic exchange. For example, Iran's oil company signed a $40 billion deal with Russia's state gas company Gazprom. The deal provides for the development of gas fields on the Iranian island of Kish, the development of the Iranian oil fields "North Pars" and "South Pars", as well as the development of 6 other oil fields, the exchange of gas, oil and gas products, the completion of LNG projects and the construction of export gas pipelines.

**China**

China is attracting the Iranian leadership as the most important political component of its policy in the Asian region, capable of helping not only to strengthen the Iranian economy and defense capability, but also to advance Iran's interests onthe world stage.

There are common views between Iran and China on a multipolar model of the world order, in which there will be several centers of power linked by strategic partnership. It can be assumed that the model along the China-Iran-India-Russia axis can become such a framework for a new bloc of Asian countries. To counter US sanctions, Iranian officials see China's BRI (One Belt, One Road) initiative as an opportunity for greater integration into Western Asia. So, on March 25,2021, an Iranian-Chinese agreement on comprehensive cooperation was signed in Tehran for a period of 25 years, for a total amount of $400 billion. The agreement implies cooperation between countries in twenty different areas, including in the field of economy, politics and culture, as well as in the field of military cooperation and the development ofthe defense industry(Sciolino, 2006:18).

The main priorities of the Iran-China pact:

- ensure multi-billion investments in the economy and guarantees for the sale of Iranian oil outside the framework of sanctions or various market excesses;
- to create a zone free from dollar settlements and a cluster that has resource, technological, financial potential and is clearly anti-American in nature;
- is a key link in the Chinese BRI project, as its land and sea sections are combined. China gains strategic advantages in the global race with the US and the PLA becomes the guarantor of the securityof transit routes;
- BRI is a unique opportunity for the Iranians, since the mega-project is one of the main foreign policy ambitions of Chinese President Xi Jinping, who is likely to insist on its implementation as long as he is in power;
- No Gulf state or outside power can ignore China's growing role in the Gulf, and no Arab statecan deal with China without considering the risks that the PRC could expand its military ties with Iran (13).

**India**

The main priorities of Iran's foreign policy towards India are:

- trade and economic cooperation in the areas of transport, metallurgy and energy, including nuclear, in the oil and gas and chemical industries;
- cooperation in cultural and religious relations - the Iranian authorities focus on the need to jointly counter the onslaught of Western lack of spirituality with the traditional humanistic values of Eastern civilizations and cultures, pointing to the antiquity of the Iranian and Indian states, their contribution to world culture and the traditionally important role that each of them played in the region and the world;
- cooperation in the field of combating the production and distribution of drugs at the regional level;
- cooperation in the field of defense industry.

Currently, India is interested in developing the infrastructure of the Iranian strategic port of Chabahar, the total cost of the project is $150 million. This strategic port, located off the southeast coast of Iran, will provide India with an access route to Afghanistan, bypassing Pakistan. There are also plans to use the port of Chabahar in cargo transportation along the ITC "North-South".

Recently, there have been active negotiations between Iran and India on laying a gas pipeline from Iran to India. Two projects are being discussed: the first is the construction of an onshore gas pipeline 1,000 km long, which will pass through the territory of Pakistan; the second is laying a (direct) gas pipeline on the seabed, bypassing Pakistan. In connection with the existing tension in the Indo-Pakistani relations, India is leaning towards the sea version of the project. However, no final solution has yet been found.

Based on the above configuration of Iran's foreign policy, it is possible to present predictive scenarios for the development of the foreign policy of the Islamic Republic of Iran in the short and medium term. Table 1 shows the conditions for the de-escalation of the situation around Iran in 2022. The predictive estimate was compiled based on the results of an online survey of experts using the Delphi method in February 2022.

115 people took part in the interviews. From: Kazakhstan – 15; Kyrgyzstan – 10; Tajikistan – 9; Turkmenistan – 6; Uzbekistan – 11; Belarus – 7; RF – 18, Georgia – 3; France – 3; Poland – 4; Spain – 5; Germany – 9; Great Britain – 7; Italy – 8.

**Table 1.**
**Conditions for the de-escalation of the situation around Iran in 2022.**

| № | Terms | Assessment |
|---|---|---|
| 1 | The return of the US and Iran to the nuclear agreement and the lifting of sanctions against the oil and financial sectors of the Iranian economy. | Most likely |
| 2 | The Iranian government maintains internal political stability in the country. | Most likely |
| 3 | Unprovoked from Iran's regional adversaries. | Unlikely |
| 4 | Achievements an informal agreement between Iran and Saudi Arabia to resolve the conflict in Yemen. | Likely |
| 5 | Restoration of diplomatic relations between Iran and Saudi Arabia. | Unlikely |
| 6 | Maintaining the political status quo in Iraq and Syria | Likely |
| 7 | The Taliban government in Afghanistan suppresses terrorist activities and mass emigration fromthe country. | Likely |
| 8 | Creation of a security institution analogous to NATO in the Middle East region. | Unlikely |

*Source: Author's version of the Delphi online survey of experts in 2022.*

## Conclusion

The article revealed the image of modern Iran in the new architecture of international relations, how the state became universal, analyzed the basic principles of Iranian foreign policy. We reviewed my three author's predictive scenarios for the development of events around the JCPOA, analyzed relations with the Middle East, the Middle East, as well as the Caucasus region, the Central Asian countries, Iranian-Russian-Chinese-Indian relations. Based on the above configuration of Iran's foreign policy in this article, I tried to present predictive scenarios for the development of the foreign policy of the Islamic Republic of Iran in the short and medium term, and we also considered Iran's political and economic interactions with the countries of the Middle East, the Caucasus and Central Asia and assessed what is happening currently.

Lastly, I would like to assess the policy of NATO countries and their allies in the Middle East until 2025.

*First.* Given the current situation in Ukraine and the imposition of tough sanctions against Russia, including on the supply of energy resources, mineral fertilizers and other goods to Europe, US policy will be aimed at preventing an energy collapse in Europe.

*Second*. In the short and medium term, the United States will not be able to provide military support to someone, since the main emphasis on the distribution of military resources of NATO countries will be aimed at supporting the armed conflict in Ukraine and countering China in the Asia-Pacific region.

## References

1. Abrahamian, E. (1993). Khomeinism. Essays on the Islamic Republic – Berkeley. University of California Press, p.48.
2. Sanaei, M. and Karami, J. (2021). Iran's Eastern Policy: Potential and Challenges Russia in Global Affairs. № 3, July/September. Website Russia in Global Affairs. https://eng.globalaffairs.ru/articles/irans-eastern-policy
3. https://www.rbc.ru/politics/27/03/2022/623fd22a9a79476c4b077e8d
4. Həsənov, Ə. (2005). "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti". Bakı, 631 s.
5. https://ria.ru/20220723/vizit-1804442406.html
6. Eugene whitlock (Ed). (2003). Iran and It is Neighbors: Diverging views on a strategic region. July, Berlin, p.100.
7. Quluzadə, V. (1999). "Gələcəyin üfüqləri (Azərbaycan Respublikasının xarici siyasəti barədə mülahizələr". https://lenta.ru/news/2022/07/23/better
8. "Azərbaycan bu günü və sabahı" jurnalı". (2007). № 5, s.29-38.
9. https://eadaily.com/ru/news/2022/07/20/chto-sblizhaet-rossiyu-turciyu-i-iran
10. https://eadaily.com/ru
11. Serdar, Y. (2017). A Model of Economic Development in Asia: Eurasian Economic Union, Electronic Journal of Political Science Research. Vol. 8, № 1, pp.63-74.
12. Sciolino, E. (2006). Iran Proposes New Talks with Europeans Who Are Mostly Dismissive. January 18, New York Times 69/23.
13. http://www.aerc.eu/DOCS/Bird_taxa_of_the_WP15.xls.Checked: 11/5/2007

**Rewiever: Phd of International Relations**
**Amir Mohammad Haji-Yousefi**

Received: 16.09.2022 Accepted: 03.11.2022

DOI: https://doi.org/10.36719/2663-4619/84/44-48

**Nigar Rəhman qızı Hüseynova**
Bakı Biznes Universiteti
doktorant
nigarrahmanovna@gmail.com

# QİDA MƏHSULLARINA İNVESTİSİYALARIN CƏLB EDİLMƏSİNİN STİMULLAŞDIRILMASI

**Xülasə**

Qida məhsullarının istehsalının və məhsul istehsala qədərki bütün mərhələlərinin modernləşdirilməsi bilavasitə yeyinti sənayesinin inkişaf etməsinə təsir edir. Yeyinti sənayesinin modernləşdirilməsi prosesi dedikdə isə müasir texnologiyalardan istifadə edilməsi və istehsal prosesinin innovasiyalaşdırılması başa düşülür və ilk növbədə investisiyaların cəlb edilməsini özündə ehtiva edir.

Yeyinti sənayesinə investisiyaların cəlb edilməsi prosesi və onun stimullaşdırılması, eyni zamanda qeyri-neft sektorunun inkişafında təsir edir. Yeyinti sənayesində investisiyaların cəlb edilməsi mahiyyət etibarilə yeni məhsulun yaradılmasına və bütövlükdə iqtisadiyyatda yeni dəyərin formalaşmasına bilavasitə istiqamətlənir. Dünya təcrübəsində də göstərilir ki, yeyinti sənayesinə investisiyaların qoyuluşu istehsal edilən məhsulun həcminin artmasına və eləcə də, qlobal bazarda əhəmiyyətli yer tutmalarına şərait yaradır. Yeyinti sənayesi məhsullarının bazarı kifayət qədər parçalanmış xarakter daşıyır. Bu sahədə transmilli şirkətlərin fəaliyyət sahəsində genişlənməkdə davam edir. Lakin transmilli şirkətlər dünya bazarında sənaye məhsulları ilə bağlı öz seqmentlərini, daha doğrusu, paylarını sürətlə artırmaqda maraqlıdırlar. Odur ki, respublikamızda qida sənayesi müəssisələrinə investisiya qoyuluşlarının həyata keçirilməsi, eləcə də bu sahəyə xarici investisiyaların cəlb edilməsi və bu məqsədlə zəruri stimullaşdırıcı tədbirlərin görülməsi vacib şərtlərdəndir.

***Açar sözlər:*** *yeyinti sənayesi, investisiya, stimullaşdırma, qida məhsulları, emal*

**Nigar Rahman Huseynova**

## Promoting foreign investment in food products

**Abstract**

Modernization of the production of food products and all stages before production directly affects the development of the food industry. The process of modernization of the food industry means the use of modern technologies and the innovation of the production process, and it primarily includes the attraction of investments.

The process of attracting investments to the food industry and its stimulation also affects the development of the non-oil sector. Attracting investments in the food industry is essentially directly directed to the creation of a new product and the formation of new value in the economy as a whole. The world experience also shows that investing in the food industry creates conditions for the increase of the volume of the produced products and also for them to take a significant place in the global market. The market of food industry products is quite fragmented. But multinational companies are interested in rapidly increasing their segment of industrial products in the world market. Therefore, the implementation of investments in food industry enterprises in our republic, as well as the attraction of foreign investments in this field and the implementation of necessary stimulating measures for this purpose are important conditions.

***Keywords:*** *food industry, investment, stimulation, food products, processing*

## Giriş

Ərzaq təhlükəsizliyinin təmin edilməsi hər bir dövlətin prioritet vəzifələrindən biridir. Bununla əlaqədar bütün ölkələrdə müxtəlif komplekslərin yaradılması ilə bu sahədə ən səmərəli yollar, müasir mexanizmlər təkmilləşdirilir. İnsanların ərzaq məhsullarına olan tələbatı bu sahənin formalaşmasında əsas amil olmuşdur. Akademik Z.Ə.Səmədzadənin də qeyd etdiyi kimi, tarix boyu insanları düşündürən mühüm problemlərdən biri əhalinin ərzaqla təminatı məsələsi olmuşdur (Səmədzadə, 2009: 271). Ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək üçün qida məhsullarının keyfiyyət standartlarına və qida təhlükəsizliyinə uyğun istehsal edilməsi vacibdir (Numanoghlu, 2020:11).

Hər bir ölkənin ərzaq problemi onun aqrar-ərzaq kompleksinin aşağı səmərəliliyi ilə bağlıdır, bu da iqtisadi problemlərə gətirib çıxarır. Bunun üçün xüsusi istehsal planlaşdırılması və proqnozlaşdırılması qida məhsullarının artırılmasına təkan verə bilər (Quliyev, 2020:370). Ərzaq təhlükəsizliyinin həll edilməsi dövlətlərin iqtisadi müstəqillitini təmin edir. Özünün milli iqtisadiyyatını təmin edən hər bir ölkə öz ərzaq təhlükəsizliyini təmin edə bilir. Ərzaq təhlükəsizliyi ölkənin daxili resursları hesabına əhalini zəruri ərzaq məhsulları ilə təmin edə bilməsidir (İbrahimov, 2016: 161). Ərzaq təhlükəsizliyinin təmin edən əsas sahə yeyinti sənayesidir. Həmçinin kənd təsərrüfatı məhsullarının kompleks inkişaf etdirilməsi hesabına yeyinti sənayesinin də inkişafını təmin etmək olar.

Ərzaq təhlükəsizliyi əhali üçün lazım olan qidaların lazımi miqdarda təmin olunmasıdır. Bu səbəbdən ərzaq təhlükəsizliyini əhalinin qida ehtiyaclarının ödənilməsinə zəmanət vermə qabiliyyəti kimi də qəbul etmək olar (Gordienko, 143:2009). İstehlakçılar bu prosesdə əsas rol oynadığından onların tələbatındakı dəyişiklik istehsal prosesinə də təsir göstərir. Bu sadəcə prosesin gedişatında deyil, həmçinin qiymətlərdə də dəyişikliyə səbəb olur (Aday, 2020:16).

Hər bir sahədə olduğu kimi, yeyinti sənayesində də davamlı iqtisadi inkişafın əsas təminatında investisiya və innovasiya fəaliyyəti mühüm rol oynayır. İnnovasiya və investisiya hesabına yeni məhsul növləri yaradılır. M.K.Vlasov da öz əsərində qeyd edir ki, yeni texnologiyalar və daha da inkişaf etmiş sistemlər tətbiq olunduqda yeni məhsul növləri meydana çıxır və yeni ərzaq bazarının formalaşmasına gətirib çıxarır. (Vlasov, 2017:104). A.F.Abbasovun qeyd etdiyi kimi, ərzaq bazarı yeyinti və ərzaq məhsullara olan tələbatın təmin edilməsi və həmçinin tələblə təklif arasındakı iqtisadi münasibətlərdir (Abbasov, 2007:325).

İnvestisiya şəraiti sənaye sahələrinin intensiv inkisafı və iqtisadi artımının, iqtisadi təhlükəsizliyin, rəqabət qabiliyyətinin təmin edilməsində, bir çox sosial-iqtisadi problemlərin həllində ölkədəki investisiya şəraiti vacib şərtlərdən biri hesab edilir. Təsadüfi deyildir ki, 1995-ci il 13 yanvarda qəbul edilmiş "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu (9) investisiyanın ölkənin iqtisadiyyatına intensiv şəkildə cəlb olunmasına, habelə beynəlxalq iqtisadi əməkdaşlığın və inteqrasiyanın inkişafı üçün səmərəli istifadə edilməsinə yönəldilmişdir. Bu qanunda qeyd olunur ki, investisiya − gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intelektual sərvətləridir (Maddə 32, 9.8). İnvestisiya qoyuluşunun alternativ istiqamətləri uzun müddətli istifadə olunan malların, yaxud daşınmaz əmlakın alınması, maddi-texniki bazarın yeniləşdirilməsindən, istehsal fəaliyyətinin genişləndirilməsindən, yeni iş yerlərinin yaradılması və biznesin dəstəklənməsindən irəli gəlir.

İnvestisiya qoyuluşu risklərlə əlaqədardır və düzgün istiqamətlərin seçilməsi daha yüksək gəlir əldə etmək barədə ehtimal, fərziyyə deməkdir. Sahibkar tərəfindən investisiya qoyuluşu müəyyən edilərkən innovasiya obyekti üzrə riskin və vəsaitin mənbəyinin müəyyənləşdirilməsi, investisiyanın tipinin seçilməsi, investisiyanın qoyulması kimi bir sira şərtlər nəzərə alınır.

Yeniliklər həyata keçirilərkən yeyinti sənayesi müəssisələrinin maliyyə vəziyyətinin təhlili investisiya qoyuluşu zamanı xüsusi əhəmiyyətə malikdir. Yeniliklər həyata keçirilməzdən əvvəl və sonra həmin müəssisənin vəziyyətini əks etdirən xüsusi göstəricilər və əmsallar sistemi əsas götürülür. Bu məqsədlə satılabilmə və alıcılıq qabiliyyəti göstəriciləri, habelə səhmdar kapitalından istifadənin vəziyyəti geniş analiz edilməlidir.

İnvestisiyaların axının milli iqtisadiyyatda gücləndirilməsi ölkənin iqtisadi siyasətinin əsas istiqamətlərindəndir. İnvestisiya siyasətinin əsas elementlərindən biri elm tutumlu sahələrin inkişafının intensivləşdirilməsi, başqa sözlə, innovasiyaların dəstəklənməsidir (Hüseynov, 2009:60). İqtisadi siyasətin əsas istiqamətlərindən biri yeyinti sənayesinə investisiyaların cəlb edilməsinin gücləndirilməsidir. Azərbaycanda investisiya siyasətində əsas meyl xammalla − material ehtiyatlarının yeni texniki və texnologiyalar əsasında emal olunması, yüksək keyfiyyətli, rəqabət qabiliyyətli son hazır məhsul kimi ixrac potensialının artırılmasına istiqamətləndirilməlidir. Bu yeyinti sənayesinin çoxsahəli olduğu üçündür.

Dünyanın inkişaf etmiş ölkələrinin təcrübələrindən də istifadə etmək qida məhsullarının istehsalı sektoruna investisiya proseslərini həyata keçirərkən vacib şərtlərdəndir. Məsələn, ABŞ və İngiltərə təcrübəsindən yanaşdıqda belə nəticəyə gəlmək olar ki, yeni yaradılmış məhsulu qlobal bazarlara ixrac edərkən əhalinin zövqunə uyğun məhsul çeşidlərindən, eləcə də onların qablaşdırılması prosesindən istifadə edilir. Məhsulların qablaşdırılması zamanı istifadə edilən etiketlərdən yeni məhsulların qablaşdırılması zamanı istifadə edilmir. Bu da istehlakçılarda yeni zövq və yeni məhsula maraq yaradılmasına səbəb olur. Bundan əlavə, prioritet hesab edilən müəyyən xüsusiyyətlər də yeyinti sənayesinə investisiyaların cəlb edilməsi zamanı nəzərə alınmalıdır. Bunlar, ilk növbədə, yuxarıda qeyd etdiyimiz kimi şərtlər ənənəvi bazarlardan fərqli olaraq yeni bazarlara daxil olma baxımından müəyyən üstünlüklər vəd edir. Təkcə istehsalın, yəni istehsal axın xətlərinin modernləşdirilməsi deyil, bütövlükdə müəssisənin təsərrüfat fəaliyyətinin modernləşdirilməsi də vacib şərtlərdəndir. Elmi texniki tərəqqinin tədbiqini stimullaşdırmaq üçün yeni mexanizmlər yeni elmi fikirlərin yaranmasına və onların yeni texnologiyaya çevrilməsinə təkan verir (Egorshin, 2008:32).

Dövlətin aqrar sahədə investisiya siyasətinin ən mühüm motivlərindən biri aqrar sahədə investisiya cəlbediciliyinin stimullaşdırılmasıdır. Məhsul istehsalının və keyfiyyətinin artırılması yolu ilə rəqabətədavamlı aqrar bölmə yaradılması dövlətin aqrar sahədə investisiya siyasətinin başlıca məqsədidir. Azərbaycanın kənd təsərrüfatı istehsalının səmərəliliyini artırmaq və beləliklə də öz müqayisəli üstünlük mövqelərini təkmilləşdirmək potensialına malikdir. Dövlətin investisiya siyasətinin prioritet istiqamətlərindən biri də aqroemal müəssisələrinin yenidən qurulmasına yardımın təmin edilməsidir.

Belə nəticəyə gəlmək olar ki, dövlətin aqrar sahədə investisiya siyasəti kifayət qədər çoxşaxəli bir problemi özündə əks etdirir. Bu, ilk növbədə, kənd təsərrüfatı məhsulları istehsalının artırılması və onun səmərəliliyinin yüksəldilməsi ilə bağlı olmaqla yanaşı, eyni zamanda aqrar emal müəssisələrinin modernləşdirilməsini özündə ehtiva edir və eləcə də kənd təsərrüfatında suvarma və drenaj şəbəkəsini, meliorasiya tədbirlərinin gerçəkləşdirilməsi də daxil olmaqla, bütövlükdə insional mexanizmlərini də öz əhatə dairəsinə alır.

Beləliklə, yuxarıda qeyd edilənləri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, aqrar sahədə investisiya cəlbediciliyinin stimullaşdırılması istiqamətlənmiş tədbirlərin özü də kifayət qədər mürəkkəb və çoxşaxəli bir prosesdir. Belə ki, bu prosesin tərkibinə aqrobiznes şəbəkəsinin müasir dünya standartlarına uyğunlaşdırılması və onun yenidən qurulması təşkil edir.

İlk növbədə, qida məhsulları bazarına daxil olmaq və bu bazarda möhkəmlənmək investisiya cəlbediciliyinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlərin əsas məqsədini təşkil etməlidir. Bu baxımdan investisiyaların cəlb edilməsi zamanı mühüm motivlərdən biri emal sənayesinin rəqabətqabiliyyətinin yüksəldilməsi və bütövlükdə bazara çıxış imkanları ilə bağlı zəruri marketinq tədbirlərinin gerçəkləşdirilməsidir. İnvestisiyalar elə istiqamətlənməlidir ki, yeni məhsulların yaradılması, eləcə də təkmilləşdirilmiş məhsulların yaradılması prosesi baş versin, bu isə bazarda həmin məhsulların cəlbediciliyini artırmağa imkan versin. Belə ki, investisiya cəlb edilməsi mahiyyət etibarilə ölkədə ÜDM-in artımına, həm də adambaşına düşən ÜDM-in artımına gətirib çıxarır. Əslində son istehlakçı bütövlükdə modernləşdirilmiş məhsulu istehlak edərkən məmnun qalmalı və yenidən həmin məhsula tələb yaranmalıdır. Bütün bunlardan dolayı qeyd etməliyik ki, yeyinti sənayesində istehsal edilən məhsullar keyfiyyəti olmalı və qiymətləri

istehlakçıların həm alıcılıq qabiliyyətinə, həm də zövqlərinə uyğun gəlməli, həmçinin ekoloji cəhətdən təmiz olmalı və kimyəvi preparatlardan kifayət qədər uzaq olmalıdır.

Beləliklə, emal sənayesində investisiya cəlbediciliyi stimullaşdırılarkən investisiya cəlb edildikdən sonra istehsal prosesi həyata keçirilməli və zəruri marketinq operatorları formalaşdırılmalıdır. İstehsal edilən rəqabətədavamlı məhsulların bazarda möhkəmlənməsinə həm topdansatış və həm də pərakəndə operatorların mövcudluğu əlverişli şərait yarada bilər.

Dünya praktikası göstərir ki, emal sənayesinə investisiya proseslərinin cəlb edilməsi istiqamətində kompleks zəruri tədbirlər bir-birlərinə nəinki uyğun gəlməli, eyni zamanda bir-birlərini tamamlamalıdır. Xüsusilə xarici investorların cəlb edilməsi zamanı ölkə iqtisadiyyatında, yəni milli iqtisadiyyat çərçivəsində əlverişli biznes mühitinin formalaşdırılması, eləcə də infrastruktur sisteminin müasir tələblərə cavab verməsi vacib şərtlərdən biridir. Xarici investorlar, ilk növbədə, əlverişli biznes mühitinə malik olan ölkələrin iqtisadiyyatına daha çox investisiya yönəltməyi üstün tuturlar. Dövlət tərəfindən milli iqtisadiyyata inzibati müdaxilə proseslərinin həyata keçirilməməsi əlverişli biznes mühitinin formalaşdırılmasının səciyyəvi cəhətidir. Əksinə dövlət tərəfindən iqtisadiyyatın inkişafının stimullaşdırılmasına, iqtisadi artımın gücləndirilməsinə istiqamətləndirilmiş fəaliyyət gerçəkləşdirilir. Əlverişli biznes mühiti investisiya cəlbediciliyinin stimullaşdırılmasında əhəmiyyətli faktorlarundan biridir. O, eyni zamanda dövlətin siyasi iradəsindən də bilavasitə asılıdır. Dövlət tərəfindən həyata keçirilən siyasət, ilk növbədə, mülkiyyətin və investorların maraqlarının və hüquqlarının müdafiə edilməsinə istiqamətlənmiş fəaliyyəti özündə etiva edir. İnvestorlar əlverişli biznes mühitinin formalaşdırılması nəticəsində bu və ya digər ölkənin iqtisadiyyatının ayrı-ayrı sektorlarına maraq göstərir.

Əlverişli biznes mühiti formalaşdırmaqla məhz investisiya cəlbediciliyinə daha çox inkişaf etmiş ölkələr malik olurlar. Həmin ölkələr eyni zamanda kapital ixracı da həyata keçirirlər. Lakin inkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatın rəqabət qabiliyyəti indeksi aşağı olması və eləcə də əlverişli biznes mühiti baxımından inkişaf etməkdə olan ölkələr kifayət qədər uğurlar əldə edə bilməməsi problemdir. Bu prosesi səciyyələndirən ən mühüm cəhətlərdən biri həmin ölkələrdə inzibati müdaxilə proseslərinin əhəmiyyətli rol oynaması, eləcə də iqtisadiyyatın korrupsiyalaşması hesab olunur.

Xarici investisiyaların cəlb edilməsini stimullaşdırarkən iki amil nəzərə alınmalıdır. Birincisi, əlverişli biznesin daxili mühiti, ikincisi isə əlverişli biznesin xarici mühitidir. Əlverişli biznes mühitinin daxili faktorları, ilk növbədə, müəssisədə təsərrüfat fəaliyyətinin həyata keçirilməsi üçün zəruri mümkün şəraitdən başlayır. Maddi-texniki resurslarla təchizatı, eləcə də əsas fondların strukturu, məhsulunun keyfiyyəti ilə bağlı həyata keçirilən zəruri tədbirlər və s. ön plana çəkilir. Eyni zamanda müəssisənin daxili mühit faktorları içərisində istehsal edilən məhsul səviyyəsi də ön plana çəkilən faktorlardandır. Xarici amillərinə isə malgöndərənlər, rəqabət aparan təsərrüfat subyektlərinin bazarda mövqeyi, eləcə də iqtisadiyyatın inhisarlaşma səviyyəsi, bundan əlavə dövlət tərəfindən həyata keçirilərkən gömrük, pul krediti, vergi, sosial və elmi-texniki siyasət mühüm əhəmiyyət kəsb edir.

Yeyinti sənayesində investisiyaların cəlb edilməsinin stimullaşdırılmasının mühüm istiqamətlərə, misal olaraq respublikamızda fəaliyyət göstərən emal müəssisələrinin, eləcə də xarici şirkətlərlə yaradılan birgə müəssisələrin fəaliyyətində daha çox yerli kənd təsərrüfatı xammalından istifadə edilməsi və infrastrukturun keyfiyyətinin yüksəldilməsini göstərə bilərik.

İnvestisiya cəlbediciliyinin yüksəldilməsi, mahiyyət etibarilə istehsalın iqtisadi səmərəliliyinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərə bilər. İqtisad elmlər doktoru professor İslam İbrahimovun fikrincə, aqrar sahəyə investisiya qoyuluşunun zəruriliyi və spesifik xüsusiyyətləri bu sahədə istehsalın iqtisadi səmərəlilliyini şərtləndirir. Kənd təsərrüfatında investisiyaların həcminin artırılmasına stimulun az olması bu sahənin kifayət qədər riskli olması ilə əlaqədardır. Aqrar sahədə spesifik xüsusiyyətlərlə əlaqədər sahəyə investisiya yönəldilməsinə maraq aşağıdır (İbrahimov, 2016:102).

Bütün dünyaya məlumdur ki, Azərbaycan Böyük Vətən müharibəsi ilə öz tarixi zəngin torpaqlarına qovuşmuşdur. Yeyinti sənayesinin inkişafı ilə bağlı işğaldan azad edilmiş ərazilərin

(İAEƏ) (Qarabağ) rolu artır. İAEƏ-də ərzaq siyasətinin həyata keçirilməsi kənd təsərüüfatının inkişaf etdirilməsini şərtləndirir (İbrahimov, 2022:116).

## Nəticə

Yeyinti sənayesinin inkişafı baxımından yanaşdıqda, xarici investisiyaların cəlb edilməsinin stimullaşdırılmaq üçün respublikamızda fəaliyyət göstərən emal müəssisələrinin, eləcə də xarici şirkətlərlə yaradılan birgə müəssisələrin fəaliyyətində daha çox yerli kənd təsərrüfatı xammalından istifadə edilməsi ön plana çəkilməlidir və bu baxımdan dövlət tərəfindən zəruri stimullaşdırıcı tədbirlər görülməlidir. Məhz xarici investisiyaların cəlb edilməsində, eləcə də bu sahədə həyata keçirilən digər stimullaşdırıcı tədbirlərin gerçəkləşdirilməsində daxili xammaldan istifadə edən müəssisələr üçün müəyyən əlavə vergi güzəştlərinin tətbiq edilməsi mühüm əhəmiyyət kəsb edə bilər. Emal müəssisələri daxili kənd təsərrüfatı xammalına üstünlük verdikləri halda bütün bunlar kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsinə, eləcə də onların rentabelli təsərrüfat maliyyə fəaliyyəti gerçəkləşdirilməsinə əlverişli şərait yarada bilər.

## Ədəbiyyat

1. Səmədzadə, Z.Ə. (2009). Çin qlobal dünya iqtisadiyyatında. Bakı: Elm və təhsil, 608 s.
2. Numanoghlu, N. (2020). TUSIAD. Agriculture and Oida. Report diary.
3. Quliyev, E.A. (2020). Qida təhlükəsizliyinin gücləndirilməsi problemlər və strateji istiqamətləri. Monoqrafiya. Bakı: Kooperasiya nəşriyyatı, 463 s.
4. İbrahimov, İ.H. (2016). Aqrar sahənin iqtisadiyyatı. Monoqrafiya. Bakı, 655 s.
5. Gordienko, D.V. (2009). Osnovy ekonomicheskiy bezopasnosti gosudarstva. INFRA_M, 224 s.
6. Aday, S. (2020). Food quality and safety, 180 s.
7. Vlasov, M.K. (2017). Osnovy ekonomicheskiy bezopasnosti: uchebnoe posobie, ST/Peterburgs, 220 s.
8. Abbasov, A.F. (2007). Ərzaq təhlükəsizliyi. Bakı: "Nasir" nəşriyyatı, 602 s.
9. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. (1995). 13 yanvar.
10. Hüseynov, T.H. (2009). Azərbaycanda investisiyalar: gəlirlər, investisiyalar, sənayeləşdirmə, məşğulluq. Bakı, 380 s.
11. Egorshin, A.P. (2018). Osnovy menecmenta: Uchebnik dlya vuzov, 320 s.
12. İbrahimov, İ. (2022). Regionların və işğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətləri. Monoqrafiya. Bakı: "Kooperasiya" nəşriyyatı, 240 s.

**Rəyçi: i.e.f.d. Aqil Qurbanov**

Göndərildi: 30.08.2022 Qəbul edildi: 22.10.2022

DOI: https://doi.org/10.36719/2663-4619/84/49-54

**Altay Babakərim oğlu Kərimli**
Bakı Dövlət Universiteti
doktorantaltaykarimli@gmail.com

# SOSİAL XİDMƏT SAHƏSİNİN İNKİŞAF TARİXİ


## Xülasə

Sosial xidmət hər bir dövlətin və cəmiyyətin istər siyasətində, istərsə də gündəlik həyatında aparıcı sahələrdən biridir. O, təkcə elm və araşdırma sahəsi kimi yox, həm də cəmiyyət həyatının və dövlət siyasətinin tərkib hissəsini təşkil edir. Ona geniş diqqət göstərilməsi və inkişaf etdirilməsi günümüzdə hər bir ölkədə diqqət mərkəzindədir. Dünyada bu sahə hər zaman əhəmiyyətli olsa da, sosial xidmət və sosial siyasət ötən əsrin ortalarında daha geniş vüsət almağa başladı. İki dünya müharibəsi yaşamış bəşəriyyətin proqressiv xalqları, əsasən Avropa ölkələri 1940-cı illərdən başlayaraq sosial dövlət modelləri üzrə siyasi müzakirəyə başladılar. Artıq 1960-cı illərdə Mərkəzi və Şimali Avropada bunun nəticələri görünməyə başladı, sosial yönümlü *"rifah dövləti"* modeli sonradan bəzi Asiya və Amerika dövlətləri tərəfindən də diqqət cəlb etdi və uyğun modellər formalaşdırıldı. Müvafiq qanunvericiliyin, beynəlxalq konvensiya və qərarların qəbulu ilə yanaşı bu işdə sosial xidmətin fəlsəfəsinin düzgün anlaşılması, fərd və qruplarla səviyyələr üzrə işlənməsi də çox vacibdir. Avropa bu sahədə qabaqcıl olduğundan, sosial xidmət modelləri də aparıcı Avropa ölkələrinin təcrübəsinə əsaslanır.


***Açar sözlər:*** *Avropa Sosial Şəbəkəsi, şəxsi sosial xidmətlər, şəbəkə modeli, rifah dövləti, sosial dövlət*

**Altay Babakarim Karimli**

# History of development of the field of social service


## Abstract

Social service is one of the leading areas in each state and society's policy, daily life. It is not only a field of science and research, but also an integral part of social life and policy. It is widely paid attentionto the social services and developed in every country today. Although this field has always been important in the world, social service and social policy began to gain a wider scope in the middle of the last century. The progressive peoples of humanity who experienced 2 world wars, mainly European countries, started a political discussion on social state models starting from the 1940s. Already in the 1960s, the results of this began to be seen in Central and Northern Europe, the socially oriented "welfare state" model later attracted the attention of some Asian and American countries, and appropriate modelswere formed. Furthermore, to the adoption of relevant legislation, international conventions and decisions, it is also crucial to have a proper understanding of the philosophy of social service and to work with individuals and groups on levels. Since Europe is a pioneer in this field, social service models are also based on the experience of leading European countries.


***Keywords:*** *European Social Network, personal social services, network model, welfare state, welfare state*

## Giriş

Sosial xidmətlər qayğıkeş, inkluziv və məhsuldar cəmiyyətin mərkəzi hissəsidir. Avropa Sosial Şəbəkəsinin (ESN) verdiyi anlayışa görə bu, *"insanı sosial xidmətlərin idarə olunması və çatdırılması özəyində görməkdir"* (Kautto, 2002:5). Sosial xidmətin vahid ümumi tərifi yoxdur. Ümumi Maraqlar naminə Sosial Xidmətlər üzrə Avropa Şurasının 2010-cu ildə təhlil nəticələrinə

əsasən sosial xidmətlər digər ümumi maraqlar daşıyan xidmətlərdən "insan-mərkəzli, insanın həyati ehtiyaclarını ödəməyə yönəlmiş, həmrəylik prinsipindən çıxış edən, fundamental hüquqlar və insan ləyaqətinin qorunmasına töhfə verən, ayrı-seçkiliyin qarşısını almaqla hamı üçün bərabər imkanların yaradılmasını təmin edən və fərdlərə cəmiyyətin sosial və iqtisadi həyatında fəal iştirak etməyə imkan verən" xidmətlərdir. Avropa Komissiyasının Ümumi Maraqlar naminə Sosial Xidmətlərə dair 2006-cı il kommunikasiyasında (COM (2006)177) sosial xidmətlərin 2 əsas kateqoriyası ayrılır:

Qanunla müəyyən edilmiş və tamamlayıcı sosial təhlükəsizlik sxemləri. Bunlar sağlamlıq, qocalıq, peşə hadisələri, işsizlik, təqaüd və əlillik kimi əsas həyat risklərini qarşılamağa yönəlmiş xidmətlərdir.

Şəxs üçün birbaşa təmin olunan digər mühüm xidmətlər. Bu sosial xidmətlər fərdin şəxsi problem və ya böhranları ilə bağlı dəstək proqramıdır və məqsədi şəxs(lər)in cəmiyyətə və əmək bazarına reinteqrasiya olunmasını təmin etməkdir. Bunlara şəxsi sosial xidmətlər də demək olar. Ölkələr, müxtəlif mədəniyyətlər arasında fərqləri nəzərə alaraq şəxsi sosial xidmətləri müəyyən etmək çətindir, bu zaman hətta ölkə daxilində regional fərqlər də çətinlik törədir. Bu xidmətlərin çoxu qanunla nəzərdə tutulmuş vəzifələrdir, ancaq, bu həmişə belə olmur və ölkəyə görə dəyişir. Şəxsi sosial xidmətlərin də 2 əsas növüfərqləndirilir (Daly, Lewis, 2000).

Birinci növdə xidmətlər qruplar üçün nəzərdə tutulur, şəxs və onun avtonomiyasını inkişaf etdirməyə, qohumlar üçün iş və ailə həyatını uzlaşdırmağı təşviq etməyə yönəlir. Bu xidmətlərə uşağa erkən qayğı aid edilə bilər ki, uşaqların inkişafını dəstəkləməyə yönəlir. Bu, xüsusilə aztəminatlı, əlilliyi olan, sağlamlıq problemləri olan uşaqları dəstəkləmək baxımından əhəmiyyətlidir. Bu xidmətlər adətən tənzimlənir və ölkədən asılı olaraq onlar universal və ya məhdud, sınanmış vasitə kimi nəzərdən keçirilə bilər. Hər iki növ xidmət qruplarla həyata keçirilə bilər və iş, ailə həyatınıuzlaşdırmağa kömək edə bilər.

Bütövlükdə götürdükdə isə sosial xidmət çətin həyat şəraitində yaşayan şəxsin və ya ailənin sosial problemlərinin aradan qaldırılması və digər insanlarla bərabər şəraitin yaradılması üçün həyata keçirilənkompleks tədbirlərdir. Şəxsi sosial xidmətlər isə dövlətin müvafiq siyasətindən kənar qalan şəxslərə göstərilən xidmətlərdir və bunlar həm sosial işi, həm də sosial qayğını əhatə edir. Sosial xidmətlər, adətən bu məqsədlə nəzərdə tutulmuş dövlət və ya qeyri-dövlət, xeyriyyə təşkilatları vasitəsilə edilir. Bəzi hallarda bu işdə könüllülər də iştirak edir, belə təşəbbüslərin olması cəmiyyətdə həmrəyliyə xidmət etdiyi üçün faydalıdır. Sosial xidmətin strategiyası və həyata keçirilməsi üçün hər bir dövlətin müvafiq institutları var və bütün bunlar sosial siyasətdə nəzərdə tutulur. Sosial siyasət dedikdə, burada bir neçə konsepsiya və dəyərlər birləşir, bunlara misal olaraq sosial tənzimləmə, sosial xidmətlər, sosial rifah,sosial təhlükəsizlik, rifah dövləti və digər anlayışlar nəzərdə tutulur (Banks, 1995). Dünya üzrə sosialxidmət və siyasət üzrə konkret model və nümunə olmadığı burada müxtəlif ölkələrin, əsasən bu sahədəinkişaf etmiş ölkələrin təcrübəsinə baxacağıq. Müasir dövrdə sosial xidmətlər sosial siyasətinformalaşmasında əsas rol oynayır. Bəzi sosial xidmətlər sahəsində inkişaf etmiş dövlətlər müvafiq qurumlara, özəl müəssisələrə və cəmiyyətlərə müstəqillik verir. Bu təcrübə hal-hazırda genişyayılmaqdadır. Tarixə baxsaq özəl və ya müstəqil şəkildə sosial xidmət nümunələrini tapa bilərik. Bu, həm yerli, həm də regional səviyyələrdə baş verir. Xüsusən humanitar və tibbi yardım sahələrində cəmiyyət əsaslı sosial xidmət təminatçı şəbəkələri son illərdə xeyli populyarlaşıb. Belə fondlar, xeyriyyə cəmiyyətləri bu gün dünyanın ən ucqar məkanlarında belə fəaliyyət göstərir. Adətən belə təşkilatlarictimai təşəbbüslə yaradılır və sonradan könüllü, icma-əsaslı fəaliyyətə qoşulur. Bəzən bu istəyin formalaşmasında etnik, dini bağlar vacib olur. Sosial xidmət şəbəkələrinin şaxələnməsi və inteqrativ fəaliyyəti "müştəri ehtiyaclarına daha yaxşı cavab verir və cəmiyyətdə yardım əhval-ruhiyyəsini
gücləndirir" (Davies, 2000:15).

N.M.Staxovskayanın fikrincə, sosial xidmət göstərmə formalarına sosial xidmətlərlə yanaşı güzəştlər, natural və digər formalar daxildir (Stakhovska, 2000:132).

E.Q.Tuçkova və M.L.Zaxarov sosial xidmətin ən mühüm növlərinə 1) əlillərin reabilitasiyası, təhsili və onların məşğulluğunun təmin edilməsi; 2) protez-ortopedik yardım və əlillərin nəqliyyat

vasitələri ilətəminatı; 3) evdə və stasionar müəssisələrdə sosial xidmət; 4) uşaqlara sosial xidmətləri aid edirlər (Zakharov, Tuchkova, 2001:494-496).

Dövlət səviyyəsində fəaliyyət göstərən rəhbər qurumların sosial xidmət sahəsində fəaliyyəti çox zaman öz problemləri və narazılıqla müşahidə olunur, çünki bu əksər hallarda mərəkəzləşdirilmiş, subyektlərin fikri nəzərə alınmadan və ümumi şəkildə həyata keçirilir və beləliklə qarşıya qoyulan məqsədə nail olunmur. Sosial siyasətin uğurlu həyata keçirilməsi isə təkcə sosial xidmətlərin təmini yox, həm də burada mənfəət qazanmaqdır. Burada digər məsələ isə idarəetmə sahəsindədir. Bəzi ölkələrdə bu məqsədlə sosial xidmət mütəxəssislərinə yox, menecerlərə önəm verilir. Uğurlu sosial xidmət şəbəkəsinin qurulması bu şəbəkənin ünsürlərinin formalaşmasına təsir edən məsələlərin çağırışlarını vaxtında duymaq və buna hədəflənməkdir. Mövcud şərtlərin təhlili və yaxşılaşdırılması da bu məqsədəçatmaqda uyğun amil kimi baxıla bilər. Böyük təşkilatlar, adətən, bu zaman cəmiyyətdə daha çox bağlar yaradır və harmonik işləməyə imkan verir, lokal şəbəkələr isə problemin səbəblərini öyrənməyə köməkedir. Qarşıda bu sahədə bir neçə modeli və faktorları nəzərdən keçirəcəyik.

Şəbəkə formalaşdırılması modeli – sosial inkişaf məqsədilə rəhbər qurum tərəfindən belə şəbəkələrin yaradılması məqsədilə açıq həvəsləndirmə və ya tələbat olduqda cəmiyyət-əsaslı xidmətin təşkili şəbəkələrinin formalaşdırılması baş verir. Hazırki idarəçilik modelində belə tələb və həvəsləndirmələrə çox rast gəlinir və ictimai xidmətin inkişafı məqsədilə dövlət və özəl sahələrin əməkdaşlığına təkan verir. Belə təşkilatların xidmət səviyyəsinə təsir edən faktorları müəyyən etməklə qurulmuş şəbəkələrin ölçü və fəaliyyət sahələrini müəyyən edə bilərik. Sosial xidmət təşklilatlarının nəticəyə əsaslanan şəbəkə tərəfdaşlığı qurmaq istəyi və bacarığı daxili təşkilatı qabiliyyətdən asılıdır. Burada əsas məsələlər təşkilatın həcmi, resurslardan asılılığı və əməkdaşlıq təcrübəsidir.

Böyük təşkilatlar, adətən, burada daha uğurlu olur, çünki onların geniş imkanları və daha böyük insan resursları var. Partnyorluq münasibəti zaman da tələb olunan xərclərin öhdəsindən gələ bilirlər. Kiçik təşkilatların belə əlaqələri yaratmağa ehtiyacı daha böyükdür, böyük təşkilatlarda isə əksinə, potensial imkan verdiyi üçün resurslar daha çox xidməti təmin etməyə və daxili tələbata yönəlir və kənardan əməkdaşlığa həvəs daha az olur. Resurs asılılığı təşkilatın fəaliyyət göstərmək və məqsədinə çatmaq üçün müəyyən məhsul və xidmətlərdə bir və ya daha çox mənbədən qidalanmasıdır. Xarici resurslardan asılılıq təşkilatın qərar qəbul etməsinə, həmçinin digər təşkilatlarla tərəfdaşlıq qurmasına təsir göstərir. Bu daha çox hökümət təşkilatları ilə özəl sosial xidmət təminatçıları arasında müşahidə olunur. Bu ikisi arasında sosial xidmətin təmini və müştərilər/gəlirlər məsələsində qarşılıqlı əməkdaşlıq baş verir. Belə əməkdaşlıq heç də həmişə qarşılıqlı asılılıqla müşahidə olunmur, mənfəətsiz çalışan təşkilatlar bu məsələdə dövlətdən daha asılıdır, çünki maliyyələşmə ehtiyacı var. Maliyyələşməni təmin edən tərəf isə qərar qəbulunda həlledici rol oynayır. Əməkdaşlıq təcrübəsi də təşkilatın şəbəkə tərəfdaşlıqları qurmasında əsas faktorlardan biridir. Sosial kapital sosial şəbəkədə davamlı qarşılıqlı əlaqələrlə yaranır. Belə əlaqələrdən yaranan təşkilatdaxili inam tərəfdaşları daha loyal davranmağa sövq edir. Beləliklə, təşkilatlar əvvəl əməkdaşlıq etdiyi qurum və icmalarla birgə işləməyə daha maraqlıdırlar. Əlavə olaraq, əvvəllər belə və ya buna oxşar təcrübəsi olan təşkilatlar şəbəkələrin qurulması və idarə olunmasında daha effektiv olurlar. Belə təcrübə əlavə təşkilati xərcləri azaldır və təşkilatın yeni əməkdaşlıqlar qurmasını həvəsləndirir.

**Sosial xidmətin inkişaf tarixi**

Sosial xidmətin cəmiyyətə, ailəyə müdaxilə etmək ehtiyacı birbaşa Sənaye İnqilabından sonra baş verən həyat tərzi ilə bağlıdır. Belə ki, sənayeləşən şəhərlər insanları özünə toplayır, əvvəlkindən dəfələrləçox insan birgə yaşayır və bu da özü ilə bərabər ağır, stressli həyat şəraitini yaradırdı. Bu da sosial xidmətlər və ailə-məişət arasında əlaqəni formalaşdırırdı. Ucqar yerlərdə, kəndlərdə bütün ailə (nənə- babadan nəvəyə qədər) birgə yaşadığından buna ehtiyac o qədər də hiss olunmurdu, ancaq şəhərlərdə iş və ailə həyatının ayrılması bu ehtiyacı qaçılmaz edirdi. Həmin dövrdən XIX əsrdən başlayaraq İngiltərədə bu sahədə təşkilat və cəmiyyətlər yaranmağa başladı. Belə təşkilatlardan "Xeyriyyə Təşkilatı Cəmiyyəti" seçilirdi (NISW, 1997:22). Bu təşkilat ölkədəki nüfuzlu və imkanlı şəxslərin təşəbbüsü ilə kasıb ailələrə yardım edirdi. Cəmiyyət öz işi ilə həm də

yoxsulluğa olan neqativ münasibəti dəyişərək, iki əsas yanaşma ortaya qoydu. Təbii və sosial şəraitdən, beləliklə, özlərindən asılı olmayan səbəblərdənyoxsulluğa düçar olunanlar "layiqli" hesab olunur və onlara yardım edilirdi. Özləri ilə bağlı səbəblərdən, tənbəl, avara həyat tərzi keçirən və yaxud bu tipli həyatı seçənlər isə yardıma layiq hesab olunmur və onlara heç bir kömək olunmurdu. Bu yanaşmalar sonradan dövlətin yoxsullara münasibətinin, bununla bağlı sosial siyasətin qurulmasında önəmli rol oynadı. 1930-cu illərə qədər sosial iş, əsasən yardımlaşma, xeyriyyə fəaliyyəti kimi görülürdü. Sosial xidmətin elm kimi formalaşması daha çox *İkinci Dünya müharibəsi* ilə bağlıdır. 1930-cu illərdən başalayaraq həm dünyadakı Böyük Böhran nəticəsində, digər tərəfdə isə kütləvi aclıqlar bu sahədə qanunvericiliyin formalaşmasına gətirib çıxardı. Müharibədən sonra yeni beynəlxalq təşkilatların yaranması da bu işə təkan verdi. II Dünya Müharibəsi, ümumiyyətlə, sosial elmlərdə və bunun real tətbiqində dəyişikliklərə gətirib çıxardı. Sosial xidmət sahəsində həm ayrılıqda ölkələr, həm də beynəlxalq təşkilatlar yardım missiyasının, ümumbəşəri dəyərlərin dəstəklənməsi fonunda bu sahədə qanunvericilik formalaşdırdılar və müvafiq qurumlar yaradıldı. Bu təşkilatların əksəriyyəti şəxsi sosial xidmətlərlə məşğul olurdu. 1960-cı illərə qədər şəxsi sosial xidmətlər öz fəaliyyətini 3 yerə ayırırdı: Maddi ehtiyaclarla bağlı − əsasən əlillər və qocalarla işləyirdi.Sağlamlıq məsələləri ilə bağlı − əqli problemləri olan insanlarla, zəruri tibbi yardımla bağlı, öyrənmə problemi olan uşaqlarla işləyirdi. Uşaqlara qayğı – ailə himayəsindən məhrum uşaqlarla, bağça və məktəb problemlərinin həlli ilə bağlı. Belə həllin müsbət tərəfləri ilə yanaşı, mənfi cəhətləri də vardı. Əsasən uşaqlarla bağlı problem yaşanırdı, bir neçə problemi olan uşaqları hansı sahəyə yönləndirməkdəvalideyn çətinlik çəkirdi. Bu çətinliklər sosial işin getdikcə bir peşə kimi formalaşmasına aparıb çıxardı. 1965-ci ildə bununla bağlı Böyük Britaniyada müvafiq komitə yaradıldı, 1970-ci ildə bu komitənin tövsiyələri əsasında "Yerli Hakimiyyətin Sosial Xidmətlər Aktı" qəbul olundu (NISW, 1997:37). Aktın qəbulu ilə sosial xidmətlərin işləmə mexanizmi ilə bağlı bəzi dəyişikliklər edildi, xidmətlərin bir qismi dövlət nəzarətinə verildi. 1980-ci ildən 1997-ci ilə qədər sosial xidmətlər sahəsində xeyli mütərəqqi dəyişikliklər, yeni qanunlar qəbul olundu. 1989-cu il Uşaqlar Aktı və 1990-cı il İcma Qayğısı Aktı bunlara aiddir. Siyasi və demoqrafik faktorlar nəzərə alındı, idarələrarası işlənmə mexanizmi quruldu. Xidmətlərin istifadəçilərin və təminatçıları dəqiq ayrıldı, bu sahədə yoxlamalar üzrə mexanizm qurulduvə mərkəzi hökümət qarşısında hesabatlılıq artırıldı. Azad bazar iqtisadiyyatının geniş yayılması ilə bu xidmətlərə dövlətin müdaxiləsi azaldı və dövlət qarşısında öhdəlik xarakteri daşımağa başladı. Sosial xidmət departamentləri vasitəsilə bu iş koordinasiya olunmağa başladı. Belə departamentlər xidmətin təminatçısı yox, bu işdə dövlətin üzərinə düşən işlərin icraçısı kimi çıxış edərək daha çox icazə orqanı kimi fəaliyyət göstərirdi. Xidmət əsaslı yox ehtiyac əsaslı yanaşma əsas götürülürdü. Fərdlərin ehtiyacları qiymətləndirilir və buna uyğun xidmətlər təşkil edilirdi, əvvəllər isə öncə xidmətlər təqdim olunur, şəxslərin buna ehtiyacının olub-olmaması nəzərə alınmırdı. Digər tərəfdən sosial xidmətlərə nəzarət artırıldı və bu məqsədlə mütəmadi inspeksiyalar keçirilməyə başladı. Hər hansı ərazidə bu məqsədlə yaradılmış qurum dövlət tərəfindən qeydiyyata alınmalı idi. Qeydiyyata alınmaq üçün bu təşkilatın müvafiq xidmətləri göstərməsi və ixtisaslı kadr bazasının olması təsdiq olunmalı idi. Bu işi həyata keçirən şəxslər səlahiyyətli nümayəndə kimi qeydə alınmalı idi. Uşaqlara və yaşlılara qayğı sahələrində sosial xidmət işçilərinin müstəqilliyi artırıldı. Eyni zamanda sosial xidmət işçilərinin iş şəraiti yaxşılaşdırıldı, standartlar müəyyən edildi. Sosial xidmətlərin maliyyələşdirilməsi üçün fond və digər qurumların yaradılması nəzərdə tutulurdu. 1990-cı illərdən etibarən bu sahədə birgə (dövlət-özəl) təşəbbüslər, fəaliyyət artmağa başladı. Sosial xidmət işçiləri üçün dövlət tərəfindən təlimlər təşkil edilərək keyfiyyətin artırılması önə sürüldü. 2000-ci illərdən başlayaraq bu faktorlara kompleks yanaşılmağa başlandı. Sosial xidmət və qayğı dövlətin əmək və səhiyyə funksiyalarının tərkib hissəsi kimi rifah dövlətinə çatmaqda əsas vasitələr kimi görüldü. Hal-hazırda da bu yanaşma hakimidir, əlavəolaraq bəzi özəl şirkətlər, könüllülər də bu prosesdə iştirak edirlər.

**Sosial xidmət dövlət institutu kimi**

Sosial xidmətə ehtiyac da elə əksər hallarda əmək (maddi) və tibbi səbəblərdən, bəzi hallarda isə psixoloji vəziyyətdən yaranır. İnsanın sağlamlığı və maliyyə stabilliyi (daimi və yetərli gəlirli işinin olması) şübhəsiz ki, onun psixoloji durumuna da müsbət təsir edir, bu əsasdan çıxış etsək

görərik ki, sosial xidmət ehtiyacı maddi və fiziki tələbatdan yaranır. İşsizlik istər-istəməz bir şəxsin həyatına pis təsir edir, ona psixoloji ziyan vurur. Bu barədə kifayət qədər araşdırmalar, elmi əsaslar vardır. Bu faktorları nəzərə alaraq müasir yanaşmanın daha faydalı və əhatəli olduğunu, problemi dərindənöyrənməyə kömək etdiyini görərik. Əksər inkişaf etmiş etmiş ölkələrdə, xüsusən də irəlidə haqqında danışılacaq Skandinav ölkələrində sosial xidmət və siyasətə rifah dövləti modelinin tərkib hissəsi kimi yanaşılması bu ölkələri sosial xidmət və qayğı sahəsində aparıcı və uğurlu inkişaf modellərinə çevirib (Davies, 2007). Həmin ölkələrdə sosial xidmətin əsas hissələrindən biri də ətraf mühit faktorları – potensial müştərilərin üzə çıxarılması və onlarla işləməkdir. Beləliklə, yuxarıda qeyd olunan sosial xidmətin yerinə yetirilməsi şəbəkəsinin əhatə dairəsi və ölçüsünün təyinedici faktorları kimi təşkilati faktorları (ölçü, təcrübə və resurslardan asılılıq), proqram ehtiyaclarını (tələb olunan xidmətlər və müştəri müxtəlifliyi) və ətraf mühit faktorlarını (potensial müştərilər) göstərmək olar. Dövlətin burada rolu daha çox kritik və böhran hallarında, sosial qorunma ehtiyacı yarananda görünür və işə düşür. Sosial müdafiə dövlətlərə görə fərqlidir, ancaq bu fərqlərdə əsas rolu dövlətlər yox, müxtəlif siyasi ideologiyalar oynayır. Sosial xidmətin dövlət funksiyasına çevrilməsində *sosial demokratların* xüsusi əməyi olub və deyə bilərik ki, məhz onların sayəsində sosial müdafiə bu gün əksər dövlətlərin vacib funksiyalarından birinə çevrilib. Sosial xidmətin çatdırılmasında və yanaşmada sosial və liberal demokratlar, sağçılar və solçular arasında xeyli fərqlər var. Sosial demokratların iqtisadiyyatın tənzimlənməsi fikri cəmiyyətdə ifrat təbəqələşmənin qarşısını alır, orta təbəqəyə xüsusi önəm verməklə kapitalın bir qrup tərəfindən cəmləşməsini, o cümlədən monopoliyaların, trestlərin yaranmasının qarşısını ölkədə əmək mühitini sağlamlaşdırır, tibbi xidmətləri daha əlçatan edir və beləliklə, sosial müdafiə daha yaxşı təmin olunur. Liberal demokratların tam azad iqtisadiyyat, böyük biznes üçün vergilərin azaldılması fikri isə cəmiyyətdə müəyyən qrupların həddən çox varlanmasına, beləliklə, digər tərəfin də çox kasıblaşmasına səbəb olmaqla sosial müdafiəni zəiflədir və aztəminatlı əhali üçün bu problemə çevrilir. Avropanın sosial xidmətə münasibəti rifah dövləti modelləri ilə müəyyən olunur:

**Skandinav modeli.** Universalizmlə müşahidə olunur, dövlət daha "alicənab" davranaraq tam məşğulluğa və gəlirlərin qorunmasına hədəflənir, lazım gəldikdə iqtisadiyyata güclü şəkildə müdaxilələr edir. Sosial bərabərliyə təkrar paylayıcı sosial müdafiə sistemi ilə nail olunmasına çalışılır. Digər rifah dövlətlərindən fərqli olaraq Skandinav ölkələri minimal ehtiyacların yox, hamı üçün ən yüksək standartların bərabərliyinə çalışır (Griffiths, 1988).

**Bismarkçı.** Özünün statusa görə fərqləndirici rifah proqramları ilə məşhurdur və burada sosial müavinətlər qazanca görə dəyişir, bilavasitə dövlət yox işəgötürən tərəfindən ödənilir. Burada əsas məqsəd yüksək standartların təmini yox, sosial sabitliyin qorunmasıdır. Ailənin rolu əsasdır və gəlirlərin təkrar bölünməsi minimaldır. Bazara çox az hallarda müdaxilə olunur. Almaniya bu modelin əsas təcəssümüdür.

**Anqlo-sakson.** Dövlət təminatı çox zəifdir, sosial müdafiə qanunları mötədildir və ciddi kriteriyalarla sosial yardımı məhdudlaşdırır. Sosial təminat prosesi çoxpilləlidir və cəmiyyətin çox kiçikqrupunu əhatə edir. Dövlət iqtisadiyyata müdaxilə etmir və azad bazarı təşviq edir. Bu modelin yaxşı cəhəti çox qazanmağı təşviq etməsi və insanlara bu məsələdə çoxlu azadlıqlar tanımasıdır. Beləliklə, bu model cəmiyyətdə təbəqələşməni gücləndirir və kapitalın bir və ya bir neçə qrupda cəmləşməsinə imkanyaratmaqla ziddiyyətləri artırır. Son illərdə bu modelin tətbiq olunduğu ölkələr daha səmərəli model yaratmağa çalışırlar (Needham, Glasby, 2014).

**Cənub.** Sosial müdafiə təminatı bütöv deyil, bir neçə hissələrə ayrılır. Təminat sistemləri müxtəlifdir və minimal ehtiyacların təminindən ən yüsək standartlara qədər dəyişir. Səhiyyə sistemi ancaq minimum tələbata hesablanıb, məhdud və "yarımçıq" xarakter daşıyır. Ailədən asılılıq və könüllüxidmətin rolu güclüdür.

**Şərq.** Keçmiş kommunist sistemi olan Şərqi Avropa ölkələrini əhatə edir. Burada sistem kommunist rifah sistemi ilə anqlo-sakson sistemi arasında keçid (hibrid) xarakteri daşıyır. Avropa Birliyi ilə müqayisədə sosial yardım sistemi zəif və məhduddur.

İstənilən halda, dövlət sosial xidmət sahəsində siyasəti həyata keçirərkən onun maliyyə təminatına xüsusi diqqət yetirməlidir (MVHPK, 2004:102).

## Nəticə

Sosial xidmət bir anlayış və sahə kimi ötən əsrin II yarısından başlayaraq bu günə qədər geniş elmivə praktik araşdırmalar aparılıb. Bu araşdırmalara əsasən, belə nəticəyə gəlmək olar ki hər bir ölkənin ümumi inkişaf, dayanıqlılıq səviyyəsi o ölkədəki sosial xidmətlərin təşkilindən və çatdırılmasından asılıdır. Çünki bu elə bir sahədir ki, hər birimizin həyatını məşğul edir və tez-tez bu sahəyə müraciət etməli oluruq. Alimlər müxtəlif sosial təminat formaları təqdim edirlər ki, bunlara daxildir:

1) vətəndaşların müəyyən sosial yardım növləri ilə təmin edilməsi üçün obyektiv əsaslar;
2) sosial təminatın sığorta vəsaitləri hesabına və ya büdcədən maliyyələşdirilməsinin həyata keçirilməsi;
3) müəyyən sosial təminat növlərinin təmin edilməsi şərtlərinin normativ qaydada müəyyən edilməsi;
4) sosial təminat obyekti olan şəxslərin dairəsinin və onun təmin edilməsi şərtlərinin normativ aktlarda təsbit edilməsi;
5) müvafiq sosial standart səviyyəsində sosial təminatın təmin edilməsi (bir qayda olaraq, yaşayış minimumundan aşağı olmayan) (Stashkiv, 2007:23).

Sosial xidmətlər yayılma miqyasından asılı olmayaraq, fərd və qrupları birləşdirici amil kimi çıxış etməklə həm də sosiallaşmada önəmli çəkiyə malikdir. Avropa modelində görülən sosial xidmətlərin dövlətin bir institutuna çevrilməsi də bu zəmində baş verir. Rifah dövləti və sosial xidmət tiplərinin məhzcəmiyyət-dövlət kontekstində araşdırılması, bunun yardım və xeyriyyə yolundan daha çox ölkədə sosial- iqtisadi möhkəmliyi təmin edən faktora çevrilməsi baxımından əhəmiyyətlidir. Sosial hüquqlarının eyni zamanda universal haqq olması və bunun beynəlxalq sənədlərdə əksini tapması bu sahənin inkişafının həm də ölkədə hüquqi irəliləyişlərə, sosial demokratik islahatlara yol açması prizmasından da əhəmiyyətlidir.

## Ədəbiyyat

1. Kautto, M. (2002). “Investing in services in West European welfare states”. Journal of European Social Policy.
2. Daly, M., Lewis, J. (2000). “The concept of social care and the analysis of contemporary welfare states”. British Journal of Sociology.
3. Banks, S. (1995). “Ethics and Values in Social Work”. MacMillan Publishers.
4. Davies, F. (2000). “Changing Practice in Health and Social Care”, Sage.
5. Stakhovska, N.M. (2000). Vidnosini v pravi sotsialnogo zabezpechennya: dis.kand.yurid.nauk. K.: 198 s.
6. Zakharov, M.L., Tuchkova, E.G. (2001). Pravo sotsialnogo obespecheniya v Rossii. Uchebnik. M.: BEK, 576 s.
7. National Institute of Social Work. NISW. (1997). “Social workers: their role and tasks”. Warwick University Press.
8. Davies, M. (2007). “Companion to Social Work”. Blackwell Publishers.
9. Griffiths, R. (1988). Community care: agenda for action, Department of Health and Social Security.
10. Needham, C., Glasby, J. (2014). “Debates in personalisation”. Policy Press.
11. Materialy Vserossiyskogo nauchno-prakticheskoy konferentsii (MVHPK). Rolsotsialnogo obespecheniya v reshenii problemy bednosti i sovershenstvovaniye metodiki prepodavaniya prava sotsialnogo obespecheniya: Pod.red. E.G.Tuchkovoy. (2004). M: Prospekt, 464 s.
12. Stashkiv, B.I. (2007). Pravo sotsialnogo obslugovuvannya: Navch. posib. K.: Znannya, 567 s.

**Rəyçi: s.ü.f.d. Qızılgül Abbasova**

Göndərildi: 28.08.2022 Qəbul edildi: 25.10.2022

DOI: https://doi.org/10.36719/2663-4619/84/55-60

**Orxan Şəfa oğlu Şadmanlı**
Azərbaycan Dövlət İqtisad Universiteti
doktorant
baki.n.agentlik@bk.ru

# İCARƏ ƏMƏLİYYATLARININ AUDİTİ VƏ METODOLOJİ ƏSASLARI

**Xülasə**

Tədqiqatımızın məqsədi lizinq əməliyyatlarının maliyyə-təsərrüfat fəaliyyətinin uçotunun və hesabatının etibarlılığının artırılması üçün auditinin metodologiyasının işlənib hazırlanması, habelə auditin planlaşdırılmasının keyfiyyətinin yüksəldilməsidir. Hərtərəfli təhlilin köməyi ilə optimal audit proqramının formalaşdırılması və lizinq əməliyyatlarının uçotunun və hesabatının etibarlılığının auditinin qiymətləndirilməsi metodologiyasının təkmilləşdirilməsidir. Tədqiqatın praktiki əhəmiyyəti onun nəticələrinin maliyyə hesabatlarının etibarlılığının və idarəetmə məqsədləri üçün uyğunluğunun təmin edilməsi ilə bağlı problemlərin həllinə birbaşa yönəlməsindədir. Hazırlanmış tövsiyələr lizinq əməliyyatları üzrə audit prosedurlarının standartlaşdırılmasına, audit sübutlarının axtarışı prosesinin optimallaşdırılmasına, auditin planlaşdırılmasının keyfiyyətinin yüksəldilməsinə, audit risklərinin azaldılmasına, lizinq əməliyyatlarının auditi üçün vaxtın azaldılmasına imkan verəcək.

***Açar sözlər:*** *lizinq, ədalətli dəyər, əsas icarə ödənişləri, lizinq səmərəliliyi, auditin planlaşdırılması*

**Orkhan Shafa Shadmanli**

## Audit and bases of the methodology of leasing operations

**Abstract**

The purpose of our study is to develop an audit methodology to improve the reliability of accounting and reporting of financial and economic activities of leasing operations, as well as to improve the quality of audit planning. Formation of an optimal audit program using a comprehensive analysis and improvement of the methodology for assessing the reliability of accounting and reporting on leasing transactions. The practical significance of the study lies in the fact that its results are directly aimed at solving problems related to ensuring the reliability of financial statements and their suitability for management purposes. The prepared recommendations will allow standardizing audit procedures for leasing operations, optimizing the process of searching for audit evidence, improving the quality of audit planning, reducing audit risks, and reducing the time for auditing leasing operations.

***Keywords:*** *leasing, fair value, principal lease payments, leasing efficiency, audit planning*

## Giriş

Azərbaycan iqtisadiyyatının bazar münasibətlərinə keçməsi sahibkarlığın sürətli inkişafı, müəssisələrin yeni taşkilati-hüquqi formalarının və müxtəlif mülkiyyət növlərinin yaranması, ölkənin dünya birliyinə inteqrasiyası idarəetmədə əsaslı dəyişikliklər aparılmasını, nəzarətin təşkili metodologiyası və həyata keçirilməsi sisteminin yenidən qurulmasını tələb edirdi. Belə ki, təsisçilər və səhmdarlar, müvafiq emitetlərin; qiymətli kağızlarının sahibləri və kreditorlar təşkilatların maliyyə vəziyyəti və ödəmə qabiliyyəti barədə düzgün məlumat, cari və perspektiv dövlət üçün əsaslandırılmış rəylər almaqla maraqlı idilər. Məhz bu şəraitdə dövlət nəzarətinə alternativ olan bir qurumu – bazar iqtisadiyyatı infrastrukturunun ayrılmaz ünsürlərindən biri kimi, müstəqil auditin inkişaf etdirilməsinə çox böyük zərurət yarandı (1).

Audit iqtisadi-hüquqi nəzarətin daha yüksək pilləsi olub, vəzifəsi yeni qurulmuş iqtisadi münasibətləri vicdansız sahibkarlıqdan qorumaq, həm də iqtisadiyyatda hüquq pozuntularının qarşısını almaq və ictimai hüquq şüurunu daha yüksək səviyyədə formalaşdırmaqdır. Auditin vəzifələrindən biri müəssisənin maliyyə vəziyyəti və onun stabilləşməsi üsulları haqqında informasiya, habelə qanuni əmlak maraqlarının qorunması üçün zəruri informasiya almaqdan ibarətdir. Auditin təşkili muhasibat (maliyyə) hesabatının müstəqil yoxlanılmasının həyata keçirilməsi, habelə başqa auditor xidmətlərinin göstərilməsi üzrə sahibkarlıq fəaliyyətini ifadə edir. Auditor fəaliyyətinin hüquqi tənzimlənməsi qeydiyyat, lisenziyalaşdırma, auditorların attestasiyası, vergitutma vasitəsilə həyata keçirilir. Araşdırmalar göstərir ki, bütün təsərrüfat subyektləri, o cümlədən holdinq şirkətləri auditor xidmətlərindən təkcə illik maliyyə-təsərrüfat fəaliyyətlərinə yekun vurmaq üçün deyil, eləcə də təsərrüfatdaxili nəzarətin, marketinqin və maliyyə-təsərrüfat fəaliyyətinin təkmilləşdirilməsi üçün zəruri olan əsaslı, doğru və dürüst məlumatların əldə edilməsi məqsədilə istifadə edə bilərlər.

Bəs icarə əməliyyatları nədir?

Ölkəmizdə bazar iqtisadiyyatının inkişafı investisiya fəaliyyətini intensivləşdirmiş, onun yeni formalarını həyata keçirmişdir. İnvestisiyaların ən təsirli və perspektivli formalarından biri lizinqdir. "Lizinq" anlayışı latınca "icarəyə vermək" sözündən olub "kirayəyə götürmək" və ya "kirayə vermək" mənasını verir. "Lizinq sistemi 1950-ci illərin əvvəllərində ABŞ-da yaranmış, 1960-cı illərdə Qərbi Avropa ölkələrində, ilk növbədə, Almaniya, Fransa, İtaliya, İsveçrə, Avstriyada tətbiq olunmağa başlamış, daha sonra Yaponiya, Cənubi Koreya və digər ölkələrə, kapitalist kapitalının qoyuluşlarına ehtiyacın artdığı və borcların, ilk növbədə, kreditlər hesabına ödənildiyi ölkələrdə yayılmışdır. Kreditorlar üçün kredit əməliyyatlarının inkişafı ilə təminat məsələsi getdikcə aktuallaşır. Eyni zamanda, məlum oldu ki, müəssisələr üçün mülkiyyət hüququ deyil, ilk növbədə, istehsal avadanlıqlarından, binalardan, nəqliyyat vasitələrindən istifadə hüququ vacibdir. Kreditə alternativ maliyyələşdirmə vasitəsi kimi lizinq belə yarandı" (Romanchikov, 2006: 128-129).

Lizinq dedikdə, əmlakın əldə edilməsi və lizinq müqaviləsi əsasında fiziki və ya hüquqi şəxslərə müəyyən ödəniş müqabilində, müəyyən müddətə və müqavilədə nəzərdə tutulmuş müəyyən şərtlərlə icarəçinin əmlakı almaq hüququ verilməsiüzrə investisiya fəaliyyətinin növü başa düşülməlidir.

Mühasibat uçotunun nəzəri və praktiki aspektlərinin öyrənilməsində mühüm töhfə yerli və rus alimlərinə məxsusdur: S.B.Bezrukix, Yu.A.Danilevski, P.İ. Kamışanov, N.P.Kondrakov, V.F.Paly, Ya.V.Sokolov, A.N.Xorin, A.D.Şeremet, L.Z.Şneydman və başqaları. Bununla belə, yerli mühasibat uçotu sistemində islahatların aparılmasının hazırkı şəraitində icarə əməliyyatlarının uçotu məsələləri aktual olaraq qalır və əlavə tədqiqat tələb edir. V.V.Vitryansky, V.D.Qazman, V.A. Goremykin, E.V.Kabatova, E.V.Koluqa, V.F.Komarov, O.K.Levkoviç, M.I. Leşçenko, L.N.Prilutski, Yu.S.Xaritonova, A.T.Yusupova və başqaları kirayə münasibətlərinin nəzəri və praktiki aspektlərinin inkişafına mühüm töhfələr vermişlər. İcarə münasibətlərini tədqiq edən xarici alim-iqtisadçılardan D.Aleksander, A.Britton, P.Baltus, B.Mayger, H.Qrüninq, M.Koen, T.Klark, U.Hoyer və başqa mütəxəssisləri xüsusi qeyd etmək olar. Müasir iqtisadi ədəbiyyatda icarə əməliyyatlarının uçotu məsələləri MHBS-a uyğun olaraq mühasibat uçotunun islahatı çərçivəsində yerli mühasibat uçotu sisteminin inkişafına mühüm təsir göstərmiş rus alimlərinin: İ.V.Averçev, A.S.Bakaev, V.D.Qazman, V.G.Getman, N.V.Knyazeva, V.V.Kovalev, L.V.Qorbatov, V.F.Paly, V.T.Çaya, L.Z.Şneydman və başqalarının əsərlərində işıqlandırılır.

Rusiya qanunvericiliyində "lizinq" kateqoriyası yalnız XX əsrin 90-cı illərinin əvvəllərində ortaya çıxdı və hələ də sabit tətbiq praktikasına malik deyil. Mövcud qanunvericilik, o cümlədən 29 oktyabr 1998-ci il tarixli 164-FZ nömrəli "Lizinq haqqında" Federal Qanunda "lizinq əməliyyatları" anlayışı açıqlanır.

Azərbaycanda 2003-cü ilin mayından etibarən İsveçrənin İqtisadi Əlaqələr üzrə 4 Dövlət Katibliyindən (SECO) aldığı maliyyə dəstəyi ilə Azərbaycanda Lizinqin İnkişafı Layihəsini həyata keçirməyə başladı. Ölkə prezidenti İlham Əliyevin aqrar sahədə lizinqin inkişafı ilə bağlı 2005-ci ilin fevral ayında imzaladığı fərmana əsasən, "Aqrolizinq" Səhmdar Cəmiyyəti yaradılmışdır. Hazırda Azərbaycanda 15 lizinq şirkəti fəaliyyət göstərir ki, onlar da artanrəqabət şəraitində biznesin inkişaf

perspektivlərinə müsbət təsir göstərirlər. Lizinq əməliyyatları təşkilatların əmlakı və öhdəlikləri haqqında məlumatların toplanması, uçotu və ümumiləşdirilməsi, habelə lizinq müqaviləsinin icrası çərçivəsində maliyyə-təsərrüfat fəaliyyətinin planlaşdırılması üçün istifadə olunan prosedurlar məcmusu kimi müəyyən edilmişdir.

Lizinq subyektləri lizinq əməliyyatında tərəfdaşlarının maliyyə vəziyyəti haqqında obyektiv məlumatlara ehtiyac duyurlar. Lizinq əməliyyatlarının iştirakçıları ilə yanaşı, üçüncü şəxslər də belə məlumatların əldə edilməsində maraqlıdırlar − investorlar, kreditorlar, banklar, ipotekaçılar, vergi və digər tənzimləyici orqanlar. Onlar bu məlumatı müstəqil auditor tərəfindən təsdiq edilmiş maliyyə hesabatlarında tapa bilərlər (Pospelkov, 2005:138).

Lizinq xüsusiyyətlərini nəzərə almadan digər fəaliyyət növlərinin və onların müvafiq təşkilati üsullarının auditi metodologiyasının sadə uyğunlaşdırılması səmərəsiz, etibarsız nəticə çıxarma riskini artırır. Lizinq əməliyyatlarının auditinin səmərəli təşkili və metodologiyası sisteminin olmaması auditin keyfiyyətini və etibarlılığını şübhə altına alır. Lizinq əməliyyatlarının auditi metodologiyasının işlənib hazırlanması o halda mümkündür ki, belə auditin aparılması mexanizmini − bazar iqtisadiyyatı şəraitində lizinq şəraitində müstəqil maliyyə nəzarəti kimi − aşkar edən nəzəri tədqiqatlar mövcud olsun. Qaldırılan problemlərin aktuallığı, kifayət qədər nəzəri öyrənilməməsi və onların həllinin praktiki əhəmiyyəti məqalə mövzusunun seçimini və tədqiqatın əsas istiqamətlərini müəyyən etmişdir (Azərbaycan Respublikasının Vergi Məcəlləsi, 2005).

Audit Azərbaycan audit standartlarına uyğun aparılmalıdır. Bütün audit prosedurları təsərrüfat fəaliyyətində lizinq əməliyyatlarının mövcudluğunun qoyulan xüsusiyyətlərini müəyyən edən amillər nəzərə alınmaqla həyata keçirilməlidir. Əməliyyatların bağlanması zamanı qanun pozuntuları, əməliyyatların mühasibat uçotunda səhv əks olunması, əsasən müştərinin fəaliyyətində onun müşayiət etməyə hazır olmadığı dəqiq qeyri-standart əməliyyatların olması ilə müəyyən edilir. Azərbaycanda malların alqı-satqısı, konsaltinq xidmətlərinin göstərilməsi və ya tikinti, lizinq əməliyyatları geniş yayılmayıb və onların hüquqi təminatı və uçotu ilə bağlı xeyli sayda suallar doğurur. Bu baxımdan lizinq şirkəti və ya lizinq əmlakını alan şəxs yoxlanılarkən lizinq əməliyyatları xüsusi diqqət və nəzarətə götürülməlidir. Bu yoxlanma daha çox yayılmış əməliyyatlara nisbətən daha çox vaxt planlaşdırılmalıdır: əsas vəsaitlərin alqı-satqısı, daşınmaz əmlakın icarəsi və s. Belə amillərin uçotu həm də lizinq auditi metodologiyasının əsasını təşkil etməlidir. Ümumi yanaşmanın tətbiqi auditi formal və səmərəsiz edəcək.

Lizinq əməliyyatlarının vergiyə cəlb edilməsi, eləcə də mühasibat uçotu onun ümumi müəyyən edilmiş qaydadan fərqlərini müəyyən edən bir sıra xüsusiyyətlərə malik olduğundan, lizinq əməliyyatlarına nəzarət etmək üçün işlənib hazırlanmış metodologiyada qanunvericiliklə nəzərdə tutulmuş vergi güzəştlərinin tətbiqi ilə bağlı məsələlər öz əksini tapmalıdır (Abbasov, 2021:34).

Müştərinin fəaliyyəti, risklərin qiymətləndirilməsi, mühasibat uçotunun və daxili nəzarətin vəziyyəti haqqında əldə edilmiş məlumatlar əsasında lizinq əməliyyatları ilə mürəkkəbləşən bir sıra uçot bölmələrinin yoxlanılması nəzərə alınmaqla tərtib edilməli olan ümumi audit planı hazırlanır. Plan əsasında onun həyata keçirilməsi üçün zəruri olan audit prosedurlarının məzmununun ətraflı siyahısını təqdim edən audit proqramı hazırlanır. Proqram prosedurlarına məlumat toplamaq üçün nəzərdə tutulmuş xüsusi nəzarət testləri daxil ola bilər. Bununla belə, proqram "istehsalat tapşırığı, onun pozulması isə əmək və istehsal intizamının pozulması kimi qiymətləndirilməlidir" fikri ilə razılaşmaq olmaz (Pospelkov, 2013:76). Proqram auditə başlamazdan əvvəl tərtib edilir və audit prosesi zamanı auditor ona lazımi düzəlişlər və əlavələr edə bilər ki, onlar da çox əhəmiyyətli ola bilər. Plan və proqramın hər bir bölməsi üzrə auditor öz nəticələrini işçi sənədlərdə əks etdirir ki, bu da rəyin tərtib edilməsi və maliyyə hesabatlarının bütün mühüm aspektləri üzrə etibarlılığına dair rəyin formalaşdırılması üçün əsasdır. Ona görə də təsdiq edilmiş plana uyğun olaraq yaradılmış proqram lizinq əməliyyatlarının bütün aspektlərini tam əhatə etməlidir. İş sənədləri, öz növbəsində, bütün audit testlərinin və prosedurlarının nəticələrini sənədləşdirmək üçün tələb olunur.

Auditor icarəyə verənin lizinq lisenziyası alıb-almadığını öyrənir. Audit üçün məlumat mənbələri: sənədlərdir (lisenziyanın əsli və ya təsdiq edilmiş surəti). Auditor sübutlarının toplanması üçün müxtəlif üsullardan istifadə edə bilər: müştərinin müəssisəsində hazırlanmış sənədlərin

yoxlanılması; müştərinin üçüncü şəxslərdən aldığı sənədlərin yoxlanılması. Auditin texnikasına − lisenziyanın tələb olunması daxildir və əgər lisenzya varsa, mütləq yoxlanılır. Bu zaman həyata keçirilən prosedur: "Lizinqi verən tərəfindən lizinq şirkəti tərəfindən həyata keçirilən digər təsərrüfat fəaliyyət növlərinə münasibətdə lizinq fəaliyyətinin prioritetliyi prinsipinə riayət edilməsi"dir (Grishenko, 2006:5). Bu zaman məlumat mənbələri satış hesabı üzrə mühasibat uçotu registrləri; Azərbaycan Respublikasının fərmanla təsdiq edilmiş Azərbaycan Respublikasının Maliyyə Lizinqinin (Lisenziyasının) Lisenziyası haqqında Əsasnaməsi; Azərbaycan Hökumətinin "Azərbaycan ərazisində lizinq fəaliyyətinin lisenziyalaşdırılması haqqında Əsasnamənin təsdiq edilməsi haqqında" qərarıdır. Audit sübutlarının toplanması müxtəlif üsullarla aparıla bilər, buraya mühasibat uçotu registrlərinin yoxlanılması; arifmetik hesablamalar daxildir. Bu prosedur lizinq fəaliyyətləri üçün dövlət büdcə vəsaitlərindən istifadə edən və sahəvi xarakter daşıyan lizinq şirkətlərinə münasibətdə həyata keçirilmi (7).

Eyni prinsiplə müqavilələrdə bütün vacib şərtlərin, habelə mövcud qanunvericiliyə zidd olan şərtlərin olması yoxlanılır. Deməli, maliyyə lizinqi obyektinin biznes məqsədləri üçün istifadə edilib-edilmədiyini öyrənmək lazımdır. Bu tələbin pozulması auditora müqavilənin Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olmadığı qənaətinə gəlməyə imkan verir, bununla əlaqədar olaraq müştəriyə əməliyyatın etibarsız sayılmasının mümkünlüyü barədə müəyyən edilmiş qaydada məlumat vermək lazımdır. Beynəlxalq maliyyə lizinq müqaviləsini yoxlayarkən alqı-satqı müqaviləsinə istinadın olub-olmadığını yoxlamaq lazımdır ki, bu müqaviləyə əsasən lizinq obyektinin icarəyə götürüldüyü andan altı aydan gec olmayaraq lizinq alana verilməsi həyata keçirilməlidir. Altı aydan çox müddətə icarəyə götürülmüş əmlakın Azərbaycan Respublikasının ərazisindən daşınması halları istisna olmaqla, Azərbaycan Respublikasının gömrük sərhədindən keçir. "Lizinq haqqında" Dövlət Qanununun yuxarıda göstərilən tələbinə əməl edilməməsi əməliyyatı lizinq müqaviləsi kimi nəzərdən keçirməyə imkan vermir.

İcarəyə verən kimi fəaliyyət göstərmək tələbinə əməl olunması (lisenziyanın qüvvədə olduğu müddətdə həyata keçirilən ən azı bir maliyyə icarəsi müqaviləsinin olması) da yoxlanılmalıdır.

Auditorlar Azərbaycan Respublikasında lizinq fəaliyyətinin lisenziyalaşdırılması haqqında Əsasnamənin (1) qanunvericilik və digər normativ hüquqi aktlara uyğunluq tələbinə də diqqət yetirməlidirlər ki, bu da lisenziyanın etibarlılığı üçün ilkin şərtdir. Bu tələb xüsusilə vacibdir, çünki təkrar əməl edilməməsi lisenziyanın dayandırılması və ya ləğvi ilə nəticələnə bilər ki, bu da lizinq öhdəliklərini yerinə yetirmək imkanını təhlükə altına qoya bilər. Göstərilən tələblərə əməl edilməməsi faktları aşkar edildikdə, bu cür faktlar işçi sənədlərdə əks etdirilməli, sonra isə mənfi nəticələrin riskini göstərən audit hesabatında əhatə olunmalıdır.

Audit zamanı planlaşdırma çox vacibdir. Planlaşdırma mərhələsində auditorlar mühasibat uçotu və daxili nəzarət sistemləri ilə tanış olurlar. Bununla əlaqədar biz təsərrüfat subyektinin mühasibat uçotu və daxili nəzarət sistemlərinin qiymətləndirilməsi metodologiyasını, lizinq əməliyyatlarının xüsusiyyətlərini nəzərə almaqla və qiymətləndirmənin üç istiqamətini əhatə edən metodologiya təklif etmişik: uçot sisteminin qiymətləndirilməsi; nəzarət mühiti və nəzarətin effektivliyi. Planlaşdırma mərhələsində audit edilən təşkilatın uçot siyasətinin öyrənilməsi və qiymətləndirilməsi, lizinq əməliyyatlarının auditi zamanı öyrəniləcək elementlərin müəyyən edilməsi təklif olunur ("Lizinq xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu, 1994).

Lizinq təşkilatlarının uçot siyasətinin təhlilinin nəticələrinə əsasən belə qənaətə gəlinmişdir ki, bu təsərrüfat subyektlərinin əksəriyyətində lizinq əməliyyatları üzrə həm mühasibat, həm də vergi uçotunun xüsusiyyətlərinə aid edilə bilən uçot siyasətinin mühüm elementləri sənədləşdirilmir. Beləliklə, mühasibat uçotu siyasətinin, xüsusən də lizinq əməliyyatlarının uçotunu tənzimləyən elementlərin təkmilləşdirilməsi üzrə tövsiyələr auditlə bağlı xidmətlərin göstərilməsi istiqamətlərindən biri ola bilər. Uçot siyasətinin tamlığını və məzmununu yoxlamaq üçün əmlakın icarəyə verilməsinin təşkilatın fəaliyyətinin subyekti kimi tanınması baxımından uçot siyasətinin müəyyən edilmiş xüsusiyyətlərini əks etdirmək üçün istifadə edilə bilən işçi sənədlərin formaları təklif olunur. Auditor öz fəaliyyətini üç əsas səbəbə görə diqqətlə planlaşdırmalıdır: bu, auditora müştərinin vəziyyəti haqqında kifayət qədər sübut əldə etməyə imkan verəcək, audit xərclərini

ağlabatan həddə saxlamağa kömək edəcək və müştəri ilə anlaşılmazlıqların qarşısını alacaq. Audit firması qanuni öhdəlikləri minimuma endirmək və öz peşə yoldaşları arasında yaxşı reputasiya saxlamaq istəyirsə, kifayət qədər sayda sertifikat əldə etməsi çox vacibdir. Xərclərin məqbul həddə saxlanması firmanın rəqabət qabiliyyətini saxlamasına və bununla da öz müştərilərini itirməməsinə kömək edir, bir şərtlə ki, firma öz vəzifələrini yüksək keyfiyyətli icra edən kimi özünü təsdiqləsin. Müştəri ilə anlaşılmazlıqların qarşısını almaq vacibdir, çünki bu, onunla yaxşı münasibətləri təmin edir, həm də qarşılıqlı məqbul qiymətə keyfiyyətli işə töhfə verir.

Əvvəlcədən planlaşdırma audit işinin ilkin mərhələsində və tez-tez (lazım olduqda) müştərinin ofisində aparılır. Əvvəlcədən planlaşdırma müştəri üçün auditin başlaması və ya davam etdirilməsi ilə bağlı qərar qəbul etmək, müştərinin öz sifarişini və auditini əsaslandırmasının səbəblərini müəyyən etmək, audit vəzifələrini yerinə yetirmək üçün personal seçmək və öhdəlik yazmaq daxildir. Auditin nəticələrini böyük ölçüdə müəyyən edən auditin əsas məqamlarından biri audit riskinin qiymətləndirilməsidir. Digər iki risk komponenti əsasında onu birmənalı olaraq müəyyən etmək mümkün olmayan hallarda aşkarlanma riski müəyyən edilərkən auditor peşəkar skeptisizm prinsipini tətbiq etməli və mümkün olan ən aşağı həddi təyin etməlidir.

Əhəmiyyətlilik səviyyəsinin qiymətləndirilməsində deduktiv və induktiv yanaşmaların tətbiqi imkanlarını nəzərdən keçirdikdən sonra lizinq müqavilələri üzrə əmlakın verilməsində ixtisaslaşmış təşkilatların lizinq əməliyyatlarının auditi aparılarkən ümumi səviyyənin müəyyən edilməsi təklif edilərək deduktiv yanaşmada əvvəlki iki hesabat dövrü üçün əsas göstəricilərin dəyərlərinə əsaslanan əhəmiyyətlilik və onların hesabat maddələri üzrə bölüşdürülməsi əsas götürülür. Deduktiv yanaşmanın əsas üstünlüyü yoxlamanın müxtəlif səviyyələrində icazə verilən maksimum xətaların müəyyən edilməsində vahid meyardan istifadə edilməsidir ki, bu da yoxlama bir neçə auditor tərəfindən aparılsa belə, bütün sahələr üzrə qiymətləndirmələrin vahidliyini təmin edir. "Əhəmiyyətlilik səviyyəsinin hesablanması nəticəsində müəyyən edilmiş mövcud metodların çatışmazlıqları aşağıdakılardır: yoxlanılan təşkilatın sənaye mənsubiyyətindən asılı olaraq differensiallaşdırılmış əsas göstəricilər toplusunun olmaması; əhəmiyyətlilik səviyyəsinin audit riskinin səviyyəsi ilə əlaqələndirilməməsi; ayrı-ayrı hesabat maddələri və ya mühasibat uçotu hesabları üzrə əhəmiyyətliliyin ümumi səviyyəsinin müəyyən edilməsi üçün heç bir üsul nəzərdə tutulmamışdır" (Kabatova, 2011:73).

Biz icarəyə verən təşkilatların fəaliyyətinin xüsusiyyətlərini nəzərə almaqla onların auditinin əhəmiyyətlilik səviyyəsinin hesablanması metodologiyasını təklif edirik. Lizinq əməliyyatlarının fəaliyyətinin xüsusiyyətlərinə əsasən hesablamaya aşağıdakı göstəricilər daxil edilmişdir: maddi aktivlərə sərfəli investisiyalar, uzunmüddətli və qısamüddətli kreditlər, lizinq avadanlıqları, vergitutmadan əvvəl satışdan əldə edilən gəlirlər (xalis), mənfəət (zərər). Hər bir göstəricinin payının müəyyən edilməsi aşkarlanmama riskinin səviyyəsinin qiymətləndirilməsi əsasında aparılır. Eyni zamanda, əhəmiyyətlilik səviyyəsi ilə audit riski arasında tərs əlaqə nəzərə alınır: əsas göstəricilərin payları aşkarlanmama riskinin səviyyəsi ilə tərs mütənasibdir. Əhəmiyyətlilik səviyyəsi əsas göstəricilərin paylarının orta arifmetik dəyəri kimi müəyyən edilmişdir (Trexov, 2016). Xüsusi əhəmiyyətlilik səviyyələrinin hesablanması ümumi əhəmiyyətlilik səviyyəsinin balans maddələri üzrə bölüşdürülməsi yolu ilə müəyyən edilir. Cari hesabat tarixində bir maddənin əhəmiyyəti bu maddənin əvvəlki ilin hesabat tarixindəki əhəmiyyətindən fərqlənə bildiyindən, əhəmiyyətlilik səviyyəsinin müəyyən edilməsi və onun təklif olunan metodologiyaya əsasən cari dövrün mühasibat uçotu hesabları üzrə qalığın məbləği və əvvəlki ilin məbləğ balansın bölüşdürülməsi hər iki faktor nəzərə alınmaqla həyata keçirilir. Aşkarlanma riski, özünəməxsus risk və nəzarət riski daxil olmaqla, audit riski komponentlərinin əvvəlcədən qiymətləndirilmiş səviyyələri əsasında müəyyən edilir. Auditin nəticələrinə əsasən adekvat qərarlar qəbul etmək üçün aşkarlanmama riskinin səviyyəsi əhəmiyyətlilik səviyyəsi ilə tərs mütənasib olmalıdır (Azərbaycan Respublikasının Qanunlar Külliyatı).

## Nəticə

Daxili tənzimləyici bazanın təhlilinə əsaslanaraq, deyə bilərik ki, bu gün lizinq münasibətlərinin iştirakçıları mənfəət kütləsinin tənzimlənməsi və onun real dəyərinin təhrif edilməsi üsulları ilə bağlı kifayət qədər böyük arsenala malikdirlər. Müəssisənin istifadə edə biləcəyi mənfəət kütləsinin tənzimlənməsi metodları lizinq əməliyyatları çərçivəsində onun tərəfindən müstəqil olaraq müəyyən edilir və onun hesab siyasəti ilə möhkəmləndirilir. Bundan əlavə, lizinqin təşkili şərtləri lizinq müqaviləsində hər iki tərəflərin iştirakı ilə müəyyən edilir. İqtisadiyyat və hüquq elmində icarə münasibətlərinin mahiyyətinin öyrənilməsi məsələlərinə kifayət qədər diqqət yetirilir. Lakin bu məsələ ilə bağlı rəy və mülahizələrin uyğunsuzluğu bu fenomenə aydınlıq gətirməyi zəruri edir. Bu məqsədlə işdə yerli və xarici alimlərin icarə münasibətlərinin mahiyyətinə dair baxışları nəzərə alınmışdır ki, bu da icarə əməliyyatlarının mahiyyətini müəyyən etməyə və konkretləşdirməyə imkan vermişdir.

## Ədəbiyyat

1. Auditin mahiyyəti, əhəmiyyəti və ümumi vəzifələri − Invest Audit. http://investaudit.az Auditin-əsasları-mühazirələr
2. Romanchikov, A.V. (2006). Metodika audita lizingovykh operatsiy: dissertatsiya kandidata ekonomicheskikh nauk: 08.00.12. Moskva.
3. Pospelkov, I.S. (2005). Kontrol kachestva audita (tezisy). Sotsialno-ekonomicheskiye problemy transformatsionnoy ekonomiki: materialy vtoroy nauchno-prakticheskoy konferentsii. Tyumen: izd-vo «Vektor Buk», s.137-140.
4. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. (2005). Bakı: Qanun, 352 s.
5. Abbasov, I.M. (2012). Sovershenstvovaniye metodiki audita dostovernosti ucheta i otchetnosti finansovoydeyatelnosti lizingovykh operatsiy. 3 (33), s.3-14.
6. Pospelkov, I.S. (2013). Audit lizingovykh operatsiy: otsenka auditorskogo riska Sovershenstvovaniye ucheta, ekonomicheskogo analiza i audita v sovremennykh usloviyakh: tretiy sbornik statey po materialam Vserossiyskoy nauchno-prakticheskoy konferentsii. Tyumen: izd-vo “TyumGU”, s.126-130.
7. Grishenko, YU.I. (2006). Organizatsiya i metodika audita arendnykh otnosheniy u arendodatelya: Dis.kand.ekon.nauk: 08.00.12. Moskva, 220 s.
8. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. (2003). Bakı: Qanun. https://www.e-qanun.az/framework/46944
9. “Lizinq xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu. (1994). Bakı.
10. Kabatova, Ye.V. (2011). Lizing: ponyatiye, pravovoye regulirovaniye, mezhdunarodnaya unifikatsiya. M.: Nauka, 126 s.
11. Terekhov, A.A. (2016). Kontrol i audit: osnovnyye metodicheskiye priyemy i tekhnologiya, Finansy i statistika.
12. Azərbaycan Respublikasının Qanunlar Külliyatı, 3 cilddə. Bakı: Diqesta, I c., 2001, 1038 s.; II c., 2001, 1053 s.; III c., 2002, 1053 s.

**Rəyçi: i.ü.e.d. Fazil Hacıyev**

Göndərildi: 01.09.2022 Qəbul edildi: 17.10.2022

DOI: https://doi.org/10.36719/2663-4619/84/61-66

**Gülçin Arif qızı Hacıyeva**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
gulcin.hacizade7@gmail.com
**Aydın Habil oğlu Ağaverdiyev**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
agaverdiyevaydin@gmail.com
**Maya Adil qızı Eyvazzadə**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
mayaeyvazzade.me@gmail.com
**İlqar Elbrus oğlu Məmmədli**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
memmedliilqar52@gmail.com

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN BANİSİ OLDUĞU AZƏRBAYCAN RESPUBLİKASININ DAVAMLI İNKİŞAF STRATEGİYASI VƏ BU SAHƏDƏ UĞURLU VARİSLİK

**Xülasə**

Müəlliflər bu məqalədə davamlı inkişafa nail olunmasında mühüm yer tutan minilliyin inkişaf məqsədlərini və “Gündəlik-2030” ilə müəyyən edilmiş Dayanıqlı İnkişaf Məqsədlərini təhlil etmişdir. Qeyd edilmişdir ki, dayanıqlı inkişafın gələcək nəsillərin öz ehtiyaclarını ödəmək imkanlarına xələl gətirmədən indiki ehtiyaclara cavab verən inkişaf olduğunu vurğulamışlar. Ölkəmizdə isə 1994-cü ildən başlayaraq ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda əsas məqsədi ölkədə yoxsulluğun azaldılması və davamlı inkişafın təmin edilməsi olan çoxşaxəli islahatlar həyata keçirilmişdir. Ulu Öndərin 2 mart 2001-ci il tarixli Sərəncamı ilə yaradılmış xüsusi Dövlət Komissiyası MİM-lərin lokallaşdırılaraq milli inkişaf strategiyaları ilə uyğunlaşdırılması istiqamətində məqsədyönlü fəaliyyətə başlamışdır. 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illəri əhatə edən dövlət proqramları, milli prioritetlər və inkişaf konsepsiyaları Azərbaycanda davamlı inkişafın təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişlər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən uğurlu varislik siyasəti nəticəsində Azərbaycan dünyanın 163 ölkəsi arasında “davamlı inkişaf məqsədləri (DİM) indeksi” üzrə 50-ci yerdə qərarlaşıb. Bu isə o deməkdir ki, Azərbaycanda yürüdülən davamlı inkişaf strategiyası bir çox ölkələrə örnək olacaq mahiyyətdədir.

***Açar sözlər:*** *davamlı inkişaf, Minilliyin Bəyannaməsi, dayanıqlı inkişaf məqsədləri, dövlət siyasəti, dövlət proqramları*

**Gulchin Arif Hajiyeva**
**Aydin Habil Aghaverdiyev**
**Maya Adil Eyvazzade**
**Ilgar Elbrus Mammadli**

# Sustainable development strategy of the Republic of Azerbaijan, founded by national leader Heydar Aliyev, and successful inheritance in this field

## Abstract

In this article, the authors analyzed the Millennium Development Goals and the Sustainable Development Goals set by the "2030-Agenda", which play an important role in achieving sustainable development. It was noted that sustainable development is development that meets the needs of the present without compromising the ability of future generations to meet their own needs. In our country, starting from 1994, under the leadership of national leader Heydar Aliyev, multifaceted reforms were implemented in Azerbaijan, the main goal of which was to reduce poverty and ensure sustainable development in the country. The special State Commission established by the Decree of the Great Leader dated March 2, 2001 has started targeted activities in the direction of localizing MDGs and aligning them with national development strategies. State programs, national priorities and development concepts covering the years 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023 have become important in terms of ensuring sustainable development in Azerbaijan. As a result of the successful succession policy continued under the leadership of the President of the Republic of Azerbaijan Mr. Ilham Aliyev, Azerbaijan ranked 50th among 163 countries of the world on the "sustainable development goals (SDG) index". This means that the strategy of sustainable development implemented in Azerbaijan is an example for many countries.

***Keywords:*** *sustainable development, Millennium Declaration, sustainable development goals, state policy, state programs*

## Giriş

Ədəbiyyatda dayanıqlı inkişafla bağlı müxtəlif baxışlar, fikirlər çox olsa da, onun məzmunu haqqında birmənalı qəbul olunmuş vahid bir anlayış yoxdur.

Dayanıqlılıq dedikdə, müəyyən bir varlığı, nəticəni və ya prosesi zamanla saxlamaq qabiliyyəti başa düşülür. Bu nöqteyi-nəzərdən, davamlılıq insan fəaliyyətini və onların ixtiyarında olan məhsuldar resursları tükənmədən və ya tükəndirmədən insan ehtiyac və istəklərini təmin etmək qabiliyyətini diqqət mərkəzində saxlayır. İnkişaf isə "yeni strukturların yaradılması, problemlərin öhdəsindən gəlmək, davamlı dəyişikliklərə uyğunlaşmaq və yeni məqsədlərə çatmaq üçün məqsədyönlü və yaradıcı şəkildə səy göstərmək baxımından insan potensialının artdığı təkamül prosesi" kimi müəyyən edilir. Brundtland Hesabatında isə ilk dəfə olaraq bu 2 anlayış inteqrasiya olunaraq dayanıqlı inkişafla bağlı rəsmi tərif işlənib hazırlanmışdır. Brundtland Komissiyası Birləşmiş Millətlər Təşkilatının (BMT) alt təşkilatı olmaqla, davamlı inkişafa nail olmaq üçün ölkələri birləşdirmək məqsədi daşıyırdı. 1987-ci ildə Brundtland Komissiyası tərəfindən qəbul edilmiş Brundtland Hesabatı kimi tanınan "Bizim ümumi gələcəyimiz" sərlövhəli sənəddə "dayanıqlı inkişaf" termini aşağıdakı kimi müəyyən edilmişdir: *"Dayanıqlı inkişaf gələcək nəsillərin öz ehtiyaclarını ödəmək imkanlarına xələl gətirmədən indiki ehtiyaclara cavab verən inkişafdır".*

2000-ci ilin sentyabrında isə BMT-yə üzv dövlətlər Nyu-Yorkda BMT-nin Baş Qərargahında Minilliyin Sammitində Minilliyin Bəyannaməsini yekdilliklə qəbul edilmiş Minilliyin İnkişaf Məqsədləri (MİM) 2015-ci ilə qədər ifrat yoxsulluğun azaldılmasını hədəfləmişdi.

Dayanıqlı inkişafın təmin edilməsi istiqamətində atılan təqdirəlayiq addımların başında 2015-ci ilin sentyabrında BMT-yə üzv dövlətlər tərəfindən "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliyin" qəbul edilməsi dayanır. Qlobal Məqsədlər kimi də tanınan Dayanıqlı İnkişaf Məqsədləri 2015-ci ildə BMT tərəfindən yoxsulluğa son qoymaq, planeti qorumaq və 2030-cu ilə qədər bütün insanların sülh və firavanlıqdan zövq almasını təmin etmək üçün universal

fəaliyyət çağırışı kimi qəbul edilmişdir. Gündəliyin tərkib hissəsi 17 Dayanıqlı İnkişaf Məqsədi və onlara əlçatanlığının təmin edilməsinə xidmət edən 169 hədəfdən ibarət olmaqla, bütün dövlətlərdən DİM-ləri nəzərə almaqla cəmiyyətin davamlı inkişafına nail olmaq üçün milli planları və mexanizmləri nəzərdən keçirməyi və konkretləşdirməyi tələb edir. Dayanıqlı İnkişaf Məqsədləri isə yoxsulluq, bərabərsizlik, iqlim dəyişikliyi, ətraf mühitin deqradasiyası, sülh və ədalət də daxil olmaqla, üzləşdiyimiz qlobal çağırışları həll edir. 1993-2003-cü illərdə ulu öndər, uzaqgörən lider Heydər Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi inkişaf sahəsində əldə olunan nəticələr, yaradılan iqtisadi potensial, institusional hüquqi baza və ümumən formalaşdırılmış iqtisadi mühit ölkəmizə davamlı inkişafa keçidi yaxın gələcəkdə əsas məqsəd kimi qarşıya qoymağa imkan vermişdir. Hal-hazırda ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə davamlı inkişafının təmin edilməsi ilə bağlı hazırlanan və müvəffəqiyyətlə həyata keçirilən dövlət proqramları olduqca təqdirəlayiqdir.

1994-cü ildən başlayaraq, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda əsas məqsədi ölkədə yoxsulluğun azaldılması və davamlı inkişafın təmin edilməsi olan çoxşaxəli islahatlar həyata keçirilməyə başladı. Bu dövr ərzində həyata keçirilən iqtisadi islahatların rəsmiləşdirilməsi baxımdan digər bir istiqamət kimi 1993-cü ildə təsdiq edilmiş "Azərbaycanda Sahibkarlığın İnkişafı (1993-1995)" Dövlət Proqramını qeyd etmək olar. Belə bir proqramın qəbul edilməsi və onun həyata keçirilməsi bu sahədə uğurların əldə edilməsinə imkan yaratdı (ölkədə fəaliyyət göstərən kiçik və orta sahibakarların sayı çoxaldı, onların xarici iqtisadi fəaliyyəti genişləndi və s.).

Təqdirəlayiq haldır ki, iqtisadi inkişafın ikinci mərhələsində Azərbaycan Respublikasında qeyd edilən modelin gerçəkləşməsinin rəsmi bazası kimi bir çox irimiqyaslı siyasət sənədləri (konsepsiya, strategiya və proqramlar) qəbul olunmuş, "Azərbaycanda Kiçik və Orta Sahibkarlığa Dövlət Yardımı Proqramı (1997-2000-ci illər)", "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)", "Azərbaycan Respublikasında maşınqayırma sənayesinin inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)", "Azərbaycan Respublikasında aqrar bölmənin inkişafının Dövlət Proqramı (2002-2006-cı illər)", "Azərbaycan Respublikasının demoqrafik inkişaf konsepsiyası", "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı" və digərləri uğurla həyata keçirilmişdir.

Minilliyin Bəyannaməsinə qoşulduqdan sonra ulu öndərin 2 mart 2001-ci il tarixli Sərəncamı ilə yaradılmış xüsusi Dövlət Komissiyası MİM-lərin lokallaşdırılaraq milli inkişaf strategiyaları ilə uyğunlaşdırılması istiqamətində məqsədyönlü fəaliyyətə başladı. Əsrin başlanğıcında 1 milyona yaxın qaçqın və məcburi köçkün problemi olan, əhalisinin, demək olar ki, yarısı yoxsulluq səviyyəsində yaşayan Azərbaycan üçün Minilliyin Bəyannaməsində nəzərdə tutulan məqsədlərə nail olmaq kifayət qədər böyük çağırış idi. "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı", eləcə də "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın təsdiq edilməsi nəticəsində xüsusilə insanların sağlamlığının qorunması, ətraf mühitin yaxşılaşdırılması, yoxsulluğun aradan qaldırılması, əhalinin təhsil səviyyəsinin yüksəldilməsi, gender bərabərliyinin təşviq və təmin olunması üzrə mühüm nailiyyətlər əldə etmişdir. Görülən işlər sayəsində 2001-ci ildə 49,0%-ə bərabər yoxsulluq səviyyəsi 2015-ci ildə 4,9%-ə enmiş, müvafiq MİM-lərə uyğun olaraq hədəflənmiş əhali arasında ümumi savadlılıq səviyyəsinin yüksəldilməsi, gender bərabərliyinin təmini, ana sağlamlılığının yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi kimi sahələrdə qlobal səviyyədə tanınmış və yüksək qiymətləndirilmiş nailiyyətlər əldə edilmişdir.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü və uğurlu sosial-iqtisadi inkişaf strategiyası nəticəsində 2015-ci ildə MİM-lərin icrasının yekunları ilə bağlı Romada keçirilən təqdimat mərasimində Azərbaycan yoxsulluğun aradan qaldırılması sahəsində qazanılan uğurlara görə Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) "Cənub-Cənub" mükafatına layiq görülüb. Bu siyasətin nəticəsi olaraq, Azərbaycan dünyada 128 ölkə arasında az qidalanma sayının azaldılması məqsədinə nail olan 18 ölkədən biridir (1).

Eyni zamanda paralel olaraq icra edilən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", "Azərbaycan Respublikası regionlarının 2009-2013-

cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" iqtisadiyyatın diversifikasiyasının, qeyri-neft sektorunun və regionların inkişafının davamlılığının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. 2004-2013-cü illər ərzində ümumi daxili məhsul 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,6 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, investisiyalar 6,5 dəfə, əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əməkhaqqı 5,5 dəfə artmışdır (2).2004-2018-ci illər ərzində icra edilən Dövlət Proqramı çərçivəsində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artmışdır. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir (3).

Hal-hazırda icrası davam edən "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən regionların davamlı və tarazlı inkişafının təmin olunması gözlənilir. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyanın başlıca strateji məqsədi mövcud imkan və resursları nəzərə almaqla, Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmaqdır. Respublikamızın Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Sammitində 2016-2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulması ilə Azərbaycanda daha dayanıqlı, əhatəli və şaxələndirilmiş iqtisadiyyatın inkişaf etdirilməsi, sosial sahələrin tarazlı inkişafının təmin edilməsi üçün səmərəli milli icra mexanizminin formalaşdırılması xüsusi əhəmiyyət kəsb etməyə başlamışdır. Gündəlik-2030-a institusional və siyasi baxımdan kompleks yanaşmanı təmin etmək və bu əhatəli məqsədlərin reallaşdırılmasına cavabdeh dövlət və müxtəlif maraqlı tərəflər arasında əlaqələndirmənin səmərəli təşkili məqsədilə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 6 oktyabr 2016-cı il tarixli 1066 nömrəli Fərmanı ilə yaradılmış Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası davamlı inkişaf istiqamətində fəaliyyəti daha da səmərəli etdi. Belə ki, 2030-cu ilədək Azərbaycan üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetləri və onlara dair göstəriciləri müəyyənləşdirmək, habelə ölkədə sosial-iqtisadi sahələri əhatə edən Dövlət proqramlarının və strategiyalarının DİM ilə uzlaşdırılmasını təmin etmək Şuranın fəaliyyətinin əsasını təşkil edir. Nəticə etibarilə, qısa bir zamanda ölkəmizdə davamlı inkişaf məqsədlərinə nail olunmasına xidmət edən hüquqi, institusional və iqtisadi əsaslara söykənən icra mexanizmləri yaradıldı. Eyni zamanda, görülmüş işlərin səmərəliyini və təsirini öyrənmək və siyasətləri davamlı şəkildə təkmilləşdirmək məqsədilə ölkəmizdə DİM-lər üzrə milli monitorinq və qiymətləndirmə mexanizmi formalaşdırıldı və ölkəmiz BMT-nin Davamlı İnkişaf üzrə Yüksək Səviyyəli Siyasi Forumuna öz Könüllü Milli Hesabatını təqdim edən ilkin ölkələrdən olmuşdur. 2017 və 2019-cu illərdə iki Könüllü Milli Hesabat hesabatını təqdim etməklə Azərbaycan 2019-cu ilədək MDB məkanında ilk olaraq iki Könüllü Milli Hesabat təqdim edən ölkə olub (4).

25-26.10.2018-ci il tarixlərində Azərbaycan Hökuməti və Birləşmiş Millətlər Təşkilatının yerli nümayəndəliyinin birgə təşkil etdiyi iki günlük Dayanıqlı İnkişaf Məqsədləri üzrə ilk Bakı Forumu Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramı və Azərbaycan Respublikası Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasından əhəmiyyətli texniki və maliyyə dəstəyi ilə DİM-lərin inteqrasiyası, sürətləndirilməsi və siyasətin dəstəklənməsi (MAPS) missiyasının aparıldığı və DİM sürətləndiricilərinin tətbiq olunduğu ölkələrə diqqət yetirməklə regional təcrübələrin bölüşdürülməsinə öz töhfəsini vermişdir. Forum çərçivəsində tərəfdaşlıq qlobal inkişaf səylərinin önündə tutularaq heç kəsi kənarda qoymadan və hamının ehtiyaclarını ödəyərək birgə çalışmağın əhəmiyyəti vurğulanmış, regionda təmiz su təminatı və iqlim dəyişikliyi tədbirlərinə diqqət yetirilmişdir (5).

Xüsusən 2020-ci ildə dünyada meydana gələn pandemiya şəraiti istər sağlamlıq cəhətdən, istərsə də iqtisadi cəhətdən böhrana gətirib çıxarmışdır. Azərbaycan Respublikasında isə 44 günlük Vətən

müharibəsi səbəbilə siyasi gərginlik də hökm sürməkdə idi. Lakin çox keçmədi ki, qazanılan şanlı zəfərdən sonra Respublikada inklüziv, sabit və davamlı xarakter daşıyan bərpa işlərinə start verildi. COVID-19-la mübarizə çərçivəsində özəl sektorun dəstəklənməsi, həmçinin makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsi istiqamətində lazımi addımlar atıldı və respublika əhalisinin demək olar yarısını əhatə edən, 3,5 milyard manat dəyərində hərtərəfli sosial-iqtisadi paket reallaşdırıldı (6). O cümlədən işğaldan azad edilmiş ərazilərdə geniş miqyaslı iqtisadi inkişafı və həmin ərazilərin milli və regional iqtisadiyyata sürətli inteqrasiyası təmin edildi. Xüsusən burada aparılan yenidənqurma işləri davamlı inkişaf məqsədlərinə xidmət edən texnologiya və layihələrə dayanır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasındakı çıxışında Qarabağda quruculuq və infrastrukturun bərpası ilə bağlı həyata keçirilən layihələr və investorların cəlb edilməsi məsələsinə də toxunmuş və, beynəlxalq enerji şirkətlərini Azərbaycanın azad olunmuş ərazilərində "yaşıl enerji" layihələrinə sərmayə qoymağa dəvət etmişdir (7). 2021-ci ilin may ayında isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədə işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə bağlı qarşıya qoyduğu vəzifələrin icrası məqsədilə Energetika Nazirliyi ilə Yaponiyanın TEPSCO şirkəti arasında müqavilə imzalanmışdır. Layihə çərçivəsində sahə üzrə beynəlxalq təcrübə araşdırılacaq, işğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişaf və əhalinin məskunlaşmasından asılı olaraq enerjiyə tələbat və enerji təchizatı ssenariləri, bərpa olunan enerjinin şəbəkəyə inteqrasiyası, enerji effektivliyi, nəqliyyat, şəhərsalma, tullantıların idarə edilməsi, ağıllı şəbəkələr, yaşıl maliyyələşdirmə və s. kimi məsələlər əhatə ediləcəkdir (8).

Qarabağda həyata keçirilən davamlı inkişaf siyasətinin bir parçasını da ağıllı şəhər layihələri təşkil edir. Müasir dünyada ağıllı şəhərlərin yaradılması qloballaşmanın və 4-cü sənaye inqilabının yaratdığı bir çox problemləri də aradan qaldıra bilər. Həmçinin şəhərlərin daha davamlı, əhatəli və təhlükəsiz hala gətirmək Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Məqsədlərindən biri olaraq müəyyənləşib. Belə bir layihənin Qarabağda həyata keçirilməsi isə olduqca təqdirəlayiq addımdır. Sözsüz ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə 26 aprel 2021-ci ildə Zəngilanda təməli qoyulmuş ağıllı kənd layihəsinin tətbiqinə start verilməsi Böyük Qayıdış proqramının icrasında davamlı səmərəli nəticələrə gətirib çıxaracaq. Azərbaycan BMT-nin "Davamlı inkişaf hesabatı-2020" sənədində dünyanın 166 ölkəsi arasında "davamlı inkişaf məqsədləri indeksi" üzrə 54-cü pillədə qərarlaşıb. Bu indeksə görə Azərbaycan regional liderdir və dünya ölkələri arasında mühüm nəticə nümayiş etdirir. Ölkəmiz 54-cü yerdə qərarlaşaraq bütün qonşularını geridə qoyub. Azərbaycan səhiyyə, rifah, yoxsulluq, qidalanma, təmiz su, təmiz enerji, davamlı şəhərlər və icmalar, sülh, ədalət və güclü institutlar kimi sahələrdə BMT-nin Davamlı İnkişaf Məqsədləri üzrə irəliləyişlər edib və bu indeksin mümkün 100 balından 72,6-sını toplayıb. Hesabatda Rusiya 57-ci, Gürcüstan 58-ci, İran 59-cu, Qazaxıstan 65-ci, Türkiyə 70-ci, Ermənistan 75-ci, Türkmənistan 114-cü mövqedədir. Şərqi Avropa və Mərkəzi Asiyada orta göstərici isə 70.9 baldır (9). 2022-ci il üçün hazırlanmış hesabat sənədinə əsasən isə ölkəmiz ötən il ilə müqayisədə 5 pillə irəliləyərək mümkün 100 baldan 73,5 toplayıb. Belə ki, hazırda Azərbaycan dünyanın 163 ölkəsi arasında "davamlı inkişaf məqsədləri (DİM) indeksi" üzrə 50-ci yerdə qərarlaşıb. Bu göstəriciyə görə respublikamız Cənubi Qafqaz regionunda (Gürcüstan 51-ci yer, Ermənistan 66-cı yer) liderdir. Müqayisə üçün demək olar ki, Şərqi Avropa və Mərkəzi Asiya regionunda bu indeks üzrə orta göstərici 71,6-dır ki, bu da Azərbaycanın göstəricindən aşağıdır. Hesabatda ölkəmiz yaxşı səhiyyə və rifah, keyfiyyətli təhsil, yoxsulluğa son, təmiz su və sanitariya, davamlı şəhərlər və icmalar, məsuliyyətli istehsal və istehlak, iqlim dəyişikliyinə qarşı mübarizə və torpaq ekosisteminin mühafizəsi məqsədləri üçün tərəfdaşlıq kimi Davamlı İnkişaf Məqsədləri üzrə irəliləyişə nail olub. Hesabatda müəyyən edilmiş altməqsədlərə gəldikdə isə, qiymətləndirilən 83 məqsəddən 35-də irəliləyiş əldə edilib (qismən və ya nəzərəcarpacaq), 7-si üzrə isə DİM məqsədlərinə çatılıb (10). Nəzərə alsaq ki, hazırda Azərbaycan 2022-2030-cu illəri əhatə edən yeni strateji inkişaf mərhələsinə daxil olur, deməli, qarşımızda iqtisadi artımın daha dayanıqlı drayverlərinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin, innovasiya yönümlülüyünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi və azad edilmiş ərazilərin reinteqrasiyası kimi yeni vəzifələr durur. Məhz qeyd edilən inkişafın təmin edilməsirəhbər

tutularaq hazırlanan 2022-ci il üzrə dövlət büdcəsində sosial xərclərin 46,4 faizə çatdırıldığı və 2021-ci illə müqayisədə 13,5 faiz, yəni 1 milyard 650 milyon manat artırıldığı təqdirəlayiq haldır. Həmçinin 2022-ci ildə əməyin ödənilməsinə 8 milyard 97 milyon manat məbləğində vəsait təklif olunmuş, sosial təminat xərcləri üçün dövlət büdcəsində 3 milyard 566 milyon manat, təhsil xərclərinə büdcədən 3 milyard 884 milyon manat ayrılması nəzərdə tutulmuşdur. Digər prioritet istiqamət olan səhiyyə sahəsinə ayrılan vəsait cari ildən başlayaraq tətbiq olunan icbari tibbi sığorta öhdəlikləri də nəzərə alınmaqla 1 milyard 789 milyon manat səviyyəsində müəyyən edilmiş, gənclər və idman sahəsinə 44 milyon manat, turizmin inkişafı üçün 59 milyon manat vəsaitin ayrılması planlaşdırılmışdır. Göründüyü kimi büdcə müzakirələri zamanı bütün sahələrdə davamlı inkişafa nail olunmasına təkan verəcək amillər nəzərə alınmışdır (11). Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Sənədə əsasən növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi (12).

## Nəticə

Göründüyü kimi ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən islahatların məğzində davamlı inkişafa nail olmaq vəzifəsi dayanır və bu məqsədlə ardıcıl islahatlar keçirilir. Prezidentin bəhs edilən sahəyə göstərdiyi qayğı və diqqətin təzahürü olaraq digər icra hakimiyyəti orqanları da davamlı inkişaf məqsədlərinə əlçatanlığın təmin edilməsində mühüm əhəmiyyətə malik addımlara imza atırlar.

## Ədəbiyyat

1. http://www.anl.az/down/meqale/yeni_az/2019/fevral/632759.htm
2. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı https://e-qanun.az/framework/27284
3. Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı https://e-qanun.az/framework/41320
4. https://azerbaijan.un.org/az/sdgs
5. https://www.medicina.az/read/bakida-dayaniqli-inkisaf-uzre-baki-forumu-kecirilir-fotolar
6. https://dost.gov.az/news/274
7. http://www.ulfet-az.com/Home/SinglePost?PostId=492
8. https://apa.az/az/energy-and-industry/qarabagin-yasil-enerji-zonasina-cevrilmesi-uzre-tedbirler-plani-tesdiq-merhelesindedir-709639
9. https://kafkassam.com/davamli-inkisaf-v%C9%99-az%C9%99rbaycan.html
10. https://ereforms.gov.az/az/media/xeberler/azerbaycan-bmt-nin-davamli-inkisaf-meqsedleri-indeksi-nde-5-pille-irelileyib-405
11. https://azertag.az/xeber/Milli_Meclisin_plenar_iclasinda_2022_ci_ilin_dovlet_budcesi_haqqinda_qanun_layihesi_muzakirelerden_sonra_birinci_oxunusda_qebul_edilib-1927808
12. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər https://president.az/az/articles/view/50474

**Rəyçi: t.ü.f.d. Rahib Əkbərov**

Göndərildi: 19.09.2022 Qəbul edildi: 30.10.2022

DOI: https://doi.org/10.36719/2663-4619/84/67-72

**Səlahət Akif qızı Ağazadə**
Azərbaycan Respublikası Prezidentinin Yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
agazadehs00@gmail.com
**Günay İlham qızı Həsənova**
Azərbaycan Respublikası Prezidentinin Yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
gunayilham03@gmail.com

# HİBRİD MÜHARİBƏ ANLAYIŞI VƏ ONUN ERMƏNİSTANIN XARİCİ SİYASƏTİNDƏ ROLU

## Xülasə

Dövrün tələbatına əsasən müharibələrin təbiətindəki dəyişikliklər onlarda istifadə olunan silah və texnologiyalardan tutmuş, strategiya və taktikalarında özünü göstərmişdir. Soyuq müharibədən sonra yeni dövrün başlaması ilə müharibələr daha gizli, intensiv və daxili münaqişələr şəklində nümayiş olunan, müxtəlif qüvvələr tərəfindən müxtəlif strategiyalardan istifadə edildiyi, hibrid müharibələrə çevrilmişdir. Hibrid müharibə tam olaraq yeni bir anlayış olmasa belə, XXI əsr müharibələrində yeni texnologiyaların və strategiyaların işığında daha təkmil şəkildə özünü göstərir. Araşdırmada hibrid müharibənin təbiəti və elementlərinə toxunulmaqla yanaşı, yeni dövrə uyğun olaraq onun göstərdiyi dəyişiklik və buna aid nümunələrə nəzər salınmışdır. Ən bariz nümunə kimi Ermənistanın hibrid siyasətinin qısa tarixi və İkinci Qarabağ müharibəsində bu siyasətin hansı mərhələyə daşınması araşdırılmışdır.

***Açar sözlər:*** *hibrid müharibə, hibrid müharibə elementləri, yeni nəsil müharibələr, terrorizm, Ermənistanın hibrid müharibə siyasəti, İkinci Qarabağ müharibəsi*

**Salahat Akif Aghazade**
**Gunay Ilham Hasanova**

## The concept of hybrid war and its role in the foreign policy of Armenia

## Abstract

The methods and tactics utilized in conflicts, as well as the weaponry and technologies employed in them, have changed as a result of the demands of the times. After the end of the Cold War, battles have evolved into hybrid warfare, which take the shape of more intense, internal, covert confrontations in which many parties employ a variety of tactics. Even if the idea of hybrid warfare is not technically new, it is evolving in light of new technologies and tactics used in 21st century conflict. The study not only discusses the nature and components of hybrid conflict, but also demonstrates how it has changed and is related to other contemporary examples. The most notable example of this is found in the examination of the brief history of Armenia’s hybrid policy and its manifestation in the Second Karabakh War.

***Keywords:*** *hybrid warfare, hybrid war elements, new generation warfare, terrorism, Armenia's hybrid war policy, The Second Karabakh war*

## Giriş

Tarix boyu müharibələr bəşəriyyətin taleyində müəyyənedici təsirə malik olmuş, onların gedişatı dövrün şərait və tətləblərinə uyğun olaraq dəyişmişdir. Bundan əvvəlki dövrlərdə əsas güc göstəricisi bir aktorun ordusu, hərbi texnikası və müharibə aparma qabiliyyəti kimi faktorlara əsasən dəyərləndirilirdisə, müasir dövrdə bu meyarlar daha da mürəkkəbləşmişdir.

Birinci və İkinci Dünya müharibəsinin bəşəriyyət üçün doğurduğu fəlakətli nəticələrdən sonra müaribənin dağıdıcı təbiəti bütün dünya üçün böyük bir dərs oldu. İkinci Dünya müharibəsinin ardından blokadaların təsiri ilə başlayan və 1991-ci ilə qədər davam edən Soyuq Müharibə dövrü qismən münaqişəsiz qiymətləndirilir. Bu dövrü 11 sentyabr 2001-ci ildə ABŞ-da baş verən terror hadisəsindən sonra yeni bir mərhələ əvəz etmişdir. Diqqət mərkəzi terrorizm və terror qruplaşmalarının gücü və daşıdığı təhlükəyə yönəlmişdir. Bu isə öz növbəsində müharibələrdə bu kimi illeqal qruplaşmalardan istifadənin, müharibənin tərəflərinin və ondan müdafiənin daha qeyri-müəyyən xarakter almasına gətirib çıxarmışdır.

Beynəlxalq münasibətlərin bu yeni inkişaf mərhələsində müharibələrin təbiətindəki dəyişikliklər özünü müharibənin növləri, taktika və strategiyalarında daha qabarıq şəkildə göstərir. Bundan əlavə, silah, nəqliyyat və kommunikasiya texnologiyalarındakı yeniliklər də özlüyündə müharibənin xarakterində böyük dəyişikliklərə səbəb oldu. Bu müharibə aparan dövlətə müharibə aparılan dövlətin ərazisinə yaxınlaşmadan, minimal insan qüvvəsi və xərclə ona maksimal zərər verməyə imkan verir. Düşməni döyüşmədən məhv etməyi müharibənin aparılmasında əsas məqsəd kimi görən və müharibə tarixinə mühüm töhfələr verən Sun-Tzunun eramızdan əvvəl I əsrdə bu mövzuda söylədiyi fikir hibrid müharibənin ilk nümunələrindən sayılır: “Müharibə sənəti düşməni döyüşmədən məğlub etməkdir. Bütün döyüşlər hiylə üzərində qurulur. Deməli, biz hücum potensialına malikiksə, deyilmiş kimi görünməliyik. Qüvvələrimizdən istifadə edərkən hərəkətsiz görünməli, düşmənə yaxın olduğumuz zaman onu uzaqda olduğumuza, uzaqda olduqda isə yaxın olduğumuza inandırmalıyıq” (Sun Tzu, 2000:3).

Yeni nəsil müharibələrdən bəhs edərkən qarışıq müharibə, assimmetrik müharibə, IV nəsil müharibə, təmassız müharibə, sərhədsiz müharibə kimi bir çox müxtəlif terminlərdən istifadə olunmuşdur. Bunlardan biri də bunların hamısını özündə ehtiva edən hibrid müharibə anlayışıdır.

Etimologiyaya nəzər salsaq, hibrid sözünü “iki müxtəlif güc mənbəyinin birləşməsi” kimi şərh etmək olar. Buna əsasən hibrid müharibə ən az iki və ya daha artıq müharibə strategiyası və növünü özündə əks etdirir (Erol, Oghuz, 2015:263). Hibrid müharibə konsepsiyasından ilk dəfə Ceyms N.Mattis tərəfindən 2005-ci il sentyabrın 8-də Virciniya ştatının Arlinqton şəhərində keçirilən Dəniz Forumunda müharibə mənzərəsi təkamülünün müzakirə edildiyi bir tədbirdə istifadə edilmişdir (Mattis, Hoffman, 2005:1-2).

2003-cü ildə ABŞ-ın İraqa qarşı başlatdığı müharibə əvvəlcə şərti xarakter daşısa da, tezliklə nizamsız hala gəldi və hibrid müharibəyə çevrildi. Bundan əlavə, ABŞ-ın 2001-ci ildə Əfqanıstanda həyata keçirdiyi əməliyyat əvvəldən hibrid xarakter daşıyırdı. 2008-ci ildə Rusiyanın Gürcüstana qarşı apardığı müharibə, əsasən, şərti müharibə olsa da, hibrid müharibənin bir çox elementlərini özündə əks etdirirdi. Həmçinin, 2014-cü ildə Rusiyanın Krımı ilhaqı ilə nəticələnən əməliyyatı da hibrid müharibəyə bariz bir nümunə hesab etmək olar (Bingol, 2015:3).

Hibrid müharibənin institutsionallaşması isə Rusiya Federasiyası silahlı qüvvələrinin baş qərargah rəisi Valeriy Vasiliyeviç Gerasimovun adı ilə bağlıdır. O, 2013-cü ildə dərc etdiyi strategiya sənədində ənənəvi müharibə üsullarından fərqlənən yeni nəsil müharibənin varlığından bəhs etmişdir. Sənəddə Ərəb Baharına diqqət çəkən Gerasimov, müharibə olmasa belə, bu prosesin ibrətamiz olduğunu ifadə edərək insan itkiləri və dağıdıcı sosial, iqtisadi və siyasi nəticələri baxımından yeni növ münaqişələrin adi müharibələrlə müqayisə oluna biləcəyini ifadə etmişdir. Eyni zamanda, Gerasimov hibrid müharibənin amerikalı nəzəriyyəçilər tərəfindən irəli sürüldüyünü bildirir, müharibə və sülh dövrləri arasındakı fərqin bulanıqlaşmasını vurğulayaraq dinc şəraitdə aparılan müharibələrin mahiyyətini diqqət mərkəzinə çəkir (Gerasimov, 2013). Bu vəziyyət qeyri-xətti müharibə anlayışını meydana çıxarır və hərbi əməliyyatlar daha dinamik xarakter daşıyır. Getdikcə strateji və əməliyyat səviyyəsində böyük qoşunların birbaşa toqquşmaları keçmişdə qalır və düşmənə

uzaqdan təmas əsas hədəfə çevrilir. Hədəf ölkənin ərazisində daimi fəaliyyət göstərən cəbhə yaratmaq məqsədilə xüsusi qüvvələr və hədəf ölkənin müxalifətinin birlikdə istifadəsi müşahidə olunur. Bundan əlavə hibrid müharibənin taktikalarını ölkədə ictimai rəyə təsir etmək, dövlət rəsmilərinin və medianın fikirlərinə təsir etmək üçün diplomatik təzyiq, yalan məlumat, iqtisadi sanksiyalar, sərt hərbi təhdidlər, dövlət məmurlarının rüşvətlə şirnikləndirilməsi və terror aktalı kimi gizli əməliyyatlar təşkil edə bilər.

Gerasimovun bəyanatlarından əvvəl NATO hibrid təhdidləri 2010-cu ildə dərc olunmuş “Castpone” doktrinasında düşmənlərin adi və qeyri-ənənəvi vasitələrdən eyni vaxtda istifadə etməsi kimi müəyyən edirdi (NATO, 2010:1-14).

Hibrid müharibə hər şəraitdə uğur vəd etmir, ancaq aşağıdakı şərtlər yerinə yetirildikdə, uğurlu olmaq üçün yüksək potensiala malikdir:

1. Hədəf ölkə əhalisinin mövcud hakimiyyətdən yüksək dərəcədə narazı olduğu halda (korrupsiya iddialarının genişləndirilməsi, müxaliflərə təzyiq, azadlıq məhdudiyyətləri və s.);
2. Qeyri-sabit siyasi və iqtisadi mühitdə (yüksək inflyasiya, gəlir bölgüsündə qeyri-bərabərlik, yüksək dərəcə işsizlik, hökumət və parlamentin qanun qəbul edə bilməməsi, iqtidar müxalifət toqquşması, hakimiyyətin nüfuzunun itirilməsi, gücün istifadəsində inhisarçılıq problemləri və s.);
3. Dövlət təhlükəsizlik orqanlarının potensial zəifliyi (can və əmlak təhlükəsizliyinin olmaması, adi cinayətlərin yüksək səviyyəsi, təhlükəsizlik işçiləri arasında rüşvətin geniş yayılması, təhlükəsizlik işçiləri arasında etnik və siyasi bölünmələr);
4. Güclü konvensional gücün və ya ordunun mövcudluğu (Gokche, Shengol, 2017:475-482).

İkinci Qarabağ müharibəsi hibrid müharibənin bir çox ünsürlərini özündə ehtiva edirdi. Mülki əhalinin qəsdən hədəfə alınması, enerji infrastrukturları ilə hədələmə, böhtan kompaniyası, mediadan dezinformasiya aləti kimi geniş istifadə, diaspora fəaliyyətləri və bunun kimi hibrid müharibənin bir çox elementlərini özündə birləşdirən fəaliyyətlər Ermənistanın siyasi xəttində özünü aşkar şəkildə göstərmişdir.

Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə 4, 5, 8, 11 və 17 oktyabr tarixlərində Ermənistan tərəfindən raket və ağır artilleriya hücumlarına məruz qalıb. Ümumilikdə, bu dəhşətli terror aktları nəticəsində 26 nəfər həlak olub, 175 nəfər yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib. Bununla yanaşı, 27 və 28 oktyabr tarixlərində Azərbaycanın digər böyük şəhərlərindən olan Bərdə “Smerç” tipli əməliyyat-taktiki təyinatlı böyük dağıdıcı qüvvəyə malik roket zərbələrinə məruz qalmışdır. Bunun nəticəsində isə 21 nəfər həlak olmuş, 70 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır (8).

Ermənistan hakimiyyətinin həyata keçirdiyi asimmetrik müharibənin sərhədləri sadəcə Gəncə və Bərdə şəhərləri ilə məhdudlaşmamış, eyni zamanda, Yevlax, Beyləqan, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Xızı və digər şəhər və rayonları ballistik raketlər və digər ağır artilleriya qurğuları vasitəsilə atəşə tutulmuşdur.

Ermənistanın hibrid müharibə siyasəti mülki əhalinin və infrastrukturun hədəf alınması ilə yanaşı, eyni zamanda, Azərbaycan üçün böyük əhəmiyyətə malik Mingəçevir Su Elektrik Stansiyasına hücum hədəflərini ehtiva edirdi. 2014-cü ildə Ermənistan və Azərbaycan arasında baş verən qarşıdurmadan sonra Ermənistanın müdafiə naziri Seyran Ohanyan Azərbaycanı Mingəçevir bəndinə hücum ilə hədələyib. Bu təhdidlər 2020-ci ilin iyul ayında təkrarlandı və yeni müharibəyə zəmin yaratdı.

Enerji infrastruktrunun silahlandırarkən məqsəd sadəcə enerji təchizatını pozmaq deyil, bununla birlikdə, elektrik stansiyaları, boru kəmərləri, şəbəkələr və digər bu infrastruktrunun vacib elementlərinə hücumlar vasitəsilə böyükhəcmli zərər və potensial insan tələfatı yaratmaqdır. Bu siyasətin bir hissəsi kimi İkinci Qarabağ müharibəsi gedişatında bu təhdidlər Ermənistan tərəfindən Mingəçevirə dörd “Toçka-U” qısa mənzilli raket atılması ilə nəticələndi. Raketlər bəndə çatmasa da, bu hadisə Ermənistanın hərbi cinayətlərə əl atmağa potensial olaraq hazır olduğunu açıq şəkildə göstərdi (Gafarli, Arnold, 2021:105).

Tarixən İkinci Dünya müharibəsi zamanı həm müttəfiqlər, həm də məhvər qüvvələri də daxil olmaqla orduların planlanmış daşqınlardan hərbi taktika kimi istifadə etməsi hallarına rast gəlinmişdir. 1938-ci il Çin-Yaponiya müharibəsi zamanı Çin qüvvələrinin qəsdli fəaliyyəti Sarı çayı su basmasına səbəb olmuş və nəticədə, yüz minlərlə insanın ölümü və milyonlarla insanın itkin düşməsinə gətirib çıxarmışdır.

Bununla yanaşı, İran-İraq müharibəsində hər bir tərəf döyüş bölgəsinə girişin qarşısını almaq üçün daşqınlardan istifadə etmişdir. İŞİD və digər terror qruplarının Mosul bəndinə hücum edərək İraqdakı əraziləri su basması hədələrini də bu qəbildən təhdidlərə nümunə göstərmək olar. Onilliklər ərzində Ermənistan da eyni strategiyadan istifadə edərək, Mingəçevir Su Elektrik Stansiyasına hücum etməklə Azərbaycanın əhəmiyyətli elektrik enerji mənbəyini sıradan çıxarmaqdan əlavə, həm də kütləvi daşqınlara səbəb olmaqla hədələyib (Gafarli, Arnold, 2021:104).

Ermənistanın apardığı hibrid müharibənin əsas aləti kimi çıxış edən xaricdəki erməni diasporunun fəaliyyəti dünya ictimaiyyətinin müsbət rəyini qazanmaq üçün əsassız təbliğatlardan ibarət olmuşdur. Bu fəaliyyət sadəcə müharibə müddətində deyil, hələ torpaqlarımız işğal altında olduğu dövrlərdən Qarabağın erməniləşdirilməsi məqsədilə başlayıb.

26 avqust 2020-ci il tarixində Fransanın "Liberasyon" qəzetində Şuşanı guya 1992-ci iləd ək Azərbaycanın işğalı altında qalmış, qədim erməni mədəniyyət mərkəzi olduğuna dair nəşr edilən foto-məqalə, rusiyalı kosmonavt İqor Vaqnerin Xankəndi şəhərinin kosmosdan çəkdiyi şəkillərini sosial şəbəkələrdə "qədim erməni məkanının təsvirləri" başlığı ilə təqdim etməsi, həmçinin, Rusiya Təhsil Nazirliyinin orta məktəblərin 9-cu sinif şagirdləri üçün nəşr etdiyi "Rusiya tarixi" dərsliyində 1828-ci ilin Türkmənçay müqaviləsi nəticəsində çarizmin nəzarətinə keçən ərazilərimizin "Şərqi Ermənistan" adı ilə qələmə verilməsi faktları erməni təbliğatının əldə etdiyi nəticələrdən yalnız bir neçəsidir (10).

İkinci Ermənistan-Azərbaycan müharibəsini XXI əsrin ilk irimiqyaslı dövlətlərarası müharibəsi hesab etmək olar. Münaqişəni yeni silah, strategiya və taktikaların istifadə edildiyi hibrid müharibə adlandırmaq mümkündür. Hibrid elementlər kimi Ermənistanın müharibə zonasından kənarda yerləşən mülki əhali və infrastrukturları hədəf almasından savayı apardığı dezinformasiya kompaniyalarını, Azərbaycanın bunun əhaliyə təsirinin və məxfi məlumatların yayılmasının qarşısını almaq məqsədilə ölkə ərazisində internetdən istifadəni məhdudlaşdıran aktiv media kompaniyalarını misal gətirmək mümkündür (11).

Xüsusilə, Mingəçevir su anbarına edilən təhdidlər və hücumlar hərbi planlaşdırıcılar və strateqlərə planlaşdırılmış daşqınların təhlükəsi və bu təhdidlərin qarşısını almaq üçün mexanizmlər hazırlamağa davam etməli olduqlarını xatırladır. Bu isə öz növbəsində, çox güman ki, bəndlər və digər əhəmiyyətli enerji infrastrukturlarının qorunması məqsədilə hava hücumundan müdafiə sistemlərinin hazırlanması və yerləşdirilməsi sahasinə diqqət çəkəcək. Azərbaycanın enerji infrastrukturunun elementlərinin mühafizəsi məqsədilə dəmir qübbəli və ya ona oxşar hava hücumundan müdafiə sistemləri əldə edəcəyi istisna edilmir. Enerji infrastrukturlarına müdafiənin bu dərəcə gücləndirilməsi isə gələcəkdə fiziki hücumların yerini kiberhücumlara verməsi ilə müşahidə oluna bilər (Gafarli, Arnold, 2021:110-111).

Ermənistanın Azərbaycana qarşı apardığı hibrid müharibənin tarixi uzaq dövrlərə dayanır. Dövlət siyasəti terrorizmə dayanan Ermənistan bu hibrid müharibə alətini Azərbaycana qarşı istifadə etməkdən çəkinməmişdir. Azərbaycanın dinc əhalisinə qarşı, o cümlədən nəqliyyat vasitələrində törədilən terror aktları Ermənistan hökuməti tərəfindən maliyyələşdirilərək, bu ölkənin xüsusi xidmət orqanları tərəfindən həyata keçirildiyi çoxsaylı faktlar və məhkəmə materialları vasitəsilə sübut edilmişdir.

90-cı illərin əvvəllərində Daşnaqsütyun, ASALA, MAQ, Erməni birliyi, Erməni Azadlıq cəbhəsi və bunun kimi bir neçə erməni terror təşkilatlarına sığınacaq verən, həmçinin, müvafiq maliyyə dəstəyi göstərən Ermənistanın rəsmi dairələri terrorizmi açıq şəkildə dəstəkləmişdir (12).

1994-cü il mart ayının 19-da Bakı metrosunun "20 Yanvar" stansiyasında, həmin ilin iyulun 3-də "28 May" və "Gənclik" stansiyaları arasında hərəkət edən qatarda, 1995-ci il oktyabrın 28-də "Ulduz" və "Nərimanov" stansiyalarıarasında baş verən yüzlərlə insanın həlak olması və yaralanması

ilə nəticələnən partlayış, nümunələrdən yalnız bir neçəsidir. İstintaq və məhkəmə araşdırmaları nəticəsində bu terror aktlarının Ermənistanın xüsusi xidmət orqanları tərəfindən törədildiyi sübut edilmişdir.

Ermənistanın terror fəaliyyətləri sadəcə Azərbaycan sərhədləri ilə məhdudlaşmamış, 1983-cü ildə Parisin Oril aeroportunda terror aktına imza atmış Varocyan Qarabedyan, Qərbi Avropada “ASALA-nın inqilabi hərəkatı” adlı qruplaşmasının rəhbəri, Monte Mekonyan Fransa həbsxanasından buraxılaraq, Ermənistana göndərilmişdir. M.Melkonyan Azərbaycanın Xocavənd rayonunun işğalı zamanı erməni terror dəstəsinin komandiri olmuşdur. Ermənistanın milli qəhrəmanı adını almış bu beynəlxalq terrorçunun adı Müdafiə Nazirliyinin diversiya mərkəzlərindən birinə verilmişdir. Bundan əlavə, Azərbaycanlılara qarşı həyata keçirilən terror aktlarında fəal iştirak edən V.Sislyan bu fəaliyyətlərinə görə prezident Robert Koçaryan tərəfindən “Qarabağ müharibəsi qəhrəmanı” adına layiq görülmüşdür (13).

1992-ci ildə Yerevandan Xankəndinə göndərilən terrorçu Vazgen Sislyan 1981-ci ildə Parisdə Türkiyə səfirliyinə basqının təşkilatçısı olmuşdur (14).

## Nəticə

Yekunda belə bir nəticəyə gələ bilərik ki, hibrid müharibə dedikdə, müxtəlif növ müharibə taktikaları və strategiyalarından, qeyri-müəyyən silahlar və qüvvələrdən istifadəni nəzərdə tutan, başlanğıc bitmə tarixi və sərhədləri bulanıq olan, nisbətən yeni növ müharibə nəzərdə tutulur. Bu müharibə hücum edən dövlətin hədəf dövlətin həssas nöqtələrinə şamil olması və ona uyğun strategiya hazırlaması və açıq ittihamdan qaçmaq məqsədilə müharibəni elan etmədən, əksərən gizli şəkildə aparması kimi bir çox müxtəlif taktikaları özündə ehtiva edir. Ermənistanın Azərbaycana qarşı illərlə apardığı hibrid müharibə buna ən bariz nümunədir. Dünya ictimaiyyətinə özünü daim əzilən tərəf kimi tanıdan bu dövlət, müsbət rəy toplamaq məqsədilə, öz terror aktları və işğalçı siyasətini pərdələmək üçün dezinformasiya və bunun kimi bir çox manipulyativ üsullardan fərasətlə istifadə etmiş və hibrid müharibəni yeni bir müstəviyə daşımışdır.

## Ədəbiyyat

1. Sun Tzu. (2000). The Art of War. Leicester LE2 1WS, England: Allandale Online Publishing.
2. Erol, M.S. and Oghuz, Sh. (2015). “Hybrid Warfare Studies and Russia’s Example in Crimea”, Academic Perspective, 9(17): 261-277.
3. Mattis, N., James and Hoffman, F. (2005). “Future Warfare: The rise of hybrid wars”. U.S. NAVAL INSTITUTE. http://milnewstbay.pbworks.com/f/MattisFourBlockWarUSNINov2005.pdf
4. Bingol, O. (2015). “Hybrid Warfare, Russia and Turkey”, Central Strategy Institute, 29.11.2015
5. Gerasimov, V. (2013). (TheValue of Science is in Foresight). Military-Industrial Kurier (VPK).
6. NATO. (2010). Bi-Sc Input To A New Nato Capstone Concept For The Military Contribution To Countering Hybrid Threats. https://www.act.nato.int/images/stories/events/2010/20100826_bi-sc_cht.pdf
7. Gokche, O., Shengol A. (2017). A Study Competition Supremacy over Cooperation, Mediterranean International Congress on Social Sciences (MECAS II). Hybrid Warfare in the Light of the Ukraine Crisis.
8. Bakı, 4 oktyabr 2021 AZƏRTAC. https://azertag.az/xeber/Ermenistanin_Gencede_toretdiyi_ilk_terror_hadisesinden_bir_il_ot ur_VIDEO-1892207
9. Gafarli, T., Arnold, M. (2021). The Karabakh Gambit: Responsibility For The Future. TRT World Research Centre.
10. Azərbaycan Milli Elmlər Akademiyası, 28.08.2020 https://science.gov.az/az/news/open/14103

11. ONA onlayn xəbər agentliyi, 19 mart 2019. https://ona.az/az/hadise/ermenistan-xususi-xidmet-orqanlarinin-baki-metrosunda-toretdiyi-terror-aktindan-25-il-otur-3412
12. Simple Flying July 25, 2022. Anita Gallagher. https://simpleflying.com/paris-orly-bomb-attack-anniversary/
13. Azərbaycan Respublikası Ali Məhkəməsi. https://supremecourt.gov.az/static/view/15
14. Armenians Surrender After Killing 1, Holding 50 in Paris. Edward Cody. September 25, 1981. https://www.washingtonpost.com/archive/politics/1981/09/25/armenians-surrender-after-killing-1-holding-50-in-paris/af53ac6c-24fc-4293-9960-a992cb1f96f5/

**Rəyçi: siy.e.ü.f.d. Cahangir Cahangirli**

Göndərildi: 08.08.2022 Qəbul edildi: 11.10.2022

DOI: https://doi.org/10.36719/2663-4619/84/73-77

**Ülkər Elçin qızı Fərzəliyeva**
Xəzər Universiteti
magistrant
ulker.farzaliyeva@khazar.org

# TƏLƏBƏLƏRİN AKADEMİK MOTİVASİYASINA TƏSİR EDƏN AMİLLƏR

**Xülasə**

Motivasiya fərdin akademik həyatına müxtəlif təsirlər göstərir. Motivasiya anlayışını davranışa enerji və istiqamət verən, fərdlərin müəyyən məqsədlərə doğru yönəlməsinə şərait yaradan qüvvələr kimi müəyyən etmək olar. Məlum olub ki, motivasiya səviyyəsi yüksək olan tələbələrin akademik nailiyyətləri yüksəkdir. Bir çox tədqiqatlar müəyyən etmişdir ki, tələbələrin motivasiya səviyyələri onların akademik məqsədlərə nail olmaq səyləri ilə bağlıdır. Akademik motivasiya tələbələrin təhsil prosesində göstərdikləri davranışların mühüm təyinedicilərindən biridir. Bu tədqiqatın məqsədi tələbələrin akademik motivasiyasına təsir edən amilləri müəyyən etməkdir. Nəticə etibarı ilə, tədqiqat motivasiyanın tələbənin akademik həyatına təsirini üzə çıxardıqda, tələbənin akademik həyatında motivasiyanın yüksək rol oynadığı görünür. Bununla belə, aşağı motivasiya tələbənin akademik həyatına müəyyən mənfi təsir göstərir. Sinif mühitində effektiv və səmərəli təlim-tədris prosesini həyata keçirmək üçün müəllim planlı və proqramlı olmalı, tədris mühitində müvafiq metod, texnika və materiallardan səmərəli istifadə etməli, yaxşı biliyə malik olmalı, yaxşı bələdçi olmalı, ilk növbədə, tələbələri müvafiq fənnə həvəsləndirməli və bunu kurs boyu qoruyub saxlamalıdır.

***Açar sözlər*:** *akademik motivasiya, motivasiya, tələbə, akademik performans, daxili motivasiya, xarici motivasiya*

**Ulkar Elchin Farzaliyeva**

## Factors influencing students' academic motivation

**Abstract**

Motivation has various effects on an individual's academic life. It is possible to define the concept of motivation as the forces that give energy and direction to behavior and enable individuals to turn towards certain goals. It has been found that students with high motivation levels also have high academic achievement. Many studies have found that students' motivation levels are related to their efforts to achieve academic goals. Academic motivation is one of the important determinants of the behaviors that the students display in the education process. The purpose of this study is to identify the factors that affect students' academic motivation. As a result, when research reveals the impact of motivation on a student's academic life, it appears that motivation plays a high role in a student's academic life. However, low motivation has some negative effects on the academic life of the student. In order to carry out an effective and efficient learning-teaching process in the classroom environment, the teacher should be planned and programmed, use the relevant methods, techniques and materials effectively in the teaching environment, have good knowledge, be a good guide, and first of all motivate the students to the relevant subject and it is important to maintain this throughout the course.

***Keywords:*** *academic motivation, motivation, academic performance, student, extrinsic motivation, intrinsic motivation*

## Giriş

Motivasiya bu günə qədər tədqiqatçılar və mütəfəkkirlər tərəfindən geniş şəkildə tədqiq edilmişdir. Motivasiya anlayışı latınca "hərəkət etmək" mənasını verən "movere" sözündən yaradılmışdır (Adair, 2006:232). Motivasiya anlayışının insanın fiziki, əqli və mənəvi gücünü

hədəflərə doğru istiqamətləndirdiyi qeyd edilmişdir. Gredler və digər tədqiqatlçılar motivasiyanı "bizi bir şey etməyə və ya etməməyə sövq edən keyfiyyət" olaraq şərh etmişdir (Gredler, Broussard, Garrison, 2004:106).

Motivasiya anlayışına bir çox tərif vermək mümkündür. Tədqiqatçılar tərəfindən verilən təriflərə nəzər salsaq, bəzi tədqiqatçılar bunu "birbaşa məqsədə yönəlmiş fəaliyyətin başlandığı və davam etdirildiyi bir proses" kimi qeyd edir. O, həm də "davranışın davamlılığını aktivləşdirən, istiqamətləndirən və təmin edən daxili qüvvə" kimi də müəyyən edilir. Motivasiya davranışların necə izlənəcəyini və ya yönəldilmiş münasibətin intensivliyinin necə artırılacağını izah edir. Bu səbəbdən motivasiya insanın təbiətcə aktiv bir varlıq olduğu və müxtəlif üsullardan istifadə etməklə təsirə məruz qala biləcəyi kimi şərh edilir (Alan, 2006:11).

Tədqiqatçılar fərdin davranışını istiqamətləndirən motivasiya mənbələrini daxili və xarici motivasiya olaraq iki yerə ayırır (Yazici, 2008:423). Daxili motivasiya təbii motivasiya olub, fərdin idraki, sosial və fiziki inkişafında əsas yer tutan amillərdən biri hesab olunur (Karaguven, 2012:2599). Daxili motivasiyası yüksək olan insanlar şəxsi inkişaflarına vaxt ayırmağı, müxtəlif yarışlara qatılmağı, şəxsi layihələr üzərində çalışmağı könüllü şəkildə həyata keçirə bilir (Petri, Govern, 2004:31). Xarici motivasiya mükafat və cəzaya əsaslanır. Motivasiyanın bu növü davranış baxımından nəzərdən keçirilir. Xarici motivasiya, motivasiya və davranışı mükafat və cəza kimi izah edir. O, insanları həvəsləndirici və çəkindirici vasitələrlə hərəkət etməyə təşviq edir (Hoy, Miskel, 2013:170). Xarici motivasiya tələbələr xarici amillərə, yəni onları həvəsləndirən hədəflərə yönəldiyində baş verir (Alan, 2006:56). Bütün bu təriflər çərçivəsində demək olar ki, motivasiya insanı müəyyən bir məqsədə yönəldən, bu məqsədə çatmaq üçün lazımi davranışı sərgiləyən və bu davranışı qoruyub saxlayan gücdür.

Akademik motivasiya tələbələrin akademik performansını və uğurunu müəyyən edən həyati bir anlayışdır (Karatash, Erden, 2014:67). Bir çox tədqiqatlar akademik motivasiyanın performans, öyrənmə və uğur kimi müxtəlif dəyişənlərlə əlaqəli olduğunu ortaya qoymuşdur. Bununla yanaşı, özünütənzimləmə strategiyalarının öyrədilməsinin daha yüksək akademik motivasiya ilə nəticələndiyi də qeyd edilə bilər (Lavasani, Mirhosseini, Hejazi, Davoodi, 2011:627). Tələbələrin özünə inamının yüksək olması, dərslərə məsuliyyətli yanaşması akademik motivasiyasının yüksək olmasının göstəricisi hesab oluna bilər. Fərdi motivasiya edən səbəblər akademik motivasiyanın formalaşmasında son dərəcə əhəmiyyətlidir. Akademik uğur tələbənin məqsədlərinə çatmaq üçün nümayiş etdirdiyi səriştə kimi müəyyən edilə bilər. Bu kontekstdə, akademik müvəffəqiyyətə təsir edən ən mühüm amillərdən biri, əlbəttə ki, akademik motivasiya faktorudur. Akademik motivasiyanın olmaması tələbənin uğursuzluğunun səbəblərindən biri kimi qeyd oluna bilər.

Fidan (1996) akademik motivasiyanı tələbənin akademik həyatında nümayiş etdirdiyi davranışın istiqamətini, dərəcəsini və ardıcıllığını müəyyən edən mühüm güc mənbələrindən biri kimi müəyyən etmişdir. Digər tərəfdən, Uyulgan (2014) tələbələrin akademik motivasiyasının onların akademik keyfiyyətləri və akademik həyatı ilə əlaqəli olduğunu bildirir. Fərdlərin dərs oxumaq, imtahanlara hazırlaşmaq, ev tapşırıqlarını yerinə yetirmək, araşdırmalar aparmaq kimi akademik həyatlarında yerinə yetirilməsi lazım olan bir çox akademik vəzifələri vardır. Bu akademik vəzifələri yerinə yetirmək üçün enerji və güc olaraq təyin oluna bilən akademik motivasiya tələbələrin dərsə davamiyyətinə, hazırlığına və kursa getməsinə, öyrəndiklərini reallaşdırmasına və akademik uğurlarına təsir edən mühüm amillər biridir (Wentzel, Wigfield, 2009). Bundan əlavə, akademik motivasiya tələbələrin təhsilə marağını, istəyini artıran və akademik uğur qazanmaların dəstək olan ən mühüm amillərindən biri hesab oluna bilər.

Təhsillə bağlı tədqiqatların bir çoxu akademik motivasiyanın tələbələrin öyrənməsinə və nailiyyətlərinə necə təsir etdiyi ilə bağlı daimi araşdırmaların mövzusu olmuşdur. Tələbələrin böyük əksəriyyətinin uzunmüddətli təhsil sayəsində akademik həyatına uğurlu şəkildə uyğunlaşa bildiyi qeyd olunmuşdur. Bu səbəbdən, akademik motivasiya strategiyaları, müəyyən edilmiş vaxtda akademik tapşırıqlara münasibəti və akademik müvəffəqiyyətə təsir edən amillər üçün göstərilən səyi müəyyən etmişdir.

Fərdlərin universitetə başlama prosesi mühüm bir dövr hesab olunur. Bu dövrdə tələbələr öz akademik və sosial ehtiyaclarını yeni öyrənməyə başlayırlar. Tələbələrin akademik motivasiyası, akademik məsuliyyətlə yanaşı, onların seçimlərinə və gözləntilərinə cavab verib-verməmələrini müəyyən edir. Akademik motivasiyanın tələbələrin təhsilə akademik şəkildə necə başlamalarına, universiteti davam etdirmək istəyinə və universitetdə müxtəlif stress faktorlarının öhdəsindən gəlmək bacarıqlarına rəhbərlik etdiyi düşünülür (Clark, Schroth, 2010).

Akademik motivasiya tələbələrin təhsili, akademik uğurları və performansları kimi bir çox sahədə təhsil həyatını effektiv şəkildə formalaşdıran hərəkətverici qüvvə kimi qeyd edilə bilər (Kiran, 2019). Akademik motivasiya anlayışı fərdlərin akademik tədqiqatlarında müvafiq qərarlar qəbul etməsi və bu tədqiqatları davam etdirməsi kimi başa düşülür.

Akademik motivasiyası yüksək olan tələbələr, ev tapşırığı hazırlamaq, kitab oxumaq, imtahanlara hazırlaşmaq, layihələr hazırlamaq, dərslərə hazırlaşmaq kimi fəaliyyətləri akademik həyatı boyu etməli olduqları işləri daha həvəslə və müvəffəqiyyətlə yerinə yetirə bilərlər. Bu tələbələr akademik tapşırıqlar üçün qətiyyətli və maraqlı bir xarakterə malikdirlər. Akademik motivasiyası aşağı olan tələbələr isə çətinliklər qarşısında təslim olmağa, səbirsizlik nümayiş etdirməyə, laqeyd və intizamsız davranmağa meyillidirlər. Bu tələbələrdə tədris prosesinə qarşı bağlılıq azalarkən, tükənmişlik qavrayışı artır. Motivasiyası azalan tələbələrdə akademik gözləntilərə uyğun gəlməyən davranışlar müşahidə edilir. Tədqiqatlar göstərir ki, akademik motivasiya təhsildən uzaqlaşmanın ən vacib və erkən proqnozlaşdırıcılarından biridir. Akademik motivasiyası aşağı olan tələbələrin universiteti tərk etmə ehtimalı daha yüksəkdir.

Nəticə olaraq, akademik motivasiya tələbələrin uğurlarına dair fəaliyyətlərin tədqiqində mühüm yer tutur. Akademik motivasiya ilə bağlı araşdırmalara əsasən, tələbələr öyrənmə fəaliyyətlərinə olan istəklərindən dolayı öyrənmə prosesində müvəffəqiyyət göstərə bilir. Akademik motivasiya tələbələrin akademik öyrənmələrinin, uğurlarının və karyeralarının bir çox sahələrinə təsir edərək onların akademik həyatını istiqamətləndirən amil kimi izah edilə bilər.

Akademik motivasiya akademik iş üçün tələb olunan enerjini yaradan amil kimi qeyd edilə bilər (Bozanoghlu, 2004:83). Tədqiqatçı psixoloqlar akademik motivasiyanın tələbələrin uğur qazanması üçün vacib amil olduğunu bildiriblər. Akademik motivasiya tələbələrin akademik fənlərdə təkidinin, səyinin və istəyinin gücünü müəyyən edən və tələbə performansına təsir edən mühüm anlayış hesab oluna bilər. Ümumiyyətlə, motivasiyanın insan həyatında, insanın şəxsi inkişafında böyük rolu olduğu qeyd edilə bilər. Araşdırmalara görə, çalışdığı peşədən asılı olmayaraq insanın yüksək motivasiyaya malik olması onun işinin keyfiyyətinə birbaşa olaraq təsir göstərir. Motivasiya təhsil sahəsində də mühüm rola malikdir, belə ki, müəllimlər və ya təhsil sahəsində çalışan mütəxəssislərin yüksək motivasiyaya sahib olması təhsil alanların da motivasiyasına müsbət təsir göstərdiyi qeyd edilir.

Akademik motivasiyanı qısaca belə ifadə edə bilərik: tələbəni universitetə getməyə və universitetdə yüksək nəticələr əldə etməyə sövq edən ən mühüm amil akademik motivasiyadır. Bu tələbələrin universitetdə uğur qazanmaq kimi məqsədləri var. Tələbələrin akademik motivasiyası aşağı olarsa, bu, universitetə getməmək, keçirilən dərslərin mənimsənməməsi, akademik uğursuzluq problemləri və nəticədə universiteti tərk etmək kimi problemlərə gətirib çıxara bilər (Clark, Schroth, 2010:19). Bu məlumatlar işığında demək olar ki, akademik motivasiya fərdin akademik həyatını istiqamətləndirən hərəkətverici qüvvədir, tələbənin təhsili, uğuru və performansı kimi bir çox mövzularda təsirli olur. Akademik motivasiya şagirdlərin dərslərdə iştirakının davamlılığına, onların dərsə münasibətinə, akademik uğurlarına və fəaliyyətinə təsir göstərir. Digər tərəfdən, motivasiyası yüksək olan şagirdlərin məktəbə münasibəti daha müsbət olur və bu tələbələrin narahatlıq səviyyələrinin aşağı olduğu qeyd edilə bilər. Ona görə də tələbənin akademik uğurunu artırmaq üçün onu öyrənməyə həvəsləndirmək lazımdır.

Təlim prosesində hədəflərin qoyulması və məlumatların işlənməsi kimi şəxsi amillər, müəllimdən müsbət rəy almaq və mükafatlandırma kimi situasiya amilləri tələbələrə təsir göstərir. Bu amillər sayəsində tələbələr dərsi nə dərəcədə ətraflı öyrəndiklərini anlamaq və öyrənmə fəaliyyətlərini qiymətləndirmək üçün lazımi məlumatlar əldə edirlər. Nəticədə, öyrənmə prosesində

irəliləyiş əldə etdiklərini hiss etdikdə onların motivasiya səviyyələri arta bilir. Bu durum, şagirdin öyrənməsinə, yaxşı performansına və motivasiyasına təsir göstərir.

Fərdin hərəkətə keçməsini təmin edən və onun davranışını istiqamətləndirən motivasiya anlayışı yuxarıda qeyd etdiyimiz kimi, akademik sahədə mühüm yer tutur. Bununla belə, tələbələrin akademik motivasiyasına təsir edən bir sıra amillər qeyd oluna bilər. Aparılan araşdırmalar nəticəsində bu amillərdən biri kimi yaş faktoru qeyd edilir. Tələbələrin akademik motivasiyaları yaş qruplarından asılı olaraq fərqli nəticələr göstərə bilir. Yaş faktorunun mədəni fərqliliklərlə birlikdə akademik motivasiyanın müəyyən edilməsində təsirli olduğunu söyləmək olar (Yurt, Bozer, 2015:679).

Motivasiyası olmayan təhsil alanlar təhsilin hər bir pilləsində problemlərlə üzləşə bilir. Təhsil pilləsindən asılı olmayaraq təlim prosesində təhsil alanların motivasiyasının yüksəldilməsi vacib məsələlərdən biridir. Ali təhsil müəssisələrində təhsil alan, motivasiyası aşağı səviyyədə olan tələbələrin bir sıra çətinliklər yaşadığı qeyd edilə bilər. İddia olunur ki, tələbələrin motivasiyasız olması mövzunun əhəmiyyətini dərk etməmələri və ya başlanğıcda həvəsləndikləri halda sonradan motivasiyalarını itirmələri ilə bağlı ola bilər. Universitetlərdə motivasiya həm də universitet oriyentasiyasına əsaslanır. Motivasiyanı artırmaq üçün pedaqoji dəstək verilməlidir.

Motivasiya üsullarının təkmilləşdirilməsi tələbələrin ehtiyaclarının, qabiliyyətlərinin, biliklərinin, bacarıqlarının və komanda daxilində şəxsiyyətlərarası münasibətlərin hərtərəfli təhlilini birləşdirən inteqrasiya olunmuş yanaşmadan asılı olmalıdır.

Akademik motivasiyaya təsir edən başqa bir amil tələbələrin təlim prosesinə qarşı olan istək səviyyəsidir. Tələbələrin rifah səviyyəsinin bu prosesdə vasitəçi rolunu oynadığı düşünülür. Bu səbəbdən akademik motivasiya, fərdin içində olduğu vəziyyətdən təsirlənən bir anlayış kimi izah edilə bilər. Tələbələrin akademik motivasiyasına təsir edən amillər arasında dərs balları, verilən tapşırıqlar, müxtəlif mükafatlar, rəqabətcil dərs mühiti, qrup yoldaşları, universitetin akademik heyəti, ailələri və digər hədəfləri qeyd oluna bilər. Dərs mühiti ilə bağlı olan amillər ən təsirli amillərdən hesab edilə bilər. Belə ki, dərslərində və imtahanlarda yaxşı nəticələr əldə edən tələbələrin akademik motivasiyasının daha yüksək olduğu müəyyən tədqiqatlarda öz əksini tapmışdır. Müəllimlərin və işçi heyətinin də rolu əvəzedilməz hesab oluna bilər. Müəllimlər akademik motivasiyası aşağı olan tələbələri müxtəlif üsullardan istifadə edərək təlim prosesinə cəlb edə və pedaqoji dəstək göstərə bilər. Bu zaman müəllimlər müxtəlif həvəsləndirici mükafatlardan istifadə edə, tələbələrin dərsdə birbaşa olaraq iştirakını təşkil edə bilər.

Eyni zamanda, motivasiyaya təsir edən amillər bir neçə böyük kateqoriyaya bölünür, onları iki əsas başlıq altında ümumiləşdirmək olar: daxili və xarici amillər. Daxili amillər arasında tələbələrin xüsusiyyətləri, məsələn, özləri haqqında gözləntiləri, sağlamlıq, keçmiş uğur və uğursuzluqları, sosial mühiti) və tələbələrin düşüncəsi (məsələn, nəzarət, universitetdə çox şey öyrənib-öyrənməmələri ilə bağlı inanclar, dərslərlə bağlı gözləntilər) qeyd etmək mümkündür. Mükafat əldə etməyi, cəzalandırılmanı, hər hansı bir məsələ ilə bağlı təsdiq almağı, sosial təsiri xarici amillərə aid etmək olar.

Bundan əlavə, Etten və digərləri (2008) universitet tələbələrinin akademik motivasiyalarına təsir göstərən amilləri araşdırmışdır. Belə ki, tələbələrin akademik motivasiyanın müəyyən edilməsində özlərindən kənar bir sıra amillərin təsiri olduğu qeyd edilmişdir. Bunlara təhsil aldıqları kursun xüsusiyyətləri, imtahanlar, qiymətləndirmələrin xarakteri, rəy, mükafatlar, insanlar (yəni müəllimlər, ailə üzvləri, həmyaşıdlar), universitet mühiti (akademik birliklər, təcrübə proqramları, könüllülük və dərsdənkənar fəaliyyətləri, ətraf mühitin fiziki xüsusiyyətləri) daxil edilə bilər.

Eyni zamanda, sinifdə tələbələrin akademik motivasiyasına təsir edən amillərin aşağıdakı dəyişənlərdən təsirləndiyi araşdırılmış və aşağıdakı amillər qeyd olunmuşdur:

- Müəllimin rolu: Müəllimin rəhbər və məsləhətçi, məlumat mənbəyi rolu, tədris metodu;
- Sinfin təşkili: Sinfin və dərsin təşkili;
- Qarşılıqlı əlaqə: Sinifdə qarşılıqlı əlaqə və tərtibat;
- Sinif mühiti: Müəllim-tələbə münasibətləri, ünsiyyət, universitet rəhbərliyi, universitet iqlimi və mədəniyyəti, universitet-müəllim-ailə münasibətləri.

Bununla belə, tələbələrin akademik motivasiyasını birbaşa olaraq müşahidə etməyin mümkün olmadığı qeyd oluna bilər. Pintrich bir çox tədqiqatçının razılaşdığı akademik motivasiyanın mövcudluğunu göstərən davranış göstəricilərinin olduğunu vurğulayır və onları tapşırıq seçimi, səy, davamlılıq və müvəffəqiyyət kimi sıralayırlar. Bu kontekstdə akademik motivasiya araşdırılarkən bildirilir ki, tələbənin seçim imkanı olduqda yerinə yetirmək istədiyi vəzifə, tapşırığı yerinə yetirmək üçün nə qədər səy göstərdiyi, tapşırığı yerinə yetirmək üçün nə qədər vaxt sərf etdiyi və nəticədə əldə etdiyi uğur motivasiya göstəricisi hesab oluna bilər (Pintrich, 2003:667).

## Nəticə

Eyni zamanda sosial fəaliyyətlər də tələbələrin akademik motivasiyasına təsir göstərən amillər olaraq qeyd edilə bilər. Universiteti sevən tələbənin diqqətini uğura yönəltməklə onun motivasiyasına müsbət təsir göstərmək mümkündür. Bu səbəbdən sosial fəaliyyətlərin motivasiyanın artırılması üçün nə qədər əhəmiyyətli olduğunu nəzərə alaraq, bu mövzu ilə bağlı universitetlərin fəaliyyət planlarında müəyyən yeniliklər edilə bilər. Tələbələrin dərsdənkənar sosial fəaliyyətlərdə iştirakı ilə onların universitet həyatına uyğunlaşması arasında müsbət əlaqə olduğu tədqiqatçılar tərəfindən qeyd olunmuşdur.

## Ədəbiyyat

1. Adair, J. (2006). Effective Motivation. Istanbul: Babiali Kultur Publishing, 232 p.
2. Gredler, M.E., Broussard, S.C. & Garrison, M.E.B. (2014). The Relatonship between Classroom Motivation and academik achievement in Elementary school aged children. Family and consumer sciences research journal, 33, 106 p.
3. Alan, U. (2006). Motivation Theories and Effects of Motivation on Work Life. (Master's Thesis). Beykent University, Institute of Social Sciences, Istanbul, p.11, p.56.
4. Yazici, H. (2008). Education psychology. Ankara: Pegem Academy, p.423.
5. Karaguven, M.H. (2012). Adaptation of Academic Motivation Scale to Turkish. Educational Sciences in Theory and Practice, 12(4), 2599 p.
6. Petri, H.L. & Govern, J.M. (2004). Motivation: Theory, Research, and Applications (5thed.). CA: Wadsworth/Thomson, p.31.
7. Hoy, W.K. & Miskel, C.G. (2013). Educational Administration Theory, Research, And Practice (9 b.). New York: The McGraw-Hill Companies Published. 170 p.
8. Karatash, T. (2014). Child in New Turkish Poetry I. Scientific Research, 0 (13), p.67.
9. Lavasani, M.G., Mirhosseini, F.S., Hejazi, E. & Davoodi, M. (2011). The effect of self-regulation learning strategies training on the academic motivation and self-efficacy. Procedia Social and Behavioral Sciences, 29, 627 p.
10. Wentzel, K.R. & Wigfield, A. (2009). Handbook of Motivation in School. USA: Routledge, p.8.
11. Clark, M.H. and Schroth, C.A. (2010). Examining relationships between academic motivation and personality among college students. Learning and Individual Differences, p.19.
12. Bozanoghlu, I. (2004). Academic motivation scale: development, validity, reliability. Ankara University Faculty of Educational Sciences Journal, 37(2), p.83.
13. Yurt, E., & Bozer, E.N. (2015). Adaptation of Academic Motivation Scale to Turkish. Gaziantep University Journal of Social Sciences, 14(3), 679 p.
14. Pintrich, P.R. (2003). A Motivational Science Perspective on the Role of Student Motivation. Journal of Educational Psychology 95.4, 667 p.

**Rəyçi: fil.ü.e.d. Rüfət Rüstəmov**

Göndərildi: 10.08.2022 Qəbul edildi: 23.10.2022

ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 1.790. 2022 / Cild: 16 Sayı: 11 / 78-82 ISSN:2663-4619
SCIENTIFIC WORK International scientific journal. Impact Factor: 1.790. 2022 / Volume: 16 Issue: 11 / 78-82 e-ISSN: 2708-986X

DOI: https://doi.org/10.36719/2663-4619/84/78-82

**Mirvanə Salman qızı Mehbalıyeva**
Azərbaycan Texniki Universiteti
magistrant
mirvana@list.ru

# QARABAĞ İQTİSADİ RAYONUNDA TURİZMİN İNKİŞAFININ MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ

**Xülasə**

Lakin Azərbaycan torpaqlarının işğalının nəticələrini möhkəmləndirmək cəhdləri iflasa məhkumdur. Azərbaycanın layiqli, qüdrətli, peşəkarcasına təlim keçmiş ordusu var. General-mayor Polad Həşimovun ölümü isə bir daha sübut etdi ki, Azərbaycan zabitləri erməni zabitlərindən fərqli olaraq, əsgərlərin arxasında gizlənmirlər. İkinci Qarabağ müharibəsi bütünlükdə bizim şanlı tariximizdir. Bu qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu darmadağın edərək, ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Cənab prezident çıxışlarında dəfələrlə deyirdi ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq və nəyin bahasına olursa-olsun, torpaqları geri qaytaracağıq. Dəfələrlə deyirdi ki, düşmən öz istəyi ilə torpaqlarımızı tərk etməsə, o zaman biz onları öz torpaqlarımızdan qovacağıq və belə də oldu (Shavrov, 2020).

Biz Birinci Qarabağ müharibəsində məğlubiyyətə boyun əymədik, gücümüzü topladıq, bütün qüvvələri səfərbər etdik, ordumuzu, ölkə iqtisadiyyatını gücləndirdik, ölkənin nüfuzunu yüksəltdik, tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq, ədaləti, beynəlxalq hüququ bərpa etdik. Bununla da öz milli ləyaqətimizi bərpa etmiş olduq. Bu gün Azərbaycan xalqı qalib xalq, qalib dövlət kimi yaşayır. Bundan sonra da bu belə də davam edəcək.

Döyüş meydanında məğlubiyyətə uğrayan Ermənistan yenidən ən çirkin əməllərə əl atdı, dinc əhaliyə qarşı hərbi təxribat törətdi. Yüzdən çox dinc sakin erməni faşizminin qurbanı oldu. Şəhər və kəndlərimiz mütəmadi olaraq atəşə tutulurdu. Ermənistan qadağan olunmuş silahlardan, ağ fosfor mərmilərindən, ballistik raketlərdən istifadə edirdi. Amma heç nə bizi dayandıra bilməzdi. Azərbaycan xalqı qətiyyət, iradə, mərdlik göstərərək bütün bu təxribatların öhdəsindən gəldi. "Bizi heç kim və heç nə dayandıra bilməzdi. Müharibə illərində Azərbaycan xalqına dəfələrlə müraciət edərək demişəm ki, heç kim və heç nə bizə mane olmayacaq. Biz ədalətli müharibə aparırıq. Biz şərəf və ləyaqət uğrunda döyüşürük. Biz milli qürur uğrunda savaşdayıq. Biz müqəddəs müharibədəyik".

Müharibə zamanı hamımız bir şüarla yaşayırdıq – "Öləcəyik, amma geri çəkilməyəcəyik". Azərbaycan xalqı Azərbaycan ordusunun arxasında möhkəm dayandı və ona əlavə güc verdi. Günahsız insanların həlak olması, şəhər və kəndlərimizin dağıdılması Azərbaycan xalqının iradəsini qıra bilmədi. Hər gün irəli getdik, hər gün qalib gəldik, hər gün yeni uğurlardan xəbərlər gəlirdi. 44 gün ərzində elə bir gün olmadı ki, bir addım belə geri çəkilək. Mənfur düşmən isə əlverişli mövqelər tutmasına baxmayaraq, ərazinin relyefinə görə böyük üstünlüyə malik idi, 30 ildə 5-6 cərgədə müdafiə istehkamları qurmasına baxmayaraq, geri çəkilməyə məcbur oldu. 44 günlük müharibə zamanı Azərbaycan Silahlı Qüvvələrində bir nəfər də olsun fərari olmayıb. Ermənistan ordusunda isə 10 mindən çox fərari var idi. Biz şəhidlərimizlə, qazilərimizlə, eləcə də Vətən müharibəsində qəhrəmanlıq göstərmiş hərbçilərimiz, əsgər və zabitlərimizlə fəxr edirik. Onların qəhrəmanlığı və fədakarlığı heç vaxt unudulmayacaq. Biz bütün dünyaya göstərdik ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı heç vaxt bu haqsızlığa dözməyəcək (Garabaghi, 2021).

44 günlük Vətən Müharibəsi milli iradənin, milli ruhun, milli ləyaqətin təntənəsi idi. Biz döyüş meydanında qələbə qazandıq. Döyüş meydanında 300-dən çox şəhər və kənd işğaldan azad edilib. Biz bu Qələbəni şəhidlərimizin canı, qanı bahasına qazandıq, düşməni diz çökdürdük, təslim aktına imza atmağa məcbur etdik. 30 il bizə meydan oxuyan düşmən 30 il Azərbaycan xalqının şərəf və ləyaqətini tapdalamağa çalışdı. Təkəbbürlü, qəzəbli düşmən qarşımızda diz çökdü, ağ bayraq qaldırdı, təslim oldu və noyabrın 9-dan 10-na keçən gecə təslim aktına imza atmağa məcbur oldu. Nəticədə, yüzlərlə şəhər və kənd bir güllə belə vurulmadan, bir nəfər də olsun şəhid verilmədən geri qaytarıldı (Politicheskaya istoriya, 2020). Bununla da Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Biz münaqişəni hərbi-siyasi yolla həll etdik, müharibə arxada qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı. Azərbaycanın "Dağlıq Qarabağ" adlı inzibati ərazisi yoxdur və əgər kimsə "Dağlıq Qarabağ" adlı ölmüş adamı diriltmək istəyirsə, bunu öz ərazisində etsin, amma Azərbaycanda yox! Bu məsələ həll olunub. Mən bunu deyirəm − Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı. Hər kəs bu sözlərlə hesablaşmalıdır və hesab edəcəkdir.

Onuda qeyd etmək lazımdır ki, 44 gün ərzində bizə ən böyük dəstəyi verən qardaş ölkə Türkiyə olub. Qardaş Türkiyə və qardaş türk xalqı müharibənin ilk saatlarından Azərbaycanla həmrəy olub, Azərbaycanı dəstəklədi. "Türkiyə rəhbərliyinin və əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğanın verdiyi bəyanatlar bizim üçün çox böyük siyasi dəstəyə çevrildi, bizə əlavə güc verdi və biz bunu heç vaxt unutmayacağıq". 44 günlük Vətən Müharibəsi Türkiyə-Azərbaycan birliyini bir daha dünyaya nümayiş etdirdi (Navvab, 2020). "Bizə siyasi dəstək verən bütün digər ölkələri də unutmaq olmaz. Qeyd etmək lazımdır ki, xarici ölkələrdə yaşayan milyonlarla azərbaycanlının da qəlbi öz tarixi vətənləri ilə döyünür, onlar hər gün gedən döyüşləri izləyir, uğurlarımıza sevinirdilər. Onu da deyim ki, 44 gün ərzində və ondan sonra, hətta bu günə kimi minlərlə məktub alıram. Azərbaycan vətəndaşlarından, dünya azərbaycanlılarından və bizə dost olan müxtəlif ölkələrin vətəndaşlarından dəstək, həmrəylik məktubları. Müharibədən cəmi iki il keçməsinə baxmayaraq, artıq bütün beynəlxalq ictimaiyyət qələbəmizlə razılaşdı və qəbul etdi. Azərbaycan həm də bu gün regionda, o cümlədən Azərbaycan-Ermənistan münasibətlərində gündəmi formalaşdıran tərəfdir".

44 gün ərzində biz nəinki ərazi bütövlüyümüzü bərpa etdik, nəinki düşməni tarixi torpaqlarımızdan qovduq, nəinki milli ləyaqəti bərpa etdik, həm də erməni faşizmini darmadağın etdik. Bu gün işğaldan azad edilmiş torpaqlara səfər edən hər kəs erməni vandalizminin təzahürlərini öz gözləri ilə görür.

Bütün şəhərlərimiz yerlə-yeksan edilmiş, bütün tarixi abidələr, məscidlər ya tamamilə dağıdılmış, ya da ermənilər tərəfindən təhqir olunmuşdur. 67 məsciddən 65-i tamamilə dağıdılıb, qalan sökük məscidlərdə düşmən bizi və bütün dünya müsəlmanlarını təhqir edərək orada mal-qara − inək, donuz saxlayıb.

İnanırıq ki, ədalət öz yerini tapacaq, dünya müsəlmanları buna layiqincə cavab verəcəklər. İşğal zamanı erməni vandalizmi, erməni faşizmi barədə əməli işlər görülmüş, onların işğalçı əməlləri bütün dünyaya çatdırılmışdır. Ona görə də artıq qeyd etdiyim kimi, bizim qələbəmiz erməni faşizmi üzərində qazanılan qələbədir (Abdullayev, 2021).

Ermənistanda hakimiyyət dəyişikliyi baş verir, amma düşmənin mahiyyəti dəyişmir. Ermənistanı bürüyən azərbaycanofobiya və islamofobiya ruhi xəstəlik səviyyəsinə çatıb. Orada azərbaycanlılara nifrət özünü rəsmi ideologiya kimi təsdiqləyib. Əks halda, bu qədər vəhşiliklər törədilməzdi. Azad edilmiş torpaqları ziyarət edən hər kəs dəhşətə gəlir − bunu qeyri-insani insanlar edib. Deyə bilərəm ki, bunu heç heyvanlar da etməyib. Bunu coşmuş, hirslənmiş azərbaycanfobik kütlə, tayfa edib, onları başqa cür adlandırmaq olmaz və bütün dünya, həmçinin Ermənistanın havadarları da bunları görməlidir. Görməlidirlər və görəcəklər, görmək istəməsələr də, biz göstərəcəyik, bütün dünyaya göstərəcəyik ki, rayonlarımız hansı bəladan xilas olub (Mamedova, 2021).

30 il ərzində bütün tarixi abidələrimizi, milli dəyərlərimizi, təbii sərvətlərimizi talan, məhv edən düşmənə dərs vermək lazım idi. Buna baxmayaraq, müharibədən əvvəl dəfələrlə qeyd edilmişdir ki, Ermənistan rəhbərliyi öz istəyi ilə, beynəlxalq hüququn norma və prinsiplərinə riayət edərək torpaqlarımızı tərk edərsə, təbii ki, müharibə də istisna olunardı. Cənab prezident: "Mən dedim Ermənistan rəhbərliyi bizə bir tarix versin – hansı gündə, hansı torpaqları tərk edəcək və biz

müharibəni dayandırmağa hazırıq". "Amma etmədilər. 44 gündən sonra Ermənistan ordusunun onurğa sütunu qırılanda, alınmaz qala sayılan Şuşanı və ondan sonra 70-dən çox kəndi işğaldan azad edəndə düşmən təslim olmaq məcburiyyətində qaldı. Bu, həyat üçün bir dərsdir, bunu heç kim unutmasın!"

Qeyd etmək lazımdır ki, Erməni faşizmi məhv edilib, lakin onun təzahürləri göz qabağındadır. Bu, ilk növbədə, Ermənistan dövləti üçün çox təhlükəli tendensiyadır. Cənab prezident hər zaman qeyd edir: "Erməni faşizminin başını qaldırdığını görsək, heç bir tərəddüd etmədən erməni faşizminin başını bir daha darmadağın edəcəyik. Qoybunu hamı bilsin! Heç kim unutmasın ki, "Dəmir Yumruq" müharibə və qələbə simvolu hələ də yerindədir!"

Biz hər birimiz bütün şəhidlərimizin, Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsi qarşısında bir daha baş əyirik, Allah onlara rəhmət eləsin. Onların qanı yerdə qalmayacaqdı, belə də oldu. Biz onların qisasını döyüş meydanında aldıq! Bu qələbəni bizə bəxş edən igid əsgər və zabitlər qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, mərdliyi, fədakarlığı artıq dastana çevrilib.

Bundan sonra biz qalib ölkə kimi yaşayacağıq, qalib xalq kimi işğaldan azad edilmiş torpaqları yenidən quracağıq, bərpa edəcəyik. Artıq bu torpaqlara həyat qayıdır, insanlar! Bugünkü əsas vəzifəmiz bu qayıdışı tez bir zamanda təmin etməkdir. Məqaləni Qələbəmizin ayrılmaz hissəsinə çevrilmiş sözlərlə yekunlaşdırmaq istərdim: "Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

## Nəticə

Qarabağ müharibəsi təkcə cəbhə cəbhəsi ilə məhdudlaşmırdı. Bu müharibə dünya azərbaycanlılarının birliyini bir daha nümayiş etdirdi. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, eləcə də Azərbaycanın haqq işinə dəstək verən digər xalqların nümayəndələri erməni lobbisinin həyata keçirdiyi çirkin kampaniyalara qarşı fədakar fəaliyyət göstərmişlər. Müharibənin gedişində xalq-dövlət-ordu birliyi daha da möhkəmləndi. Azərbaycan Respublikasının bütün vətəndaşları etnik, sosial, dini baxımdan birlik nümayiş etdirmiş, arxa cəbhə ilə ön cəbhənin qarşılıqlı əlaqəsi mükəmməl təşkil edilmişdir.

Arxa cəbhədə olan vətəndaşlar döyüşən orduya yardım məqsədilə kütləvi aksiyalar keçirir, qanvermələr təşkil edir, həmçinin onlara müxtəlif formalarda mənəvi dəstək olmağa çalışırdılar. Müharibə illərində, eləcə də atəşkəsdən sonra müxtəlif təşkilatlar, özəl firma və müəssisələrlə yanaşı, xeyli sayda vətəndaş orduya daimi maddi yardım göstərir, əsgərlərə paltar, ərzaq, tibbi ləvazimat və s. göndərməklə öz vətəndaşlıq borcunu yerinə yetirirdi.

Yardım o qədər böyük miqyas almışdı ki, hətta Müdafiə Nazirliyi belə yardıma ehtiyacın olmaması, ordunun lazım olan hər şeylə təmin edilməsi barədə dəfələrlə ictimaiyyətə açıqlamalar verməli olmuşdur. Ermənistana istinad edən bəzi media mənbələri isə bu vəziyyətdən təəccüblərini gizlədə bilmirdilər.

## Ədəbiyyat

1. "Azərbaycan" qəzeti. (2020). Bakı.
2. "Qarabağ" qəzeti. (2021). Bakı.
3. Kecharli, T.K. (2020). Karabakh. Lozh ipravda. Baku.
4. Nasibzade, N.L. (2021). Vneshnyaya politika Azerbaydzhana (1918-1920). Baku.
5. Geyushev, R. (2020). Puteshestviye v proshloye Karabakha. Baku.
6. Tashgyran, CH. (2021). Karabakhskiy vopros s proshlykh vremen do nashikh dney. Ankara.
7. Aliyev, I.G. (1989). Nagornyy Karabakh. Istoriya. Fakty. Sobytiya. Baku.
8. Shavrov, N.N. (2020). Novaya ugroza russkomu delu v Zakavkazye; Predstoyashchaya rasprodazha Mugani inorodtsam. Baku (Reprintnyy vypusk s izdaniya 1911 goda v S.Peterburge).
9. Garabaghi, M.D. (1959). Istoriya Karabakha. Baku.
10. Mamedova, F.S. (1993). Politicheskaya istoriya i istoricheskaya geografiya Azerbaydzhana. Baku. Opisaniye Karabakhskoy provintsii, sostavlennoye v 1823 godu. (2021). Tiflis.
11. Politicheskaya istoriya I chast. (2020). Baku.

12. Navvab, M.M. (2020). Armyano-musulmanskaya voyna v 1905-1906 godakh. Baku.
13. Abdullayev, A. (2021). Iz istorii agressivnoy politiki Armenii protiv Azerbaydzhana. Baku.
14. Mamedova, H.I. (2021). Pages from the historyof the struggle of the Karabakh general-governorship against the Armenian aggression. Baku.

**Rəyçi: fil.ü.f.d. Abbas Abbasov**

Göndərildi: 09.09.2022 Qəbul edildi: 01.11.2022

ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 1.790. 2022 / Cild: 16 Sayı: 11 / 95-101 ISSN:2663-4619
SCIENTIFIC WORK International scientific journal. Impact Factor: 1.790. 2022 / Volume: 16 Issue: 11 / 95-101 e-ISSN: 2708-986X

# TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

DOI: https://doi.org/10.36719/2663-4619/84/95-101

**Sevinc Nadir qızı Məmmədova**
Azərbaycan Tibb Universiteti
biologiya üzrə fəlsəfə doktoru
mamedovaseva71@gmail.com
**Şaiq Rəhim oğlu İbrahimov**
AMEA Zoologiya İnstitutu
biologiya elmləri doktoru
shaig.ib@mail.ru

# KÜR ÇAYI ESTUARİSİ BALIQLARININ PROTOFAUNASININ EKOLOJİ TƏHLİLİ

**Xülasə**

Kür çayının Xəzər dənizinə tökülən hissəsində 2018-2021-ci illərdə 14 növə aid olan 214 ədəd balıq tam parazitoloji yarma üsulu ilə tədqiq olunmuş və bunun nəticəsində 21 növ parazit ibtidai aşkara çıxarılmışdır. Bunların 14 növü endoparazit, 7 növü isə ektoparazit, 12 növü aralıq sahibin iştirakı ilə, 9 növü isə aralıq sahibin iştirakı olmadan inkişaf edir. Parazitlərin əksəriyyəti şirinsu formaları olduğu üçün, Kür estuarisinin suyu şirin olan hissəsində balıqların protofaunası şorsulu hissəyə nisbətən daha zəngindir. Ektoparazitlərdən fərqli olaraq, endoparazitlər balıqları şirinsuda yoluxdurduqda onların orqanizmində şorsulu rayonlara da keçirlər. Aşkara çıxarılmış parazitlərin 7 növü balıqlarda xəstəliklər törədir, lakin yoluxma zəif olduğundan, onların törədə biləcəyi patoloji hallar tədqiq olunan balıqlarda müşahidə olunmamışdır.

***Açar sözlər:*** *Kür çayı, balıqlar, parazitlər, protofauna, ekoloji təhlil*

**Sevinj Nadir Mammadova**
**Shaig Rahim Ibrahimov**

## Ecological analysis of protofauna of estuarine fishes of the Kura

**Abstract**

In 2018-2021 in the area, where the Kura river flows into the Caspian Sea, 214 fish belonging to 14 species examined by the method of complete parasitological dissection, 21 species of parasitic protozoa were found. Of these, 14 species belong to endoparazites, seven species to ectoparasites, 12 species develop with the participation of an intermediate host, and nine species do not use intermediate hosts in their development. Because most of the studied fish belong to freshwater forms, the protofauna of fish in the freshwater part of the Kura estuary is richer than in the brackish water. Unlike ectoparasites, endoparasites in the body of fish transferred from the desalinated part of the water area to the brackish water. Among the found parasites, seven species are the causative agents of fish diseases. However, due to the not very high infestation of fish, pathogenic phenomena caused by these parasites not observed.

***Keywords:*** *the Kura river, fish, parasites, protofauna, ecological analyses*

## Giriş

Qafqazın ən iri çayı olan Kür Azərbaycanın Neftçala rayonunda Cənubi Xəzərə tökülür. Bu çayın deltasının uzunluğu 20 km, eni 15 km, sahəsi 15 min hektardır. Onun dənizə qovuşduğu yerdə suyunun duzluluğuna görə tam 2%-dən 7%-ə qədər qradasiyaları olan geniş estuari əmələ gəlir. Burada həm şirinsu, həm də dəniz balıqları, o cümlədən külmə, kütüm, qarasol, həşəm, çapaq, çəki, naxa və sıf kimi yarımkeçici vətəgə balıqları yaşayır (Sultanov, 2000:152; Ismayilov, 2005:127).

Kürün estuarisində yaşayan balıqların parazit faunasının, o cümlədən protofaunasının tədqiqinin böyük nəzəri və praktiki əhəmiyyətinin olmasına baxmayaraq, Xəzər dənizinin başqa rayonlarından (Ibrahimov, 2012:400), həmçinin Azərbaycanın digər su tutarlarından (Mikhailov, 1975:299; Mikhailov, Ibrahimov, 1980:115; Ibrahimov, Shakaraliyeva, 2018:31-38) fərqli olaraq, bizim tədqiqatlara qədər öyrənilməmiş qalırdı.

Bu məqalənin məqsədi Kür çayı estuarisi balıqlarının protofaunasını göstərmək və onun ekoloji təhlilini həyata keçirmək olmuşdur.

## Material və metodika

2018-2021-ci illərdə Kür çayının estuarisindən ovlanmış 212 ədəd balıq tam parazitoloji yarma üsulu (Bykhovskaya-Pavlovskaya, 1985:122; Pronina, Pronin, 2001:52) ilə tədqiq edilmişdir. Balıqlar bu 14 növə aid idilər: adi Xəzər kilkəsi – *Clupeonella delicatula caspia* (Svetovidov), Xəzər şişqarını – *Alosa caspia caspia* (Eichwald), qarabel siyənək – *A.kessleri kessleri* (Grimm), külmə – *Rutilus rutilus caspius* (Jakowlev), kütüm – *R.frisii kutum* (Kamensky), həşəm – *Aspius aspius taeniatus* (Eichwald), Kür şəmayısı – *Chalcalburnus chalcoides* (Guldenstadt), yastıqarın – *Blicca bjoerkna transcaucasica* (Berg), çapaq – *Abramis brama orientalis* (Berg), qarasol – *Vimba vimba persa* (Pallas), çəki – *Cyprinus carpio* L., naxa – *Silurus glanis* L., sıf – *Sander lucioperca* (L.), xanı – *Perca fluvistilis* (L.). Balıqların növ mənsubiyyəti Y.Ə.Əbdürrəhmanovun (Abdurakhmanov, 1962:405) monoqrafiyasına, parazitlərin növ mənsubiyyəti isə balıqların parazitlərinin müvafiq təyinedicilərinə (Gayevskaya, 1975:551; Banina, 1984:428) əsasən təyin edilmişdir. Əldə olunmuş parazitoloji material Azərbaycan Tibb Universitetinin tibbi biologiya və genetika kafedrasında saxlanılır.

## Nəticələr və onların müzakirəsi

Kür çayı estuarisindən ovlanmış balıqlarda Protozoa yarımaləminin müxtəlif taksonomik qruplarına aid olan 21 növ parazit aşkar edilmişdir. Aşağıda bu növlərin sahibləri, balığın orqanizmində lokallaşması və yoluxmanın ekstensivliyi (%) göstərilməklə taksonomik icmalı təqdim olunur.

Yarımaləm İBTİDAİLƏR – PROTOZOA
Tip QAMÇILILAR – MASTIGOPHORA Diesing, 1866
Sinif KİNETOPLASTİDLƏR – KINETOPLASTOMONADA Honigberg, 1963
Dəstə TRYPANOSOMAMODIDA Kent, 1880
Fəsilə TRYPANOSOMIDAE Doflein, 1911
*Trypanosoma carassii* (Mitrophanov, 1883)
Sahib: külmə (11,8%)
Lokallaşma: qan

Fəsilə BODONIDAE Stein, 1878
*Cryptobia borelli* (Laveran et Mesnil, 1901)
Sahib: külmə (5,9%)
Lokallaşma: qan

*Costia necatrix* (Henneguy, 1884)
Sahib: çəki (13,3%)
Lokallaşma: dəri, qəlsəmələr

Tip SPORLULAR – SPOROZOA Leuckart, 1872,
Sinif KOKSİDİLƏR – COCCIDIOMORPHA Doflein, 1901
Dəstə COCCIDIDA Labbe, 1889
Fəsilə Eimeridae Leger, 1911
*Eimeria carpelli* Leger et Stankovitch, 1921
Sahib: çəki (20,0%)
Lokallaşma: bağırsağın və öd kisəsinin divarları

Tip MİKROSPORİDİLƏR – MICROSPORIDIA Balbiani, 1882
Sinif MICROSPORIDEA Corliss et Levine, 1963
Dəstə GLUGEIDA Issi, 1983
Fəsilə GLUGEIDAE Gurley, 1893
*Pleistophora siluri* Gasimagomedov et Issi, 1970
Sahib: naxa (33,3%)
Lokallaşma: bağırsağın divarları

Tip MİKSOSPORİDİLƏR – MYXOZOA
Sinif MYXOSPORIDIA Bütschli, 1881
Dəstə BIVALVULEA Schulman, 1959
Fəsilə MYXOBOLIDAE Thélohan, 1892
*Myxobolus bliccae* Donec et Tozyjakova, 1984
Sahib: yastıqarın (20,0%)
Lokallaşma: qəlsəmələr
*M.bramae* Reuss, 1906
Khozyayeva: külmə (35,3%), kütüm(20,0%), həşəm (15,4%), yastıqarın (10,0%), çapaq (21,4%), qarasol (25,0%), çəki (66,7%)
Lokallaşma: dəri, qəlsəmələr, böyrəklər, dalaq, ürək, əzələlər, öd kisəsi və sidik kisəsi
*M.cyprini* Doflein, 1898
Khozyayeva: külmə (17,7%), çəki (40,0%)
Lokallaşma: böyrəklər, dalaq, əzələlər
*M.dispar* Thélohan, 1895
Khozyayeva: kütüm (6,7%), çəki (13,3%)
Lokallaşma: qəlsəmələr, əzələlər, böyrəklər, sidik kisəsi
*M.ellipsoides* Thélohan, 1892
Sahib: qarasol (12,5%)
Lokallaşma: qəlsəmələr, böyrəklər, qaraciyər, dalaq
*M.muelleri* Bütschli, 1882
Khozyayeva: külmə (23,5%), kütüm (13,3%), yastıqarın (20,0%), çəki (33,3%), sıf (16,6%)
Lokallaşma: qəlsəmələr, dərialtı birləşdirici toxuma, qaraciyər, böyrəklər, dalaq, öd kisəsi və sidik kisəsi, gözlər
*M.musculi* Keysselitz, 1908
Khozyayeva: külmə (29,4%), şəmayı (16,7%), qarasol (18,8%), çəki(26,7%)
Lokallaşma: əzələlər, dalaq, qaraciyər, böyrəklər, sidik kisəsi, baş beyni
*M.oviformis* Thélohan, 1882
Khozyayeva: külmə (11,8%), qarasol (6,3%)
Lokallaşma: qəlsəmələr, əzələlər, böyrəklər, dalaq
*M.pseudodispar* Gorbunova, 1936
Khozyayeva: külmə (5,9%), kütüm (6,7%), qarasol (12,5%), çəki (20,0%)
Lokallaşma: qəlsəmələr, əzələlər, böyrəklər, qaraciyər, dalaq
*M.rotundus* Nemeczek, 1911
Sahib: çapaq (14,3%)

ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 1.790. 2022 / Cild: 16 Sayı: 11 / 95-101 ISSN:2663-4619
SCIENTIFIC WORK International scientific journal. Impact Factor: 1.790. 2022 / Volume: 16 Issue: 11 / 95-101 e-ISSN: 2708-986X

Lokallaşma: böyrəklər, sidik kisəsi

Tip KİRPİKLİLƏR – CILIOPHORA Doflein, 1901
Sinif Cyrtostomata Jankowski, 1978
Dəstə HYPOSTOMATIDA Schewiakoff, 1896
Fəsilə CHILODONELLIDAE Deroux, 1970
*Chilodonella hexasticha* (Kiernik, 1909)
Sahib: xanı (21,4%)
Lokallaşma: qəlsəmələrin və dərinin səthi
*Ch. piscicola* (Zacharias, 1894)
Sahib: xanı (14,3%)
Lokallaşma: qəlsəmələrin, dərinin və üzgəclərin səthi

Sinif PƏRDƏAĞIZLILAR – HYMENOSTOMATA Delage et Hérouard, 1896
Dəstə TETRAHYMENIDA Fauré-Fremiet, 1956
Fəsilə OPHRYOGLENIDAE Kent, 1882
*Ichthyophthirius multifiliis* Fouquet, 1876
Sinif DAİRƏVİKİRPİKLİLƏR – Peritricha Stein, 1859
Sahib: xanı (28,6%)
Lokallaşma: qəlsəmələrin, dərinin və üzgəclərin səthi
Dəstə PERITRICHIDA Stein, 1859
Fəsilə TRICHODINIDAE Claus, 1874
*Trichodina caspialosae* Dogiel, 1940
Sahib: kilkə (31,6%), şişqarın (43,8%), qarabel siyənək (36,4%)
Lokallaşma: qəlsəmələrin, dərinin və üzgəclərin səthi
*T.jadranica* Raabe, 1958
Sahib: şəmayı (11,1%), naxa (8,3%)
Lokallaşma: bədənin və qəlsəmələrin səthi
*Trichodinella epizootica* (Raabe, 1950)
Sahib: xanı (14,3%)
Lokallaşma: qəlsəmələrin səthi

Bu məlumatdan görünür ki, adıçəkilən parazitlər arasında *Myxobolus bramae* yeddi, *M. muelleri* – beş, *M.musculi* və *M.pseudodispar* – hər biri dörd, *Trichodina caspialosae* – üç, *Myxobolus cyprini, M.dispar, M.oviformis* və *Trichodina jadranica* – hər biri iki növ balıqda qeydə alınmışdır. Qalan parazit növlərindən hər biri yalnız bir balıq növündə tapılmışdır. Parazitlərin ən çox lokallaşdığı orqan qəlsəmələrdir, onların toxumasında 7 növ miksosporidi, səthində isə 1 növ qamçılı və 6 növ infuzor tapılmışdır. Digər orqanlardan böyrəklərdə 9, dalaqda 7, əzələlərdə 6, bədən üzərində və sidik kisəsində 5, qaraciyərdə 4, üzgəclərin səthində, qanda, bağırsağın divarlarında və öd kisəsində 2, ürəkdə, dərialtı birləşdirici toxumada, gönlərdə və baş beynində 1 növ parazit ibtidai olmuşdur.

Qeyd edilmiş ibtidailərdən 7 növ (qamçılı *Costia necatrix* və bütün infuzorlar) ektoparazitlərə, qalan 14 növ (qamçılılar *Trypanosoma carassii* və *Cryptobia borelli,* koksidi *Eimeria carpelli,* mikrosporidi *Pleistophora siluri* və bütün miksosporidilər) isə endoparazitlərə aiddir. Protofaunanın tərkibində aralıq sahibdən istifadə etməklə inkişaf edən 12 növ (qamçılılar *Trypanosoma carassii* və *Cryptobia borelli,* bütün miksosporidilər) və sadə inkişaf tsiklinə malik 9 növ vardır.

Tədqiq edilmiş balıqlar arasında ən zəngin protofaunaya külmə və çəki malikdir, bunların hər birində 8 növ tapılmışdır. Belə ki, külmədə *Trypanosoma carassii* (11,8%), *Cryptobia borelli* (5,9%), *Myxobolus bramae* (35,3%), *M.cyprini* (17,7%), *Myxobolus muelleri* (23,5%), *M.musculi* (29,4%), *M.oviformis* (11,8%), *M.pseudodispar* (5,9%), çəkidə isə *Costia necatrix* (13,3%), *Eimeria carpelli* (20,0%), *Myxobolus bramae* (66,7%), *M.cyprini* (40,0%), *M.dispar* (13,3%), *Myxobolus muelleri* (33,3%), *M.musculi* (26,7%), *M.pseudodispar* (20,0%) aşkar edilmişdir. Digər balıqlardan qarasolda 5 növ – *Myxobolus bramae* (25,0%), *M.ellipsoides* (12,5%), *M.musculi* (18,8%), *M.oviformis* (6,3%),

*M.pseudodispar* (12,5%), kütümdə 4 növ – *Myxobolus bramae* (20,0%), *M.dispar* (6,7%), *Myxobolus muelleri* (13,3%), *M.pseudodispar* (6,7%), xanıda 4 növ – *Chilodonella hexasticha* (21,4%), *Ch. piscicola* (14,3%), *Ichthyophthirius multifiliis* (28,6%), *Trichodinella epizootica* (14,3%), yastıqarında 3 növ – *Myxobolus bliccae* (20,0%), *M.bramae* (10,0%), *M.muelleri* (20,0%), şamayıda 2 növ – *M.musculi* (16,7%) və *Trichodina jadranica* (11,1%), naxada 2 növ – *Pleistophora siluri* (33,3%) və *Trichodina jadranica* (8,3%), qalan balıqların hərəsində cəmi 1 növ, o cümlədən kilkədə (31,6%), şişqarında (43,8%) və qarabel siyənəkdə (36,4%) *Trichodina caspialosae*, sıfda *Myxobolus muelleri* (16,6%) tapılmışdır. Aşkara çıxarılmış ibtidailərin böyük əksəriyyəti su mühitinin fərqli minerallaşma səviyyələrinə müxtəlif dərəcələrinə uyğunlaşmış şirinsu növləridir. Bunların arasında siyənəkkimilərin spesifik paraziti olan tipik dəniz növü *Trichodina caspialosae* infuzoru istisna təşkil edir. Biz Kür çayının estuarisindəki material toplama məntəqələrini suyun duzluluğu 2-3%, 4-5% və 6-7% olmaqla şərti olaraq üç hissəyə ayırdıq. Cədvəl 1-də suyun minerallaşma dərəcəsinə görə müxtəlif olan hissələrdə parazit ibtidailərin paylanması göstərilir. Orada təqdim olunan məlumatdan belə görünür ki, estuarinin ən şirinləşmiş sahəsindən (2-3%) ovlanmış balıqlarda 18, suyun minerallaşma dərəcəsinə görə aralıq olan sahəsindən (4-5%) 13, ən duzlu sahəsindən (6-7%) olan balıqlarda 7 növ parazit tapılmışdır. Təbii ki, xarici su mühiti ilə birbaşa təmasda olan ektoparazitlər ondan daha çox təsirlənir və kifayət qədər eurihalin deyildirlərsə, suyun nisbətən yüksək minerallaşmasına dözə bilmirlər. Bu səbəbdən *Costia necatrix, Chilodonella hexasticha, Ch. piscicola, Ichthyophthirius multifilii* və *Trichodinella epizootica* kimi stenohalin şirinsu ektoparazitləri yalnız suyun duzluluğu ən az olan sahədən tutulan balıqlarda aşkar edilmişlər. Bunlardan birincisi Kür estuarisinin çox şirinləşmiş hissəsindən tutulan çəkidə, qalanları isə şirinləşmiş sularda ovlanmış xanıda tapılmışlar. Bu növlərdən fərqli olaraq, şirin su ektoparaziti *Trichodina jadranica* daha yüksək eurihalinlik dərəcəsinə malikdir (Ibrahimov, 2012) və bizim tərəfimizdən suyun duzluluğu 4-5% olan hissədə aşkar edilmişdir. Dəniz siyənəkləri üçün xarakterik olan *Trichodina caspialosae* infuzoru suyun duzluluğu nisbətən yüksək olan (4-5% və 6-7%) sularda və yalnız spesifik sahiblərində – kilkə, şişqarın və qarabel siyənəkdə müşahidə olunmuşdur.

**Cədvəl 1.**
**Kür çayı estuarisinin suyun minerallaşma dərəcəsinə görə fəqli hissələrindən əldə olunmuş balıqlarda aşkara çıxarılmış parazit ibtidai növlərinin sayı.**

| Parazitlərin adları | 2-3% | 4-5% | 6-7% |
|---|---|---|---|
| *Trypanosoma carassii* | + | + | |
| *Cryptobia borelli* | + | | |
| *Costia necatrix* | + | | |
| *Eimeria carpelli* | + | + | |
| *Pleistophora siluri* | + | + | |
| *Myxobolus bliccae* | + | | |
| *M.bramae* | + | + | + |
| *M.cyprini* | + | + | + |
| *M.dispar* | | + | |
| *M.ellipsoides* | + | | |
| *M.muelleri* | + | + | + |
| *M.musculi* | + | + | + |
| *M.oviformis* | + | + | |
| *M.pseudodispar* | + | + | + |
| *M.rotundus* | + | + | + |
| *Chilodonella hexasticha* | + | | |

| | | | |
|---|---|---|---|
| *Ch. piscicola* | + | | |
| *Ichthyophthirius multifiliis* | + | | |
| *Trichodina jadranica* | | + | |
| *T.caspialosae* | | + | + |
| *Trichodinella epizootica* | + | | |
| Aşkar olunmuş növlərin sayı | 18 | 13 | 7 |

Endoparazitlərə gəldikdə vəziyyət fərqlidir, onların arasında bizim aşkar etdiyimiz parazitlərdən qanda parazitlik edən qamçılılar, koksidilər, mikrosporidilər və miksosporidilər vardır. Bu ibtidailərlə yoluxma şirin suda baş verir. Məsələn, qan parazitləri *Trypanosoma carassii* və *Cryptobia borelli* balıqlara qansoran şirinsu zəliləri vasitəsilə yoluxurlar. Balıqların bədəninə girdikdən sonra bütün bu parazitlər balıqlarla birlikdə daha duzlu su sahələrinə keçə bilirlər. Qeyd etmək lazımdır ki, bununla belə tədqiq etdiyimiz bölgədə bu endoparazitlərin heç də hamısı eyni dərəcədə geniş yayılmamışdır. Belə ki, suyun minerallaşma dərəcələrinə görə fərqlənən hər üç sahədə miksosporidilərə aid olan növlərdən yalnız balıqları nisbətən güclü yoluxduran *Myxobolus bramae, M.cyprini, M.muelleri* və *M.musculi* qeyd edilmişdir.

Bizim aşkar etdiyimiz parazit ibtidailərin 7 növü – *Costia necatrix* qamçılısı, *Eimeria carpelli* koksidisi, *Myxobolus muelleri* miksosporidisi, *Chilodonella hexasticha, Ch. piscicola, Ichthyophthirius multifiliis* və *Trichodinella epizootica* infuzorları balıqlar üçün patogendir (Golovina, Strelkov, Voronin 2003:448). Lakin tədqiq etdiyimiz balıqların bu parazitlərlə yoluxması çox yüksək olmadığından onların törədə biləcəyi patogen hadisələri müşahidə etməmişik. Bununla belə, balıqçılıq fəaliyyətini həyata keçirərkən bu patogenlərin mövcudluğu nəzərə alınmalıdır.

## Nəticə

Kür çayının estuarisində 2014-2016-cı illərdə aparılan parazitoloji tədqiqatlar nəticəsində 14 növə aid 202 ədəd balıqların 5 tipə, 7 sinfə, 7 dəstəyə və 8 fəsiləyə aid olan 21 növ parazit ibtidai tapılmışdır. Protofaunanın tərkibində ektoparazitlərə (7 növ) nisbətən endoparazitlər (14 növ), sadə inkişaf dövrü olan formalara (9 növ) nisbətən sahiblərinin dəyişməsi ilə inkişaf edən formalar (12 növ) əhəmiyyətli dərəcədə üstünlük təşkil etmişdir. Aşkar edilən parazitlərin əksəriyyəti şirinsu formalarıdır, ona görə də Kür estuarisinin çox şirinləşmiş sahələrində tutulan balıqlarda daha çox növ aşkar edilmişdir. Müəyyən edilmişdir ki, ektoparazitlərdən fərqli olaraq endoparazitlər balıqları şirin suda yoluxdurub onların orqanizmində suyu minerallaşmış ərazilərə keçə bilirlər. Aşkar olunmuş ibtidailər arasında 7 növ balıq xəstəliklərinin törədicisidir. Bununla belə, balıqlar çox güclü yoluxmadığı üçün bu parazitlərin törədə biləcəyi patogen hallar müşahidə edilməmişdir.

## Ədəbiyyat

1. Sultanov, E. et al. (2000). Potensial Ramsar sites of Azerbaijan. Baku: Wetland International Publication, 152 s.
2. Ismayılov, Ch. (2005). Ecology of the Caspian Sea and adjacent territories. Baku: Ayna, 127 s.
3. Mikhailov, T.K. (1975). Parazity ryb vodoyomov Azerbaydzhana (sistematika, dinamika i proiskhozhdeniye). Baku: Elm, 299 s.
4. Mikhailov, T.K., Ibrahimov SH.R. (1980). Ekologiya i zoogeografiya parazitov ryb vodoyemov Lenkoranskoy prirodnoy oblasti. Baku: Elm, 115 s.
5. Ibrahimov, Sh.R., Shakaraliyeva, Y.V. (2017). The ecological peculiarities of circulation of the fish trematodes in the water bodies of Azerbaijan. Proceedings of the "Man and biosphere" (MaB UNESCO). Azerbaijan National Committee. Ecological Civilization, Sustainable Development, Environment, Vol.12, p.31-38.
6. Bykhovskaya-Pavlovskaya, I.Y. (1985). Parazity ryb. Rukovodstvo po izucheniyu. L.: Nauka, 122 s.

7. Pronina, S.V., Pronin, N.M. (2007). Metodicheskoye posobiye po gidroparazitologii (Chast 1. Tekhnika parazitologicheskikh issledovaniy i paraziticheskiye prosteyshiye). Ulan-Ude, 52 s.
8. Abdurakhmanov, Y.A. (1962). Ryby presnykh vod Azerbaydzhana. Baku: Izd.-vo AN Azerb.SSR, 405 s.
9. Gayevskaya, (1975). Opredelitel parazitovpozvonochnykh Chernogo i Azovskogo morey. Kiyev: Naukova Dumka, 551 s.
10. Banina, N.N. (1984). Opredelitel parazitov presnovodnykh ryb fauny SSSR. Tom. 1. Paraziticheskiye prosteyshiye. L.: Nauka, 428 s.
11. Ibrahimov, Sh.R. (2012). Parazity i bolezniryb Kaspiyskogo morya (ekologo-geograficheskiy analiz, epizootologicheskaya i epidemiologicheskaya otsenka). Baku: Elm, 400 s.
12. Golovina, N.A., Strelkov, Yu.A., Voronin, V.N. (2003). Ikhtiopatologiya. M.: Mir, 448 s.

Göndərildi: 23.08.2022 Qəbul edildi: 25.10.2022

ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 1.790. 2022 / Cild: 16 Sayı: 11 / 102-109 ISSN:2663-4619
SCIENTIFIC WORK International scientific journal. Impact Factor: 1.790. 2022 / Volume: 16 Issue: 11 / 102-109 e-ISSN: 2708-986X

DOI: https://doi.org/10.36719/2663-4619/84/102-109

**Nazilə İsgəndər qızı Salmanova**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
kimya elmləri namizədi
nazilya.salmanova@gmail.com
**Samirə Aydın qızı Qəribova**
Əkinçilik Elmi-Tədqiqat İnstitutu
samira_zo@mail.ru
**Fidan Höccət qızı Abdullayeva**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
magistrant
fidan1999.1906@gmail.com
**Teyfə Kamal qızı Şərifova**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
hteyfa@gmail.com

# AQRAR-SƏNAYE TULLANTILARININ EMALININ ƏHƏMİYYƏTLİ NƏTİCƏLƏRİNİN TORPAQ MÜNBİTLİYİNƏ TƏSİRİ

## Xülasə

Qida maddələrinin bioloji dövranında əsas göstəricilərdən biri, torpaqdan aparılan qida elementlərinin miqdarı və bitki orqanları ilə torpağa qaytarılan elementlərin miqdarı arasında olan nisbətin düzgün öyrənilməsidir.

Azərbaycan mürəkkəb relyef və təbii iqlim şəraitinə malik, qədim suvarma əkinçiliyi ölkəsidir. Onun ümumi torpaq fondu 8660 min hektar, əhalisi 9,0 milyon nəfərdir. Dünyada mövcud olan 11 təbii-iqlim zonasından 9-na burada rast gəlinir.

Ümumi torpaq fondunun 45,1%-i (3901,4 min hektar) kənd təsərrüfatında istifadə oluna bilmir (1037,8 min hektarı meşəliklər, 142,5 min hektarı su hövzəsinin, 2721,1 min hektarı digər sahələrdir).

Bu bitkilərin bioloji xüsusiyyətlərindən və onların becərildiyi zonadan asılı olaraq kəskin dəyişə bilər. Məsələn, subtropik meşələr ildə hər hektardan 993 kq qida elementləri mənimsənildiyi halda, onun 795 kq-ı tökülən orqanlarla qaytarılır. Qida maddələrinin bioloji dövranı nəticəsində torpaqda $CO_2$, N, P, S və digər elementlər toplanır. Bitki tərəfindən ən çox mənimsənilən N və P elementi ən çox torpağın səthində üzvi qalıq toplanan qatda olur.

***Açar sözlər:*** *saprofitlər, sideratlar, torpaq, piroliz, biohumus*

**Nazila Isgandar Salmanova**
**Samira Aydin Garibova**
**Fidan Hojjat Abdullayeva**
**Teyfa Kamal Sharifova**

# Impact of significant results of agro industrial waste processing on soil fertility

## Abstract

One of the main indicators in the biological cycle of nutrients is the correct study of the ratio between the amount of nutrients taken from the soil and the amount of elements returned to the soil by plant organs. Depending on the biological characteristics of these plants and the zone where they are grown, they can change dramatically. For example, while subtropical forests absorb 993 kg of nutrients from each hectare per year, 795 kg of it is returned by shedding organs. As a result of the biological cycle of nutrients, CO2, N, P, S and other elements accumulate in the soil. N and P

elements, which are most absorbed by the plant, are mostly found in the organic residue layer on the surface of the soil.

***Keywords:*** *saprophytes, siderites, soil, pyrolysis, biohumus*

## Giriş

Müasir ekologiyanın ən mühüm problemlərindən biri torpaqların qorunması, münbitliyinin artırılması və idarə edilməsinin strategiyasının elmi əsaslarının işlənib hazırlanmasıdır (Məmmədov, 2007:54). Ekosistemlərə kompleks yanaşma metodunun tətbiq edilməsi ilə əlaqədar əvvəllər həlli mümkün olmayan nəzəri metodiki və praktiki məsələlərin həll edilməsinə imkan yaradan torpaqların münbitlik parametrlərinin öyrənilməsini və onların aqroekoloji qiymətləndirilməsini zəruri etmişdir. Son illərdə qlobal iqlim dəyişikliklərinin baş verməsi, temperaturun yüksəlməsi, yağıntının az olması və onun il ərzində əsasən payız-qış aylarında düşməsi, yaz-yay mövsümündə isə kəskin quraqlıqların keçməsi müşahidə edilir (Babayev, 2012:163).

Bunun nəticəsində məhsuldarlıq aşağı düşür və ümumi taxıl yığımı azalır. Əkin sahələrinin stabil saxlanması ilə əkinlərin məhsuldarlığının yüksəldilməsi hesabına, əkinçilik mədəniyyətinin yüksəldilməsi və becərmə texnologiyasının müasirləşdirilməsi ilə yanaşı, torpağın mikrostrukturununun bərpası vacib məsələlərdən biridir (Misra, 2003:26).

Məhsuldarlığın ən böyük meyyarı ekoloji bölgənin xüsusiyyətlərinə uyğun olan müxtəlif biotik və abiotik amillərə davamlı yeni yüksək məhsuldar və keyfiyyətli bitki sortlarının yaradılması ilə yekunlaşmır (Maria, Martinez, Manual, 2013:45). Əsasən torpağın biotik vericiliyini məhsuldan sonra bərpa etmək vacibdir. Ona görə hər bir əkinçi əkin apardığı torpaq sahəsini aqroekoloji analiz etdirməlidir. Hər bir torpağın özünə xas aqrobioloji özəlliyi var. Yalnız aqrokimyəvi analizlə torpağın xüsusiyyətini qismən öyrənmiş olarıq (Hacıməmmədov, Təlayi, Kosayev, 2016:32). Məhsullar karbohidrogen və qeyri-karbohidrogen birləşmələrin elə mürəkkəb qarışığından ibarətdir ki, onların əhəmiyyətini laboratoriya analizləri olmadan müəyyən etmək çətin olur. Məhsulun əhəmiyyətli tərkibində neft və neft məhsullarının olmasını, eləcədə digər təsərrüfat əhəmiyyətini müəyyən etməklə əldə olunmuş maddənin rentabelliyi müəyyən edilir. Məlumdur ki, əsasən, neftin tərkibinə daxil olan kimyəvi elementlər karbon, hidrogen, kükürd, azot və oksigendir. Müxtəlif tullantıların emalı ilə neft və neft məhsulları əldə edilir. Ölkəmizin əsas faydalı qazıntısı neft məhsulları olduğu üçün tullantıların emalı ilə neft və ya qaz məhsulları əldə etmək rentabelli deyil (Mustafayev, Qəhrəmanlı, 2014:152). Məhz buna görə tullantılar emal edilərək kompost və ya bioakumlyasiya kimi torpağa verilməsi daha əhəmiyyətlidir. İlk dəfə olaraq respublikada torpaqların təbii münbitliyini saxlamaq və humus balansınının azalmasının qarşını almaq üçün illik üzvi-gübrə norması AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun tədqiqatlarına əsasən müəyyənləşdirilib.

**Tədqiqatın obyekti (bölgə), aparılma metodu və mövzunun öyrənilmə səviyyəsi**

Kənd təsərrüfatı tullantılarının mikroorqanizm və mikrobioloji proseslərin təsiri ilə əldə edilmiş gübrələri torpağın məhsuldarlığını aqrokimyəvi gübrələrə nisbətən daha rentabelli edir. Torpağın əhəmiyyətli mikroflorasının bərpasına və mikrostrukturunun formalaşmasına səbəb olur.

Kənd təsərrüfatı tullantıları və bu tullantıların emalının əhəmiyyətli nəticələri tədqiqatlarımızda işlənmişdır. Bir çox ölkələrdə du tulantıların emalı ilə məşğul olan özəl və dövlət qurumları kənd təsərrüfatı fermerlərindən təsərrüfat tullantılarını yüksək məbləğdə pul vəsaiti qarşılığında alırlar. Kənd təsərrüfatında tullantıları təsərrüfat mənbəyinə görə ayırırlar:

- Ərzaq tullantıları;
- Yemtullantıları;
- Toz formalı ərzaq, yem tullantıları;
- Kənd təsərrüfatı, bağçılıq və meşəçilik tullantıları;
- Tikinti materialları tullantıları.

Kənd təsərrüfatının əhəmiyyətli tullantıları 9 qrupa bölünür:

- heyvan saxlayan fermer təsərrüfatlarının heyvan fizioloji atqıları;
- quşçuluq təsərrüfatları atqıları;
- kompost;

- torf;
- sideratlar;
- saprofitlər (orqanik qalıqların gölməçə və su hövzələrində parçalanmısı və qalıqları);
- lazımsız ot tullantıları;
- kənd təsərrüfatı bitki və ət istehsal edən fermer müəssisələrinin tullantıları.

Tullantıların, xüsusilə ferma və əkinçilik təsərrüfatlarının tullantılarının pirolizi (alnmış tullantının yüksək temperaturda emalı) zamanı metan qazı alınır. Tullantıların piroliz emalı ilə dizel yanacaq əldə etmək mümkündür. Pirolizin axırında qalan tullantıdan bərk yanacaq kimi briketlər hazırlanır. Bu briketlərdən yanacaq kimi bir çox ölkələrdə tətbiq edilir. Yaponiya, Rusiya, Türkiyə kimi bir çox dövlətlərdə piroliz texnologiyası ilə emal edilən kənd təsərrüfatı tullantılarından faydalı yanacaq əldə edilir. Bu da bügünki yanacaq ehtiyatı üçün daha əlverişlidir. Bu texnolgiya ilə tullantıların ekolji emalı tətbiq edilir. Tullantı emal olunduqda əhəmiyyətli yanacaqla birgə həm də biogübrə əldə olunur.

Məlumata görə bitkinin qidalanmasında torpağın reaksiyası (pH-ı) mühüm rol oynayır (Zamanov, 2013:67). Tədqiqatlara görə torpaqda, zəif turş mühitdə $HPO_4^{-2}$, neytral mühitdə isə $H_2PO_4^{-2}$ bitki tərəfindən daha yaxşı mənimsənilir. Torpaqda bitki inkişafı üçün qida maddələrindən mübadilə olunan kalium çatışmadıqda, bitkidə fosforlaşma dayanır, tənəffüs isə artır, nəticədə məhsuldarlıq kəskin azalır.

Kənd təsərrüfatı tullantılarının emalı cədvəli Ümumi Rusiya Torpaqlarının Meliorasiyası İnstitutunun tədqiqatları əsasında qurulmuşdur.

**Cədvəl 1.**

**Torpağın meliorativ bioloji aktivliyinin bərpası üçün tullantıların dəyərləndirilməsi.**

| Biomeliorativ növ və mənbə | Əhəmiyyətli müsbət göstəricilərin təsiri | Mənfi göstəricilərin təsiri | Nəticə göstəriciləri | Əhəmiyyət qiyməti |
|---|---|---|---|---|
| Heyvandarlıq fermalarında saxlanan kənd təsərrüfatı heyvanlarının fizioloji tullantıları | 7,78 | -1,66 | 6,12 | 5 |
| Kənd təsərrüfatı quşçuluq fermalarının fizioloji qalıqları | 8,00 | 1,73 | 6,27 | 4 |
| Əkilən torpağa kompost və fizioloji tullantıların emalsız verimi | 9,28 | -0,00 | 9,28 | 1 |
| Kompost torflu navozlu | 7,46 | -0,57 | 6,89 | 3 |
| Sapropel | 3,60 | 0,00 | 3,60 | 13 |
| Torf | 4,12 | -0,10 | 4,02 | 9 |

**Yarım duru üzvi tullantılar**

| | | | | |
|---|---|---|---|---|
| Kənd təsərrüfatı iribuynuzlu və qoyunçuluq fermalarının tullantıları | 6,00 | -2,10 | 3,90 | 11 |
| Quşçuluq fermalarının tullantıları | 6,60 | -2,23 | 4,37 | 8 |

**Bitki qalıqları**

| | | | | |
|---|---|---|---|---|
| Taxıl bitkiləri qalıqları | 4,74 | -0,90 | 3,84 | 12 |
| Paxlalı bitki qalıqları | 6,00 | -0,77 | 5,23 | 6 |
| Çiçəkli bitki sideratları | 4,20 | -0,23 | 3,97 | 10 |
| Paxlalı bitki sideratları | 5,26 | 0,23 | 4,56 | 7 |

Ümumi Rusiya Elmi Tədqiqat Torpaq Meliorasiyası İnstitutunun ekspert şurasının torpağa verilən aqrar atqıların dəyərləndirilməsi sayəsində cədvəl tərtib edilmişdir. Tədqiqat qərarına əsasən cədvəldə verilmiş əhəmiyyət gösəricisi cədvəl göstəricisinə əsasən tullantı emal edilərək kompost hazırlamaq daha əhəmiyyətlidir. Hazırlanmış kompostla torpağın bioloji aktivliyinin, əhəmiyyətli təsirini bərpa etmək mümkündür. Analiz edilən biomeliorativ göstəricili torpağın bioloji aktivliyini yüksəldən, ən yüksək göstəricilərə malik biomeliorant, kompostlaşmış torpaq qalığı, aqrokimyəvi gübrələrlə zənginləşdirilmiş qarışığı göstərmək olar.

Ölkəmizdə kənd təsərrüfatı tullantıları, ilk növbədə, əkinçilik və heyvandarlıq təsərrüfatı tullantılarıdır. Fermerlər bir çox halda həmin tullantıları emal etmədən əkin əkdiyi təsərrüfat torpağına atır. Emal olmadan atılan tullantı qısa müddətdə fermerin torpaq mülkünü əhəmiyyətsiz edir (Qəribov, 2018:84). Torpaqda bitki zərərvericilərinin yayılmasına və zərərli xəstəliklərin artmasına səbəb olur. Fermer də əkininin təsərrüfat əhəmiyyətini qorumaq üçün daha çox herbisid və funqisid almağa məcbur olur.

Bəzi iri fermer təsərrüfatları əkinçilik sahələrinin tullatılarına görə küllü miqdarda cərimələr ödəyirlər. Elmi tədqiqatlar sayəsində alınmış nəticələrə uyğun olaraq müəyyən olunmuşdur ki, tədqiq edildikdən sonra həmin tullantılar qismən emal edildikdən sonra fermerin torpağı üçün dəyərli substrata çevrilə bilər. Əgər fermer torpağının əhəmiyyətli vericiliyi üçün kimyəvi gübrələrdən 1 illik istifadə edirdisə, kənd təsərrüfatlarının tullantılarından hazırlanmış biogübrə sayəsində 5 il müdətində torpağının münbitliyini qoruyur. Fermerə kimyəvi gübrə nisbətən az lazım olur. O, qismən kimyəvi gübrələrin alınmasına az maddi vəsait xərcləyir.

**Eksperimental hissə**

Bu tərkibdə hazırlanmış kompost (1) 20 hektar taxıl sahəsində əkin torpağına verildi. Hər hektara 10 kq biokompost verilməsi nəticəsində 20 hektar sahədən daha çox xalis gəlir alınmışdır.

Şəmkir rayonu Kür qəsəbəsindəki özəl fermer Hüseyinov Aydının torpaq sahəsində ilkin analizlər aparıldı.

Onun torpağına bitki və heyvan qalıqlarından alınmış substrat verildi. Həmin torpaqda əkilən bitkinin daha tez və sağlam inkişafı müşahidə olundu. Bitki inkişafı üçün heç bir aqrokimyəvi gübrə istifadə olunmamışdı. Əkinlərə insektisid və funqisid keçən illərə nisbətən az sərf olundu. Bölgələrdən asılı olaraq, tullantılar müxtəlif olduğu üçün hazırlanan kompostların tərkibləri və xammalları da müxtəlif olur:

Peyin (mal peyini) − 50%
Kənd təsərrüfatı sənaye emalı tullantıları − 29%
Təsərrüfat əhəmiyyəti olmayan bitkilərin yaşıl kütləsi − 10%
Kül − 1,0%
Quş peyini − 10%

Tədqiqat işlərindən məlum olur ki, hazırlanmış kompostun tətbiqi nəticəsində torpağın münbitliyi və struktur göstəriciləri yaxşılaşmaqla bərabər, hektardan orta hesabla maliyyə gəliri almaq mümkündür. Kompostu hazırlayarkən ona 0,2-0,5% KÜMMG (Kompleks üzvi mineral mikro gübrə) əlavə olunur. Bu gübrənin hazırlanma texnologiyasını akademik C.M.Hüseynov işləyib hazırlamışdır. Tədqiqat zamanı Şəmkir kompostu hazırlanmışdır.

Şəmkir kompostu
Rayon məişət tullantısı − 20%
Peyin − 40%
K/t bitkilərinin qalığı − 10%
Quş peyini − 17%
KÜMMG və DDS – 0,5%
Sadə superfosfat – 1%
Lil qalığı − 8%
Ammonium sulfat – 0,5%
Kül – 3%

Fermer əkininin belə yüksək nəticə almağına ilkin inanmadı. Onun əkinçilik apardığı torpaq sahəsindən aqrokimyəvi analiz üçün 2021-2022-ci illər üzrə torpaq nümunələri götürdük. Torpaq nümunəsi aqrokimyəvi analizlərdə müəyyən olundu ki, bu torpaqlarda humus əmələgəlməsi 2021-ci ildə çox aşağı səviyyədə olmuşdur. Humus torpaq tipindən asılı olaraq ən çoxu 0,316-0,201% təşkil edir. Humusu zəifləmiş torpağda əkin apardıqda, həmin torpağın humus göstəricisi 3-4% təşkil edirdi. Yəni torpaqda məhsuldarlıq yox səviyyəsində olmuşdur. Elmi Tədqiqat Əkinçilik İnstitutunun Torpaq və bitki analizləri laboratoriyasının böyuk elmi işçisi Qəribova Samirənin həm tədqiqatlarına istinad edilmiş, həm də müştərək laboratoriya analizlərimiz sayəsində torpaq analiz edilmişdir. İlkin laboratoriya analizləri ilə müəyyən olunmuşdur ki, kənd təsərrüfatı tullantılarından hazırladığımız qatqının humus əmələgəlmə kofisenti 0,25-3,4% arasında dəyişir (Hacıməmədov, Salmanova, Qəribova, 2019:92). Q.Samirənin tədqiqatlarına əsasən ən yüksək və əhəmiyyətli humus əmələgəlmə kofisenti Əkinçilik Elmi Təqiqat İnstitutunun əməkdaşlarının köməyi ilə toplanmış, kənd təsərrüfatı tullantılarından hazırlanmış humus qarışığının hər tonuna 10-12 kq aqrar azot, və ya 3-5 kq floraton preparatı qatmaqla nail olunur. "Amin-Q" dərman preparatları firması bizim tədqiqatlarımızda floraton preparatının tətbiqi üçün bizə mütəxəssis və dərman preparatları təqdim etdi. 2022-ci ilin elmi tədqiqatlarına görə humus səviyyəsi 1,502-1,518 təşkil etmişdir. Torpaq dərinliyindən asılı olaraq dəyişən humus göstəricisi üçün götürülmüş torpaq nümunələri eyni dərinlikdən götürülmüş və analiz edilmişdir.

Fermerin məlumatına və aqrokimyəvi anlizlərlə müəyyən olunmuşdur ki, torpaq uzun müddət yalnız əkinə tətbiq edilmiş, yalnız aqrokimyəvi gübrələr tədbiq edilib, bitki əkilmişdir. Yəni torpağın kimyəvi göstəricilərinə görə azotun, fosforun və kaliumun miqdarı azalarsa, onun keyfiyyət göstəriciləri aşağı olur. Fermerin torpağında isə kalium və fosfor çox olsa da, azotun azlığı torpağı əkin üçün yararsız etmişdir. Kalium və fosfor kimyəvi gübrələri sayəsində məhsuldarlıq nisbətən yüksək olsa da, gözlənilən nəticə az olmuşdur. Bitki isə kimyəvi kalium və fosforu qəbul etmir, məhsuldarlıq aşağı olurdu (Hüseynov, Hüseynov, Məmmədova, 2018:40). Torpaqda kalium və fosforun çoxluğu, torpağın kipliyini artırmış, azotun çoxluğu isə bitkinin inkşafını ləngitmiş, məhsuldarlığı nisbətən aşağı düşmüşdü. 2021 və 2022-ci ilin payız aylarında götürdüyümüz nümunələr ilə becərilən torpağın aqrokimyəvi analizini apardıq. Analiz üçün götürdüyümüz torpaq nümunələrinin Tyurin üsulu ilə analizini apararaq cədvəl 2-dəki nəticələri aldıq.

Analiz aparılmış torpaq nümunəsinin sahələrdən asılı olaraq kalsium karbonatın ($CaCO_3$) miqdarı orta hesabla 4,7-5,1% arasında dəyişir.

**Cədvəl 2.**

| Nümunələrin sıra nömrəsi | Zərərli duzların miqdarı (quru qalıq %-lə) | Xlor ionu (CI) %-lə | pH (suda) | Ümumi azot (N) | Humus %-lə | Mübadilə olunan kalium ($K_2O$) | Mütəhərrik fosfor ($P_2O_5$) | Kalsium karbonat ($CaCO_3$) %-lə |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | 1 kq torpaqda mq-la | | |
| 1 | 3,38 | 0 | 6,14 | 0,114 | 0,316 | 978 | 102,1 | 4,8 |
| 2 | 3,071 | 0 | 6,23 | 0,112 | 0,201 | 784 | 108,2 | 3,6 |
| 3 | 2,079 | 0 | 8,34 | 0,116 | 1,502 | 545 | 112,4 | 4,7 |
| 4 | 0,263 | 0 | 8,17 | 0,118 | 1,518 | 953 | 106,5 | 5,1 |

Cədvəl qeydlərinə əsasən analiz etdiyimiz torpaqda 2021-ci ildə zərərli duzların göstəriciləri yüksək olmuşdur. Əkilən bitkinin aqrobiloji məhsuldarlığının aşağı düşməsinə səbəb olmuşdur. Bitki əkini tam aqrotexniki qaydalarla aparılmışdır. Fermer məhsuldarlığının aşağı olmasında əkdiyi bitkinin məhsuldar sortun zəif olmasından narazı olduğu qeyd olundu. Əkinçilik Elmi Tədqiqat İnstitutunun elmi seleksiyası sayəsində alınmış elit buğda sortu fermerə verilmişdir. Fermerin iradlarına elmi əsaslarla baxmaq üçün ezam olunmuş Əkinçilik Elmi Tədqiqat İnstitutunun elmi işçilərinin əkin sahəsinə baxması və aqrokimyəvi analiz üçün torpaq nümunələrinin götürülüb analiz edilməsi ilə müəyyən olundu ki, torpaq dincə qoyulmadan və yalnız aqrokimyəvi gübrə tədbiq edilib.

Fermerlə razılığımıza və köməkliyi sayəsində onun əkin torpağına kənd təsərrüfatı tullantılarından hazırlanmış biogübrə verdik.

Hazırladığımız gübrə ilə biz kənd təsərrüfatı, heyvandarlıq və bitki mühafizəsi preparatlarının təsisçisi "Amin-Q" şirkəti ilə başlanğıc razılığa gəldik. Təsisçi firma "Amin-Q" ilə əməkdaşlığımız sayəsində və həmin firmanın əməkdaşlarının bizə gübrə əlavəsi olaraq Floraton tövsiyə etmələri işimizin perspektivliyini artırdı. Belə ki, kənd təsərrüfatı tullantılarının ilkin aqrokimyəvi analizi nəticəsində hazırladığımız gübrəyə Floraton preparatı da qatdıq. Preparatın əsas tərkibi Alpha Naphtyl Acetic Acid (Alfa Naftil Asetik (Sirkə turşusu) – 4,5 qr Alpha Naphtyl Acetamide (Alfa Naftil Asetamid) – 12,5 qr maddələrindən təşkil olunub. Bu preparat sayəsində hazırladığımız aqrogübrənin torpaqda əkilən bitki üçün daha mənimsənilən olmasını aqrokimyəvi analizlərlə müəyyən etdik. Floratonun aqrokimyəvi tullantılar sayəsində hazırladığımız gübrə ilə tətbiqi bitkilərin əsas inkişaf mərhələlərində onların böyüməsini artıran, təbii hormonların səviyyəsini yüksəldən bir vasitə kimi tədbiq edildi.

Kənd təsərrüfatı tullantılarını elmi üsulla emal etməklə bir çoxtəsərrüfatların torpaq sahələri üçün keyfiyyətli, ekoloji təmiz və gəlirli gübrə əldə etmək mümkündür (Mehmet, 2010:33). Tullantılar sayəsində alınmış substrat torpağın zərərli kipliyini azaldır, torpaq dənəvər olur. Bir çox torpaqda yayılan xəstəliklərin əleyhinə torpağın antisepliyini qorumasında kömək olur. Tədqiq etdiyimiz torpaqlarımızın bazis məhsuldarlığı nisbətən bərpa olunmuşdur. Kimya sənayesi sayəsindədə əldə olunmuş kimyəvi gübrələrlə bunu əldə etmək mümkün deyil. Kimyəvi gübrələr yalnız bir il öz təsirini əkilən bitkinin məhsuldarlığının yüksəlməsi ilə göstərir. Növbəti il mütləq dincə qoyulmuş torpağa tullantılarla əldə edilmiş təbii gübrə verilməlidir. Bu gübrələr sayəsində torpaq yenidən əhəmiyyətli məhsuldarlığını qorumuş olur. Bir çox fermerlər də bunu etməkdən yayınırlar. Bununla onlar torpağının əhmiyyətsiz olmasından, məsuldarlığın az olmasından şikayətlənirlər. Torpağın bazis məhsuldarlığı azalır. Fermer təsərrüfatının məhsuldarlığının artırılması üçün torpağa kimyəvi gübrə versə də, həmin gübrə torpağın deqradasiyasına (əhəmiyyətsiz olmasına) səbəb olur.

Kimyəvi gübrə elmi əsassız əkin sahəsinə verildikdə, torpaqda yayılaraq torpağın kipləşməsinə, aqrokimyəvi pozğunluğa, kənd təsərrüfatı bitklərinin və heyvanlarının bir çox xəstəlik və zərərvericilərinin yayılmasına səbəb olur (Scotia, 2012:18). Əsasəndə torpağın əhəmiyyətli

mikrobioloji strukturunu pozur. Fermer öz təsərrüfatındakı kənd təsərrüfatı tullantılarından kompost hazırlamaqla torpağının bazis əməyyətini yüksəltmiş olur. Aqrokimyəvi gübrələrdən 2-3 il maksimum az istifadə edir. Bu da fermerin maliyyə xərcini azaltmış olur. Kənd təsərrüfatı tullantılarının kompleks emalı sayəsində alınmış substrat torpağın məsuldarlığını artırır və torpaqda zərərli duzların artımını azaldır (Məmmədov, Xəlilov, 2003:51).

Alınmış substrat torpağın mikro mühitində və torpaqda olan əhəmiyyətli canlıların artımına yüksək təsir edir. Aqrogübrə sayəsində payız aylarında əkilmiş bitkilər qış aylarının soyuq hava dəyişmələrinə daha davamlı olur. Kənd təsərrüfatı tullantılarından alınmış substrat ilə zənginləşdirilmiş torpağın əkinləri daha dözümlü olur. Bitki daha tez inkişaf etmiş olur. Becərilən məhsulun yeraltı və yerüstü orqanları daha sağlam inkişaf etmiş olur (Babayev, Həsənov, Cəfərova, Hüseynova, 2011:118).

Beləliklə, deyilənlərdən bir daha aydın olur ki, əgər yaxın gələcəkdə kənd təsərrüfatında istifadə olunan torpaqların münbitlik xassələrinin, eləcə də meliorativ durumunun əsaslı şəkildə yaxşılaşdırılması sayəsində konkret tədbirlər görülməsə, hazırda keyfiyyət qruplarının yuxarı pilləsində yer tutmuş torpaq sahələrinin aşağı pillələrə doğru transferliyi daha da güclənəcəyi şübhə doğurmur.

## Nəticə

1. Kənd təsərrüfatı əkin tullantlarının kompost emalı torpağın meliorativ bioloji aktivliyini bərpa edir.
2. Fermerlər kənd təsərrüfatı tullantılarının emalı ilə öz əkin sahələrinin məhsuldarlığını bərpa etmiş olurlar.
3. Becərilən bitki növündən asılı olaraq ən məhsuldar kompost norması hər hektara 10-20 tona qədərdir. Kənd təsərrüfatı tullantıları ilə emal edilmiş biomeliorant torpağın məhsuldarlığını artırır və kimyəvi gübrə sərfiyyatını azaldır.

## Ədəbiyyat


1. Məmmədov, Q.Ş. (2007). Azərbaycan torpaq ehtiyatlarından səmərəli istifadənin sosial-iqtisadi və ekoloji əsasları. Bakı: Elm, 854 s.
2. Babayev, A.H. (2012). Torpaq keyfiyyətinin monitorinqi və ekoloji nəzarət. Bakı: Qanun, 263 s.
3. Misra, R.V. (2003). FAO Consultant. On-farm composting methods. Food and Agriculture Organization of the united nations. Rome, p.26.
4. Maria, P.R., Martinez, M., Manual, A.P. (2013). De compostaje del agricultor Experiencias en America Latina Oficina Regional para America Latina y el Caribe Santiago de Chile, 110 p., p.6.
5. Hacıməmmədov, İ.M., Təlayi, C.M., Kosayev, E.M. (2016). Torpaq, bitki və gübrələrin aqrokimyəvi analiz üsulları. Bakı: "Müəllif" nəşriyyatı, 132 s.
6. Mustafayev, S.Ə., Qəhrəmanlı, Y.N. (2014). Neftin ilkin emalı texnologiyası. Bakı, 452 s.
7. Zamanov, P.B. (2013). Qida elementlərinin və gübrələrin torpaq xassələrinə və bitkilərin məhsuldarlığına təsirinin əsasları. Bakı, 266 s.
8. Qəribov, Z.Ə. (2018). Bitkilərin əkini və qulluq tədbirləri. Bakı: "Elm", 156 s.
9. Hacıməmədov, İ.M., Salmanova, N.İ., Qəribova, S.A. (2019). Biohumus və kompostların torpaq münbitliyinin bərpasına təsiri və hazırlanması üçün bitki qalıqlarının və materialların seçilməsi. Azerbaijan Journal of Chemical News. Bakı, s.92-96.
10. Hüseynov, A.M., Hüseynov, N.V., Məmmədova, K.Y. (2018). Aqrokimya. Bakı, 440 s.
11. Mehmet, A.Y. (2010). Organic fertilizers and their importance. Samsun Governorship Provincial Directorate of Agriculture Samsun, p.20.
12. Scotia, N. (2012). On-Farm Manure Management Through Composting. Centre for Continuing and Distance Education at the Nova Scotia Agricultural College, p.22.
13. Məmmədov, Q.Ş., Xəlilov, M.Y. (2003). Ekoloqların məlumat kitabı. Bakı: Elm, 516 s.

14. Babayev, M.P., Həsənov, V.H., Cəfərova, Ç.M., Hüseynova, C.M. (2011). Azərbaycan torpaqlarının morfogenetik diaqnostikası, nomenklaturası və təsnifatı. Bakı: Elm, 448 s.

Göndərildi: 16.08.2022 Qəbul edildi: 22.10.2022

DOI: https://doi.org/10.36719/2663-4619/84/110-116

**Əzizə Elxan qızı Hüseynova**
Naxçıvan Dövlət Universiteti
biologiya üzrə fəlsəfə doktoru
daffadil73@mail.ru
**Hüseyn Ceyhun oğlu Kazımzadə**
Naxçıvan Dövlət Universiteti
magistrant
kazimzadehuseyn99@gmail.com

# *HYPERICUM SCABRUM* L. (KƏLƏ-KÖTÜR DAZI) BİTKİSİNDƏ FLAVONOİDLƏRİN SPEKTROFOTOMETRİK ÜSULLA MİQDARI TƏYİNİ

**Xülasə**

Bitkilər aləmində yayılan bioloji fəal maddələr arasında fenol birləşmələrinin, xüsusən, flavonoidlərin öyrənilməsi hər zaman əczaçı və fitokimyaçı alimlərin diqqət mərkəzində olmuşdur. Bu tendensiyanın başlıca səbəbi flavonoidlərin bitkilər aləmində geniş yayılması, onların bitkilərdən alınması və identifikasiyasının digər qrup birləşmələrə nəzərən sadə olması, onların yüksək bioloji fəallıq göstərməsi və az toksik olması, geniş spektrli farmakoloji və terapevtik təsirlərə malik olmaları ilə əlaqədardır.

Naxçıvan Muxtar Respublikası ərazisində yayılmış *Hypericum scabrum* L. bitkisinin otunda flavonoidlərin varlığının sübutu üçün keyfiyyət reaksiyaları aparılmış və flavonoid məcmusunun spektrofotometrik üsulla miqdarı təyinatı həyata keçirilmişdir. Aparılmış ölçmələr və hesablamalar nəticəsində bitkinin xammalında flavonoidlərin miqdarının 5,24% olduğu təyin edilmişdir.

***Açar sözlər:*** *Hypericum scabrum L., flavonoidlər, keyfiyyət reaksiyaları, spektrofotometriya, miqdarı təyinat*

**Aziza Elkhan Huseynova**
**Huseyn Jeyhun Kazimzade**

## Spectrophotometric method of flavonoids in *Hypericum scabrum* L. quantity determination

**Abstract**

The study of phenolic compounds, especially flavonoids, among the biologically active substances distributed in the plant world, has always been the focus of pharmacists and phytochemical scientists. The main reason for this trend is the widespread distribution of flavonoids in the plant world, their extraction and identification from plants is simple compared to other groups of compounds, they show high biological activity and are less toxic, they have a wide range of pharmacological and therapeutic effects.

In order to prove the presence of flavonoids in the grass ofthe *Hypericum scabrum* L. plant which is widespread in the territory of Nakhchivan Autonomous Republic, quality reactions were carried out and the amount of flavonoids was determined by spectrophotometric method. As a result of measurements and calculations, the amount of flavonoids in the plant raw material of the plant was determined to be 5.24%.

***Keywords:*** *Hypericum scabrum L., flavonoids, qualitative reactions, spectrophotometry, quantity determination*

## Giriş

Müasir dövrdə kimyanın intensiv inkişafı və yeni dərman preparatlarının sintezi sahəsində əldə edilən nailiyyətlərə baxmayaraq, təbii farmakoloji fəal maddələrin, o cümlədən dərman bitkilərinin öyrənilməsi öz aktualəhəmiyyətini saxlamaqdadır. Bitkilər qiymətliüzvi birləşmələrin alınması üçün

başlıca mənbələrdir. Alkaloidlər, qlikozidlər, aşı maddələri, efir yağları, flavonoidlər, kumarinlər, saponinlər və s. üzvi birləşmələrin bitkilərdən alınması və onların bioloji fəallıqlarının öyrənilməsi istiqamətində dünya miqyasında, o cümlədən ölkəmizdə intensiv elmi tədqiqat işləri aparılır. Bu tədqiqatların bir hissəsi kimi Azərbaycan florasında yayılan yabanı bitkilərin kimyəvi tərkiblərinin və onların tibbdə istifadə imkanlarının öyrənilməsi əczaçılıq elmi üçün prioritet məsələlərdəndir.

Ölkəmizin florasında yabanı şəkildə yayılan, tibbi və əczaçılıq baxımından az tədqiq olunmuş bitkilər arasında dazı cinsinə (*Hypericum* L.) aid bitki növlərinin öyrənilməsi aktual və perspektivlidir. Biz də öz tədqiqat işimizi vətənimizin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ərazisində yayılan kələ-kötür dazı – *Hypericum scabrum* L. bitkisinin öyrənilməsinə həsr etmişik.

Dazı – *Hypericum* L. cinsi dazıkimilər (*Hypericaceae* Juss.) fəsiləsinin növ sayına görə ən böyük cinsi olub, dünya florasında 36 seksiyaya bölünmüş 484 növlə təmsil olunur (Pirbalouti, Vanani, Craker, Shirmadi, 2014:175). Azərbaycan florasında cinsin 21 növü yayılmışdır (Əsgərov, 2016:173; 3). Ölkəmizdə yayılan növlərin 12-nə Naxçıvan Muxtar Respublikası ərazisində təsadüf edilir (Talıbov, İbrahimov, İbrahimov, 2021:135). Muxtar Respublika ərazisində yayılan növlər aşağıdakı cədvəldə verilmişdir (Cədvəl 1).

**Cədvəl 1.**

**Naxçıvan MR ərazisində yayılan dazı – *Hypericum* L. cinsi növləri.**

| Növün latınca adı | Növün azərbaycanca adı |
|---|---|
| *Hypericum* seksiyası | |
| *Hypericum perforatum* L. | Zəif dazı |
| *Hypericum nachitschevanicum* Grossh. | Naxçıvan dazısı |
| *Oligostema* (Boiss.) Stef. seksiyası | |
| *Hypericum formosissimum* Takht. | Gözəl dazı |
| *Hirtella* Stef. seksiyası | |
| *Hypericum scabrum* L. | Kələ-kötür dazı |
| *Hypericum atropatanum* Rzazade | Atropatan dazısı |
| *H.pseudolaeve* N.Robson | Yalançıhamar dazı |
| *Hypericum lydium* Boiss. | Lidiya dazısı |
| *Hypericum davisii* N.Robson | Devis dazısı |
| *Hypericum elongatum* Ledeb. | Uzunsov dazı |
| *Taeniocarpium* Jaub. Et Spach. seksiyası | |
| *Hypericum hirsutum* L. | Sərttüklü dazı |
| *Hypericum venustum* Fenzl. | Qəşəng dazı |
| *Hypericum linarioides* Bosse. | Zolaqlı dazı |

Dazı cinsinə aid olan növlər xarici görünüşünə görə ilk baxışda bir-birinə bənzəsə də, onların hər biri fərqli botaniki xüsusiyyətlərə sahibdir. Hər bir tədqiqatçı bu bitkiləri bir-birindən ayırd etməyi bacarmalıdır. Eyni cinsə aid olan növləri bir-birindən fərqləndirmək üçün onların botaniki xarakteristikasını bilmək və ya bitkini mövcud olan herbari nümunələri ilə müqayisə edə bilməyi bacarmaq lazımdır. Aşağıdakı cədvəldə (Cədvəl 2.) Naxçıvan Muxtar Respublikası ərazisində yayılan dazıcinsi növlərinin bəzi botanik xüsusiyyətləri verilmişdir (Talıbov, Babayeva, 2019:86-89).

**Cədvəl 2.**
**Naxçıvan MR ərazisində yayılan bəzi dazı növlərinin botanik xüsusiyyətləri.**

| Gövdə | Yarpaqlar | Çiçəklər və çiçəkqrupu |
|---|---|---|
| *H.perforatum* L. – Zəif dazı | | |
| 30-80 sm hündürlüyündə, çılpaq, 2 qabırğalıdır. | Oval, uzunsov-yumurta-şəkilli və ya ellipsşəkillidir, çoxsaylı vəziciklidir. | Süpürgə çiçəkqrupunda toplanmışdır. Ləçəklər qızılı-sarıdır, qara vəziciklidir. |
| *H.formosissimum* Takht. – Gözəl dazı | | |
| 3-10 sm hündürlüyündə, çılpaq, bozumtul rəngli, çoxsaylıdır. | Yumurtaşəkilli, kənarları nöqtəli vəziciklidir . | Çətir çiçəkqrupunda toplanmışdır, uzunsov ləçəkləri vardır. |
| *H.atropatanum* Rzazade – Atropatan dazısı | | |
| 10-20 sm hündürlüyündə, çoxsaylı, budaqlanan və nazikdir. | Qarşı-qarşıya yerləşən nöqtəli vəziciklidir. | Salxımşəkilli çiçəkqrupunda toplanmışdır. |
| *H.scabrum* L. – Kələ-kötür dazı | | |
| 20-40 sm hündürlüyündə, dikqalxan vəziciklidir. | Uzunsov xətvari, kənarları qara nöqtəlidir. | Süpürgə çiçəkqrupunda toplanmışdır, gövdənin uc hissəsi və yan budaqlarda yerləşir. |
| *H.lydium* Boiss. – Lidiya dazısı | | |
| 70 sm-ə qədər hündürlükdə, solğun-yaşıl rəngli, çılpaq, budaqlanan və çoxsaylıdır. | Seyrək nöqtəli vəziciklidir. | Süpürgə çiçəkqrupunda toplanmışdır, tərs-uzunsov ləçəkləri vardır. |
| *H.elongatum* Ledeb. – Uzunsov dazı | | |
| 60 sm hündürlükdə, çılpaq, silindrşəkillidir. | Uzunsov, oturaqdır. | Çoxçiçəkli süpürgə çiçəkqrupu, ləçəkləri parlaq sarı rənglidir. |
| *H.linarioides* Bosse. – Zolaqlı dazı | | |
| 4-30 sm hündürlüyündə, bir kökdən inkişaf edən nazik, çoxsaylıdır. | Yarpaqlar ellipsvari, oval və ya uzunsovdur, üst tərəfi yaşıl, alt tərəfi bozumtul rənglidir. | Çiçəklər 3-7 ədəd olmaqla yarpaq qoltuğunda, yarım- |

| | | |
|---|---|---|
| | | çətirdə toplanmışdır, açıq-sarı rəngli ləçəkləri vardır. |
| *H.hirsutum* L. – Sərttüklü dazı | | |
| 35-100 sm hündürlüyündə, dikqalxan, silindrşəkilli, tükcüklüdür. | Qısasaplaqlı, ellipsvaridir, nöqtəli vəziciklidir. | Süpürgə çiçəkqrupunda toplanmışdır, uzunsovdur. |
| *H.venustum* L. – Qəşəng dazı | | |
| 35-70 sm hündürlüyündə, çoxsaylıdır. | Yumurtaşəkilli, vəziciklidir. | Süpürgə çiçəkqrupunda toplanmışdır, uzunsov açıq-sarı rəngli ləçəkləri vardır. |
| *H.pseudolaeve* N.Robson – Yalançıhamar dazı | | |
| 15-60 sm hündürlüyündə, dikqalxan, budaqlanan, kiçik qırmızımtıl nöqtəli vəziciklər nəzər çarpır. | Oturaq, tüksüz və ovaldır. | Süpürgə çiçəkqrupunda toplanmışdır. |
| *H.davisii* N.Robson – Devis dazısı | | |
| 15-65 sm hündürlüyündə, çılpaq, dikqalxan, silindr-şəkillidir. | Oturaq, uzunsovdur, qoltuq budaqlarında xətvaridir. | Süpürgə çiçəkqrupunda toplanmışdır, çoxçiçəklidir. |

**Kələ-kötür dazı – Hypericum scabrum L.** Hündürlüyü 20-40 sm, dikqalxan və vəzicikli gövdəsi olan çoxillik ot bitkisidir. 5-25 mm uzunluğunda, 3-12 mm enində, kənarları qara nöqtəli uzunsov xətvari yarpaqları vardır. Süpürgə çiçəkqrupunda toplanmış çiçəkləri gövdənin uc hissəsində və yan budaqlarda yerləşir. Ləçəklər qızılı-sarı rəngli olub, 5-7 mm uzunluğundadır. Meyvəsi qutucuqdur, toxumları silindrşəkilli, tünd qəhvəyi rənglidir. May ayından başlayaraq çiçəkləyir və sentyabrda meyvələri yetişir (Ələkbərov, Əhmədova, 2021:87).

Dəniz səviyyəsindən 750-3200 m yüksəklikdə, açıq meşəliklərdə, qumlu və qayalı yamaclarda bitir (Aytaj, Ojak, İgji, 2020:596).

Naxçıvan Muxtar Respublikasında Şərur (Ardıcdağ ətəklərində), Şahbuz (Küküdağ ətəkləri və Batabat yaylağı) və Ordubad (Kotam vadisi) rayonlarının ərazisində yayılmışdır (Talıbov, İbrahimov, 2014:135).

Dərman, boyaq, ədviyyat, efir yağlı, balverən bitki kimi tibbi və təsərrüfat əhəmiyyətli bitkilər qrupuna aiddir. Azərbaycanın və bir sıra ölkələrin (Türkiyə, İran, Tacikistan, Qazaxıstan, Özbəkistan və s.) xalq təbabətində müxtəlif xəstəliklərin – qaraciyər xəstəlikləri, sarılıq, mədə və onikibarmaq bağırsağın xorası, sidik kisəsi xəstəlikləri (sistit), qadın cinsiyyət orqanlarının iltihabi prosesləri və s. müalicəsində geniş istifadə edilir (Zaichikova, Ars, Bokov, Kovaleva, 2021:35).

Məlumdur ki, bitkilərin müxtəlif xəstəliklər zamanı göstərdiyi müalicəvi təsirləri, onların tərkibində bioloji fəal maddələrin olması ilə birbaşa bağlıdır. Yuxarıda qeyd edilən xəstəliklərin müalicəsi üçün bitkinin tərkibində müxtəlif farmakoloji təsirlərə malik bioloji fəal maddələrin olması vacibdir. Belə bioloji fəal maddələr qrupu içərisində flavonoidlər özünəməxsus yerə sahibdir.

*Flavonoidlər* bitkilər aləmində geniş yayılmış polifenol birləşmələrin ən geniş siniflərindəndir. Bu birləşmələr geniş farmakoloji təsir spektrlərinə və az toksik olmalarına görə fitokimyəvi və farmakoloji tədqiqatların əsas obyektinə çevrilmişdir. Bu günə qədər aparılan çoxsaylı tədqiqatlar

nəticəsində flavonoidlərin bir neçə farmakoloji təsirləri aşkarlanmışdır. Bu təsirlərə kapillyar möhkəmləndirici (P vitamini fəallığı), kardiotrop, spazmolitik, diuretik (sidikqovucu), ödqovucu və hepatoprotektiv, qankəsici, antioksidant, iltihab əleyhinə, yara əleyhinə, xərçəng əleyhinə, virus əleyhinə və s. aiddir (Rana, Gulliya, 2019:12-15).

Ədəbiyyat mənbələrinin təhlili zamanı *Hypericum scabrum* L. bitkisinin tərkibində aşkarlanmış bir neçə bioloji fəal maddə qrupları içərisində fenol birləşmələrinin, xüsusən, flavonoidlərin üstünlük təşkil etdiyinə dair məlumatlar topladıq. Əldə etdiyimiz məlumatlardan sonra bitkinin tərkibində flavonoidlərin tədqiq olunmasını qərara aldıq.

Hər bir bitkinin tərkibində olan bioloji fəal maddələrin kəmiyyət və keyfiyyəti onun yayıldığı ərazinin coğrafi və ekoloji şəraitindən birbaşa asılıdır. Bunun üçün biz Naxçıvan Muxtar Respublikası ərazisində yayılan kələ-kötür dazı bitkisində flavonoidlərin varlığının və miqdarının təyinini zəruri hesab edirik.

## Material və metodika

Tədqiqat məqsədilə kələ-kötür dazı bitkisi 2022-ci ilin iyun ayında, Şahbuz rayonunun Batabat yaylağı ərazisindən toplanmışdır.

### *Hypericum scabrum* L. bitkisinin otunda flavonoidlərin keyfiyyət reaksiyaları ilə təyini

Analizin aparılması üçün əvvəlcə metodikaya uyğun olaraq bitkidən ekstraksiya yolu ilə flavonoid məcmuyu əldə edilir, daha sonra flavonoidlər üçün spesifik olan reaksiyalar aparılır. Müqayisə məqsədilə rutinin 0,1%-li etanollu məhlulundan istifadə edilir (İsayev, Babayeva, Cəfəri, Hacıyeva, 2022:108).

*Sianidin reaksiyası.* 1 ml çıxarışın üzərinə 2-3 damcı qatı hidrogen-xlorid məhlulu və az miqdarda maqnezium qırıntıları əlavə edilir, nəticədə, qırmızı rənlənmə müşahidə edilir.

*Alüminum-xloridlə reaksiya.* 1 ml çıxarışın üzərinə 1 ml alüminium-xloridin 2%-li etanollu məhlulu əlavə edilir, bu zaman sarı rəng əmələ gəlir.

*Dəmir-3-xloridlə reaksiya.* 1 ml çıxarışa 2 damcı dəmir-3-xloridin 1%-li məhlulunu əlavə etdikdə, qırmızımtıl rəng müşahidə edilir.

*Qələvi ilə reaksiya.* 1 ml çıxarışa 1-2 damcı kalium-hidroksid və ya natirum-hidroksidin 10%-li spirtli məhlulunu əlavə etdikdə, məhlulun təbii rənginin daha da güclənməsi müşahidə edilir.

### *Hypericum scabrum* L. bitkisinin otunda flavonoidlərin miqdarının spektrofotometrik üsulla təyini

Bitkilərdə yayılan bioloji fəal maddələrin miqdarı təyinatında müasir instrumental analiz üsulları içərisində spektrofotometriya əsas yer tutur. Bu üsul universal olması, həssaslığı, əldə olunan nəticələrin dəqiqliyi (kiçik qatılığa malik olan nümunələrin analizinin dəqiqliyinin daha yüksək olması) ilə xarakterizə olunur və fitokimyəvi analizdə geniş tətbiq edilir.

**İşin gedişi.** Tədqiq olunan bitkinin xammalı (bizim tədqiqatımız üçün bitkinin yarpaq və çiçəklərlə birlikdə yerüstü hissəsi – otu) o qədər xırdalanır ki, məsamələrinin ölçüsü 1 mm olan ələkdən ələnsin. Xırdalanmış xammaldan 1 qr (dəqiq çəki) götürülür, 100 ml ölçüdə cilalanmış kolbanın içərisinə tökülür və üzərinə 30 ml 50%-li etil spirti əlavə olunur. Daha sonra kolba əks soyuducuya birləşdirilir və 30 dəq. müddətində qaynar su hamamı üzərində qızdırılır. Kolbanın divarlarına yapışmış xammalın hissəciklərini islatmaq üçün arabir çalxalanır. İsti çıxarış pambıq vasitəsilə həcmi 100 ml olan ölçülü kolbaya süzülür. Süzmə prosesi elə aparılmalıdır ki, xammalın hissəcikləri pambığın üzərinə tökülməsin. Süzmək üçün istifadə edilən pambıq ekstraksiya gedən kolbaya yerləşdirilir, üzərinə 30 ml 50%-li etil spirti əlavə edilir. Ekstraksiya yuxarıda qeyd edilən qaydada daha 2 dəfə aparılır və alınmış çıxarışlar ölçülü kolbaya süzülür. Soyuduqdan sonra çıxarışın həcmi 50%-li etil spirti ilə ölçüyə çatdırılır və qarışdırılır (məhlul A).

Həcmi 25 ml olan ölçülü kolbaya A məhlulundan 1 ml tökülür, üzərinə 2 ml alüminium-xloridin 95%-li etil spirtindəki 2%-li məhlulu əlavə edilir və kolbanın həcmi 95%-li etil spirti ilə ölçüyə çatdırılır. 40 dəqiqədən sonra məhlulun optik sıxlığı spektrofotometrdə (*Boeco Germany S-220 Spectrophotometer*) 415 mm dalğa uzunluğunda, qatının qalınlığı 10 mm olan küvetdə ölçülür.

Müqayisə məhlulu kimi 25 ml-lik ölçülü kolbaya tökülmüş 1 ml çıxarışdan, 1 damcı duru sirkə turşusundan və həcmi 95%-li etil spirti ilə ölçüyə çatdırılmış qarışıqdan istifadə edilir.

Paralel olaraq yuxarıda göstərilən qaydada hazırlanmış rutinin standart nümunə məhlulunun optik sıxlığı da eyni şəraitdə ölçülür.

Bitki xammalında flavonoidlərin rutinə nisbətən faizlə miqdarı aşağıdakı düsturla hesablanır:

$$x = \frac{D \cdot m_0 \cdot 100 \cdot 100 \cdot 100}{D_0 \cdot m \cdot 100 \cdot (100 - W)} \quad (1)$$

Burada, D – tədqiq olunan məhlulun optik sıxlığı;
$D_0$ – rutinin standart nümunə məhlulunun optik sıxlığı;
m – xammalın çəkisi, qramla;
$m_0$ – rutinin standart nümunəsinin çəkisi, qramla;
W – məhlulu qurutduqda çəkidə itki, faizlə (Kələ-kötür dazı bitkisi üçün bu göstərici 9,3% olmuşdur).

Spektrofotometrik üsulla miqdari təyinat zamanı ölçmələr 6 dəfədən az olmamaqla həyata keçirilməlidir. Daha sonra əldə olunan orta qiymətlə hesablama aparılır (Süleymanov, Kərimov, İsayev, 2017:400-401; 8:6081-6082).

## Nəticələr və onların müzakirəsi

Aparılmış ölçmələrin nəticələri aşağıdakı cədvəldə verilmişdir (Cədvəl 3.):

**Cədvəl 3.**
***H.scabrum* L. ekstraktı və rutinin standart nümunə məhlulu üçün spektrofotometrik ölçmələrin nəticələri.**

| Ölçmələrin sayı, N | H.scabrum L. ekstraktı | | Rutinin standart nümunə məhlulu | |
|---|---|---|---|---|
| | Optik sıxlıq, D | Qatılıq, C | Optik sıxlıq, D | Qatılıq, C |
| 1 | 0,336 | 0,916 | 0,349 | 0,949 |
| 2 | 0,325 | 0,886 | 0,360 | 0,980 |
| 3 | 0,326 | 0,887 | 0,349 | 0,951 |
| 4 | 0,323 | 0,878 | 0,340 | 0,925 |
| 5 | 0,333 | 0,908 | 0,343 | 0,935 |
| 6 | 0,338 | 0,919 | 0,343 | 0,934 |

Tədqiqat zamanı aldığımız göstəriciləri (Cədvəl 4.) 1 nömrəli düsturda yerinə qoymaqla *H.scabrum* L. bitkisinin xammalında flavonoidlərin rutinə nisbətən faizlə miqdarını hesablaya bilərik.

**Cədvəl 4.**
**Hesablama üçün lazım olan göstəricilər və onların nəticələri.**

| Göstərici | D | $D_0$ | m, qramla | $m_0$, qramla | W, faizlə |
|---|---|---|---|---|---|
| Nəticə | 0,330 | 0,347 | 1,0 | 0,05 | 9,3 |

4 nömrəli cədvəldə verilmiş qiymətləri düsturda yerinə qoysaq aşağıdakı nəticəni alarıq:

$$x = \frac{0,330 \cdot 0,05 \cdot 100 \cdot 100 \cdot 100}{0,347 \cdot 1 \cdot 100 \cdot (100 - 9,3)} = 5,24\ \%$$

## Nəticə

Yerinə yetirilmiş tədqiqat zamanı *H.scabrum* L. bitkisinin otunun tərkibində flavonoid məcmuyunun miqdarının 5,24% olduğu müəyyən edilmişdir. Bizim fikrimizcə bu nəticə qənaətbəxşdir və bitkinin xammalı gələcəkdə flavonoidlərin alınması üçün perspektivlidir.

## Ədəbiyyat

1. Pirbalouti, A.G., Vanani, M.F., Craker, L., Shirmadi, H. (2014). Chemical composition and bioactivity of essential oils of *Hypericum helianthemoides, H.perforatum* and *Hypericum scabrum.* Pharmaceutical Biology. Vol. 52(2), p.175-181.
2. Əsgərov, A.M. (2016). Azərbaycanın bitki aləmi (Ali bitkilər – Embryophyta). Bakı: TEAS Press Nəşriyyat evi, 444 s.
3. https://biodiversity.az/az/biodiversity/2047
4. Talıbov, T.H., İbrahimov, Ə.Ş., İbrahimov, Ə.M. (2021). Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər). II nəşr. Bakı: Şirvannəşr, 426 s.
5. Talıbov, T., Babayeva, S. (2019). Naxçıvan Muxtar Respublikasının dazıkimilər – *Hypericaceae* fəsiləsinin bəzi növlərinin bioloji xüsusiyyətləri. AMEA Naxçıvan Bölməsinin Elmi əsərləri, № 2, s.86-91.
6. Ələkbərov, R., Əhmədova, V. (2021). Naxçıvan Muxtar Respublikası florasında yayılan dazıkimilər (*Hypericum* L.) cinsinə daxil olan növlərin dərman bitkisi kimi istifadə xüsusiyyətləri. AMEA Naxçıvan Bölməsinin Elmi əsərləri. № 2, s.83-90.
7. Aytaj, Z., Ojak, A., Igji, B.K., (2020). Turkey plants nature guide. Ankara: Nobel academic publishing, 752 p.
8. Talıbov, T.H., İbrahimov, Ə.Ş., İbrahimov, Ə.M., Ələkbərov, R.Ə., İsmayılov, A.H., Quliyev, V.B., Qurbanov, Ə.K. (2014). Naxçıvan Muxtar Respublikasının rəsmi dərman bitkiləri. Naxçıvan: Əcəmi NPB, 466 s.
9. Zaichikova, S.G., Ars, Yu.V., Bokov, D.O., Shchepochkina, O.Yu., Antsyshkina, A.M., Kovaleva, T.Yu. (2021). Taxonomy, ontogenesis, biochemical composition and biological activity of *Hypericum scabrum* L. (*Hypericaceae* Juss.): An overview. İnternational journal of Pharmaceutical Quality Assurance. Vol. 12(2), p.30-44.
10. Rana, A.C., Gulliya, B. (2019). Chemistry and pharmacology of Flavonoids – A review. Indian journal of Pharmaceutical Education and Research. Vol.53 (1), p.8-20.
11. İsayev, C.İ., Babayeva, N.T., Cəfəri, T.İ., Hacıyeva, E.M. (2022). Azərbaycan florasından olan *Consolida divaricata* Lebed. (kotul üsgüyotu) bitkisinin otunun tərkibində flavonoidlərin tədqiqi. Azərbaycan təbabətinin müasir nailiyyətləri. № 2, s.107-111.
12. Süleymanov, T.A., Kərimov, Y.B., İsayev, C.İ. (2017). Farmakoqnoziya praktikumu. Dərslik. Bakı, 675 s.

Göndərildi: 13.09.2022 Qəbul edildi: 14.10.2022

DOI: https://doi.org/10.36719/2663-4619/84/117-122

**Mürsəl Müseyib oğlu Seyidov**
Naxçıvan Dövlət Universiteti
biologiya üzrə fəlsəfə doktoru
mursl.seyidov@mail.ru
**Nəzrin Nemət qızı Cəfərova**
Naxçıvan Dövlət Universiteti
magistrant
nesrin.nemet@gmail.com

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA YAYILMIŞ NEPETA CATARIA L. BİTKİSİNİN FLAVONOİDLƏRİNİN KEYFİYYƏT VƏ SPEKTROFOTOMETRİK ANALİZİ

**Xülasə**

Bitki mənşəli birləşmələrin geniş təsir spektrinə malik olduğu əsrlər boyu məlumdur. Flavonoidlər üzrə tədqiqat və təkminləşdirmə fəaliyyətinin cari tendensiyaları flavonoidlərin təcrid olunması, identifikasiyası, xarakteristikası, funksiyaları və nəhayət onların sağlamlıq faydaları üzrə tətbiqləri ilə bağlıdı. Flavonoidlər müxtəlif qida, əczaçılıq, tibbi və kosmetik sənayesində əvəzsiz komponent kimi qəbul edilir. Naxçıvan Muxtar Respublikasında aparılan çoxillik tədqiqatlar və ədəbiyyatlara əsaslanaraq Nepeta cataria L. növünün tərkibi araşdırılmış və flavonoidlərlə zəngin olduğu məlum olmuşdur. Bu tədqiqatımızda Nepeta cataria L. bitkisinin tərkibində olan flavonoidlərin varlığını sübut edən keyfiyyət analizləri aparılmış və flavonoid məcmusunun spektrofotometrik üsulla miqdarı təyinatı yerinə yetirilmişdir. Tədqiqatın nəticəsində Nepeta cataria bitkisinin spektrofotometrik üsulla təyin edilmiş flavonoidlərinin ümumi miqdarı 5,44%-dir.

***Açar sözlər:*** *Nepeta cataria L., keyfiyyət analizləri, flavonoidlər, spektrofotometriya, spektrofotometrik analiz*

**Mursal Museyib Seyidov**
**Nazrin Nemat Jafarova**

## Qualitative and apectrophotometric analysis of flavonoids of Nepeta cataria L. plant distributed in Nakhchivan Autonomous Republic

**Abstract**

It has been known for centuries that herbal derivatives have a wide range of effects. Current trends in research and development activities on flavonoids have been related to the isolation, identification, characterization, functions of flavonoids and finally their applications for health benefits. Flavonoids are considered as an indispensable component in various food, pharmaceutical, medical and cosmetic industries. Based on many years of research and literature in Nakhchivan Autonomous Republic, it was known that Nepeta cataria L. is abundant to flavonoids. In this study, qualitative analyzes were conducted to prove the presence of flavonoids in the Nepeta cataria L. plant, and the amount of flavonoids was determined by spectrophotometric method. As a result of the research, it was determined that the total amount of flavonoids in the raw material of Nepeta cataria plant is 5,44%.

***Keywords:*** *Nepeta cataria L., qualitative analyses, flavonoids, spectrophotometry, spectrophotometric analysis*

## Giriş

Dalamazkimilər (Lamiaceae) və ya dodaqçiçəklilər (Labiateae) ən böyük fəsilələrdən olub, 200-dən çox cinsi, 3200-3500 növü özündə birləşdirən geniş bir fəsilədir. Lamiaceae fəsiləsinə aid olan bitkilərin Azərbaycan Respublikasında 38 cinsə daxil 208 növü, Naxçıvan Muxtar Respublikasında isə 30 cinsə daxil olan 129 növünə rast gəlinir. Nepeta L. pişiknanəsi Dodaqçiçəklilər (Lamiaceae) fəsiləsinin ən polimorf nümayəndəsidir. Dünyada 250 növü yayılmışdır, MDB ölkələrində isə 80 növü vardır. "Azərbaycan florası" çoxcildli əsərində bu cinsə aid 26 növün olduğu göstərilmişdir. Naxçıvan Muxtar Respublikasında isə 15 növün yayıldığı məlum olmuşdur (Talıbov, İbrahimov, 2021:377). Ən son ədəbiyyat məlumatlarında ölkəmizin florası üçün cinsin 27 növü qeyd edilmişdir (Əsgərov, 2016:349).

Naxçıvan Muxtar Respublikasında yayılmış bəzi Nepeta L. növlərinin botaniki təsvilərinə nəzər salaq:

*Nepeta meyeri* – Meyer pişiknanəsi. Birillik ot bitkisidir. Sıx ağ tükcüklərlə örtülmüş gövdəsi düz şaxələnmişdir. Yarpaqlarının forması uzunsov, yumurtavari, ellipis formalı, üzəri tükcüklü və yapışqanlıdır. Çiçəkləri isə göy rəngdədir.

*Nepeta strictifolia Pojark.* – Dikgövdə pişiknanəsi. 40-60 sm hündürlüyündə, üzəri qısa tükcüklərlə örtülmüş, dik və ya şaxələnən gövdəsi olan çoxillik bitkidir. Lansetvari və ya yumurtavari yarpaqları iti dişlidir, səthi sıx tükcüklərlə örtülüdür. Çiçəkləri tünd bənövşəyi rəngdədir.

*Nepeta velutina Pojark.* – Məxməri pişiknanəsi. Hündürlüyü 50-80 sm olan, mil kökə sahib çoxillik ot bitkisidir. Yarpaqları gövdənin aşağı hissərində yerləşir, açıq yaşıl rəngdə yumurtavaridir. Çiçəkləri süpürgə çiçək qrupunda toplanıb, bənövşəyi rəngdədir.

*Nepeta zangezura Grossh.* – Zəngəzur pişiknanəsi. Çoxillik bitkidir. Gövdəsi 40-80 sm hündürlüyündə, düz qalxan, qısa tükcüklü və ya çılpaqdır. Yarpaqları enli yumurtavarı, ellips, əsası ürəkvaridir. Çiçəkləri göyrəngdə olub, iyun ayında çiçəkləyir.

*Nepeta cyanea Stev.* – Göyçiçək pişiknanəsi. Gövdəsinin hündürlüyü 30-50 sm, üzəri tükcüklü, yaşılımtıl rəngdə çoxillik bitkidir. Yarpaqları göy-yaşıl rəngdə, qısa saplaqlı, hər iki tərəfi tükcüklərlə örtülmüşdür. Tacı mavi rəngdə olub, çiçək qrupu sünbülvaridir.

*Nepeta grandiflora Bieb.* – İriçiçək pişiknanəsi. 40-60 sm hündürlükdə olan gövdəsi tutqun yaşıl rəngdə, qısa tükcüklüdür. Yarpaqları yumurtavari formada olub, üst səthi tükcüklüdür. Çiçəkləri bənövşəyi rəngdədir.

*Nepeta sulphurea C.Koch.* – Kükürdü sarı pişiknanə. Gövdəsi 50 sm hündürlükdə, 4 tilli qabırğalıdır. Yarpaqları uzunsov olub, alt səthi küt, üst səthi iri tükcüklərlə örtülmüşdür. Tacı sarımtıl və ya ağ rəngə olub, tükcüklüdür.

*Nepeta trautvetteri Boiss.* – Trautveteri pişiknanəsi. Çoxillik ot bitkisidir, 50-60 sm hündürlükdə, bir və ya bir neçə gövdədən ibarətdir. Yarpaqları ürəkvari-girdə formada olub, alt hissədəki yarpaqlar uzun saplaqlı, qalanları oturaqdır. Bitkinin bütün hissəsi başcıqlı vəziciklərlə örtülmüşdür. Çiçəkləri tünd göyrənglidir.

*Nepeta L.* cinsinin növləri entomofil, yəni həşəratlarla tozlanan bitkilərdir, bu bitkilərdə həşəratları cəlb etmək üçün müxtəlif uyğunlaşmalar olur, ən önəmlisi tacın göy, bənövşəyi, bəzən isə mavi, sarı, yaxud ağ, təsadüfən çəhrayı rəng olması, ləçəklərin üzərində parlaq ləkələrin və "bal yollarının" olması, həm də kəskin limon, nanə, ətirşah iyinin olmasını buna misal göstərə bilərik (Məmmədova, 2013:84).

*Nepeta cataria* – Nepeta (pişik) pişiknanəsi. Naxçıvan Muxtar Respublikasında araşdırılan növlər Culfa, Ordubad, Babək rayonlarının gilli-çınqıllı düzənliklərində, aşağı dağ qurşaqlarının yamaclarında geniş yayılmışdır. N.cataria torpaq növünə çox tələbkar olmasa da, bir qədər qələvi torpağa və quru yerlərə üstünlük verir (Lungoci, Motrescu, Doina, 2022:12-13). Şahbuz rayonunda yayılan növlərin dağ kserofit və çəmən bitkiçilik tipləri vardır. Həmçinin Nepeta cataria növü Şahbuz rayonunun Batabat ərazisində, Kükü, Keçəldağ massivlərində, Ərəcidağ, Soyuqdağ sahələrində daha geniş yayılmışdır. Çoxillik ot bitkisidir. Gövdəsi düzqalxan, sıx budaqlanan, bəzən sadə olmaqla, 70-100 sm hündürlüyündədir. Yaprıxan qısa tükcüklü olub, vertikal budaqlara malikdir. Yarpaqları üstdən yaşıl, sıx tükcüklü, kənarları sarımtıl, keçəvaritükcüklü, bəzən çılpaq, enli, iri çəpərli-dişcikli

və ya dərin dişcikli, zirvəsi itiuclu olmaqla, əsası ürəyəbənzərdir. Alt səthi isə boz-yaşıl sıx tükcüklərlə örtülüdür. Forması yumurtavari, enli yumurtavari, üçkünc yumurtavari, iri iti dişlidir, əsası isə ürəkvaridir. Gövdənin alt yarpaqları uzun saplaqlı, yuxarı qalxdıqca isə qısa saplaqlı və oturaqdır. Nepeta cataria bitkisinin efir yağında müxtəlif birləşmələr müəyyən edilmişdir, əsas kimyəvi tərkib hissəsi isə nepetalaktondur. Həmçinin efir yağının tərkibində geraniol, elemol, nerol, 1,8 sineol, E-kariofillin, sitronellil-asetatla, flavonoidlərlə zəngindir (Məmmədova, 2013:84). Flavonoid birləşmələrin əsas qrupu flavonlardır, o cümlədən 8-hidroksisirsilol, izotimusin, sirsimaritin, apigenin, luteolin, apigenin 7-o-qlükuronid, luteolin 7-o-qlükuronid, xrizin və akasetindir (Malankina, Tkachyova, Kozlovskaya, 2018:32-33). Eyni zamanda kofein efiri olan rozmarin turşusu da Nepeta cataria bitkisinin əsas aktiv komponentlərindən biridir və büzücü, antioksidant, iltihab əleyhinə, antimutagen, antimikrob və antiviral xüsusiyyətlər göstərir (Lee, Lee, Eom, Kim, Park, 2010:1122). Bitkinin müxtəlif hissərinlərindən təcrid olunmuş efir yağının müxtəlif həşərat, zərərvericilərdən, ağcaqanad növlərindən qoruduğu bildirilmişdir (Ibrahim, Gayssar, Sardar, 2022:262). Xalq təbabətində bu bitki spazmolitik, karminativ, stimullaşdırıcı xüsusiyyətlərə malikdir. Əlavə olaraq, yarpaqlarından hazırlanan çay sakitləşdirici kimi bilinir, kolik, ishal, öskürək, astma, bronxit, tənəffüs və mədə-bağırsaq xəstəliklərinin müalicəsində istifadə edilir. Həmçinin diş ağrıları zamanı yarpaqların çeynənilməsi ağrını aradan qaldırılmasında effektlidir (Sarkar, Rashmi, 1995:225).

## Material və metodlar

Tədqiqat üçün Nepeta cataria bitkisinin yerüstü hissələri bitkinin kütləvi çiçəklədiyi (2022-ci il 4 iyun) zaman Şahbuz rayon Batabat (dəniz səviyyəsindən 2226 m yüksəklikdə: N:38°59.644'; E:45°58.699') ərazisində toplanmışdır və kölgədə qurudulmuşdur. Qurudulmuş xammalın bir hissəsi sterilizasiya edilmiş həvəngdə incə toz halına salınmışdır. Nepeta cataria bitkisinin tərkibində olan flavonoidlər və digər ikincili metabolitlərin varlığını sübut edən eynilik reaksiyaları aparılmışdır (Edewor, Usman, 2011:504).

*Flavonoidlər üçün:*

1ml 10%-li NaOH 3 ml ekstrakt üzərinə əlavə edilir. Müşahidə olunan sarı rəng ekstraksiyada flavonoidin olmasını göstərir. Dəmir (III) xloridlə reaksiya. Bu reaksiya zamanı yaşıldan (flavonollar) qəhvəyiyə (flavononlar, xalkonlar, auronlar) və qırmızımtıl – qonura (flavonlar) kimi rənglənmə müşahidə olunur.

Vilson reaksiyası (Bor-limon reaksiyası). 1 ml 2%-li bor turşusunun və 1ml 2%-li limon turşusunun spirtli məhlulları 2 ml ekstrakt üzərinə əlavə edilir. Bu zaman parlaq sarı rəng alınır ki, bu da UB işıqda sarı – yaşıl flüoressensiya verir.

Saponinlər üçün:

Sınaq borusuna əlavə edilən 2 ml ekstrakt güclü şəkildə çalxalanır. Köpüklənmənin müşahidəsi saponinlərin olduğunu göstərir.

Qlikozidlər üçün:

Sınaq borusunda 1 ml ekstrakta 10 ml 50%-li sulfat turşusu əlavə edilir və qarışıq qaynar suda 15 dəqiqə qızdırılır. 10 ml Felinq reaktivi əlavə edilir və qarışıq yenidən qaynadılır. Ekstraktda kərpici – qırmızı çöküntü əmələ gəlməsi qlikozidlərin mövcudluğunu göstərir.

Tanninlər üçün:

1 ml ekstrakta 2 damcı 5%-li $FeCl_3$ əlavə edilir. Bu zaman əmələ gələn yaşıl rəngli çöküntü tanninlərin varlığını göstərir.

Alkaloidlər üçün:

3 ml ekstrakt olan sınaq şüşəsinə 1 ml 1%-li HCl əlavə edilir. Qarışıq 20 dəqiqə qızdırılır və süzülür. Alınmış filtrat aşağıdakı testlər üçün istifadə edilir:

a) 2 damcı Meyer reaktivi 1 ml filtrata əlavə edilir. Kreməbənzər çökmə məhlulda alkaloidlərin olduğunu göstərir;

b) 1ml filtrata 2 ml Vaqner reaktivi əlavə edilir. Müşahidə edilən qırmızımtıl- qəhvəyi çöküntü alkaloidlərin olmasını göstərir. Flavonoidlərə aid keyfiyyət reaksiyalarının nəticələri aşağıdakı cədvəldə göstərilmişdir (Cədvəl 1).

**Cədvəl 1.**
**Flavonoidlərə aid keyfiyyət reaksiyalarının nəticələri.**

| İstifadə edilən reaktivlər | N.cataria bitkisinin spirtli çıxarışı |
|---|---|
| Sianidin sınağı | Qırmızı |
| Qələvi məhlulu | Sarı |
| Qatı HCl+1%-li vanilin | Moruğu-qırmızı |
| Brianta görə sianidin reaksiyası | Parlaq çəhrayı |
| Dəmir III xloridlə reaksiya | Tünd yaşıl |
| Əsasi qurğuşun asetat məhlulu | Sarı-narıncı |

Nepeta cataria bitkisinin tərkibindəki flavonoidlərin keyfiyyət analizi aparıldıqdan sonra miqdarı təyinatı həyata keçirilmişdir. Praktikada flavonoidlərin miqdarı təyinatında daha çox spektrofotometrik üsula üstünlük verilir. Çünki bu üsulla alınan nəticələr daha dəqiq olur, tədqiqata daha az vaxt sərf edilir, həmçinin çox kiçik miqdarda olan flavonoidlərin miqdarı aşkarlana bilir (İsayev, Vəliyeva, 2016:70-71).

**İşin gedişi**

Tədqiqat üçün istifadə ediləcək bitki xammalı çox kiçik ölçülərdə xırdalayırıq və məsamələrinin ölçüsü 1 mm olan ələkdən keçiririk. Ələnmiş xammaldan dəqiq ölçülərək 1 qr çəkilir və ölçüsü 150 ml olan kolbaya tökülür, üzərinə 30 ml 50%-li etil spirti əlavə edilir. Kolba içindəkilərlə birlikdə əks soyuducuya birləşdirilir, 30 dəqiqə müddətində isti su hamamında qızdırılır. Kolba divarlarına yapışmış xammal hissəciklərinin də islanması üçün arabir çalxalayırıq. Əldə etdiyimiz isti çıxarış, pambıqdan həcmi 100 ml olan kolbaya süzülür. Süzülmə elə aparılmalıdır ki, bitki hissəcikləri pambığın üzərinə düşməsin. Süzmək üçün istifadə etdiyimiz pambıq yenidən ekstraksiya gedən kolbaya yerləşdirilir, üzərinə 30 ml 50%-li etil spirti əlavə edilir. Yuxarıda qeyd etdiyimiz üsulla ekstraksiya prosesini daha 2 dəfə təkrarlayırıq. Əldə olunan bütün çıxarışlar birləşdirilir və kağız süzgəc vasitəsilə kolbaya süzülür. Kolbadakı məhlulu otaq temperaturuna qədər soyutduqdan sonra 50%-li etil spirti ilə ölçüyə çatdırılır (A məhlulu).

25 ml həcmə malik olan ölçülü kolbaya 1 ml A məhlulundan əlavə edilir, üzərinə 2 ml alüminium-xloridin 95 %-li etil spirtindəki məhlulundan tökülür, məhlulun həcmi 95%-li etil spirti ilə ölçüyə çatdırılır. 40 dəqiqə gözlədikdən sonra spektrofotometrdə (Boeco Germany S-220 Spectrophotometer) 415 nm dalğa uzunluğunda, qatının qalınlığı 10 mm olan küvetdə məhlulun optiki sıxlığını ölçdük. 25 ml-lik ölçülü kolbaya 1 ml çıxarış, 1 damcı duru sirkə turşusu və həcmi 95%-li etil spirti ilə ölçüyə çatana qədər əlavə edilir. Alınmış bu məhlul müqayisə məhlulu kimi istifadə edilir. Paralel olaraq yuxarıda göstərilən qaydada hazırlanmış rutinin standart nümunə məhlulunun optiki sıxlığı da eyni şəraitdə ölçülür.

Mütləq quru xammalda və rutinə əsasən hesablanmış flavonoidlərin ümumi miqdarı (X) aşağıdakı düstura əsasən təyin edilir:

$$x = \frac{D \times m0 \times 100 \times 100 \times 100}{D0 \times m \times 100 \times (100 - W)}$$

Burada, D – tədqiq olunan məhlulun optiki sıxlığı;
D0 – rutinin standart nümunə məhlulunun optiki sıxlığı;
m – xammalın çəkisi, qramla;
m0 – rutinin standart nümunəsinin çəkisi, qramla;
W – xammalı qurutduqda çəkidə itki, %-lə. Nepeta cataria bitkisində bu 11,2% olmuşdur.

Qeyd etmək lazımdır ki, flavonoidlərin miqdari təyinatı 6 dəfədən az aparılmamalıdır. Nəticələrin orta qiyməti ilə hesablama yerinə yetirilir (Süleymanov, Kərimov, İsayev, 2017:400-401, Mammadalieva, Sharopovb, Satyale, 2016:1893).

## Nəticələr və onların müzakirəsi

Aparılan ölçmələrin nəticəsi aşağıdakı cədvəldə göstərilmişdir (Cədvəl 2).

**Cədvəl 2.**
**N.cataria L. ekstraktı və rutinin standart nümunə məhlulu üçün spektorfotometrik ölçmələrin nəticələri.**

| Ölçmə sayı, N | N.cataria L. ekstraktı | | Ölçmə sayı, N | Rutinin standart nümunə məhlulu | |
|---|---|---|---|---|---|
| | Optik sıxlıq | Qatılıq | | Optik sıxlıq | Qatılıq |
| 1 | 0.534 | 1.452 | 1 | 0.537 | 1.461 |
| 2 | 0.532 | 1.448 | 2 | 0.538 | 1.465 |
| 3 | 0.531 | 1.444 | 3 | 0.605 | 1.647 |
| 4 | 0.531 | 1.445 | 4 | 0.539 | 1.467 |
| 5 | 0.531 | 1.446 | 5 | 0.535 | 1.457 |
| 6 | 0.528 | 1.428 | 6 | 0.541 | 1.472 |

Alınmış nəticələri 1 nömrəli düsturda yerinə qoyaraq N.cataria bitkisinin xammalında flavonoidlərin rutinə nisbətən faizlə miqdarını hesablayaq:

$$D=(0.534+0.532+0.531+0.531+0.531+0.528):6=0.531$$
$$m0=0.05$$
$$D0=(0.537+0.538+0.605+0.539+0.535+0.541):6=0.55$$
$$m=1$$
$$x=\frac{0.531\times0.05\times100\times100\times100}{0.55\times1\times100\times(100-11.2)}=5.44\ \%$$

## Nəticə

Nepeta cataria bitki xammalında flavonoidlərə aid aparılan eynilik reaksiyalarında əldə etdiyimiz müsbət nəticələrdən sonra onların miqdarı təyinatı aparılmışdır. Aparılmış spektrofotometrik tədqiqat nəticəsində müəyyən edilmişdir ki, N. cataria bitkisinin yarpaqlarının tərkibində 5,44% flavonoid məcmusu var.

Müəyyən edilmişdir ki, Naxçıvan Muxtar Respublikası ərazisində geniş yayılmış və zəngin xammal bazası olan Nepeta cataria bitkisi fərdi şəkildə flavonoidlərin alınması üçün qiymətli, alternativ təbii mənbədir. Flavonoidlər əsasında dərman vasitələrinin yaradılması istiqamətində elmi tədqiqatları davam etdirmək mümkündür.

## Ədəbiyyat

1. Talıbov, T.H., İbrahimov, Ə.Ş. (2021). Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri(Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər). II nəşr. Bakı: Şirvannəşr, 426 s.
2. Əsgərov, A.M. (2016). Azərbaycan bitki aləmi (Ali bitkilər – Embryophyta). Bakı: TEAS Press Nəşriyyat evi, 444 s.
3. Məmmədova, Z.Ə. (2013). Azərbaycan florasında Pişiknanələri (Nepeta L.). Bakı: Müəllim, 244 s.
4. Lungoci, C., Motrescu, I., Doina, J.C., Teliban, G. (2022). The impact of salinty stress on antioxidant response and bioactive compounds of Nepeta cataria L. Agronomy, p.1-15.
5. Malankina, Ye.L., Tkachova, Ye.N., Kozlovskaya, L.N. (2018). Lekarstvennyye rasteniya semeystva yasnotkovyye (lamiaceae) kak istochniki flavonoi. Voprosy biologicheskoy, meditsinskoy i farmatsevticheskoy khimii, №1, s.30-35.

6. Lee, S.V., Lee, C.V., Eom, S.H., Kim, Y.K., Park, N. (2010). Rosmarinic acid productor from transformed root cultures of Nepeta cataria L. Scientific research and essays, p.1122-1126.
7. Ibrahim, Z.S., Gayssar, R., Sardar, S., Zamae, E., Senjawi, L.S.M., Sleman, E., Fazil, H., Porwa, I.O. (2022). Journal of delivery and therapeutics, p.254-263.
8. Sarkar, M., Rashmi, R. (1995). Pharmacognosy of Nepeta Cataria. Ancient science of life, p.225-234.
9. Edewor, T., Usman, L.A. (2011). Phytochmical and antibacterial activities of leaf extracts of Nepeta Cataria, p.503-506.
10. İsayev, C.İ., Vəliyeva, A.K. (2015). Galega Orientalis Lam. bitkisinin bəzi farmakoqnostik tədqiqi. Azərbaycan təbabətinin müasir nailiyyətləri. №1/2016, s.69-71.
11. Süleymanov, T.A., Kərimov, Y.B., İsayev, C.İ. (2017). Farmakoqnoziya praktikumu. Dərslik. Bakı, 675 s.
12. Mamadalieva, N.Z., Sharopovb, S.F., Satyalc, P., Azimova, S.S., Winkb, M. (2016). Chemical composition of the essential oils of some central Asian Nepeta cataria species (Lamiaceae) by GLC-MS. Natural Product Communication, p.1892-1893.

Göndərildi: 18.09.2022 Qəbul edildi: 02.11.2022

DOI: https://doi.org/10.36719/2663-4619/84/123-129

**Leyla Üzeyir qızı Həsənova**
Əkinçilik Elmi-Tədqiqat İnstitutu
dissertant
leylahesenova214@gmail.com

# MÜXTƏLİF İLLƏRƏ GÖRƏ PERSPEKTİVLİ GENOTİPLƏRİN KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

## Xülasə

Məqalədə Əkinçilik Elmi-Tədqiqat İnstitutunun (ƏETİ) Tərtər və Qobustan Bölgə Təcrübə Stansiyalarında becərilən perspektivli və plastik buğda sortları olan Xəzri və Qobustanın 2020-2021-ci illərə görə keyfiyyət və texnoloji göstəriciləri müqayisəli şəkildə verilmişdir. Həmçinin bu genotiplərdə kleykovinanın və KDİ c.g.nin saxlama müddətindən asılı olaraq dəyişmə dinamikası izlənilmişdir. Genotiplərin maksimum hansı müddətə kimi öz keyfiyyətini saxlamasını öyrənmək üçün hər 10 gündən bir kleykovinanın və KDİ-nin necə dəyişməsi analiz edilərək müəyyən nəticələr əldə olunmuşdur. Bununla yanaşı göstəricilər də öyrənilmişdir. Natura kütəsi buğdanın dən keyfiyyətinin əsas kriteriyalarından biri olub, un çıxımı ilə sıx korelyasiya əlaqəsinə malikdir. Öyrəndiyimiz Qobustan sortunda bu göstərici müxtəlif illərdə 751-804 l/q arasında dəyişmişdir.

Həmçinin genotiplərdə cücərmə enerjisi və cücərmə faizi də öyrənilmişdir. Laborator şəraitdə cücərmə enerjisinin öyrənilməsi dənləri sağlam saxlamaq üçün olduqca vacibdir. Genotiplərin cücərmə enerjisinin yüksək olması məhsuldarlığın yüksək olmasına zəmin yaradır. Sedimentasiyanın öyrənilməsi sortların qiymətləndirilməsində əsas rol oynayır.

***Açar sözlər:*** *buğda, keyfiyyət göstəriciləri, qlüten, zülal, dən, genotip*

**Leyla Uzeyir Hasanova**

# Comparative analysis of quality indicators of promising genotypes for different years

## Abstract

The article compares the qualitative and technological indicators of Khazri and Gobustan, promising and plastic wheat varieties cultivated in the Tartar and Gobustan Regional Experiment Stations of the Research Institute of Crop Husbandryfor 2020-2021. Also, the dynamics of changes of gluten depending on the storage time were monitored in these genotypes. In order to find out how long the genotypes can maintain their quality, certain results were obtained by analyzing how gluten change every 10 days. In addition, the indicators were also studied. Natural mass is one of the main criteria of wheat grain quality and has a close correlation with flour yield. In the studied Gobustan variety, this indicator varied between 751-804 l/g in different years.

I have also studied germination energy and germination percentage in genotypes. The study of germination energy under laboratory conditions is extremely important for keeping grains healthy. The high germination energy of genotypes creates the basis for high productivity. The study of sedimentation plays a key role in the evaluation of varieties.

***Keywords:*** *wheat, guality indicators, gluten, protein, grain, genotype*

## Giriş

Buğdanın ilk becərilməsinə hələ 10000 min il əvvəl Neolit dövründən başlanılmışdır. Bu, ən erkən becərilən formalar diploid (genom AA) (einkorn) və tetraploid (genom AABB) (emmer) buğdalar və onların genetik əlaqələri bunu göstərir ki, onlar Türkiyənin cənub-şərq hissəsində yaranıblar. Təxminən 9000 il əvvəl hexaploid çörək buğdasının ilk dəfə meydana gəlməsi ilə becərmə Yaxın Şərqə yayıldı. Hal-hazırda dünyada becərilən buğdanın 95 faizə yaxını heksaploid çörəklik

buğda, qalan 5 faizi isə tetraploid bərk (Triticum Durum) buğdadır (Shewry, 2009:100). Heksaploid genom o deməkdir ki, onun yeddi xromosomunun hər birinin 6 nüvəsi var; tam dəst 42 xromosomdan ibarət olur.

2009-cu ildə Ərzaq Təhlükəsizliyi üzrə Ümumdünya Ərzaq Sammitində dünya əhalisinin sayının sürətlə artımıyla əlaqədar olaraq 2050-ci ilə qədər ərzaq istehsalının 70%-ə qədər artırılması hədəfi qoyulmuşdur ki, bu da illik 44 milyon ton məhsul artımı tələb edir (Whitford, Fleury, Reif, Garcia, Okada, Korzun, Langridge, 2013:13).

Ölkəmizdə hal-hazırda taxılın məhsuldarlığının artırılması və ərzaq təhlükəsizliyinin təmin olunması kənd təsərrüfatının qarşısında duran ən əsas vəzifələrdən biridir. Respublikamızda iqlim şəraitinin buğda bitkisinin ayrı-ayrı inkişaf fazalarına təsiri məhsuldarlığı və bitkinin keyfiyyət göstəricilərini müəyyənləşdirir.

Yığımdan sonra yetişmənin baş verməsi olduqca vacib proses olub sünbüldə gedən biokimyəvi proseslərin və dəndolma fazasında toplanan kiçik molekullu üzvi maddələrin birləşərək yüksək molekullu birləşmələrə çevrilməsidir. Bu mərhələdə yağların, zülalların və polisaxaridlərin sintezi tamamalanıb başa çatır və prosesin davamı olaraq kleykovina zülalları sıxlaşaraq keyfiyyəti yaxşılaşdırır. Dənin keyfiyyət göstəricilərinə bir sıra amillər: meteroloji şərait, aqrotexniki üsullar, torpağın əkinə hazırlanması, becərmə texnologiyası, suvarma, zərərvericilər, xəstəliklər və ən əsası sortun genetik xüsusiyyətləri təsir göstərir. Keyfiyyət göstəriciləri ilə tezyetişkənlik, quraqlığa davamlılıq, məhsuldarlıq və keyfiyyət əlamətlərinin qarşılıqlı əlaqəsi mövcüddur. Buna görə də seleksiyaçıların xəstəliklərə dayanıqlı donor bitkiləri seçməsi vacibdir (Əkpərov, 2009:1; Həsənova, 1998:3; Hüseynov, Təlai, Abdulbaqiyeva, Bayramova, Zamanov, 2010:4). Kleykovinanın keyfiyyətinə ziyankar bağacıq olduqca mənfi təsir göstərir və nəticədə onun zədələdiyi dənlərin keyfiyyət göstəriciləri aşağı düşür. 1745-ci ildə Bolonya Universitetinin kimya professoru Jacopo Beccari tərəfindən yazılan “De Frumento” (Taxıl haqqında) məqaləsində buğda qluteni elmi cəhətdən tədqiq edilən ən erkən zülallardan biri idi (Shewry, 2019:12). Dənin tərkibindəki zülal, lipid, nişasta, lipoproteid fermentleri və digər komponentləri idarə edən genler sortun xarakterik xüsusiyyətlərini formalaşdırır (Pleshkov, 1976:7). Sortun genetik xüsusiyyətindən asılı olaraq nəmlik müxtəlif genotiplərə fərqli təsir göstərə bilir. Əkin sahəsindən yığıldıqdan sonra yetişmə dövrünü başa vurmuş dənlərdə kleykovina zülalları özününün tamlığını başa çatdırıraq keyfiyyət göstəricilərini yaxşılaşdırır. Bu da belə dənlərdən alınan çörəyin keyfiyyətli olması deməkdir. Buğdaya xas olan qliadin zülalı xəmirin özlülüyünə, qlüten zülalı isə elastikliyinə cavabdehdir (Cauvain, 2015:8; Sluimer, 2005:11). Çörəkçilikdə unun su və digər əlavələrlə qarışdırılması zamanı verilən mexaniki enerji prolaminlərin nəmlənməsinə kömək edir ki, bu da zülallarda konformasiya dəyişikliklərinin yaranmasın şərait yaradır. Belə struktur dəyişiklikləri qeyri-kovalent bağlara, kovalent (S-S) rabitəsinin əmələ gəlməsinə və qlüten əmələ gətirən hidrogen bağlarına səbəb olur. Qlüten fermentasiya qazlarını saxlaya bilir ki, bu da çörəyin həcmini, yumşaqlığını tənzimləyir (Mezaize, Chevallier, Chevallier, Le Bail, de Lamballerie, 2009:9).

Nəmliyin təyin olunması dənin saxlanmasında mühüm rol oynayıb, cücərmə qabiliyyətinə birbaşa təsir göstərir. Nəmliyi yüksək olan dənlərdə qızışma prosesi sürətlə getdiyindən onların anbar zərərviciləri və mikroorqanizmlərlə yoluxması asanlaşır. Dənin nəmliyi nə qədər aşağıdırsa, onun saxlanma müddəti də uzun olar. Cücərmə faizi nəmlik artdıqca, aşağı düşür. Məlumdur ki, nəmlik yüksəldikcə natura kütləsi azalır (Fətəliyev, 2013:2). Sedimentasiya da kəmiyyət göstəricisi olub, irsən nəsildən-nəslə keçmək qabiliyyətinə malikdir. Sortların qiymətləndirilməsində bu analiz də əsas roloynayır (Krupnov, 2019:5; Gapanov, Vasilchuk, Shutareva, 2009:6).

Bütün bu göstəriciləri nəzərə alaraq, məqalədə Tərtər və Qobustan BTS-də becərilən perspektivli Xəzri və Qobustan sortlarında keyfiyyət göstəricilərinin illərə görə necə dəyişdiyi, həmçinin yığımdan sonra saxlama müddətinin kleykovinanın miqdar və keyfiyyətinə necə təsir göstərildiyi araşdırılıb.

## Material və metodika

Tədqiqatin materialı Əkinçilik İnstitutunun Tərtər BTS və Qobustan BTS-də becərilən eyni sortlar olmuşdur. Bu zona quraq dəmyə bölgəsinə aiddir. Nümunələr hər 10 gündən bir yuyulmuş və

onlarda kleykovina analizi aparılmışdır. Kleykovina əllə yuyulmuş (QOST) və daha sonra onun keyfiyyəti İDK-1 aparatında qeydə alınmışdır. Genotiplərdə dənin fiziki-texnoloji keyfiyyət göstəricilərindən kleykovinanın miqdarı yuma üsulu ilə DÜST 10839-64, sedimentasiya göstəricisi Pumpyanski üsulu ilə, zülal Keldal üsulu ilə, dənin şüşəvariliyi-DÜST 10839-64, natura kütləsi DÜST 10839-64, KDİ-kleykovinanın deformasiya indeksi İDK-1 cihazında “Dənin keyfiyyəti” laboratoriyasında təyin edilmişdir. Cücərmə qabiliyyəti isə “İlkin toxumçuluq və toxumun keyfiyyəti” laboratoriyasında “Binder” aparatında 1-7 gün ərzində cücərdilməklə təyin olunmuşdur.

**Nəticələr və onların müzakirəsi**

Cədvəl 1-də 2020 və 2021-ci illər ərzində Tərtər və Qobustan BTS-də becərilən Xəzri və Qobustan genotiplərinin fiziki-texnoloji göstəriciləri verilmişdir. Cədvəldən aydın olur ki, 2020-ci ildə Qobustanda becərilən Xəzri sortunda 1000 dənin kütləsi 34,8 q., natura kütləsi 715 l/q, şüşəvariliyi 96,0%, kleykovinanın miqdarı isə 26,0%, KDİ 95,2 c.g., zülalın miqdarı 11,8%, sedimentasiya 25,5 ml, cücərmə enerjisi 91,5%, cücərmə faizi 96,5% olmuşdur. 2021-ci ildə Xəzri sortunda bu göstəricilərdən 1000 dənin kütləsi 38,9 q, natura kütləsi 757 l/q, şüşəvariliyi 48,0%, kleykovinanın miqdarı isə 32,4,0%, KDİ 100,0 c.g., zülalın miqdarı 13,0%, sedimentasiya 31,5 ml, cücərmə enerjisi 98,0%, cücərmə faizi isə 99,0% olmuşdur. 2020-ci ildə Tərtərdə becərilən Xəzri sortunda 1000 dənin kütləsi 37,4 q, natura kütləsi 720l/q, kleykovinanın miqdarı isə 28,0%, KDİ 95,6 c.g., zülalın miqdarı 12,2%, sedimentasiya 24,0 ml, cücərmə enerjisi 89,0%, cücərmə faizi 92,0% olmuşdur. 2021-ci ildə Xəzri sortunda bu göstəricilərdən 1000 dənin kütləsi 42,4 q, natura kütləsi 750 l/q, şüşəvariliyi 56,0%, kleykovinanın miqdarı isə 28,0%, KDİ 99,5 c.g., zülalın miqdarı 13,0%, sedimentasiya 34,5 ml, cücərmə enerjisi 93,2%, cücərmə faizi isə 95,5% olmuşdur. 2020-ci ildə Qobustan BTS-də becərilən Qobustan sortunda 1000 dənin kütləsi 31,4 q, natura kütləsi 751 l/q, şüşəvariliyi 77,0%, kleykovinanın miqdarı isə 26,0%, KDİ 74,4 c.g., zülalın miqdarı 11,6%, sedimentasiya 37,5 ml, cücərmə enerjisi 95,0%, cücərmə faizi isə 100% olmuşdur. 2021-ci ildə də Qobustan BTS-də becərilən Qobustan sortunda bu göstəricilərdən 1000 dənin kütləsi 35,9 q, natura kütləsi 804 l/q, şüşəvariliyi 99,0%, kleykovinanın miqdarı isə 32,4%, KDİ 94,1 c.g., zülalın miqdarı 12,3%, sedimentasiya 46,5 ml, cücərmə enerjisi 99,5%, cücərmə faizi isə 99,5% olmuşdur. 2021-ci ildə Tərtər BTS-də becərilən Qobustan sortunda bu göstəricilərdən 1000 dənin kütləsi 41,5 q, natura kütləsi 767l/q, şüşəvariliyi 74,0%, kleykovinanın miqdarı isə 30,0%, KDİ 100,2 c.g., zülalın miqdarı 12,5%, sedimentasiya 30,0 ml, cücərmə enerjisi 94,5%, cücərmə faizi isə 97,0% olmuşdur. 1000 dənin kütləsi daha ağır olan genotiplərdə cücərmə enejisinin qiyməti yüksək olmuşdur. Bu da göstərir ki, əkin üçün sağlam, heç bir xəstəliyi olmayan, daha ağır dənlərin seçilməsi vacibdir. 1000 dənin kütləsi artıq olan nümunələrin cücərtilərində rüşeym kökcüklərinin və gövdəciklərinin uzunluğunda, həmçinin cücərtilərin kütləsində artım müşahidə olunmuşdur. Belə ki, bu göstərici yüksək olan genotiplərdə cücərtilərin kütləsi daha ağır olmuşdur. Cücərmə enerjisinin neçə faiz olduğunu göstərən müddət (yumşaq buğdalarda 1-3 gün, bərk buğdalarda 1-4 gün) bizə toxumun birbaşa sahədə əkin zamanı necə çıxış verməsi barədə ilkin məlumatı verir. Əgər toxumlar göbələk xəstəliyi ilə sirayətlənibsə, laborator şəraitdə cücərmə faizini təyin edən zaman artıq biz bunu əyani görə bilirik.

Natura kütləsi dənin müəyyən həcmdə kütləsi olub, dən haqda informasiya verən keyfiyyət göstəricisidir. Natura kütləsi nə qədər çox olarsa, un çıxımı bir o qədər artmış olur. Un çıxımının yüksək olması dənin dolğunluğa malik olmasıyla izah olunur və bu göstərici dənin nəmliyindən, iriliyindən, dən kütləsindəki qarışıqların miqdarından və s. asılıdır. Üzvi qarışıqlar naturanı azaltdığı halda, mineral qarışıqlar əksinə, artırır. Təcrübə apardığımız zaman genotiplərin nəmliyi 11,0-12% olmuşdur.

Cədvəl 2 və Cədvəl 3-də 2020-ci ildə Qobustan və Tərtər BTS-də becərilən Qobustan və Xəzri sortlarında kleykovinanın və KDİ-nin dəyişmə dinamikası izlənilmişdir. Cədvəllərdən aydın olur ki, bu sortlarda hər iki göstərici qanunauyğunluğa tabe olaraq dəyişmişdir. Kleykovinanın keyfiyyətinin azalmasına baxmayaraq, KDİ cihaz göstəricisi yaxşılaşaraq aşağı düşmüşdür. Qobustanda BTS-də Xəzri sortunda KDİ 95,2 c.g-dən 84,1 c.g kimi aşağı düşərək yaxşılaşmışdır. Qobustan sortunda isə 88,4 c.g-dən 80,9 c.g. kimi aşağı düşmüşdür.

ISSN:2663-4619
e-ISSN: 2708-986X

**Cədvəl 1.**
**Qobustan və Tərtər BTS-də becərilən genotiplərdə fiziki-texnoloji keyfiyyət göstəriciləri (2020-2021-ci illər).**

| Genotiplər | İllər | 1000 dənin kütləsi, q | Natura kütləsi, l\q | Şüşəvarilik, % | Kleykovinanın miqdarı, % | KDİ c.g. | Zülal, % | Sedimentasiya, ml | Cücərmə enerjisi, % | Cücərmə qabiliyyəti, % |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Xəzri | Qobustan BTS | | | | | | | | | |
| | 2020 | 34,8±0,34 | 715±0,20 | 96,0±0,30 | 26±0,30 | 95,2±0,14 | 11,8±0,10 | 25,5±0,07 | 91,5±0,20 | 96,5±0,20 |
| | 2021 | 38,9±0,34 | 757±0,30 | 48,0±0,20 | 32,4±0,10 | 100,0±0,20 | 13,0±0,17 | 31,5±0,20 | 98,0±0,34 | 99,0±0,27 |
| | Tərtər BTS | | | | | | | | | |
| | 2020 | 37,4±0,10 | 720±0,14 | 74,0±0,34 | 28,0±0,20 | 95,6±0,14 | 12,2±0,17 | 24,0±0,17 | 89,0±0,27 | 92,0±0,17 |
| | 2021 | 42,4±0,44 | 750±0,37 | 56,0±0,34 | 28,0±0,30 | 99,5±0,17 | 13,0±0,27 | 34,5±0,30 | 93,2±0,30 | 95,5±0,24 |
| Qobustan | Qobustan BTS | | | | | | | | | |
| | 2020 | 31,4±0,20 | 751±0,20 | 77,0±0,17 | 26,0±0,14 | 74,4±0,30 | 11,6±0,37 | 37,5±0,44 | 95,0±0,30 | 100,0±0,20 |
| | 2021 | 35,9±0,27 | 804±0,34 | 99,0±0,37 | 32,4±0,27 | 94,1±0,24 | 12,3±0,24 | 46,5±0,30 | 99,5±0,17 | 99,5±0,27 |
| | Tərtər BTS | | | | | | | | | |
| | 2021 | 41,5±0,20 | 767±0,27 | 74,0±0,34 | 30,0±0,17 | 100,2±0,07 | 12,5±0,24 | 30,0±0,20 | 94,5±0,17 | 97,0±0,20 |

ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 1.790. 2022 / Cild: 16 Sayı: 11 / 123-129
SCIENTIFIC WORK International scientific journal. Impact Factor: 1.790. 2022 / Volume: 16 Issue: 11 / 123-129
ISSN:2663-4619
e-ISSN: 2708-986X

**Cədvəl 2.**

**Qobustan BTS-də becərilən Qobustan və Xəzri sortlarında saxlama müddətindən asılı olaraq kleykovina və KDİ-nin dəyişmə dinamikası.**

| Genotip | 08.09.2020 | | 18.09.2020 | | 29.08.2020 | | 08.09.2020 | | 18.09.2020 | | 28.09.2020 | | 11.10.2020 | | 20.11.2020 | | 01.12.2020 | | 11.12.2020 | | 22.12.2020 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Kley | KDİ | Kley | KDİ | Kley | KDİ | Kley | KDİ | Kley | KDİ | Kley | KDİ | Kley | KDİ | Kley | KDİ | Kley | KDİ | Kley | KDİ | Kley | KDİ |
| Xəzri | 26,0 ± 0,20 | 95,2 ± 0,17 | 26,0 ± 0,24 | 95,0 ± 0,30 | 26,0 ± 0,34 | 92,2 ± 0,37 | 26,0 ± 0,27 | 93,3 ± 0,30 | 25,2 ± 0,17 | 91,6 ± 0,20 | 25,2 ± 0,37 | 90,0 ± 0,34 | 25,0 ± 0,20 | 90,1 ± 0,24 | 25,0 ± 0,27 | 89,7 ± 0,20 | 24,8 ± 0,30 | 87,1 ± 0,30 | 24,8 ± 0,20 | 87,0 ± 0,17 | 24,0 ± 0,17 | 84,1 ± 0,20 |
| Qobustan | 26,0 ± 0,20 | 88,4 ± 0,17 | 26,0 ± 0,14 | 88,0 ± 0,14 | 26,0 ± 0,17 | 87,3 ± 0,20 | 26,0 ± 0,20 | 86,1 ± 0,10 | 24,8 ± 0,24 | 86,0 ± 0,10 | 24,0 ± 0,10 | 85,4 ± 0,27 | 24,1 ± 0,07 | 84,3 ± 0,10 | 24,0 ± 0,17 | 84,1 ± 0,20 | 24,0 ± 0,20 | 83,2 ± 0,14 | 24,0 ± 0,20 | 80,2 ± 0,14 | 24,0 ± 0,20 | 80,9 ± 0,14 |

ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 1.790. 2022 / Cild: 16 Sayı: 11 / 123-129
SCIENTIFIC WORK International scientific journal. Impact Factor: 1.790. 2022 / Volume: 16 Issue: 11 / 123-129
ISSN:2663-4619
e-ISSN: 2708-986X

**Cədvəl 3.**
**Tərtər BTS-də və Xəzri sortlarında saxlama müddətindən asılı olaraq kleykovina və KDİ-nin dəyişmə dinamikası.**

| Genotip | 19.08.2020 | | 27.08.2020 | | 10.09.2020 | | 20.09.2020 | | 02.10.2020 | | 16.10.2020 | | 26.10.2020 | | 04.11.2020 | | 14.11.2020 | | 25.11.2020 | | 07.11.2020 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Kley. | KDİ | Kley | KDİ | Kley | KDİ | Kley | KDİ | Kley | KDİ | Kley | KDİ | Kley | KDİ | Kley | KDİ | Kley | KDİ | Kley | KDİ | Kley | KDİ |
| Xəzri | 28,0 ± 0,14 | 95,6 ± 0,24 | 28,0 ± 0,10 | 95,0 ± 0,30 | 28,0 ± 0,24 | 101,2± 0,20 | 28,0 ± 0,14 | 95,7 ± 0,30 | 28,0 ± 0,17 | 96,6 ± 0,10 | 28,0 ± 0,20 | 93,9 ± 0,30 | 27,6 ± 0,34 | 90,3 ± 0,30 | 27,0 ± 0,17 | 90,0 ± 0,20 | 27,0 ± 0,10 | 90,1 ± 0,20 | 27,0 ± 0,10 | 88,9 ± 0,34 | 26,8 ± 0,10 | 88,0 ± 0,20 |
| Qobustan | 28,4 ± 0,20 | 95,0 ± 0,17 | 28,4 ± 0,14 | 95,1 ± 0,20 | 28,0 ± 0,27 | 93,9 ± 0,30 | 28,0 ± 0,20 | 93,8 ± 0,27 | 27,8 ± 0,20 | 92,8 ± 0,17 | 27,8 ± 0,10 | 92,7 ± 0,24 | 27,6 ± 0,27 | 92,8 ± 0,27 | 27,6 ± 0,14 | 92,0 ± 0,24 | 27,6 ± 0,14 | 91,0 ± 0,27 | 27,6 ± 0,17 | 90,9 ± 0,20 | 27,4 ± 0,27 | 89,0 ± 0,27 |

## Nəticə

Apardığımız tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, buğda genotiplərində keyfiyyət göstəriciləri saxlama müddətindən asılı olaraq dəyişir. Bu zaman kleykovinanın miqdarı azalır, KDİ c.g. isə əksər sortlarda aşağı düşərək yaxşılaşır. Nəmliyin 11-12% olması daxilində analiz apardığımız genotiplərdə proses qanunauyğunluğa tabe olmuşdur. Buğda genotiplərində keyfiyyət göstəricilərinin hansı sürətlə dəyişməsinə sortların genetik xüsusiyyətləri də güclü təsir göstərir. Analiz aparılan genotiplərdə 1000 dənin kütləsi də öyrənilmişdir. Bu göstəricinin qiyməti yüksək olan nümunələrin cücərtilərində rüşeym kökcüklərinin uzunluğunda və cücərtilərin kütləsində artım müşahidə olunmuşdur ki, bu da əkin üçün iri, sağlam dənlərin seçilməsinin vacib olduğunu göstərir.

## Ədəbiyyat


1. Shewry, P.R. (2009). Wheat Journal of Experimental Botany. Wheat Department of Plant Sciences, Rothamsted Research, Harpenden, Hertfordshire. Accepted 13 February, Vol. 60, No. 6, pp.1537-1553.
2. Whitford, R., Fleury, D., Reif, J., Garcia, M., Okada, T. (2013). Korzun and Langridge P. Hybrid breeding in wheat: technologies to improve hybrid wheat seed production. Journal of Experimental Botany, Advance Access publication. 31 October, Vol. 64, No. 18, pp.5411-5428.
3. Əkpərov, Z.İ. (2009). Genetik ehtiyatlar ərzaq, ekoloji və bioloji təhlükəsizliyin strateji bazisidir. Genetik Ehtiyatlar İnstitutunun elmi əsərləri. Bakı: Elm, c.I, s.3-15.
4. Həsənova, Q. (1998). Yumşaq buğdanın dən keyfiyyətinin genetik əsasları. Heydər Əliyevin anadan olmasının 75 və Azərbaycan Demokratik Cümhuriyyətinin Qurulmasının 80 ilinə həsr olunan konfrans, s.80-81.
5. Hüseynov, S.İ., Təlai, C.M., Abdulbaqiyeva, S.A., Bayramova, C.Ə., Zamanov, A.A. (2010). Quraqlığın təsirindən asılı olaraq buğda dəninin keyfiyyət göstəriciləri. Əkinçilik Elmi Tədqiqat İnstitutunun Elmi Əsərlərin Məcmuəsi. Bakı, XXII cild, s.190-193.
6. Shewry, P. (2019). What is gluten-why is it special? Front. Nutr. Sec. Nutritionand Food Science Technology, 05 July. https://doi.org/10.3389/fnut.2019.00101
7. Pleshkov, B.P. (1976). Praktikum po biokhimii selskokhozyaystvenykh kultur. M., Izd-vo «Kolos».
8. Cauvain, S. (2015). Technology of Breadmaking. Springer International Publishing; Cham, Switzerland: 2nd ed.
9. Sluimer, P. (2005). Principles of Breadmaking: Functionality of Raw Materials and Process Steps. American Association of Cereal Chemists; St. Paul, MI, USA.
10. Mezaize, S., Chevallier, S., Le Bail, A., de Lamballerie, M. (2009). Optimization of Gluten-Free Formulations for French-Style Breads. J.Food Sci., 74:E140-E146.
11. Fətəliyev, H. (2013). Bitkiçilik məhsullarının saxlanma və emal texnologiyası fənnindən praktikum dərs vəsaiti. Bakı, s.29-30.
12. Krupnov, V.A. (2011). Selektsiya pshenitsy na ustoytsivost k vrednym klopam (Eurygaster Spp); net li riska? Vavilovsiy zh. genetiki i selektsii, tom 15, № 3, s.572-577.
13. Gapanov, S.N., Vasilchuk, O.B., Shutareva, G.I. (2009). Vliyaniye vrednoy cherepashki (Eurygaster integriceps Puton) na katsestvo zerna tverdoy ppshenitsy (Triticum durum Desf.). Agrarnyye vesti Yugo-Vostoka. № 2, s.23-26.


**Rəyçi: aqr.e.ü.f.d. Qətibə Həsənova**

Göndərildi: 14.08.2022 Qəbul edildi: 26.10.2022

# DƏQİQ ELMLƏR

## EXACT SCIENCES

DOI: https://doi.org/10.36719/2663-4619/84/130-137

**Vüsalə Sabir qızı Sultanova**
Bakı Slavyan Universiteti
vusalya.sultanova@mail.ru

## İBTİDAİ SİNİFLƏRDƏ CƏBRİ MATERİALIN ÖYRƏDİLMƏSİ

**Xülasə**

İşdə ibtidai siniflərdə cəbr elementlərindən istifadə etmənin tətbiq edilməsi göstərilir. Göstərilir ki, şagirdlərin riyazi təfəkkürünün inkişaf etdirilməsi üçün cəbr elementlərindən istifadə etməsinin rolu danılmaz faktdır. Həmçinin cəbr elementlərindən istifadə etmənin tətbiq edilməsi onun qavranılması və məsələ həlli üçün əvəzsizdir, istifadə etmə imkanları çox genişdir.

Mövzunun dərindən öyrənilməsi və tədqiqi müasir dövrdə ibtidai siniflərdə də məntiqi təfəkkürün, alqoritmik düşüncə tərzinin inkişafına kömək edir. Dərsdə cəbr elementlərindən istifadə dərsləri öyrənməni xeyli asanlaşır, tədrisin daha mükəmməl qavranılmasına kömək edir. Cəbr elementlərindən istifadə etmənin tətbiq edilməsi konkret məsələni həll etmək üçün alətdir. Həm də bütün dərsdə cəbr elementlərindən istifadə etmənin tətbiq edilməsi vasitəsilə aparılarsa, uşaqların tədrisi daha dərindən mənimsəməyə səbəb olar.

***Açar sözlər***: *cəbr elementləri, cəbri ifadə, hesab əməlləri, məsələ həlli, parça, pillə əməllər, şagird, tənliklər və bərabərsizliklər*

**Vusala Sabir Sultanova**

## Teaching algebra material in elementary grades

**Abstract**

The dissertation shows the application of the use of algebraic elements in primary school. It is shown that the role of students' use of algebraic elements to develop mathematical thinking is an undeniable fact. It is shown that the application of the use of algebraic elements is invaluable for its perception and solution, the possibilities of its use are very wide.

In-depth study and research of the subject contributes to the development of logical thinking, algorithmic thinking in primary school in modern times. The use of algebraic elements in the lessons makes the lessons much easier to learn and helps to better understand the teaching. Algebraic elements is a tool to solve a specific problem. Also, if the use of algebraic elements in the whole lesson is carried out, children's teaching will lead to a deeper mastery.

***Keywords:*** *elements of algebra, algebraic expression, arithmetic operations, problem solving, fractions, step operations, student, equations and inequalities*

## Giriş

### 1. Cəbr elementlərinin ibtidai siniflərdə öyrədilməsi yolları

Şagirdlərə əşyaları sayma və nömrələmə prosesləri öyrənilməyə başlayarkən toplama və çıxma əməlləri də ümumtəhsil məktəblərinin I sinfində öyrədilməyə başlayaraq hazırlanır. Tapmaca xarakterli çalışmalardan da istifadə etməklə on dairəsində toplama və çıxma əməlləri öyrədilir, bununla da şagirdin düşünmə və mühakimə qabiliyyətini formalaşır.

Anlayışların miqdar münasibətləri riyaziyyatda bərabərlik və bərabərsizlikdən istifadə ifadə formalarıdır.

Verilən ədədləri təhlil etmək, bu ədədlərin xüsusiyyətləri varsa, əvvəlcə onları öyrənmək, sonra əməlin icrasına başlayaraq, ümumiyyətlə, mürəkkəb adlı ədədlər üzərində toplama və çıxma əməlini aparmaq lazımdır.

Araşdırmaq o deməkdir ki, toplananların adlı ədəd var, digərində isə bu yoxdur.

Adlı ədədlərin toplanıb çıxılmasının həll prosesində fikir verilməlidir, belə ki, eyni prosesdir çoxrəqəmli ədədlərin toplanması və çıxılmasındakı həll prosesi onun izahına yuxarıdakı qayda ilə fikir verilməlidir (Perelman, 1998:46).

Əməllərin komponentləri ilə nəticəsi arasındakı asılılıqdan hər zaman istifadə edirik ki, məsələn ibtidai siniflərdə bir sıra təmrinlərin icrasında, tənliklər həllində, əməllərin yoxlanılmasında rast gəlinir. Aşağı siniflərdən məlum olan bəzi anlayışları təkrar etmək lazımdır, bu mövzunun tədrisinə başlamazdan əvvəl bu cür hazırlıq işi görülməlidir. Misal üçün, cəm araşdırılır belə ki, əməllərin komponentləri ilə nəticələri arasındakı asılılıq yoxlanılır azalan çıxılandan böyükdür, xüsusi halda bərabərdir (azalan və çıxılan sıfır olduqda) cəm toplananların hər birindən böyükdür, xüsusi halda toplananların birinə bərabərdir (toplananların biri sıfır olduqda); azalan fərqdən böyükdür, xüsusi halda ona bərabərdir (çıxılan sıfır olduqda); əlaqəni çalışmalar üzrə ümumiləşdirmək məqsədə uyğundur.

1. Şəkildə **a** və **b** parçaları cəminin 66 sm-ə bərabər olması verilmişdir (müəllim şəkli yazı taxtasına çəkir). **a** parçası 51 sm olarsa, **b** parçası neçə santimetr olar? Bəs **a** parçası 17 sm, 12 sm, 65 sm olarsa, onda **b** parçası neçə santimetr olar?
2. İki kitab şkafında 105 kitab var. Birinci şkafda 78 kitab olarsa, ikinci şkafda neçə kitab olar? Bəs birinci şkafda 50, 105, 88 kitab olarsa, onda ikinci şkafda neçə kitab olar?







İki toplananın cəminə və toplananlardan birinə görə ikinci toplananın necə tapılmasını müşahidə etdikdə, şagirdlər məsələnin həllində əyani olaraq cəm və toplananlardan biri verildikdə ikinci toplananın necə tapıldığını, öyrənirlər və fikrən məsələnin həlli öyrənilir. Fərqə və azalana görə çıxılanın toplanmasında yuxarıdakı qayda ilə fərqə və çıxılana görə azalanın tapılması öyrədilir.

Əgər əməllərin komponentləri ilə nəticələri arasındakı qarşılıqlı əlaqənin ümumiləşdirilməsi şagirdlər tərəfindən müvəffəqiyyətlə mənimsənilirsə, toplama və çıxmanın yoxlanılması onlar üçün çətinlik törətmir. Hər bir hesablamanın əsas hissəsi, onun yoxlanılmasıdır, bunu şagirdlər yadda saxlamalıdırlar. Hesablamanın düzgün olması yoxlama aparılmadan, qəbul edilə bilməz. Bunu alışdırmaq lazımdır, çünki yazılı hesablama dərsindən şagirdlərə bunu aşılamaq lazımdır. Tərbiyə üçün bunun əhəmiyyəti çox böyükdür, ola bilsin ki, şagird apardığı hesablamanı təkrarən yoxlasın. Çıxma əməli çıxma və ya toplama əməli ilə, toplama əməli toplama və ya çıxma əməli ilə yoxlanılır (Perelman, 2000:32).

Cəmin neçə vahid qədər artdığı toplananlardan birini olduğu kimi saxlasaq, o birini bir neçə vahid artırsaq necə dəyişər, mərhələdə şagirdlər miqdar dəyişməsini öyrənirlər.

**2. I və II pillə əməllər olan ifadə. Mötərizəsiz ədədi ifadələrdə əməllər sırasının öyrədilməsi**

İbtidai siniflərdə riyaziyyat təlimində əvvəlcə mötərizəsiz ədədi ifadələrdə əməllər sırasına aid qaydalar öyrədilir. Əvvəl ancaq toplama və çıxma əməlləri iştirak edən mötərizəsiz ədədi ifadələrin

qiymətlərinin hesablanmasına aid çalışmalar verilir. Məsələn, 60-26+10 ifadəsinin qiymətini hesablamaq üçün şagird aşağıdakı ardıcıllıqla iş görür:

1) 60-26=60-(20+6)=(60-26)-6=40-6=34; 2)34+10=44

Göründüyü kimi, verilən ifadənin qiymətini hesablamaq üçün şagird birinci addımda "ədəddən ədədiçıxma qaydasını" tətbiq etdi. Burada aşağıdakı kimi çalışmalar vermək olar:

1) 90-20-15 ədədi ifadəsinin qiymətini hesablayın. Şagird yazır:
90-20=70; 70-15=(70-10)-5=60-5=55
2) 42+18-19 ifadəsinin qiymətini hesablayın.

Həlli: 42+18=(40+10)+(2+8)=60; 60-19=(60-10)-9=50-9=41

Bu misalı belə də həll etmək olar: 60-19=(60-20)+1=40+1=41

Bu misalın həllində xarakterik cəhət ondan ibarətdir ki, biz mötərizəsiz ifadələrdə əməllər sırasını öyrənirik, ancaq hesablama suallarını tətbiq edərkən, mötərizələrdən istifadə etməli oluruq. Misalın həllində şagirdlər mötərizələrin rolunu müəyyən edirlər (Podlasy, 1989:56).

Üçüncü sinifdə vurma və bölmə əməlləri bütöv öyrənildiyindən, ikinci pillə əməllərinə aid ədədi ifadələrin qiymətlərinin hesablanmasına aid aşağıdakı kimi çalışmalar vermək olar:

1) 5·10:2 2) 60:10·3 3) 36:9·4

Müəllim qeyd edir ki, birincin misalda əvvəlcə 5·10 hasilini tapırıq (50), sonra alınana cavabı 2-yə bölürük (25). Deməli, ifadənin cavabı 25-dir.

Şagirdlər bu mərhələyə qədər ədədi ifadələrin qiymətlərini hesablamağı bacarırlar. Lakin həmin biliklər intuitiv səviyyədə idi. Burada isə xüsusi olaraq, qayda ifadə edilir və şagirdlər bu cür ifadələrin qiymətlərini hesablamağa ehtiyatla yanaşırlar (İbrahimov. F, 2006: 38):

1. Birinci pillə əməlləri (toplama və çıxma) olan mötərizəsiz ədədi ifadənin qiymətini hesablamaq üçün əməllər ardıcıl yerinə yetirilir.
2. Yalnız vurma və bölmə əməlləri olan mötərizəsiz ədədi ifadələrdə əməllər ardıcıl yerinə yetirmək lazımdır.

Bundan sonra hər iki pillə əməlləri iştirak edən mötərizəsiz ədədi ifadənin qiymətini hesablamağa aid çalışmalar verilir: "48-24:3+12 ifadəsinin qiymətini tapın". Mötərizəsiz ifadələrdə əvvəlcə vurma və bölməni, sonra isə toplama və çıxmanı yerinə yetirmək lazımdır. Ona görə də hesablama aşağıdakı ardıcıllıqla gedir:

1) 24:3=8 2)48-8=40, 40+12=52

**Mötərizəli ədədi ifadələrdə əməllər sırasının öyrədilməsi**

Uşaqlar ikinci sinifdən başlayaraq mötərizəli ifadələri oxumağı, yazmağı bacarırlar. Buna nail olmaq üçün müəllim a+b, a-b, a·b, a:b kimi ifadələrin müxtəlif şəkillərdə tələffüz qaydalarını şagirdlərə öyrətməlidir (Novruzova, 2017:257).

Bundan sonra mötərizəli ədədi ifadələrin qiymətlərini tapmağa aid çalışmalar verilir və müvafiq qayda çıxarılır. Əslində bu iş elə əvvəlki mərhələdəki işə gətirilir. Bir neçə misal nümunəsi göstərək:

1) 85-(46-14) ifadəsinin qiymətini tapın.

Həlli: 46-14=32; 85-32=53; 85-(46-14)=53 və ya 85-(46-14)=(85-46)+14=39+14=53

2) 60:(30-20) ifadəsinin qiymətini tapın. Həlli: 30-20=10; 60:10=6

**3. Bir dəyişənli tənliklər, bərabərsizliklər və onların xassələri**

Riyaziyyatda riyazi işarələrdən istifadə etməklə ifadələr tərtib edirlər. Bu yazılışlar riyazi ifadələr adlanır. Riyazi ifadələr yazılışda hesab əməllərindən istifadə etməklə yazıldıqda məchulun iştirakından asılı olaraq ədədi ifadə (məchul iştirak etmədikdə) və dəyişəni olan ifadə (məchul iştirak etdikdə) adlanır. Ədədlər, hesab əməlləri və mötərizələrdən ibarət mənası olan riyazi ifadəyə ədədi ifadə deyilir.

Ədədi ifadədə bir və ya bir neçə dəfə: toplama (+), çıxma (-), vurma (·), bölmə (:), mötərizə iştirak edə bilər. Məsələn, 1) (100-54):18 2) 12+4−3+3:1·8·6:12; 3) 3·4; 4) 15; 5) (5+4)·96-45 ədədi ifadələrdir. Qeyd edək ki, yalnız bir ədəddən ibarət olan 15 ədədidə ədədi ifadədir.

1)100-·9; 2) :32) 343:0 3)(·7; 4) :), 5)8: 98:(75-15·5) şəklində ifadələr ədədi ifadə deyil. Çünki bu ifadələrin yazılışında mənasız işarələrdən, mötərizələrdən və sıfra bölmədən istifadə olunub.

**Ədədi ifadənin qiyməti.** Ədədi ifadədə əməlləri yerinə yetirdikdən sonra müəyyən bir ədəd alırıq, həmin ədədə verilmiş ifadənin ədədin qiyməti adlanır. Məsələn, 1) (100-46):18=3; ədədi ifadəsinin qiyməti 3 ədədinə bərabərdir. Çox zaman ifadənin ədədi qiyməti əvəzinə, ifadənin qiyməti sözü işlədilir. Əgər iki ədədi ifadə bir-biri ilə bərabərdir işarəsi ilə bağlıdırsa, belə ədədi ifadələrə *bərabər ədədi ifadələr* deyilir. Məsələn, 2·4+7=7+8 ifadəsində bərabərlik 2·4+7=15 və 7+8=15 olduğuna görə ədədi ifadələrinə bərabərdir deyilir. 27:3+6 ədədi ifadəsi ilə 7·8-12 ədədi ifadələrinə baxsaq, 27:3+6=15 və 7·8-12=44 ədədi ifdələri müxtəlif qiymətlər alır, onlara bərabər olmayan ifadələr deyilir. Əgər iki ədədi ifadə bir-biri ilə böyükdür (kiçikdir) işarəsi ilə bağlıdırsa, belə ədədi ifadələrə *bərabərsizliklə bağlı ədədi ifadələr* deyilir. Məsələn, 15-(8+5)>3-2, 18<37 bərabərsizliklərdir. Ədədi ifadənin qiymətini hesablayarkən pilləli əməllərin yerinə yetirilməsinə çox ciddi fikir vərmək lazımdır. Riyaziyyatda hesab əməlləri aşağıdakı kimi pilləli əməllərə bölünmüşdür:

1. Birinci pilləli əməllər: toplama və çıxma;
2. İkinci pilləli əməllər: vurma və bölmə;
3. Üçüncü pilləli əməllər: qüvvətə yüksəltmə (kvadrata qaldırma, kuba yüksəltmə və s.).

Ədədi ifadənin qiymətini hesablayarkən pillə əməllərə uyğun olaraq aşağıdakı mərhələləri yerinə yetirmək lazımdır:

1. Əgər ədədi ifadədə mötərizə iştirak etmirsə, onda əvvəlcə ən yüksək tərtib pillə əməlləri yerinə yetirməkdən başlamaq lazımdır (üçüncü pilləli əməllər, ikinci pilləli əməllər, birinci pilləli əməllər).
2. Əgər ədədi ifadədə mötərizə iştirak edirsə, onda əvvəlcə mötərizələrin içərisi 1-ci qaydaya uyğun yerinə yetirilir, mötərizələr həll edildikdən sonra 1-ci qayda ilə hesablama yerinə yetirilir.
3. Əgər ədədi ifadədə mötərizələr bir-birinin daxilində olmaqla iştirak edirsə, onda əvvəlcə daxilində olan mötərizəni sonra ondan əvvəlki mötərizəni və s. olmaqla, hər dəfə 1-ci qaydaya uyğun hesablama yerinə yetirilir, mötərizələr həll edildikdən sonra hesablama1-ci qaydaya uyğun olaraq hesablama yerinə yetirilir.

**Dəyişəni olan ifadə.** Bir və ya bir neçə ədədlərin, dəyişənin hesab əməlləri və mötərizələr vasitəsi ilə birləşməsinə deyilir. Dəyişənin sayından asılı olaraq onlar bir dəyişənli ifadələr, iki dəyişənli ifadələr və s. adlanır. Məsələn 2x+5; 3·(x–4·y+11)+12·x–30 və s. Dəyişəni olan ifadəyə daxil olan dəyişəninverilmiş qiymətindən asılı olaraq qiymətləri hesablanır. Əgər x=10 olarsa, onda 2x+7=2·10 +7=27 olar.

Dəyişəni olan ifadəyə daxil olan dəyişənin əvəzinə konkrekt qiymət yazdıqda ədədi ifadə alırıq. Dəyişəni olan ifadə üzərində əməllərin aparılması, ədədi ifadə üzərində aparılan qayda ilə eynidir. Bəzən dəyişəni olan ifadələri müxtəlif əməllərin köməyi ilə: 1) ədədi mötərizə xaricinə çıxarmaqla, 2) mötərizəni açmaqla, 3) quruplaşdırmaqla, 4) oxşar hədləri islah etməklə və s. sadələşdirmək məqsədəuyğun olur (Məmmədova, 2015:217).

Misal 1. 3·(x–4·y+5)+12·y–3 ifadəsini sadələşdirin:
1. mötərizələri açaq: 3·(x–4·y+5)+12·y–3=3·x-12·y+15+12·y-3
2. oxşar hədləri islah edək: 3·x~~–12·y~~+15~~+12·y~~-3=3·x+12
3. 3 ədədini mötərizə xaricinə çıxaraq: 3·x+12=3(x+4).

Ümumiyyətlə, 2 növ ifadəyə rast gəlirik:
Dəyişəni olan ifadə, ədədi ifadə
20+a 6+8
c+7 15-(10+2)

Dəyişəni olan ifadəyə daxil olan dəyişənin əvəzinə konkrekt qiymət yazdıqda, ədədi ifadə alırıq. Belə qiymət mümkün qiymət adlanır. Bu cür qiymətlər çoxluğu mümkün *qiymətlər oblastı* və ya *dəyişənin təyin oblastı* adlanır. Lakin dəyişənin elə qiyməti də ola bilir ki, dəyişənin əvəzinə həmin qiyməti yazdıqda ifadənin mənası olmur. Belə qiymət *mümkün olmayan qiymət* adlanır. Bu cür qiymətlər çoxluğu mümkün olmayan qiymətlər oblastı adlanır. Dəyişənin təyin oblastının tapılmasına aid misallara baxaq:

1. x-55; x-istənilən qiyməti ala bilər;
2. 11:x x-sıfırdan fərqli istənilən qiyməti ala bilər ($x\neq0$);

3. (x+7):(x-8) x-səkkizdən fərqli istənilən qiymətiala bilər ($x\neq8$);
4. (a-b):a; b:(a-b) nisbətləri üçün a və b iki ($a\neq0$) və ($a\neq b$) variantlarındankı qiymətlərdən başqa istənilən qiyməti ala bilər.

Sıfra bölmə olmadığı üçün, məxrəcin sıfırdan fərqli olduğu araşdırılır. Məxrəcin sıfırdan fərqli olduğu qiymətlər çoxluğu təyin oblastı olur. Bəzən ədədi ifadə verildikdə, ona aid məsələlər qurulur. Eyni hərflə işarə edilmiş iki dəyişəni olan ifadə, mümkün qiymətlər oblastında məchul kəmiyyətin eyni qiymətlərində bərabər qiymətlər alarsa, onda həmin ifadələr eyniliklə bərabər ifadələr deyilir. Məsələn, bütün həqiqi ədədlər çoxluğunda: 1) a+b=b+a; 2) ab=ba; a(b+c)=ab+ac.

Verilmiş ifadəni mümkün qiymətlər oblastında qiymətləri dəyişmədən yeni ifadə ilə əvəz etməyə, dəyişəni olan ifadənin eynilik çevirməsi deyilir. Məsələn $3\cdot(a+5)=3\cdot a+15$; $(5+7\cdot4):11=(5+28):11=33:11=3$; 5+2 ədədi ifadəsi ilə, 5+a; $a\in\{0,1,3,2,15,10\}$ dəyişəni olan ifadənin bütün mənfi olmayan tam ədədlər çoxluğunda müqayisə edək

$5+2>5+0$
$5+2>5+1$
$5+2=5+2$
$5+2<5+3$
$5+2<5+10$
$5+2<5+15$

**4. Birdəyişənli tənliklər**

Bilirik ki, tənlik dəyişəni olan bərabərliyə deyilir. x,y,z,... ilə məchul kəmiyyətləri dəyişəni olan bərabərlikdə yəni, tənlikdə işarə edirlər. Tənliyin kökü dəyişənin o qiymətinə deyilir ki, doğru bərabərlik alınır. Tənlik "mübadilə" sözündən götürülüb, ərəb mənşəli sözdür. Kəmiyyətlər arasındakı məlum və məchul arasında əlaqəni riyazi şəkildə ifadə etməyə tənlik qurmaq adlanır. İki və ya bir neçə məchullu tənliyin birgə həllinin tapılması tənliklər sisteminin həllinin ümumi həllərinin tapılması deməkdir. İkidəyişənli tənliyin həlli onu doğru bərabərliyə çevirən dəyişənlərin qiymətlərin cütünə deyilir ki, sadəlik üçün iki dəyişənli hala baxacağıq (Həmidov, 2002:22).

Məlumdur ki, tənliyin sağ və sol tərəfi öz-özlüyündə dəyişəni olan ifadədir. Məsələ belə qoyulur: "Dəyişənin elə qiymətini tapın ki, sağ və sol tərəfə uyğun dəyişəni olan ifadələr bərabər qiymətlər" alsın. Bu halların hər birini araşdırmaq üçün müxtəlif yollar, metodlar yaradılır. Buna tənliyin həll olunma qaydası deyilir. Bu metodlar müxtəlif şəkillərdə şərh edilir. Sadə halda, daha doğrusu, bir dəyişənli cəbri ifadələrə uyğun tənliyə baxaq. Dəyişənin elə qiymətinə baxılır ki, sağ və sol tərəfə uyğun ifadələrin dəyişənlərə görə mənası olsun. Belə qiymət dəyişənin mümkün qiyməti adlanır. Bütün mümkün qiymətlər çoxluğuna tənliyin mümkün qiymətlər oblastı deyilir və M.Q.O kimi adlanır (Bondarenko, 1981:93).

Misal. x+2=7 tənliyində M.Q.O bütün həqiqi ədədlər çoxluğu, $x^{o}R=(-\infty,+\infty)$; $\frac{1}{x+5}=20$ tənliyində isə -5-dən fərqli bütün həqiqi ədədlər çoxluğu M.Q.O olur. Yəni, $x^{o}(-\infty,-5)U(-5,+\infty)$ olur. Qoyulmuş məsələnin həlli olan hər bir ədədə tənliyin kökü deyilir, başqa sözlə tənliyin kökü, dəyişənin elə qiymətinə deyilir ki, sağ və sol tərəf dəyişənin həmin qiymətində bərabər ədədi qiymətlər alır. Əgər dəyişənin hər hansı qiymətində sağ və sol tərəf bərabər ədədi qiymətlər almırsa, həmin qiymətə tənliyin kökü deyildir deyilir. Məsələn, x+2=7 tənliyində dəyişənin x=5 qiymətində 5+2=7 doğru bərabərliyi alınır. x=4 qiymətində $4+2\neq7$ doğru olmayan bərabərliyi alınmır, yəni x=4 tənliyin kökü deyildir. Tənliyin kökü bir deyil, bir neçə və ya sonsuz sayda ola bilər. $x^2=16$ tənliyinin x=4 və x=-4 kimi iki kökü vardır. x+7=7+x tənliyinin sonsuz sayda həlli vardır. M.Q.O.-dan olan istənilən ədəd tənliyin həlli olarsa, onda həmin tənliyə eynilik deyilir. Sonuncu tənlik eyniliyə misal ola bilər. $x^2+6=4$ tənliyinin həqiqi ədədlər çoxluğunda həlli yoxdur. Tənliyi həll etmək üçün a) onun həllinin varlığını araşdırırıq, varsa b) bütün köklərini tapırıq. Bu zaman hər iki halda tənlik həll edilmiş hesab edilir. İki eyni məchullu tənlikdən ikinci tənliyin hər bir kökü həm də birinci tənliyin kökü, birinci tənliyin hər bir kökü həmdə ikinci tənliyin kökü olarsa, belə tənliklər *eynigüclü tənliklər* adlanır. Məsələn, x+2=7 və x-1=4 tənlikləri eynigüclü tənliklərdir, çünki x=5 ədədi bu tənliklərin həllidir. Əgər iki tənliyin hər birinin kökü yoxdursa, həmin tənliklər də eynigüclü tənliklər qəbul

ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 1.790. 2022 / Cild: 16 Sayı: 11 / 130-137 ISSN:2663-4619
SCIENTIFIC WORK International scientific journal. Impact Factor: 1.790. 2022 / Volume: 16 Issue: 11 / 130-137 e-ISSN: 2708-986X

edilir. Tənlikləri həll etmək üçün onu eynigüclü tənliklərlə əvəz etmək lazımdır. Ekvivalent tənliklərin necə yarandığını qeyd edək:

1. Əgər tənlikdə hər iki tərəfi eyni bir sıfır olmayan ədədə vursaq və ya bölsək, verilən tənlikləekvivalent olan tənlik alınar.

2. Əksinə dəyişməklə tənliyin bir tərəfindən o biri tərəfinə ifadəni keçirsək, verilən tənliklə ekvivalent olan tənlik alınar. Məsələn, 3x+5=14 tənliyi ilə 6x+10=28 tənliyi ekvivalent tənliklərdir. 3x+5=14-x tənliyi ilə 6x+x=14-5 tənliyi ekvivalent tənliklərdir (Pichugin, 1989:158). **Xətti tənlik** elə tənliyə deyilir ki, tənliyin sol və sağ tərəfləri məchul kəmiyyətə nəzərən xətti funksiya olsun. Məsələn, verilmiş tənliklərinin hər biri 12x–21=31x–55; 14x=56 –17x; 38x –19 = 0 xətti tənlikdir. Aydındır ki, ax+b=cx+d xətti tənliyin ümumi şəklidir burada x məchul kəmiyyət a, b, c və d verilən ədədlərdir. Tənlikdə a ≠ c olarsa verilmiş tənlik birdərəcəli tənlik adlanır. Hər bir tənlik birdərəcəli tənlik deyi, məsələn 0·x =1 tənliyi xətti tənlikdir, lakin birdərəcəli tənlik deyil. Xətti tənliyin həlli ilə məşğul olaq. Bunun üçün b ədədini sol tərəfdən sağa tərəfə, cx hasilini tənliyinin sağ tərəfindən sol tərəfə keçirsək (a–c)x=d–b ekvivalent tənliyini alırıq. Beləliklə, verilmiş tənliklə ekvivalent olan mx=n şəklində olan tənlik alarıq, burada a-c=m, d-b=n işarə edilib.mx=n tənliyinin həllinə baxaq:

1. x= $\frac{n}{m}$ yeganə kökdür, əgər m≠ 0(a≠c) olarsa;

2. 0·x= n tənliyini alarıq, əgər m=0(a=c), n ≠ 0(d≠b) olarsa, x-in heç bir qiymətində bu bərabərlik ödənilmir. Yəni bu halda tənliyinin kökləri yoxdur.

3. 0·x=0 şəklində tənlik alarıq, əgər n=m=0(a=c,b=d), olarsa, x-in istənilən qiymətində bu bərabərlik ödənilir. Yəni bu halda tənliyin sonsuz sayda həlli vardır, istənilən həqiqi ədəd tənliyin köküdür (Vilenkin, 1998:98).

**Birdəyişənli bərabərsizliklər.** Məlumdur ki, bərabərsizliyin sağ və sol tərəfi öz-özlüyündə dəyişəni olan ifadədir. Məsələ belə qoyulur: "Dəyişənin elə qiymətini tapın ki, sağ və sol tərəfə uyğun dəyişəni olan ifadələr doğru bərabərsizliyə" çevrilsın. Bu halların hər birini araşdırmaq üçün müxtəlif yollar, metodlar araşdırılır. Bu bərabərsizliyin həll olunma qaydası adlanır. Bu metodlar müxtəlif şəkillərdə şərh edilir. Sadə halda, daha doğrusu, bir dəyişənli cəbri ifadələrə uyğun bərabərsizliyə baxaq. Dəyişənin elə qiymətinə baxılır ki, sağ və sol tərəfə uyğun ifadələrin dəyişənlərə görə mənası olsun. Belə qiymət dəyişənin mümkün qiyməti adlanır. Bütün mümkün qiymətlər çoxluğuna bərabərsizliyin *mümkün qiymətlər oblastı* deyilir və M.Q.O kimi işarə ol1unu r. Misal. x+2>7 bərabərsizliyində M.Q.O bütün həqiqi ədədlər çoxluğu, x°R=(-∞,+∞); $\frac{20}{x+5} \geq$ tənliyində isə -5-dən fərqli bütün həqiqi ədədlər çoxluğu, yəni, x°(-∞,-5)U(-5,+∞) M.Q.O olur. Qoyulmuş məsələnin həlli olan hər bir ədədə bərabərsizliyin həlli deyilir, başqa sözlə bərabərsizliyin həlli, dəyişənin elə qiymətinə deyilir ki, dəyişənin həmin qiymətində bərabərsizlik doğru bərabərsizliyə çevrilir. Əgər dəyişənin hər hansı qiymətində sağ və sol tərəf doğru bərabərsizliyə çevrilmirsə, həmin qiymət bərabərsizliyin həlli deyildir deyilir. Məsələn x+2>7 bərabərsizliyində dəyişənin x=6 qiymətində 6+2=8 doğru bərabərsizlik alınır. x=4 qiymətində 4+2>7 doğru olmayan bərabərsizliyi alınır, yəni x=4 bərabərsizliyin həlli deyildir. Bərabərsizliyin həlli, əsasən, sonsuz sayda (əsasən interval) olur və ya olmur. $x^2$>16 bərabərsizliyin x°(-∞,-4) və x°(4,+∞) kimi iki intervaldan ibarət həlli vardır. $x^2$+1>0 bərabərsizliyinin sonsuz sayda həlli vardır. M.Q.O.-dan olan istənilən ədəd bərabərsizliyin həlli olur. $x^2$+16≤0 bərabərsizliyinin həlli yoxdur. İki eyni məchullu bərabərsizlikdən ikinci bərabərsizliyin hər bir həlli, həm də birinci bərabərsizliyin həlli, birinci bərabərsizliyin hər bir həlli həm də ikinci bərabərsizliyin həlli olarsa, belə bərabərsizliklər *eynigüclü bərabərsizliklər* adlanır**.** Başqa sözlə, həllər çoxluğu eyni olan bərabərsizlklər eynigüclü bərabərsizliklər adlanır. Məsələn, x+2>7 və x-1>4 bərabərsizlikləri eynigüclü bərabərsizliklərdir, çünki x>5 şərtini ödəyən istənilən ədəd bu bərabərsizliyin həllidir, tənliklərdə olduğu kimi əgər iki bərabərsizliyin hər birinin kökü yoxdursa, həmin bərabərsizliklər də eynigüclü bərabərsizliklər qəbul edilir. Bərabərsizliyi həll etmək üçün onu eynigüclü bərabərsizliklə əvəz etmək lazımdır (Sadıxov, Kazımov, 1989:92).

ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 1.790. 2022 / Cild: 16 Sayı: 11 / 130-137 ISSN:2663-4619
SCIENTIFIC WORK International scientific journal. Impact Factor: 1.790. 2022 / Volume: 16 Issue: 11 / 130-137 e-ISSN: 2708-986X

Ekvivalent bərabərsizliklərin necə yarandığını qeyd edək:

1. Əgər bərabərsizlikdə hər iki tərəfi eyni bir sıfır olmayan müsbət ədədə vursaq və ya bölsək, verilən bərabərsizlik işarəsi dəyişməz, verilən bərabərsizliklə ekvivalent olan bərabərsizlik alınar.
2. Əgər bərabərsizlikdə hər iki tərəfi eyni bir sıfırdan fərqli mənfi ədədə vursaq və ya bölsək, bərabərsizlik işarəsi əksinə dəyişər, verilən bərabərsizliklə ekvivalent olan bərabərsizlik alınar.
3. Əksinə dəyişməklə bərabərsizliyin bir tərəfindən o biri tərəfinə ifadəni keçirsək verilən bərabərsizliklə ekvivalent olan bərabərsizlik alınar. Məsələn, $3x+5\leq 14$ bərabərsizliyi ilə $3x\leq 14-5$ bərabərsizliyi ekvivalent bərabərsizlikdir.

**Xətti bərabərsizlik** o bərabərsizliyə deyilir ki, bərabərsizliyin sol və sağ tərəfləri məchul kəmiyyətə nəzərən xətti funksiya olsun ($ax + b > cx + d$; $ax + b < cx + d$; $ax + b \geq cx + d$; $ax + b \leq cx + d$). Məsələn, verilmiş bərabərsizliyin hər biri $12x–21\leq 31x–55$; $14x>56 –17x$; $38x –19 \leq 0$ xətti bərabərsizliklərdir (Qaralov, 2004:58).

Bərabərsizlik olaraq $ax+b>cx+d$ ən sadə halda “>” işarəsi olan bərabərsizlikləri nəzərdən keçirəcəyik; $a \neq c$ olarsa, $ax+b>cx+d$ şəklində ilan bərabərsizliyə birdərəcəli bərabərsizlik deyilir. Qeyd edək ki, birdərəcəli bərabərsizlik xətti bərabərsizlikdir. Bu şərt zəruridir, kafi deyildir, yəni xətti bərabərsizlik birdərəcəli bərabərsizlik deyildir. Aydındır ki, $ax+b>cx+d$ xətti bərabərsizliyin ümumi şəklidir; burada x məchul kəmiyyət a, b, c və d verilən ədədlərdir. Bərabərsizlikdə $a \neq c$ olarsa, verilmiş bərabərsizlik birdərəcəli bərabərsizlik adlanır. Xətti bərabərsizliyin həlli ilə məşğul olaq. Bunun üçün b ədədini sol tərəfdən sağa tərəfə, cx hasilini bərabərsizliyin sağ tərəfindən sol tərəfə keçirsək, əvvəlki bərabərsizliklə ekvivalent olan $(a–c)x>d–b$ bərabərsizliyini alırıq. Beləliklə, verilmiş bərabərsizliklə ekvivalent olan $mx>n$ şəklində olan bərabərsizlik alarıq, burada $a-c=m$, $d-b=n$ işarə edilib.

$mx>n$ bərabərsizliyinin həllinə baxaq:

1. $x>\frac{n}{m}$ bərabərsizliyin həlli olur yəni $x^{o}(\frac{n}{m},+\infty)$olur, əgər $m>0(a\neq c)$ olarsa;
2. $x<\frac{n}{m}$ bərabərsizliyin həlli olur yəni $x^{o}(-\infty,\frac{n}{m})$ olur, əgər $m<0(a\neq c)$ olarsa;
3. $0\cdot x>n$ bərabərsizliyini alarıq, $m=0(a=c)$ olduqda, əgər $n\geq 0(d\neq b)$ olarsa, bərabərsizliyin həlli yoxdur, $n<0$ olarsa $x^{o}(-\infty,+\infty)$bərabərsizliyin həlli olur.

## Nəticə

İbtidai siniflərdə cəbr elementlərindən istifadə etmənin tətbiq edilməsi mövzusundan irəli gələn aşağıdakı nəticələri alırıq:

1. Şagirdlərdə riyazi təfəkkürün inkişaf etdirilməsində cəbr elementlərindən istifadə etmənin rolu danılmaz faktdır.
2. Cəbr elementlərindən istifadə etmənin tətbiq edilməsi onun qavranılması və həlli üçün əvəzsizdir.
3. Cəbr elementlərindən istifadə etmənin imkanlarıçox genişdir.
4. Mövzunun dərindən öyrənilməsi və tədqiqi müasir dövrdə məktəblərdə uşaqların təfəkkürünün, alqoritmik düşüncə tərzinin inkişafına kömək edir.
5. Nəhayət, dərsdə cəbr elementlərindən istifadə etməyi planlaşdıran müəllim bilməlidir ki, bu, dərsləri öyrənməni xeyli asanlaşır, tədrisin daha mükəmməl qavranılmasına kömək edir.

Belə nəticəyə gəlirik ki, ibtidai siniflərdə uşaqlara aşılanmalıdır ki, cəbr elementlərindən istifadə etmənin tətbiq edilməsi konkret məsələni həll etmək üçün alətdir. Həm də bütün dərsdə cəbr elementlərindən istifadə etmənin tətbiq edilməsi vasitəsilə aparılarsa, bu, uşaqların tədrisi daha dərindən mənimsəməyə səbəb olar.

## Ədəbiyyat

1. Perelman, Ya.İ. (1998). Canlı riyaziyyat. Bakı: Maarifçilik, 242 s.
2. Perelman, Ya.İ. (2000). Əyləncəli hesab. Bakı: Maarifçilik, 198 s.
3. Podlasy, I.P. (1989). Effektiv dərsi necə hazırlamaq olar. Kiyev, 245 s.
4. İbrahimov, F. (2006). İbtidai məktəbdə riyaziyyat tədrisinin bəzi məsələləri. Bakı, 214 s.
5. Novruzova, X.T. (2017). İbtidai siniflərdə şagirdlərin fəza təsəvvürlərinin inkişaf etdirilməsində modelləşdirmə. Konfrans materialları. Bakı: SDU, 240 s.
6. Məmmədova, T. (2015). İbtidai sinif riyaziyyat dərslərində modelləşdirmə metodunun tətbiqinin inkişafetdirici funksiyaları. Müəllim hazırlama siyasəti və problemləri. V Beynəlxalq Simpozium, Bakı, 250 s.
7. Həmidov, S. (2002). İbtidai siniflərdə riyaziyyatın tədrisi metodikası. Bakı: ADPU.
8. Bondarenko, S.M. ( 1981). Uşaqlara müqayisə etməyi öyrət. Bakı: Bilik, 96 s.
9. Pichugin, L.F. (1989). Vospitaniye shkolnikov pri obuchenii matematike: M., 175 s.
10. Vilenkin, N.YU. (1998). Matematika. Moskva, 384 s.
11. Sadıxov, N.A, Kazımov, H.C. (1989). Ədəd anlayışının genişləndirilməsi, kəmiyyətlər və onların ölçülməsi. Bakı, 92 s.
12. Qaralov, Z. (2004). Riyaziyyat I-IV. Bakı: Elm,185 s.

**Rəyçi: fiz.riy.ü.fəl.d. Ramazan Eyyubov**

Göndərildi: 09.08.2022 Qəbul edildi: 21.10.2022

# İÇİNDƏKİLƏR

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
### HUMANITIES AND SOCIAL SCIENCES


**Eldar Arif oğlu Cəfərov, İlahə Sadiq qızı İsmayılova**
Mədəniyyətlərarası münasibətlərdə din amili
(Vatikanın xarici siyasəti əsasında)........7
**Xədicə Ramiz qızı Yusifova**
XX və XXI əsrin qovşağında Rusiya və Azərbaycanda ədəbi prosesin
xarakterik xüsusiyyətləri........16
**Xatirə İsam qızı Hüseynova**
Media təhsili və informasiya savadlılığı media manipulyasiyaya qarşı........21
**Günay Şakir qızı Süleymanova**
İngilis dilli hərbi diskurs........27
**Diana Rafik Tairova**
Future studies of Iranian foreign policy and relations with neighbors
in the new global order........33
**Nigar Rəhman qızı Hüseynova**
Qida məhsullarına investisiyaların cəlb edilməsinin stimullaşdırılması........44
**Altay Babakərim oğlu Kərimli**
Sosial xidmət sahəsinin inkişaf tarixi........49
**Orxan Şəfa oğlu Şadmanlı**
İcarə əməliyyatlarının auditi və metodoloji əsasları........55
**Gülçin Arif qızı Hacıyeva, Aydın Habil oğlu Ağaverdiyev,**
**Maya Adil qızı Eyvazzadə, İlqar Elbrus oğlu Məmmədli**
Ümummilli lider Heydər Əliyevin banisiolduğu Azərbaycan
Respublikasının davamlı inkişaf strategiyası və bu sahədə uğurlu varislik........61
**Səlahət Akif qızı Ağazadə, Günay İlham qızı Həsənova**
Hibrid müharibə anlayışı və onun Ermənistanın xarici siyasətində rolu........67
**Ülkər Elçin qızı Fərzəliyeva**
Tələbələrin akademik motivasiyasına təsir edən amillər........73
**Mirvanə Salman qızı Mehbalıyeva**
Qarabağ iqtisadi rayonunda turizmin inkişafının mövcud vəziyyətinin təhlili........78
**Aydın Habil oğlu Ağaverdiyev, Elvira Vüqar qızı Süleymanova,**
**Etibar Könül oğlu Babayev, Nazpəri Çingiz qızı Əmənova**
Dövlətə keçən gizli "miras"........83
**Minayə Rəhman qızı Fərzəliyeva**
Şəhidlər bizim and yerimizdir........89


## TƏBİƏT ELMLƏRİ
### NATURAL SCIENCES


**Sevinc Nadir qızı Məmmədova, Şaiq Rəhim oğlu İbrahimov**
Kür çayı estuarisi balıqlarının protofaunasının
ekoloji təhlili........95
**Nazilə İsgəndər qızı Salmanova, Samirə Aydın qızı Qəribova,**
**Fidan Höccət qızı Abdullayeva, Teyfə Kamal qızı Şərifova**
Aqrar-sənaye tullantılarının emalının əhəmiyyətli nəticələrinin
torpaq münbitliyinə təsiri........102

**Əzizə Elxan qızı Hüseynova, Hüseyn Ceyhun oğlu Kazımzadə**
*Hypericum scabrum* L. (kələ-kötür dazı) bitkisində flavonoidlərin spektrofotometrik üsulla miqdarı təyini........................................................................110
**Mürsəl Müseyib oğlu Seyidov, Nəzrin Nemət qızı Cəfərova**
Naxçıvan Muxtar Respublikasında yayılmış Nepeta cataria L. bitkisinin flavonoidlərinin keyfiyyət və spektrofotometrik analizi..............................................117
**Leyla Üzeyir qızı Həsənova**
Müxtəlif illərə görə perspektivli genotiplərin keyfiyyət göstəricilərinin müqayisəli təhlili..............................................................................................123

## DƏQİQ ELMLƏR
**EXACT SCIENCES**

**Vüsalə Sabir qızı Sultanova**
İbtidai siniflərdə cəbri materialın öyrədilməsi...................................................................130

---

İmzalandı: 17.11.2022
Kağız formatı: 60x84, 1/8
H/n həcmi: 17.50 ç.v.
Sifariş: 578

"ZƏNGƏZURDA" çap evində çap olunub.
**Ünvan:** Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.,
"Azərbaycan" nəşriyyatı, 6-cı mərtəbə.
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru